

*Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2024**
**1 (85)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2024**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Hikmət Məmmədov, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Elvin Əzizbəyov, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2024, №1(85).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2024, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2024*

ISSN 2309-1347

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2024**
**1 (85)**

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2024

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*


**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Hikmat Mammadov, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Elvin Azizbayov, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***



*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2024, №1(85)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2024, 336p.*



*© Academy of Public Administration, 2024*

DOI: 10.30546/2309-1347.2024.1307

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Yanvar - fevral - mart 2024-cü il*

## *Yanvar*

**5 yanvar**

- Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik etmişdir.

**7 yanvar**

- Yaponiyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul etmişdir.
- Lüksemburq Böyük Hersoqluğunun Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul etmişdir.

**8 yanvar**

- Onun adından ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.

**9 yanvar**

- Rəsmi qarşılanma mərasimindən sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olmuşdur.

**10 yanvar**

- Yerli televiziya kanallarına müsahibə vermişdir.
- Əlamətdar tarix – Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Prezident Edqars Rinkeviçsi təbrik etmişdir.

**15 yanvar**

- Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak etmişdir.

**16 yanvar**

- Lənkəran rayonuna səfər etmişdir.
- Lənkəran regional "ASAN xidmət" mərkəzinin açılışını etmişdir.
- Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə tanış olmuşdur.
- Lənkəranda "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur.
- Lənkəran şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstəsi qoymuşdur.
- Neftçala rayonuna səfər etmişdir.
- Neftçala şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstəsi qoymuşdur.
- Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak etmişdir.

**18 yanvar**

- Syerra-Leone Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul etmişdir.
- Seneqal Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsini qəbul etmişdir.
- Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul etmişdir.

**19 yanvar**

- 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**20 yanvar**

- Ümumxalq Hüzn Günündə - Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şəhidlər Xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

**22 yanvar**

- Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşan Bakı Ağ Şəhər Ofis binasında yaradılan şərait ilə tanış olmuşdur.

**23 yanvar**

- Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul etmişdir.

- Ölkəsinin milli bayramı münasibətilə Avstraliya İttifaqının General-Qubernatoru Devid Con Hörlini təbrik etmişdir.

**29 yanvar**

- Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## *Fevral*

**1 fevral**

- 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında “Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər” sözlərinin yer aldığı paylaşımı etmişdir.
- Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul etmişdir.

**2 fevral**

- BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul etmişdir.

**5 fevral**

- Qarşıdan gələn Bahar bayramı münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

**7 fevral**

- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs vermişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ona zəng edərək, onu Prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik etmiş, ölkəmizin daha da inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində yeni uğurlar arzulamışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ona zəng edərək, onu prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar arzulamışdır.
- Macarıstanın Baş naziri Viktor Orban ona zəng edərək, prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırmış, ona Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, onu prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik etmiş, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzulamışdır. Eyni zamanda, onun rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğulamış, bu xüsusda Azərbaycanda prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırmışdır.
- İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ona zəng edərək, onu prezident seçkilərində qələbəsi münasibətilə təbrik etmiş, ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır.

**8 fevral**

- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ona zəng edərək, onu prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmiş, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulamışdır. Eyni zamanda, onun rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanmasının və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ona zəng edərək, prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırmış, onun rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd etmiş, ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və dövlətimizin beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğulamışdır.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ona zəng edərək, onu prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzulamışdır. Eyni zamanda, onun rəhbərliyi ilə ölkəmizin son illər bütün sahələrdə böyük nailiyyətlər qazanmasının və Azərbaycanın dünyada nüfuzunun daha da artmasının əhəmiyyətini vurğulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərək, prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırmış, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

- Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevi qəbul etmişdir.
- Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir.
- Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul etmişdir.
- Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul etmişdir.
- Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı ona zəng edərək, prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırmış, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır. Eyni zamanda, onun rəhbərliyi ilə Vətən müharibəsində qələbənin və suverenliyimizin tam bərpa olunmasının önəmini bir daha vurğulamışdır.
- Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ona zəng edərək, prezident seçkilərində inamlı qələbə münasibətilə onu təbrik etmiş, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ona zəng edərək, onu prezident seçkilərində qələbə münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ona zəng edərək, prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırmış, ona fəaliyyətində uğurlar arzulamışdır.
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ona zəng edərək, fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə onu təbrik etmiş və yeni mandatın icrasında ona uğurlar arzulamışdır.
- Ölkəsinin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisini təbrik etmişdir.

**9 fevral**

- Oğlu Heydər Əliyev ilə birlikdə Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olmuş və silahlanmaya yeni qəbul edilən “Akıncı” hücum PUA-larının uçuşunu izləmişdir.
- PUA Akademiyasında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra hərbi obyektdə müxtəlif tipli PUA üçün uçuşenmə zolağına gəlmişdir. “Akıncı” hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gəlmiş və burada PUA-nın idarəolunmasını praktiki həyata keçirmişdir.
- PUA-nın yerə enməsini izləmiş və uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkmişdir.
- Daha sonra anqar komplekslərinə baxış keçirmişdir.

“Akıncı” hücum PUA-sı və aviabombaları ilə də tanış olmuşdur.

- Gürcüstanın Baş naziri İrakli Kobaxidze ona zəng edərək, onu prezident seçkilərində qələbəsi münasibətilə təbrik etmiş, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar arzulamışdır.
- ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik ona zəng edərək, prezident seçkilərində qələbə qazanması ilə bağlı təbriklərini və xoş arzularını çatdırmış, ona Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yeni uğurlar arzulamışdır. Eyni zamanda, onun İslam həmrəyliyi işinə verdiyi töhfəni bir daha yüksək qiymətləndirmişdir.

**10 fevral**

- İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha ona zəng edərək, onu prezident seçkilərində qələbəsi münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır. Eyni zamanda, onun İslam həmrəyliyi işinə verdiyi töhfəni xüsusi vurğulamış, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda geniş abadlıq və quruculuq işlərinin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırmışdır.
- Gürcüstanın Baş naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Baş naziri İrakli Kobaxidzeni təbrik etmişdir.

**12 fevral**

- Ölkəsinin milli bayramı münasibətilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçi təbrik etmişdir.

**13 fevral**

- Moldova Respublikasının Prezidenti Maya Sandu ona zəng edərək, onu prezident seçkilərində qələbə münasibətilə təbrik etmiş, ölkənin inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır.
- Ölkəsinin milli bayramı münasibətilə Litva Respublikasının Prezidenti Gitanas Nausedanı təbrik etmişdir.

**14 fevral**

- Milli Məclisdə keçirilən andiçmə mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- Andiçmə mərasimindən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gəlmiş, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad etmiş, Ulu Öndərin məzarı önünə gül dəstələri qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etmiş və üzərinə gül dəstələri qoymuşdur.
- Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzülmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət etmiş, Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə paytaxt Bakının mənzərəsini seyr etmişdir.

**15 fevral**

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ona zəng edərək, onu prezident seçkilərində qələbə münasibətilə təbrik etmiş, Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulamışdır.
- 90 illik yubileyi münasibətilə Akademik Arif Paşayevi təbrik etmişdir.
- XXVII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarını təbrik etmişdir.

**16 fevral**

- 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərinə səfərə gəlmişdir.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Mariani ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basso ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadeful ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan ilə görüşü olmuşdur.

**17 fevral**

- Münxendə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzani ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən "Indra" şirkətinin prezidenti, idarə heyətinin sədri Mark Tomas Murtra ilə görüşü olmuşdur.
- Münxendə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Kansler Olaf Şolts ilə görüşü olmuşdur.
- Münxendə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinken ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə İcraçı vitse-prezidenti Maroş Şevçoviç ilə görüşü olmuşdur.
- Münxendə qarşı tərəfin müraciətinə əsasən Banqladeş Xalq Respublikasının Baş naziri xanım Şeyx Hasina ilə görüşü olmuşdur.

• Münxendə qarşı tərəfin müraciətinə əsasən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü olmuşdur.
• Münxendə qarşı tərəfin müraciətinə əsasən "The Rockefeller Foundation"ın strateji kommunikasiyalar, siyasət və təbliğat üzrə baş vitse-prezidenti xanım Eylin Okonnor ilə görüşü olmuşdur.

**18 fevral**
• Münxendə qarşı tərəfin müraciətinə əsasən Bundestaqın Xristian-Demokrat / Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının üzvü Armin Laşet ilə görüşü olmuşdur.
• Münxendə qarşı tərəfin müraciətinə əsasən Münxen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqe ilə görüşü olmuşdur.
• Münxendə qarşı tərəfin müraciətinə əsasən Dünya Bankının baş idarəedici direktoru Aksel Trotsenburq ilə görüşü olmuşdur.
• Münxendə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid ilə görüşü olmuşdur.
• Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə rəsmi səfərə gəlmişdir.

**19 fevral**
• Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edərək Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoymuş, Türk dünyasının böyük oğlunun əziz xatirəsini yad etmişdir.
• Sonra burada Xatirə kitabına ürək sözlərini yazmışdır.
• Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət etmiş, Ümummilli Lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad etmişdir.
• Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyedə rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
• Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü olmuşdur.
• Ankarada Prezident Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
• Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
• Türkiyə Respublikasına rəsmi səfəri başa çatmışdır.

**21 fevral**
• 22 fevral – Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.
• Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Yaponiyanın İmperatoru Naruhitonu təbrik etmişdir.

**22 fevral**
• Ölkəsinin milli bayramı münasibətilə Küveyt Dövlətinin Əmiri Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabahı təbrik etmişdir.

**23 fevral**
• Əlamətdar yubileyi – anadan olmasının 70 illiyi münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**24 fevral**
• XII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarını təbrik etmişdir.

**25 fevral**
• Özünün sosial şəbəkə hesablarında Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı "26 fevral 1992. Xocalı soyqırımı" sözlərinin yer aldığı paylaşımı etmişdir.

**26 fevral**
• Saat 17.00-da Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.
• Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuş, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.
• Əvvəlcə mərasim iştirakçıları ilə görüşmüş, görüşdə çıxış etmişdir.
• Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdur.
• Təməlqoymadan sonra memorial kompleksin maketinə baxmışdır.
• Daha sonra Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə Xankəndi şəhərində olmuşdur.
• Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək. onu yubileyi münasibətilə təbrik etmiş, Türkiyənin rifahı naminə fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**27 fevral**
• Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiəni qəbul etmişdir.

**28 fevral**
• Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## *Mart*

**1 mart**

- Bakıda, "Gülüstan" sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak və çıxış etmişdir.
- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə vermişdir.
- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonu qəbul etmişdir.
- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini qəbul etmişdir.
- Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.
- Albaniya Respublikasının Baş naziri Edi Rama ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.

**4 mart**

- Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə yenidən seçilməsi münasibətilə Baş nazir Məhəmməd Şahbaz Şərifi təbrik etmişdir.

**6 mart**

- 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik etmişdir.
- Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olmuşdur.

**7 mart**

- 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı sosial şəbəkə hesablarında "8 Mart - Beynəlxalq Qadınlar Günü" sözlərinin yer aldığı paylaşımı etmişdir.
- "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**11 mart**

- Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak və çıxış etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzalamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Bakıda, "Gülüstan" sarayında onun adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə verilmiş dövlət ziyafətində iştirak etmişdir.
- Tacqoyma Günü münasibətilə Roma Papası Fransisk Həzrətlərini təbrik etmişdir.

**12 mart**

- Füzuli Beynəlxalq Hava Limanında Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi qarşılamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Füzuli şəhərinin Baş planı ilə tanış olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak etmişdir.
- Sonra Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə birlikdə Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüşmüşdür.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Uşaq Yaradıcılıq Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Şuşa şəhərinə səfər etmişdir.

- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxmışdır.
- Daha sonra Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxmışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Saatlı məscidində olmuşdur.
- Daha sonra Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Bülbülün ev-muzeyində olmuşdur.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Cıdır düzündə də olmuşdur.
- Sonra Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş üç yaşayış binasından ibarət "Yasəmən" otelində olmuşdur.

**13 mart**

- BP şirkətinin yeni baş icraçı direktoru Mürrey Aukinklosu qəbul etmişdir.
- Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.
- Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir.
- Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul etmişdir.
- BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul etmişdir.
- Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezidenti Asif Əli Zərdarini təbrik etmişdir.

**14 mart**

- Bakıda, "Gülüstan" sarayında onun himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun açılış mərasimində iştirak və çıxış etmişdir.
- Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım ona xatirə hədiyyəsi təqdim etmişdir.
- BMT Baş katibinin siyasət üzrə müavini Qay Ryderi qəbul etmişdir.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşmüşdür.
- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviçi qəbul etmişdir.

**15 mart**

- İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul etmişdir.
- Münxen Təhlükəsizlik Konfransı Fondunun prezidenti Volfqanq İşingeri qəbul etmişdir.
- Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 78-ci sessiyasının prezidenti Dennis Fransisi qəbul etmişdir.
- BMT-nin İnkişaf Proqramının (UNDP) administratoru Axim Ştayneri qəbul etmişdir.

**16 mart**

- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olmuşdur.
- Onun dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək görüşü olmuşdur.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə nahar əsnasında geniş tərkibdə görüşü keçirilmişdir.

**17 mart**

- NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olmuşdur.
- NATO-nun Baş katibi Yens Stoltenberq ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- NATO-nun Baş katibi Yens Stoltenberq ilə şam yeməyi əsnasında geniş tərkibdə görüşü olmuşdur.

**18 mart**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək, onu prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etmiş, ona ölkənin inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.
- Xankəndi şəhərində Novruz tonqalını alovlandırmış, Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etmişdir.
- Rusiya Federasiyasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Vladimir Putini təbrik etmişdir.
- Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**19 mart**

- Ölkəsinin milli bayramı – Pakistan Günü münasibətilə Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarini təbrik etmişdir.
- 23 mart – Pakistan Günü münasibətilə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddini təbrik etmişdir.

**29 mart**

- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ona zəng edərək, Bakıya nəzərdə tutulan səfərinin ölkəsindəki daxili siyasi öhdəliklər səbəbindən gözlənilmədən təxirə salınmasından təəssüfləndiyini bildirmişdir.

**31 mart**

- Sosial şəbəkə hesablarında 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım etmişdir.

DOI: 10.30546/2309-1347.2024.1315

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Yaponiyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Katsuya Vatanabe Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitonun Yaponiya-Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı arzusunu dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev minnətdarlığını bildirərək, onun da xoş arzularını Yaponiyanın İmperatoruna çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin 30 ildən artıqdır ki, müxtəlif sahələri əhatə etdiyini vurğulayaraq bütün istiqamətlərdə yaxşı nəticələrin əldə olunduğunu bildirdi, qarşıdan gələn illərdə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ənənəvi sahələrdən başqa əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycan Prezidenti ilə görüşdən böyük şərəf hissi duyduğunu deyən Katsuya Vatanabe xoş sözlərə görə minnətdarlığını bildirdi. O, ölkələrimiz arasında dostluq və xoş münasibətlərin mövcud olmasında dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi.

Səfir COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, yaşıl iqtisadiyyata keçid, yüksək texnologiyaların inkişaf etdirilməsi Azərbaycanın prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan COP29 çərçivəsində Yaponiya ilə birgə iş birliyinə hazırdır.

Katsuya Vatanabe öz növbəsində qeyd etdi ki, ölkəsi yaşıl cəmiyyətin qurulması, yüksək texnologiyalar əsasında inkişafa mühüm əhəmiyyət verir və bu sahədə də ölkələrimiz arasında əməkdaşlıq üçün böyük imkanlar var. Səfir Azərbaycan-Yaponiya əlaqələrinin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

### *Lüksemburq Böyük Hersoqluğunun Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Lüksemburq Böyük Hersoqluğunun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Alain de Muyser Lüksemburqun Azərbaycanda akkreditə edilən ilk səfiri olmasından məmnunluğunu bildirərək, bu təyinatın və səfir kimi fəaliyyətinin ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına, eyni zamanda, insanlar arasında təmasların artmasına xidmət göstərəcəyini qeyd etdi.

Prezident İlham Əliyev Lüksemburq Böyük Hersoqluğunun səfirinin Azərbaycanda akkreditə olunmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Lüksemburq arasında əlaqələrin həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev əməkdaşlığın inkişafı üçün səylərin fəallaşdırılmasının zəruriliyini bildirdi. Alain de Muyserin səfir kimi əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti ona fəaliyyətində uğurlar arzuladı.

Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı surətdə məlumatlandırmanın və iqtisadi təmasların artırılmasının vacibliyi qeyd olundu.

Səfir COP29-un Azərbaycanda keçirilməsi barədə qəbul edilmiş qərarla bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Yaşıl enerjiyə keçid, yüksək və kosmik texnologiyalar sahələrində Lüksemburqun zəngin təcrübəyə malik olduğunu deyən səfir bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd etdi. O, Lüksemburqun əsas daşıma şirkəti olan “Cargolux” ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında bank, maliyyə, nəqliyyat və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

## *Peru Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sezar Auqusto de las Kasas Diasın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sezar Auqusto de las Kasas Diasın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Sezar Auqusto de las Kasas Dias Peru Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Səfir ölkəsinin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim sadiq olduğunu və buna xüsusi əhəmiyyət verdiyini qeyd etdi, bu xüsusda Perunun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanın da dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim böyük əhəmiyyət verdiyini, ölkələrimizin Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlıq etdiyini məmnunluqla vurğuladı.

Beynəlxalq hüququn prinsiplərinin eyni zamanda Qoşulmama Hərəkatının əsas prinsipləri olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin 4 ildir bu hərəkata fəal şəkildə sədrlik etdiyini dedi, ölkələrimizin bundan sonrakı illərdə də bu mühüm beynəlxalq institutun önəminin daha da artırılması istiqamətində birgə səylər göstərəcəyinə ümidvarlığını bildirdi. Azərbaycan Prezidenti, həmçinin digər beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də beynəlxalq hüququn fundamental prinsiplərinin hökm sürməsi istiqamətində birgə fəaliyyətlərinin davam etdirilməsinin də zəruriliyini qeyd etdi.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə baxmayaraq, ölkəmizin 30 ildən çox idi Ermənistan tərəfindən sərhədlərinin pozulduğunu və torpaqlarının işğal olunduğunu deyən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa uyğun olaraq gücdən istifadə edərək ədaləti özünün bərpa etdiyini vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir xüsusilə Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurlar nəzərə alınaraq bu sahədə əlaqələrimizin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı.

Səfir ölkəsinin arxeologiya və mədəniyyət abidələrinin qorunması sahəsində təcrübəyə malik olduğunu deyərək, bu istiqamətdə də əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Peru arasında ticarət dövriyyəsinin artırılmasının, iqtisadi münasibətlərin fəallaşdırılmasının vacibliyi qeyd edildi, bu xüsusda iki ölkənin biznes dairələri arasında əlaqələrin yaradılmasının zəruriliyi bildirildi.

Görüşdə sərmayə qoyuluşu və qarşılıqlı maraq doğuran investisiya layihələrinin müəyyən edilməsinə, bu xüsusda ölkələrimizin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinə dair fikir mübadiləsi aparıldı.

## *Syerra-Leone Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Syerra-Leone Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir ilk növbədə Syerra-Leone Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Syerra-Leonenin dövlət başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycanın yaxın günlərdə Qoşulmama Hərəkatına sədrliyinin başa çatacağını deyən dövlətimizin başçısı Hərəkat çərçivəsində Syerra-Leoneyə üzv ölkə olaraq göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ölkəmizin Hərəkata sədrliyinin başa çatmasından sonrakı dövrdə də bu təşkilat çərçivəsində Azərbaycan ilə Syerra-Leonenin əməkdaşlıq edəcəyinə ümidvar olduğunu dedi.

Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında çox maraqlı olduğunu deyən səfir Syerra-Leonenin eboladan əziyyət çəkən zaman Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. Səfir Azərbaycan və Syerra-Leonenin beynəlxalq təşkilatlarda bir-birinə verdiyi dəstəyi yüksək dəyərləndirdi.

Alie Badara Kamara Azərbaycan rəsmiləri ilə görüşlər keçirməyi planlaşdırdığını bildirdi, əlaqələrin genişləndirilməsi məqsədilə yeni istiqamətlərin və yolların müəyyənləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

Azərbaycan Prezidenti ölkələrimiz və xalqlarımız arasında təmasların artırılmasının vacibliyinə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq təsisat çərçivəsində parlament, gənclər və qadınlar platformalarının yaradılması təşəbbüsləri ilə çıxış edib.

Prezident İlham Əliyev bildirdi ki, Qoşulmama Hərəkatının yaradılmasının müstəmləkəçiliyə qarşı mübarizənin təməl prinsiplərindən və fəaliyyət istiqamətlərindən biri olduğunu nəzərə alaraq Azərbaycan neokolonializmə qarşı mübarizəni də prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib və bu prosesə öz dəstəyini verib. Bakı Təşəbbüs Qrupunun 2023-cü ildə həm Bakıda, həm də BMT-nin Cenevrə ofisində neokolonializm mövzusunda vacib tədbirlər keçirdiyini qeyd edən Azərbaycan Prezidenti vurğuladı ki, müstəmləkəçi ölkələr Afrikada, Asiyada, Latın Amerikasında müstəmləkə altında saxladığı xalqlardan və dövlətlərdən ən azı üzr istəməlidirlər. Dövlətimizin başçısı onu da əlavə etdi ki, müstəmləkəçiliyin forması dəyişsə də, mahiyyəti dəyişməyib və onu müxtəlif formalarda saxlayıb.

Beynəlxalq institutlara üzv olduqlarından sui-istifadə edərək müstəmləkəçi imperiyaların müstəmləkə altına saldıqları ölkələrdə törətdikləri cinayətləri ört-basdır etməyə çalışdıqlarını deyən dövlətimizin başçısı bu cinayətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılmasının zəruriliyini vurğuladı.

Prezident İlham Əliyev Syerra-Leone Prezidentini bu il Bakıda keçiriləcək COP29 tədbirinə dəvət etdi.

Görüşdə iqtisadiyyat, kənd təsərrüfatı, investisiya, insan kapitalının inkişafı, mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı, yaxşı idarəçilik sahəsində təcrübə mübadiləsi, bu xüsusda “ASAN xidmət” təcrübəsi qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməyə hazır olduğu bildirildi.

### *Seneqal Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Seneqal Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Seneqal Prezidentinin qardaş salamlarını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Seneqal Prezidenti ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi əzmindədir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Seneqal dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi bildirildi. İndiyədək Azərbaycanla Seneqalın BMT və Qoşulmama Hərəkatı çərçivəsində bir-birinə göstərdiyi daimi dəstək müsbət amil kimi qeyd edildi.

Prezident İlham Əliyev BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ali səviyyədə aparılan diplomatik yazışmalar və beynəlxalq, milli günlərdə qarşılıqlı təbriklər yüksək qiymətləndirildi.

Dörd il ərzində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşkilata sədrliyinin daha bir il uzadılmasına Seneqalın da dəstək verdiyini qeyd edərək buna görə bir daha minnətdarlığını ifadə etdi.

Seneqalın səfiri ölkəmizin bu Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

İkitərəfli əməkdaşlığa toxunan Prezident İlham Əliyev siyasi əlaqələrin daha da inkişaf etdirilməsi və iqtisadi-ticari sahədə imkanların araşdırılmasının zəruriliyini vurğuladı.

Dövlətimizin başçısı səfirin Azərbaycanda keçirəcəyi rəsmi görüşlərin və onun fəaliyyətinin əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğu qeyd edildi, siyasi, iqtisadi, ticari, mədəni, humanitar və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Səfir Seneqalda da neft aşkarlandığını bildirərək ölkəsinin neft hasil edən dövlətlər sırasına qoşulduğunu və bu xüsusda Azərbaycanın təcrübəsinin Seneqal üçün çox maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın neft və enerji sahəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində Seneqaldan olan tələbələrin təhsil almaları imkanlarını da qeyd etdi.

Ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini deyən Azərbaycan Prezidenti Seneqalın dövlət başçısını bu tədbirə dəvət etdi.

### *Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycan Prezidenti səfiri yeni təyinatı münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Səfir ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin perspektivlərinə, həmçinin beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi, enerji sahələrində və iki ölkənin biznes dairələri arasında əməkdaşlıq məsələlərinə toxunuldu.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə fikir mübadiləsi aparıldı.

ABŞ səfiri COP29-un bu il Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə COP29 çərçivəsində Azərbaycanla ABŞ arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq imkanlarına da toxunuldu.

### *Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçukun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.

Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı nəticələr baxımından 2023-cü ilin uğurlu olduğu bildirildi. Ötən ilin dekabrında Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin təmasları məmnunluqla xatırlandı.

Söhbət zamanı iqtisadi əməkdaşlığın geniş gündəliyə malik olduğu vurğulanaraq, qarşıda bu sahədə yeni istiqamətlər üzrə planların nəzərdə tutulduğu bildirildi. Ticarət dövriyyəsinin 17,5 faiz, həmçinin yük və tranzit daşımalarının davamlı artımı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsinin imzalanmasının əhəmiyyəti vurğulandı. Aleksey Overçukun səfərinin əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.

Görüşdə nəqliyyat-logistika, Şimal-Cənub Nəqliyyat Dəhlizinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### *Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Hulusi Akar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyini və bunun bir örnək olduğunu vurğuladı. Qonaq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rol oynadığını dedi.

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğuladı.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirdi.

Söhbət zamanı ötən il sentyabrın 19-20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulandı.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni

islahatların aparıldığını dedi, Ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd etdi və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirdi.

qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir.

Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. Otuz iki il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür, - təbii ki, onların da taleyi bəllidir, - 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, yaşlı 70 insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır.

Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində özünü göstərmişdir, bir çox tədbirlər, təqdimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni, biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın.

Biz onilliklər ərzində çalışırdıq, xüsusilə son illər ərzində çalışırdıq ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq görürdük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik və bunu etdik. İkinci Qarabağ müharibəsi ədalətin təntənəsi idi. İkinci Qarabağ müharibəsi nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsi azad edilmişdir, işğal altında qalan ərazilər beş ay bundan əvvəl azad edilmişdir.

Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik.

"Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.

O vaxt - işğal dövründə mənim köçkünlərlə, - bu gün keçmiş köçkünlər adlandırılır, köçkün anlayışı artıq tamamilə silinib bütün bizim vətəndaşlarımızdan, - çoxsaylı görüşlər əsnasında hər dəfə onlara deyirdim ki, gün gələcək və biz bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Yüzdən çox köçkün qəsəbəsi salınmışdır və köçkün qəsəbələrinin hamısının açılışlarında mən iştirak etmişəm. Birinci köçkün qəsəbəsi o vaxt Ulu Öndər Heydər Əliyevin iştirakı ilə məhz xocalılılar üçün Ağcakənd qəsəbəsində salınmışdır və o vaxt bizim o qədər də böyük maliyyə imkanlarımız yox idi. Ancaq olan-qalan vəsait də bax o məqsədlər üçün istifadə olundu və bu, bir yol göstəricisi idi. Yəni, Ulu Öndər hamımıza göstərmişdi ki, biz ağır vəziyyətdə yaşayanlar üçün gərək şərait yaradaq. Eyni zamanda, bizim əsas məqsədimiz torpaqların azad edilməsi idi və o vaxt köçkünlərlə çoxsaylı görüşlər əsnasında deyirdim ki, bu şərait yaradılır, bu şərait yaxşıdır, - çadır şəhərcikləri, bilirsiniz ki, sonuncusu 2007-ci ildə ləğv edildi, - ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra ondan daha yaxşı şərait yaradılacaq sizin doğma torpaqlarınızda və bu gün biz bunu görürük. Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni quruculuq işləri geniş vüsət alıb.

Xocalıya gəldikdə isə biz sentyabrın 20-də öz suverenliyimizi tam bərpa edəndən sonra dərhal göstəriş verdim ki, ilk növbədə, Xocalıda xocalılıların evləri

bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalılıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Yenə də deyirəm, biz həm İkinci Qarabağ müharibəsi zamanı, həm antiterror əməliyyatı zamanı qisasımızı cinayətkarlardan aldıq, onları məhv etdik, Ermənistan ordusunu məhv etdik və iki dəfə kapitulyasiyaya imza atmağa məcbur etdik. Biz onlardan fərqli olaraq dinc əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu hər kəs görür və bilir. Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında böyük qüvvələr dayanmışdır. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?

Yenə də deyirəm, bütün bunlar təbii bizim fikirlərimizdir, duyğularımızdır. Yenə də deyirəm, biz qisasımızı aldıq, biz həm 44 günlük İkinci Qarabağ müharibəsi ərzində, həm birgünlük antiterror əməliyyatı zamanı böyük peşəkarlıq, qəhrəmanlıq, fədakarlıq göstərmişik. Bizim övladlarımız ölümə gedirdilər ki, bu torpaqları işğalçılardan azad etsinlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Sakinlər: Allah rəhmət eləsin, amin.

Prezident İlham Əliyev: Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, cəsarət göstərmişdir. Bütün dünya bunu görür və xüsusilə bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr, müharibələr, qanlı toqquşmalar bir daha onu göstərir ki, Azərbaycan Ordusu həm peşəkardır, həm vətənpərvərdir, həm bacarıqlıdır, həm də eyni zamanda, əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır.

Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur, indi gedib quruculuq işləri ilə tanış olarıq. Bütün digər ərazilərdə quruculuq işləri aparılır və bu gün burada Xocalı Soyqırımı Memorialının təməli qoyulacaqdır. Xocalı qurbanlarının bu gün ruhu şaddır, Allah onlara rəhmət eləsin.

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Onların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Sağ olun.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verdi.

Bildirildi ki, Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

Memorial müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq. Memorialda Xocalının coğrafi mövqeyini təsvir etmək məqsədilə rayonun maketi də yer alacaq.

Ziyarətçilər memorialda soyqırımı qurbanlarının və şahidlərinin hekayələri, xocalılıların düşmənə qarşı mərdliyi ilə tanış ola biləcəklər. Bu hekayələr Xocalı soyqırımının miqyasını, faciə qurbanlarının iztirablarını hər bir kəsə ötürərək, Azərbaycan tarixinin ən dəhşətli səhifəsi barədə məlumatları çatdıracaq.

Memorialda, həmçinin faciə ilə bağlı sənədli filmlər, Xocalı həqiqətləri barədə videomateriallar nümayiş olunacaq. Eyni zamanda, Xocalının işğaldan azad olunması və cinayətkarların cəzalandırılması istiqamətində görülən tədbirlər barədə məlumatlar yer alacaq. Maarifləndirici materiallar, rəqəmsal məzmun vasitəsilə soyqırımı kimi faciələrin səbəbləri, nəticələri, qarşısının alınmasının zərurəti, cəmiyyətin insan haqlarına hörmət etməsinin vacibliyi diqqətə çatdırılacaq.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilən Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 Xocalı

sakini qətlə yetirilib. Bu faciə ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində həmişə bir vəhşilik aktı kimi yadda qalacaq.

Heydər Əliyev Fondu yarandığı 2004-cü ildən etibarən Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində dövlət tərəfindən görülmüş tədbirlərə dəstək olaraq bir sıra layihələr həyata keçirib. 2008-ci ildən isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. "Xocalıya ədalət!" kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın bir sıra ölkələri Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul edib.

Tarixi Zəfərimizdən sonra Azərbaycan xalqı bu dəhşətli soyqırımının ildönümünü artıq fərqli şəkildə anır. Ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən azad edilməsi nəticəsində Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı. Qanlı faciənin törədildiyi Xocalıda yaradılacaq Soyqırımı Memorialı isə faciə qurbanlarının, Vətənin müdafiəsi uğrunda həlak olan qəhrəmanlarımızın xatirəsinə ehtiram olmaqla yanaşı, bu qətliam barədə həqiqətlərin dünyaya çatdırılmasına və tariximizin yaşadılmasına xidmət edəcək.

Dövlətimizin başçısı Xocalı Soyqırımı Memorialının təməlini qoydu.

Təməlqoymadan sonra memorial kompleksin maketinə baxan Prezident İlham Əliyev dedi: Ortadakı bağ, yəni, həyat deməkdir.

Anar Ələkbərov: Elədir ki var, cənab Prezident. Həmin kapsul kompleksin içində olacaq.

Sakinlər: Çox sağ olun, cənab Prezident. Sizə uğurlar.

Kişi sakin: Sizə təşəkkür edirik, cənab Prezidentimiz. Otuz iki il öncə biz Xocalıdan məğlub çıxmışdıq, soyqırımına məruz qalmışdıq. Otuz iki ildən sonra biz Xocalıya qalib olaraq gəlmişik və bu qalibiyyəti bizə qazandıran Siz olmusunuz. Sizin rəhbərliyiniz, Sizin sərkərdəliyiniz, Sizin müdrik siyasətiniz biz xocalılılara, bütün Azərbaycan xalqına, bütün Türk dünyasına bu Qələbəni qazandırıb. Var olasınız, bütün xocalılılar adından Sizi öpürük, bağrımıza basırıq. Təşəkkür edirik, cənab Prezident, var olasınız.

Prezident İlham Əliyev: Sağ olun.

Qadın sakin: Cənab Prezident, bir şəhid övladı kimi, biz də Sizə minnətdarıq bütün şəhid övladları adından. Mənim atam Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülüb, özünümüdafiə batalyonunun döyüşçüsü olub. Onun sonrakı taleyi haqqında bu gün də bizim heç bir məlumatımız yoxdur. Məhz Sizin kimi bir sərkərdə ilə bu gün biz Xocalı soyqırımının 32-ci ildönümündə bu torpaqları ziyarət etmək, o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. Xüsusilə Sizin ötən il oktyabrın 15-də, yəni Prezidentliyinizin 20-ci ilinin tamamında məhz Xocalıda Bayraq ucaltmağınız onu bir daha sübut etdi ki, bu neçə ildə ürəyiniz məhz Xocalıdan olan şəhid ailələri ilə birgə döyünür. Biz Sizə hər zaman minnətdarıq, Allah Sizi qorusun, Ordumuzu qorusun. Bütün şəhid övladları adından Sizə minnətdarıq.

Prezident İlham Əliyev: Çox sağ olun.

Kişi sakin: Cənab Prezident, bizim ailəmiz 1996-cı il fevralın 24-nə qədər tamamilə ümidini itirmişdi ki, bir daha nə Xocalını, nə də Qarabağı görməyəcəyik. 1996-cı il fevralın 24-də Ümummilli Liderimiz, böyük sərkərdəmiz, dünyaşöhrətli Heydər Əliyevimiz bizimlə - Xocalının şəhid ailələri, ziyalıları ilə görüş təyin etdi. Orada bizi əmin etdi ki, bir qarış torpağımızı da işğal altında qoymayacağıq. Onda demişdi ki, mən İlham Əliyevə özüm qədər inanıram. Onda mən hiss etdim ki, bu, onun gələcəyə verdiyi bir mesaj idi. O inanırdı ki, Ali Baş Komandanımız, cənab Prezident bunun öhdəsindən Siz gələcəksiniz, bunu Siz yerinə yetirəcəksiniz. Sizə böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, bu gün bu şərəfi, bu şöhrəti bizə qazandırdınız. Çox sağ olun. Sizə minnətdarıq.

Prezident İlham Əliyev: Sağ olun. Çox sağ olun.

Kişi sakin: Cənab Prezident, bu gün diqqətinizə çatdırmaq istəyirəm ki, mən "Azərbaycan Bayrağı" ordenli həkiməm. 1994-cü ildə məhz Ulu Öndərin Fərmanı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşəm. 1996-cı ildə həmin ordeni mənə şəxsən özü təqdim edən vaxt mən xocalılıların bir arzusunu çatdırmışdım ki, kaş o gün olsun, torpaqlarımız azad edilsin və biz Sizinlə Xocalıda görüşə bilək. Həmin gün bu günə təsadüf edir. Ulu Öndərin daxili və xarici siyasətini çox uğurla davam etdirən məhz Sizin sayənizdə bu gün doğma, azad Xocalımızdayıq. Çox sağ olun, var olun. Allah Sizi qorusun.

Kişi sakin: Cənab Prezident, vaxtınızı çox almayaq. Bütün xocalılıların Ulu Öndərimiz qarşısında verdiyi bir vəd var. Mən vermişəm o vədi Ulu Öndərimizə. Mən demişdim ki, cənab Prezidentimiz, Sizin rəhbərliyinizlə biz torpaqlarımızı işğaldan azad etdikdən sonra Xocalının ən dəyərli, görkəmli bir yerində Sizin abidənizi ucaldacağıq. Cənab Prezidentimiz, Sizdən çox xahiş edirik, necə ki, bax, bu yeri uğurla seçmisiniz, Xocalının ən dəyərli bir yerində Ulu Öndərimizin abidəsini ucaltmağı bütün xocalılılar adından Sizdən xahiş edirik.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakinlər: Çox sağ olun, təşəkkür edirik.

Sonra Prezident İlham Əliyev sakinlərlə birlikdə Xocalı şəhərində aparılan tikinti işləri ilə tanış oldu.

Qadın sakin: Xocalı hadisələrinin canlı şahidi kimi Sizə minnətdarlığımızı bildiririk ki, Xocalı torpağına Sizinlə birlikdə ayağımız dəyir. Hələ 1997-ci il fevralın 25-də Ulu Öndərimiz, mərhum Prezidentimiz Heydər Əliyev mənə yoldaşımın “Qızıl ulduz” medalını şəxsən özü təqdim etdi. O vaxtdan 27 il keçir. Bu gün də şadam ki, Sizinlə Xocalı torpağında görüşürəm. Allah Sizə ömür versin, cansağlığı versin, eşq olsun Müzəffər Ordumuza, eşq olsun Sizə, Ali Baş Komandan!

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Digər qadın sakin: Əminəm ki, qədirbilən xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaq. Tariximizin qızıl səhifəsi daim yaşayacaq.

Prezident İlham Əliyev: Sağ olun.

Qadın sakin: Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin.

Sakinlər: Amin.

Dövlətimizin başçısı və Xocalı rayon ictimaiyyətinin nümayəndələri daha sonra Xankəndi şəhərində oldular.

Sakin: Sizin bütün çıxışlarınızın hamısını zabit və əsgərlərə çatdırırdım. Hərdən mənə deyirlər ki, Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı fərq nə idi? Mən də deyirdim, fərq bir dənə yalnız o idi ki, bizim qətiyyətli Ali Baş Komandanımız var və əsgərlər, xalq ona inanır. Xalq bir yumruq kimi birləşdi və necə deyərlər, “Dəmir yumruq” onların başında çatladı. Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Çox sağ ol.

Gənc sakin: Cənab Prezident, biz gənclər olaraq Sizə böyük minnətdarlığımızı bildiririk. İnşallah, biz gənclər də gələcəkdə buraya, yurdumuza gəlib hərəmiz öz sahəmiz üzrə yaşayıb-yaradacağıq.

Qadın sakin: Cənab Prezident, mən şəhid qızıyam. Yəni, həmin 613 nəfərdən biri də mənim atamdır. “İgidliyə görə” medalı ilə təltif edilib. Mən atamın cəsədini axtararkən meyitlərin üz-gözü dəyişilmiş vəziyyətdə idi. Mənim 19 yaşım var idi, Tibb Universitetində üçüncü kursda oxuyurdum. Biz qan içində ağlaya-ağlaya çıxdığımız torpaqlara, bu gün sevinə-sevinə gəlmişik. Görürsünüzmü, təbiət də öz müjdəsini verir. Bu gün bizim tədbirimizin konteksti də nikbin notlar üzərində qurulub. Biz Sizə təşəkkür edirik. Siz Sərkərdəmizsiniz. Xalq-Ordu-Prezident vəhdəti ilə biz 44 günlük müharibədə düşmənin belini qırdıq və diz çökdürdük. Siz qalib ölkənin qalib Liderisiniz. Siz bizim əvəzolunmaz yuxularımızı gerçəkləşdirdiniz. Biz buna görə Sizə minnətdarıq. İnanıram ki, bu gün o şəhidlərimizin ruhu şaddır. Sizə olan sonsuz minnətdarlığımı ifadə edə bilmirəm. Azərbaycanın itirilmiş torpaqlarını azad edən Sərkərdəmizsiniz.

Prezident İlham Əliyev: Çox sağ olun. Bu diyarın, bu bölgənin artıq yeni, parlaq tarixi var, o da 20 sentyabr - Xocalının, Xankəndinin azad olunması günüdür. 26 fevral dəhşətli, faciəvi bir gün kimi heç vaxt bizim yaddaşımızdan silinməyəcək. Amma artıq siz də qeyd etdiyiniz kimi, təbiət də sözünüzə qüvvət verir, 20 sentyabr artıq bu bölgənin əsas azadlıq və bayram günüdür.

Sakinlər: Allah Sizi var eləsin, Allah Sizi qorusun. Biz bilirdik ki, Siz torpaqlarımızı işğal altında qoymayacaqsınız.

Prezident İlham Əliyev: Sağ olun.

Dövlətimizin başçısı həm Xocalıda, həm də Xankəndidə sakinlərlə xatirə şəkilləri çəkdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da saat 17.00-da Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edib.

## *Xankəndi şəhərinə səfər*

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb.

Dövlətimizin başçısı Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib.

Prezident İlham Əliyevin təbriki

- Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir.

Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı nəticəsində böyük qəhrəmanlıq göstərmişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün biz bu torpaqlarda qururuq, yaradırıq, bu torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq biz artıq keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytara bilmişik və bu il bu proses davam edəcək.

Əfsuslar olsun ki, İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistana dərs olmadı. Keçən ilin Novruz bayramı təbriklərimdə mən bu barədə danışmışdım və

təəssüf hissimi bildirmişdim ki, İkinci Qarabağ müharibəsindəki onların məğlubiyyəti onlara dərs olmadı. Əgər dərs olsaydı, antiterror əməliyyatının keçirilməsinə ehtiyac olmazdı. Ermənistan İkinci Qarabağ müharibəsindən sonra keçən üç il ərzində düzgün nəticə çıxarmamışdır, öz qanunsuz silahlı birləşmələrini bizim torpağımızda əbədi saxlamaq istəyirdi, burada vaxtilə qanunsuz yaradılmış qondarma dırnaqarası Dağlıq Qarabağ respublikasını yaşatmaq istəyirdi. Bütün bunlar beynəlxalq hüquqa tamamilə ziddir və ən əsası Azərbaycan xalqının iradəsinə ziddir.

Azərbaycan İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazilərinin böyük hissəsini döyüş meydanında azad edib. Halbuki işğal dövründə dəfələrlə bir çox paytaxtlardan bizə siqnallar göndərilirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var. Əgər işğalçı dövlət qanunsuz olaraq digər ölkənin ərazisini işğal altında saxlayır və o torpaqlardan öz xoşu ilə çıxmaq istəmirsə, yeganə yol hərbi yoldur. Biz beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özümüz döyüş meydanında bərpa etmişik.

Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsidir. Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq.

Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır. Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.

Təbii ki, əsas vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək idi. Bu məqsədlə hərbi gücümüzü artırmaq bizim əsas vəzifəmizdir. Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artmışdır, maddi-texniki təchizat ən yüksək səviyyədə həll olunurdu və İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı bunu bütün dünyaya nümayiş etdirdi. Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər. Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz bütün şəhidlərimizin, günahsız Xocalı qurbanlarının qanını döyüş meydanında aldıq və bununla fəxr edirik. İstənilən ölkə, istənilən xalq bununla fəxr edə bilər, o cümlədən biz. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququmuzu, milli ləyaqətimizi bərpa etmişik və bu gün azad xalq kimi yaşayırıq, qururuq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq.

Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən “Zəfər meydanı” adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır.

Xankəndi qədim Azərbaycan torpağıdır, Pənahəli xan tərəfindən salınmışdır. Ancaq əfsuslar olsun ki, keçən əsrin 20-ci illərinin əvvəllərində tamamilə əsassız, heç bir hüquqi, siyasi və demoqrafik əsası olmadan burada muxtar vilayət yaradılmışdır və ondan sonra xalqımızın problemləri də başlamışdır. Nəticə etibarilə keçən əsrin 80-ci illərinin sonlarında Ermənistan bizə qarşı müharibə elan edərək, separatçı qüvvələri dəstəkləyərək, xalqımıza qarşı soyqırımı və digər qanlı cinayətlər törədərək, əfsuslar olsun ki, o vaxt öz çirkin arzularına çata bilmişdir. Hesab edirdilər ki, bu torpaqları işğal altında əbədi saxlaya biləcəklər. Bu məsələdə onlara dəstək verən xarici qüvvələr və bu gün dəstək verən xarici qüvvələr bu qanlı məsuliyyəti onlarla bölüşürlər. Bu gün biz azad edilmiş Qarabağda başımızı dik tutaraq yaşayırıq. Bu il Xankəndiyə və digər şəhərlərə, o cümlədən Xocalıya, Şuşaya, Cəbrayıla, Kəlbəcərə keçmiş köçkünlər qayıdacaqlar, bir neçə kəndə köçkünlər qayıdacaqlar və həyat qaynayacaq.

Xankəndi sovet dövründə də Azərbaycan büdcəsi hesabına, Azərbaycan memarları və inşaatçıları tərəfindən inşa edilmişdir. Bax, arxadakı bina Vilayət Partiya Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Həsən Məcidov idi. Onun yanındakı bina 1970-ci illərdə inşa edilmişdir, Vilayət İcraiyyə Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Nəsrullah Kəngərli idi. Bu bina isə o vaxt mehmanxana kimi inşa edilmişdir. Ondan sonra ermənilər onun xarici görünüşünü dəyişdirmişdilər. İndi bu binanın əzəli

siması ona qaytarılır və bu mehmanxananın müəllifi Azərbaycan memarı Ənvər Qasımzadə idi.

Bax, təkcə bu misallar onu göstərir ki, bu şəhəri və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində olan bütün şəhərləri, kəndləri salan, yaradan, memarlığının müəllifi olan, inşaat işlərində iştirak edən Azərbaycan xalqının nümayəndələri idi. Bu binalar bizim tarixi sərvətimizdir. Onlar qorunur, qorunacaq və gördüyünüz kimi, indi əsaslı təmir edilir. Durduğum yerdə isə separatçılar qondarma parlament binası inşa etmişdilər. Gördüyünüz kimi, artıq burada heç bir bina yoxdur. Bu, azmış kimi, onlar elə Şuşada ikinci parlament binasını inşa etməyə çalışırdılar, onun inşa işləri başlamışdır, amma çatdıra bilməmişlər və o bina söküldü. O binanın yerində indi beşulduzlu "Şuşa" oteli yerləşir. Keçmiş dırnaqarası parlament binası da söküldü və söküntü işləri fevralın 26-da başlamışdır.

Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası – dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür.

Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq.

Mən bir daha əziz xalqımı qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

DOI: 10.30546/2309-1347.2024.130055

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verib.

Azərbaycan Televiziyasından Rövşən Məmmədov: Cənab Prezident, hər vaxtınız xeyir olsun. Öncə müsahibəyə görə hər birimizin adından Sizə təşəkkür edirik. Suverenliyimizin tam bərpa olunmasından, xüsusən də Xankəndi Zəfərindən sonra belə bir görüş, belə bir müsahibə hər birimizin arzusu idi. Odur ki, bu arzumuzu nəzərə aldığınıza görə Sizə təşəkkür edirik.

Cənab Prezident, yeni tarixi reallığı, yeni tarixi mərhələni yaşayırıq. Ən böyük reallıq qeyd etdiyimiz kimi, Qarabağın tam azad olunması, Qarabağdan separatizmin, terrorizmin təmizlənməsi və Sizin təbirinizcə desək, tarixin zibilliyinə atılmasıdır. Əlbəttə ki, hər bir reallığın arxasında güc, prinsipiallıq, əzm, iradə və Sizin "Dəmir yumruğunuzdur". Məhz ona görə də mən istərdim elə ilk sualımı bugünkü reallıqlardan son 20 illik fəaliyyətə nəzər salmaqla başlayaq. Bu gün ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanımızdan, suverenliyimizi tam bərpa etmiş Azərbaycanımızdan son 20 illik fəaliyyətə nəzər salsaq, hansı mənzərə canlanır? Biz bu 20 ildə haradan-haraya gəlmişik?

**Prezident İlham Əliyev:** Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi.

Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Əgər biz bu haqda geniş danışsaq, yəqin ki, bütün müsahibəni buna həsr etməli olacağıq. Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar.

Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

"Real" Televiziyasından Mirşahin Ağayev: Cənab Prezident, oktyabr ayının 15-də Siz Xankəndidə Azərbaycan Bayrağını qaldırdınız və mənə elə gəlir ki, bu, yalnız Sizin əl deyildi, bu, Ulu Öndər Heydər Əliyevin əli idi, bu, Pənahəli xanın əli idi, bu, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əli idi və bütün əllər məhz Sizin əlinizdə cəmləşmişdi. Mən Xankəndini tərk etdiyim təxminən 30 il əvvəl – 1991-ci ildə tərk etmişdim, orada Matvey Radaev ilə müsahibəm olmuşdu, "Orqkomitet"də, sonradan separatçılar iqamətgaha çevirdilər. Mənim üçün çox maraqlıdır, o an hansı hissləri yaşadınız? Bu sualın cavabını mən həm də adlarını çəkdiyim bütün o ulu insanların ruhu ilə bağlayacam.

**Prezident İlham Əliyev:** Bilirsiniz, yəqin ki, Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bu kadrları görəndə hamımız eyni hissləri keçirmişik, o cümlədən mən də. Mənim hisslərim Azərbaycan vətəndaşlarının hisslərindən heç də fərqlənmirdi, qürur və sevinc hissi əlbəttə ki. Eyni zamanda, fikirləşirdim ki, ədalətə inanmaq lazımdır. Çünki 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal

deyil. Bu, istər-istəməz insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Yəni, cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən. Müasir dünyada biz bunu artıq çoxdan başa düşmüşük. Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10-15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik. Ona görə bu, o cümlədən bu nöqteyi-nəzərdən də önəmlidir, çünki ədalətə inam bərpa edildi. Yəni, biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik.

Halbuki əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Yəni, biz bu ədaləti, eyni zamanda, beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir.

Bir də gözümün önünə, bax, sizin də qeyd etdiyiniz o kadrlar gəlirdi. Həmin meydan, həmin şəhər, ancaq tam fərqli mənzərə. O meydanda, o meydanın başında yerləşən, - onu da deməliyəm ki, Azərbaycan memarı, səhv etmirəmsə, Həsən Məcidov adlı bir Azərbaycan memarı, həmin o "Obkom" deyilən binanın müəllifi olmuşdur, - həmin o binada, həmin o meydanda, o vaxt Azərbaycana qarşı çox çirkin bir oyunun başlanğıcına hamımız şahid olduq. Siz də o hadisələrin canlı şahidi kimi yaxşı xatırlayırsınız, o vaxt Qarabağda yaradılmış Xüsusi Komitə faktiki olaraq Qarabağın Azərbaycanın əlindən alınması üçün bir mexanizm idi. O Xüsusi Komitə, ona rəhbərlik edən şəxs və digər şəxslər, onların bütün addımları və hərəkətləri Qarabağı Azərbaycandan qoparıb Ermənistana bağlamaq idi.

Yəni, bütün bu kadrlar gözümün önünə gəldi və təbii ki, hisslərin çoxluğu deməyə imkan vermir ki, hansı üstünlük təşkil edirdi. Təbii ki, Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi.

Yəni, bunlar tarixi anlardır. Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik, hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu Qələbəni yaxınlaşdırırdılar. Bu, ümummilli bir məsələyə çevrildi, ümummilli hərəkata çevrildi və 30 il ərzində bir çox beynəlxalq tərəfdaşlarımızın səylərinə baxmayaraq, bu mövzu unudulmadı. Bunu bizə unutdurmaq istəmişdilər. Müxtəlif bəhanələr altında - Ermənistanla əməkdaşlıq, insanları, cəmiyyətləri sülhə hazırlamaq üçün müxtəlif QHT-lər vasitəsilə təmasların yaradılması məhz o məqsədi güdürdü ki, Azərbaycanda yetişən gənc nəsil bu məsələdə fərqli istiqamətdə yetişsin. Bizim isə məqsədimiz o idi ki, yetişən gənc nəsil vətənpərvər olsun, heç vaxt bu ədalətsizliklə barışmasın və əgər bizə nəsib olmazsa bu tarixi ədaləti bərpa etmək, gələcək nəsillər onu etməlidirlər.

Bir məsələni də mən deməliyəm, təbii ki, hamımız istəyirdik ki, biz öz ərazi bütövlüyümüzü nə qədər mümkünsə, bir o qədər tezliklə bərpa edək. Ancaq tarix nöqteyi-nəzərindən 30 il o qədər də böyük dövr deyil. Bu müddət ərzində danışıqlar prosesi zamanı bir çox təkliflər irəli sürülmüşdü və bəziləri düşünə bilərdi ki, nə üçün Azərbaycan bu təklifləri qəbul etmir? Axı, bu təkliflər əsasında rayonların bir neçəsi Azərbaycana heç bir müharibə aparılmadan qaytarılacaq, oraya keçmiş köçkünlər qayıdacaq, eyni zamanda, vəziyyət normallaşacaq. Nə üçün Azərbaycan bu təkliflərlə razılaşmır və barışmır? Təbii ki, danışıqlar prosesinin öz strategiyası, öz taktikası var idi. Təbii ki, biz danışıqları elə aparırdıq ki, öz məqsədlərimizə çatmaq üçün minimum xarici təzyiqlə üzləşək. Amma mənim üçün əsas məsələ o idi ki, bu, tarixi məsələdir, bu, ümummilli məsələdir və burada hansısa əlverişli görünə biləcək nailiyyət dalınca qaçmaq lazım deyil. Biz məsələni köklü şəkildə həll etməliyik, birdəfəlik həll etməliyik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməliyik. Ölkəmizdə separatizm yuvası qalmamalıdır və əgər bizim nəslimizə bunu etmək nəsib olmasa, elə gənc nəsil yetişdirməliyik ki, 20 ildən sonra, 30 ildən sonra, 50 ildən sonra onlar gəlib bunu etsinlər. Bax, əsas məsələ bu idi. Əlbəttə, hamımız xoşbəxtik ki, biz bu tarixi günləri gördük, yaşadıq və bu tarixi Zəfər Azərbaycan xalqının, dövlətinin tarixində əbədi qalacaq.

"ARB 24" Televiziyasından Çinarə Nurməmmədova: Cənab Prezident, ötən ilin ən mühüm hadisələrindən biri həm də "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması idi. Bundan dərhal sonra Azərbaycana qarşı təzyiqlər başlanıldı, "Qarabağda humanitar böhran yaradılır" ittihamı irəli sürüldü. Həmin dövrdə hələ Xankəndidə Azərbaycanın Bayrağı da ucaldılmamışdı, separatçılar da orada müəyyən fəaliyyət göstərirdilər və təzyiqlər də daha çox idi. Hazırda vəziyyət dəyişib və tamamilə yeni reallıqlar yaranıb. Hansı məqamlar, hansı nüanslar var ki, artıq biz onlardan danışa bilərik. Yəni, Azərbaycan sərhəd-keçid məntəqəsini yaradarkən hansı riskləri gözə almışdı?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz 10 noyabr üçtərəfli Bəyanatı imzalanandan sonra, əlbəttə ki, gələ-

cək addımlarımızla bağlı ciddi düşünməli idik. Çünki 10 noyabr hadisəsi də bir dövr idi və müharibə nə ilə nəticələnəcək, noyabrın 8-də mən tam deyə bilməzdim, yəni, tam əminliklə deyə bilməzdim. Əlbəttə, mən bilirdim ki, bizim Zəfərimizlə nəticələnəcək, amma necə və nə vaxt, noyabrın 8-də demək mümkün deyildi. Çünki noyabrın 8-də təbii ki, çox böyük hadisə baş verdi - Şuşa işğaldan azad edildi və faktiki olaraq separatçıların müqaviməti, belə deyək, strateji nöqteyi-nəzərdən mənasız olmuşdu. Əlbəttə, əgər müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarını özü də artıq qış mövsümündə azad etmək çox çətin olardı. Halbuki biz bunu da edəcəkdik. Amma itkilərimiz həddindən artıq çox ola bilərdi, hətta 44 günlük müharibədə verdiyimiz şəhidlərin sayından qat-qat çox ola bilərdi. Biz hamımız bunu yaxşı bilirdik, çünki indi də oralara gedən, o bölgələrə gedən hər bir insan görür ki, nə dərəcədə çətin relyefdə yerləşən bir ərazidir. Ancaq əgər Ermənistan kapitulyasiya aktına imza atmasaydı biz, əlbəttə ki, müharibəni davam etdirəcəkdik son nöqtəyə qədər.

Ona görə 8 noyabrdan sonra - ertəsi gün bütövlükdə səhərdən axşama qədər, gecəyə qədər Rusiya Prezidenti vasitəsilə Azərbaycan, Ermənistan danışıqlarına həsr edilmişdir. Üçtərəfli Bəyanatın qəbul edilməsi, o şərtlərlə qəbul edilməsi, hesab edirəm ki, bizim böyük siyasi uğurumuzdur. Əlbəttə, əgər Şuşa işğaldan azad olunmasaydı, o şərtləri biz o Bəyanata saldıra bilməzdik. Yəni, bizim Qələbəmiz, güclü olmağımız imkan verdi ki, biz hətta bu məsələyə aid olmayan şərtləri də oraya saldıraq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı.

Ancaq hər halda 10 noyabrdan sonra müəyyən bir vakuum yarandı. Heç kim bilmirdi bundan sonra nə olacaq? O vaxt hələ meydanda olan Minsk qrupunun həmsədrləri də demək olar ki, özləri də bilmirdilər nə ilə məşğul olacaqlar və bəzi səfərlər də oldu. Ermənistandakı vəziyyət təbii ki, birmənalı idi. Azərbaycanda xalq sevinc içində idi. Ancaq mən bilirdim ki, bu, işin sonu deyil. Çünki bir çox tamamlanmamış məsələ var və o məsələlərə aydınlıq gətirilməlidir, ilk növbədə, ovaxtkı Laçın dəhlizi ilə bağlı olan məsələ.

Müəyyən müddətdən sonra, xüsusilə görəndə ki, bu yol vasitəsilə Ermənistan Qarabağa silah-sursat, minalar göndərir, hərbi birləşmələrin rotasiyası həyata keçirilir, biz məsələ qaldırmağa başlamışdıq ki, artıq biz bu yola nəzarət etməliyik. Əfsuslar olsun ki, o vaxt Rusiya tərəfi buna müsbət yanaşmadı. Ancaq biz yenə də öz səylərimizi davam etdirirdik, mən dəqiq deyə bilərəm ki, uzun müddət ərzində - beş dəfə Rusiya tərəfinə ən yüksək səviyyədə müraciət edilmişdir ki, gəlin, bu yola birlikdə nəzarət edək. Çünki belə çıxır ki, siz buna tam nəzarət edə bilmirsiniz, hətta yəqin yadınızdadır, orada aşkarlanmış minaların da istehsal müddəti çox böyük suallar yaratdı. 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar oraya necə gətirildi? Yəni, təbii ki, bu minalar həmin o Laçın-Xankəndi yolu vasitəsilə gətirilmişdi. Ona görə biz məsələ qaldırdıq ki, gəlin, birgə postda biz də dayanaq və nəzarəti gücləndirək, eyni zamanda, Rusiya sülhməramlı qüvvələrinə də olan tənqidi yanaşma da səngiyər. Çünki biz məsuliyyəti sizinlə bir növ bölüşdürmüş olacağıq. Ancaq əfsuslar olsun ki, buna razılıq verilmədi. Nəhayət aprelin 23-də bizim başqa çarəmiz qalmamışdı, biz daha gözləmək fikrində deyildik. Biz bir neçə saat ərzində həmin o Həkəri çayının üzərindəki körpüdə yerləşdik. Təbii ki, buna hazırlıq aparılmışdır və bəzi səylərə baxmayaraq, oradan artıq heç yerə getmədik.

Beləliklə, Qarabağa qanunsuz silahların, sursatların, minaların və canlı qüvvənin daşınması və göndərilməsi artıq mümkünsüz olmuşdu. Ancaq buna baxmayaraq, biz humanitar gediş-gəlişə də heç bir əngəl törətməmişdik. Hamımız yaxşı xatırlayırıq ki, o vaxt Qırmızı Xaç xətti ilə xəstələr təxliyə edilirdi, aparılırdı, gətirilirdi. Bir müddətdən sonra Qarabağda yaşayan ermənilər o yoldan istifadə etməyə başlamışdılar və heç bir problem onlar üçün yaradılmırdı. Sadəcə olaraq, onların maşınları yoxlanılırdı, öz maşınları ilə gedib-gəlirdilər. Azərbaycan sərhədçiləri maksimum dərəcədə diqqətli idilər və belə də tapşırıq almışdılar ki, mülki şəxslərə qarşı hər hansı bir hörmətsizlik edilməsin. Ancaq ondan sonra hərbi təxribat törədildi. Bizim postumuz atəşə tutulmuşdur və biz təbii olaraq istintaqı aparmaq üçün o yolu müvəqqəti olaraq bağladıq, amma sonra yenə də açdıq. Ondan sonrakı hadisələri siz yaxşı xatırlayırsınız, bu barədə çox danışmaq istəmirəm. Ermənistan dövlətinin tör-töküntüləri və bəzi yerli separatçılar faktiki olaraq özləri-özlərini humanitar yardımdan məhrum etmişdir.

Yəni, 23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik. Biz 23 aprelə qədər də bir neçə dəfə Ermənistana və yerli separatçılara nümayiş etdirmişdik ki, bu, bizim torpağımızdır, həm "Fərrux" əməliyyatı, "Sarıbaba-Qırxqız" əməliyyatı, "Qisas" əməliyyatı, bütün bunlar tərəfimizdən aparılmış önəmli hərbi əməliyyatlar idi. Bu əməliyyatlar nəticəsində o vaxt nəzarətimizdə olmayan Qarabağ bölgəsinin strateji təpələri, yüksəklikləri biz tərəfdən götürülmüşdür və 19-20 sentyabr əməliyyatı üçün bunun çox böyük əhəmiyyəti var idi. Yəni, o əməliyyatlar, sadəcə olaraq, kortəbii seçilməmişdi, məqsədyönlü əməliyyatlar idi. Çünki müharibədə xüsusilə bizim relyefi nəzərə alsaq, əsas məsələ təpələrin kimin əlində olmasıdır və 19-20 sentyabr əməliyyatının qısa müddət ərzində aparılmasının əsas səbəbi də məhz dediyim o vaxta qədər keçirilmiş əməliyyatlardır və təbii ki, Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədinin nəzarətdə olması. Çünki separatçılar artıq silah-sursata malik olmaq üçün bu imkanlardan da məhrum edilmişdi.

İctimai Televiziyadan Fikrət Doluxanov: Cənab Prezident, 2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyinin tam bərpa olunmasını və qeyd etdiyiniz kimi, tarixi ədalətin bərqərar olunmasını təmin edən lokal xarakterli antiterror tədbirlərini hansı amillər şərtləndirdi? Güc tətbiq etmədən keçinmək mümkün idimi və Ermənistan, erməni separatçıları Sizin dəfələrlə etdiyiniz təklif və xəbərdarlıqları nəyə arxalanaraq düzgün dəyərləndirmədilər?

**Prezident İlham Əliyev:** Yəqin ki, onlar gözləmirdilər bu əməliyyat keçiriləcək və kimsə görünür onları inandırmışdı ki, onlar sona qədər orada öz separatist dırnaqarası qurumunda, o qurum çərçivəsində fəaliyyət göstərə biləcəklər. Halbuki bizim onlara göndərdiyimiz bütün mesajlar açıq və birmənalı idi. Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan bir müddətdən sonra yerli ermənilərin bəziləri bizim nümayəndələrimizə çıxaraq təmaslar haqqında təkliflər vermişdilər və biz də imtina etmədik. Çünki bizim məqsədimiz suverenliyi tam bərpa etmək idi və burada yaşayan əhalini inandırmaq idi ki, onlar vahid Azərbaycan dövləti çərçivəsində rahat və təhlükəsiz yaşaya bilərlər. Bizim niyyətimiz çox açıq, aydın idi və o təmaslar əsnasında bəzi müsbət addımlar da atılmışdı. Yəni ki, yeni Laçın-Xankəndi yolu marşrutunun müəyyən edilməsi, çəkilməsi çox önəmli hadisə idi və 23 aprel hadisələrinin elə bil ki, təməlini qoymuşdu. Çünki biz artıq yeni yol çəkərək Laçın şəhərini özümüzə qaytardıq. Onu da bildirməliyəm ki, avqustun əvvəlində artıq yol hazır olandan sonra biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərmişdik ki, biz avqustun 5-də artıq o yola çıxırıq və Laçını götürürük nəzarətimizə. Yəni o, bir bildiriş idi. O, bir xahiş deyildi, bildiriş idi. Ondan sonra bilirsiniz ki, yerli ermənilər vaxt istəmişdilər, avqustun 25-nə qədər. Biz də razılıq verdik və avqustun 26-da Laçına girdik. Yəni ki, bütün bunlar sentyabr hadisələrinə gedən yolun bir hissəsidir.

Digər müsbət sayıla biləcək hadisələr də olmuşdur, o cümlədən Zabux kəndində evlərin yandırılmaması. Halbuki mən sizə deyə bilərəm ki, ermənilər tərəfindən tikilmiş bütün evləri biz sökdük, yerlə-yeksan etdik və Zabuxda indi yerləşən Azərbaycan vətəndaşları bizim tərəfimizdən tikilmiş evlərdə yaşayırlar. Ancaq o fakt özlüyündə bir göstərici idi. Biz də bunu müsbət qarşılamışdıq. Sanki Kəlbəcərdə, Laçında evlərin yandırılması və ağacların kəsilməsi vəhşiliklərindən sonra bu, bir qədər normal addım sayılır. Yəni, bütün bu müsbət hadisələr deməyə əsas verirdi ki, qan tökülmədən, heç bir əməliyyat aparılmadan biz öz suverenliyimizi bərpa edəcəyik və Qarabağ ermənilərinə də dəfələrlə deyilmişdir ki, yeganə yolunuz budur: kim istəyir burada qalır, Azərbaycan vətəndaşı kimi yaşayır, kim istəmir, Ermənistana və başqa yerə gedir. Hətta Laçında keçmiş məcburi köçkünlərlə görüş zamanı - may ayının 28-də mən açıq demişdim ki, onların bir yolu var: qanunsuz qurumu buraxmaq, bizə təslim olmaq və bizə tabe olmaq. Bunu mən açıq demişdim. Mən bu və bütün başqa məsələlərdə, bütün çıxışlarımda tam səmimiyəm və hesab edirəm ki, Ermənistan tərəfi artıq bunu bilir. Nəyi deyiriksə, onu da edirik və onu nəzərdə tuturuq. Ancaq görünür ki, başqa mesajlar da verilmişdi onlara. Təbii ki, burada beynəlxalq aktorlar da çox mənfi rol oynamışdılar. Ermənistana və separatçılara müəyyən ürək-dirək mənası daşıyan mesajların verilməsi onlarda belə bir fikir yaratdı ki, onlar bax, bu vəziyyətlə bağlı heç nə etməməlidirlər.

Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında qeyri-rəsmi razılıq əldə edilmişdi ki, orada heç nə dəyişilməyəcək, yəni, necə var elə də qalır. Təbii ki, orada qanunsuz seçkilərin keçirilməsi bu razılaşmanın da pozulması idi. Bildiyiniz kimi, sentyabrın 9-da həmin qanunsuz seçkilər keçirilmişdi və o, ikinci qırmızı xətt idi. Çünki birinci qırmızı xətt Ermənistanın baş naziri Paşinyanın sentyabrın 2-də separatist rejimə təbrik məktubunun göndərilməsi idi. Bu, həm qırmızı xəttin pozulması idi, həm də ki, ümumiyyətlə, çox təzadlı bir addım idi. Çünki ondan qabaq Ermənistanın baş naziri Qarabağı Azərbaycan torpağı kimi rəsmən tanımışdı və bunu dəfələrlə bəyan edirdi. Belə olan halda, onda bu təbrik nədir və sentyabrın 9-dan sonra təbii ki, artıq başqa variant qalmamışdı. Xüsusilə nəzərə alsaq ki, mina terroru bizə qarşı davam edirdi və bizim bir neçə hərbçimiz o hadisələr ərəfəsində mina terrorunun qurbanı olmuşdur.

Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Başqa variant ola bilməzdi. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular. Ondan sonra, sadəcə olaraq, danışıqlar gedirdi və daha doğrusu danışıqlar yox, bizim şərtlərimizi onlar sanki müzakirə edirdilər. Ancaq biz hansı şərt qoymuşduqsa, o şərt də təmin edildi, o cümlədən separatist qurumun buraxılması və bütün digər şərtlər. Biz dedik ki, təslim olursunuzsa əməliyyatı dayandıracağıq. Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunacaq-olunmayacaq? Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqeyimiz birmənalı idi – onların tutulması. Bəziləri artıq

Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəziləri Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil.

Yenə də deyirəm, əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni, bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu.

CBC Televiziyasından Lidiya Molodtsova: Cənab Prezident, icazənizlə sualları rus dilində verərdik, çünki CBC beynəlxalq kanaldır və rusca yayımlanır. Son zamanlar Fransanın rəsmi şəxsləri tərəfindən tez-tez anti-Azərbaycan bəyanatlarının, Parisin BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı qətnamələrin, həmçinin Ermənistanın silahlandırılmasının şahidi oluruq. Fransanın belə mənfi münasibətinin səbəbi nədir? Paris Bakıdan nə istəyir?

**Prezident İlham Əliyev:** Yaxşı sualdır. Biz özümüz də bunu bilmək istəyirik. Belə ki, münasibətlərimizin tarixinə nəzər salsaq, hər şey çox yaxşı başlamışdı. Həm 1990-cı illərdə, həm də artıq mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə münasibətlər kifayət qədər normal idi. Bunun bizim torpaqlarımızın işğal altında olması, yaxud sadəcə, Fransanın siyasi müstəvisində nəsillərin dəyişməsi ilə bağlı olması başqa məsələdir. Mənim üçün bunu söyləmək çətindir. Amma bütün hallarda balans qorunub saxlanılırdı. Artıq müsahibələrimdən birində Fransanın necə ATƏT-in Minsk qrupunun həmsədri olması barədə danışmışam. Təkrar etmək istəmirəm. Hərçənd bu məsələni unudan və ya bilməyənlərə xatırlatmaq yerinə düşər ki, Fransa Prezidenti Jak Şirak uzun müddət atamı Fransanın həmsədrliyinə razı salmaq istəyirdi və o, bundan imtina edirdi. Sonradan Prezident Şirakla keçirdiyim görüşlər əsnasında o, dəfələrlə onu necə razı salmaq istədiyini və Fransanın neytral olacağını vəd etdiyini xatırladırdı. Həmçinin mənim qarşımda əlavə edirdi ki, bu vədi atamın həyatda olmadığı vaxtda da yerinə yetirir. Mən bunu həmişə müsbət qəbul edirdim. Ancaq zahirən də, ümumilikdə, bütün bunlar onun dediyi kimi təsir bağışlayırdı. Hərçənd bilmirəm ki, pərdə arxasında nələr baş verirdi, lakin son vaxta qədər balans zahirən saxlanılırdı. Balans, hətta Fransa tərəfindən İkinci Qarabağ müharibəsinə qədər pozulmuşdu və bu, görünür ki, Fransanın xarici siyasətində fundamental əsasların nəsil dəyişikliyi səbəbindən baş vermişdi. Biz hazırda bunu təkcə Fransada deyil, həm də Avropa ölkələrinin əksəriyyətində müşahidə edirik. Öz ölkəsində və beynəlxalq arenada böyük nüfuz sahibi olan insanlar siyasət səhnəsindən getdilər və ümumilikdə, təsadüfi adamlar – populistlər, demaqoqlar gəldilər və bunun nə ilə nəticələndiyini hamımız görürük.

Münasibətlərin gərginləşməsinə gəlincə, bu, artıq İkinci Qarabağ müharibəsi zamanı başladı. Həmin vaxt 44 gün ərzində Fransa Prezidenti dəfələrlə, hətta deyərdim ki, bu ifadəni işlətmək mümkündürsə, həddindən çox dəfələrlə zəng edirdi və baş verənlərə öz münasibətini bildirirdi. Detallara varmaq istəmirəm, çünki bu danışıqlar məxfi xarakter daşıyırdı, lakin danışdığımız məsələlərin bir hissəsi artıq ictimaiyyətə məlumdur. Hər halda onlar heç nəyə nail ola bilmədilər və müharibə Prezident Makronun və ya hər hansı başqa şəxsin deyil, Putinin vasitəçiliyi ilə dayandırıldı. Üçtərəfli Bəyanat da Fransa, Azərbaycan və Ermənistan arasında deyil, Rusiya, Azərbaycan və Ermənistan arasında imzalandı.

Düşünürdüm ki, bu hadisələrdən sonra münasibətlərimizdə sağlam məntiq üstün olacaq və körpülər yandırılmayacaq, çünki bu, prinsip etibarilə nə Fransaya, nə də bizə lazımdır. Hərçənd hər bir ölkə bir-birini unudaraq sakit yaşaya da bilər. Bununla yanaşı, bütün bu proseslər davam edirdi və bildiyiniz kimi, həm parlament, həm də Senat qondarma "Artsax"ı tanıdılar. Amma mənim qondarma "Artsax"ın dislokasiyası barədə tövsiyələrimi də yəqin ki, heç kim unutmayıb. Yeri gəlmişkən, onlar öz qüvvəsindədir, bəlkə də indi lokasiyanı dəyişmək olar, çünki bilirəm ki, Paris meri Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verib. Təklif edərdim ki, bəlkə də fəxri sözünü real vətəndaşlıq ilə əvəz etsinlər, onları Parisin mərkəzində yerləşdirsinlər və orada Artsax respublikası elan etsinlər. Amma bunu elə-belə, şərh qismində söylədim.

Hazırkı şəraitə gəldikdə, əlbəttə, İkinci Qarabağ müharibəsindən sonra münasibətlərin gərgin olduğu dövr idi, amma bununla belə münasibətlər mövcud idi. Siz də bilirsiniz ki, biz Prezident Makronun Praqadakı görüşdə iştirakına razılıq verdik və başqa səviyyələrdə də təmaslar oldu - həm Fransa xarici işlər nazirinin Azərbaycana səfəri, həm də bizim nümayəndələrin səfərləri. Yəni, münasibətlər davam edirdi, amma antiterror əməliyyatından sonra bu münasibətlər mahiyyətcə dayandırıldı, yenə də bu, bizim günahımız ucbatından baş vermədi. Sadəcə, Fransa artıq heç bir başqa amillərlə maskalanmayaraq açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı - qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Zənnimcə, ən azı 5 dəfə bu cür cəhdlər

edildi və onların hamısı tam uğursuzluqla nəticələndi, çünki ölkələrin əksəriyyəti bizi dəstəklədi və bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilmədilər. Bu, əlbəttə, onlar üçün çox güclü siyasi zərbə idi, çünki biz belə desək, onlara öz meydançalarında qalib gəldik. Həmçinin düşünürəm ki, Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu, hərçənd məlum oldu ki, Avropa İttifaqı diplomatiyasının rəhbəri təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Lakin ümumilikdə, Avropa İttifaqı ölkələri Azərbaycana münasibətdə vahid mövqe üzrə razılığa gələ bilmədilər, Fransa isə məhz sanksiyalarda və başqa addımlarda israr edirdi. Artıq bu tezislər səsləndirilib və onlar belə desək havadan asılı qalıb, sözdən əmələ keçməyib.

Amma bundan sonra onlar artıq öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun sellofana bükülməsi, bu şəhər ilə İsmayıllı arasında qardaşlıq sazişinin ləğv edilməsi kimi lüzumsuz hərəkətlərə əl atmağa başladılar. Təbii ki, biz də adekvat cavab verirdik və indi də buna davam edirik. Amma bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni, burada onlar praktik olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, daha doğrusu, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var.

Ona görə də indi vəziyyət belədir, biz, əlbəttə ki, bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik. Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddindən artıq çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Həmçinin mina terrorunu da əlavə etmək olar, yeri gəlmişkən, fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Bir milyon yarım əlcəzairlinin soyqırımı və digər faktlar da var. Müstəmləkə ölkələrində başqa cinayətlər də törədilib və bu, əlbəttə ki, neokolonializmin rüsvayçı təzahürüdür. Bu gün Fransa müstəmləkələrə sahib olmağı, onları idarə etməyi, sıxışdırmağı, viran qoyulmuş ölkələrin bu müstəmləkə zülmündən qurtulmasına imkan verməməyi adi bir hal kimi qəbul edir. Qoşulmama Hərəkatının sədri kimi biz bu məsələni qaldırdıqda və Bakı təşəbbüsünü irəli sürdükdə müstəmləkə ərazilərinin – Fransanın dənizaşırı adlanan ərazilərinin nümayəndələrinin iştirakı ilə tədbirlər həyata keçiririk. Onların hər cür təzyiqlərə məruz qalması bizə məlumdur. Onları çağırır, profilaktikadan keçirir, hədə-qorxu gəlirlər. Bu yaxınlarda Yeni Kaledoniyada bir azərbaycanlı jurnalist qadını saxlayıblar. Ümumiyyətlə, bu, hansı çərçivəyə sığır? Ondan casusluqda da şübhələniblər. O, hadisələri işıqlandırmağa gəlmişdi. Fransa tərəfinin xahişi ilə İsveçrədəki Avropa qeyri-hökumət təşkilatlarından birinin nümayəndəsini də saxlayıblar. O, Cenevrədə neokolonializmə həsr olunmuş tədbirə gedirdi. Düzünü desək, mən İsveçrə hökumətinin Fransanın iradəsinə tabe olmasından və belə rüsvayçı aktı törətməsindən təəccüblənirəm. Həm də bu jurnalist çox böyük Avropa ölkəsinin vətəndaşıdır. Yəni, onların əsl xisləti bundan ibarətdir. Biz bu əsl xisləti üzə çıxardıq. Nədənsə bütün bunlar haqqında indiyədək danışılmırdı. Bunların hamısı barədə susurdular, əlaqədar olmaq istəmirdilər, problemlərdən qorxurdular, təhdidlərdən çəkinirdilər və sairə. Amma biz qorxmuruq. Zənnimcə, bu gün baş verənlər BMT Təhlükəsizlik Şurasında və Avropa İttifaqında bir fiaskodur, onların Avropa parlamentindəki nümayəndələri vasitəsilə bizə müəyyən mənada zərər vermək, ola bilər ki, hətta "qıcıqlandırmaq" kimi boş cəhdlərinin hamısı faydasızdır. Təbii ki, biz yolumuza davam edəcəyik. Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq, biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik.

"Xəzər" Televiziyasından Günel Kərbəliyeva: Cənab Prezident, Tbilisidə İpək Yolu Forumunda Ermənistanın baş naziri "sülhün kəsişməsi" deyə bir layihədən bəhs etdi, hansı ki, bu, "erməni qovşağı" layihəsinin adı dəyişdirilmiş formasıdır. Sözdə layihə guya Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistan arasında kommunikasiyaların, belə deyək, inkişafını nəzərdə tutur. Halbuki Azərbaycan bu təklifi üç ildir irəli sürür. Ermənistanın baş naziri bunu yeni bir təşəbbüs kimi səsləndirdi. Ümumiyyətlə, regionda Azərbaycanın razılığı olmadan belə layihələrin baş tutması mümkündürmü?

Prezident İlham Əliyev: Əlbəttə ki, yox. Yəqin ki, siz də bunu yaxşı bilirsiniz, mümkün deyil. Hesab edirəm ki, bu, sadəcə olaraq, piar aksiyadır. Çünki Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli Bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi" sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, - Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, - amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil.

Onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu, onların

öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı, digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni, bu, çox ədalətli mövqedir.

Bir məsələ də önəmlidir, bu yolun təhlükəsizliyi. Çünki mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan-Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, bu yol açılmasın. Biz üç il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi. Onu da bildirməliyəm ki, bu şayiələri, belə ucuz şayiələri yayan da Fransadır. Biz dəqiq bilirik ki, hər yerdə danışırdılar və bu gün də yəqin davam edir ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Halbuki bunun heç bir əsası yoxdur, heç bir hazırlıq da getmir və bu gün hazırlığı gizlətmək də mümkün deyil. Çünki hər şey yuxarıdan, peykdən görünür, digər informasiya mənbələri var. Biz, sadəcə olaraq, üç il gözləmişik, görəndə ki, bu alınmır, bizim başqa yolumuz qalmayıb. Biz qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik və bildiyiniz kimi, İranla artıq razılıq da əldə edildi, nəinki razılıq, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlamışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Yəqin ki, bu il biz ona da başlayacağıq.

Beləliklə, Ermənistan yenə dalan olaraq qalacaq. Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq və hətta bildiyiniz kimi, Amerika Dövlət Departamentinin rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan-İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik" deyəndə, - mən artıq bunu demişəm, - Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir. Bizim İranla bu yaxınlarda Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal-Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya-Azərbaycan sərhədində iki keçid var, bir idi. İranla da iki keçid var. Yəni, bu, bizim suveren işimizdir.

Ona görə Ermənistan tərəfinə məsləhətim odur ki, burada manipulyasiyalarla məşğul olmasın. Onların Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən təklif etdiyi marşrut tamamilə yararsızdır və ilboyu o marşrutdan istifadə etmək mümkün olmayacaq. Çünki orada hava şəraiti də və relyef də çox sərtdir. Ən düzgün variant Mehri ərazisindəndir. Onsuz da sovet vaxtında oradan dəmir yolu keçirdi və avtomobil yolu da tikilirdi. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. Azərbaycandan Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir.

Rövşən Məmmədov: Cənab Prezident, həmkarlar yəqin ki, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı sualları davam etdirəcəklər. Amma mən mövzudan bir qədər kənara çıxmaq və bu gün ictimaiyyəti düşündürən digər bir mövzuya keçid almaq istərdim. Bu, növbədənkənar prezident seçkiləri ilə bağlıdır. Məlumdur ki, bu il fevralın 7-nə təyin olunub və müxtəlif fikirlər, müxtəlif versiyalar səslənir. Amma ən doğru cavabı Sizdən ala bilərik. Cənab Prezident, belə bir addımın atılmasını şərtləndirən əsas amillər nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Düzdür, bu barədə müxtəlif versiyalar var. Yaxşı ki, bu sualı verirsiniz ki, mən bunun əsas səbəblərini sizin üçün və ictimaiyyət üçün açıqlayım. Birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni, Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni

dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir.

İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni, 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır.

Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni, əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir.

Rövşən Məmmədov: Cənab Prezident, bunu həm də yeni missiyanın başlanğıcı kimi qəbul etmək olarmı?

**Prezident İlham Əliyev:** Əlbəttə. Çünki bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə də bu barədə yəqin müzakirələr gedəcək. Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.

Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır. Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir.

Təbii ki, bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum. Ermənistanda yersiz illüziyalar yarana bilər ki, nə vaxtsa onlar Qarabağı yenidən bizdən qopara bilərlər. Belə fikirlər onların cəmiyyətində dolaşır, o cümlədən rəhbər qruplaşma daxilində də belə fikirlər var. Mən istisna etmirəm ki, bu fikirlər, necə deyərlər, getdikcə daha geniş yer tutacaq.

Ona görə biz heç vaxt sakitləşməməliyik və mən, xatırlayırsınızsa, İkinci Qarabağ müharibəsindən sonra demişdim və bunu da etdik, biz daha güclü ordu yaratmalıyıq. Biz son üç il ərzində böyük yol keçmişik. İndi bunların hamısını demək yəqin ki, düzgün olmaz, amma mətbuatda olan məlumat kifayətdir. Yeni silahlı birləşmələr antiterror əməliyyatında çox önəmli rol oynamışdılar, yeni texnika, yeni sursatlar, ən müasir avadanlıq. Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıqsalxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik.

Ona görə cəmiyyətdə sakitləşmə olmamalıdır. Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir. Ancaq yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər. Bu, ayrı bir böyük söhbətin mövzusudur. Bəlkə nə vaxtsa ayrıca bu məsələ ilə bağlı da biz danışarıq. Amma hər halda sualınıza cavab verərək

deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq.

Mirşahin Ağayev: Möcüzələrin adiləşdiyi dövrdə yaşayırıq, cənab Prezident, bax, biz oturmuşuq burada, qalib xalqın qalib liderinə suallar veririk, cavablar alırıq və hörmətli tamaşaçılar baxır bizə. Mən inanmaq istəyirəm ki, bu tamaşaçılar arasında heç vaxt ağlımıza gətirmədiyimiz, amma artıq reallığa çevrilmiş Arkadi Qukasyan da var, Bako Saakyan da var, Araik Arutunyan da var, Ruben Vardanyan da var və bu adamlar Azərbaycan xalqının Qələbəsinin real göstəriciləridir - məğlubiyyət formatında göstəriciləridir və eyni zamanda, mən sülh müqaviləsi ətrafında danışmaq istəyirəm. Ona görə ki, sülh müqaviləsi üzərində iş yəqin ki, bütün bu proseslərin sonunu gətirməli olan işdir. Amma başqa bir tərəfdən də fikirləşirsən ki, Ermənistanın ipinin üstünə odun yığmaq olarmı və nəzərə alsaq ki, bu ip onların əlində deyil və çoxdan deyil.

**Prezident İlham Əliyev:** Bilirsiniz, bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri belə qavraya da bilmədilər. O qədər tez bir zamanda başladı və sona çatdı və eyni zamanda, bu parlaq Qələbə fonunda bax, dediyiniz o personajların da tutulması bir qədər kölgədə qaldı. Halbuki bu, özlüyündə böyük bir tarixi hadisədir. Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün dırnaqarası keçmiş liderlər, ondan sonra Qarabağa ixrac edilmiş dırnaqarası baş nazir və digərləri var. Təkcə o qruplaşmada iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum. Onların heç ağlına gələ bilməzdi ki, bu gün onlar Bakıda çay içmək istəyini belə reallaşdıracaqlar, istintaq təcridxanasında oturacaqlar və ədalət məhkəməsinin qərarını gözləyəcəklər.

Sülh müqaviləsinə gəldikdə isə, mən bir daha qeyd etməliyəm. Artıq bir balaca qeyd etdim ki, İkinci Qarabağ müharibəsi başa çatanda bir vakuum yaradılmışdı və heç kim bilmirdi ki, bundan sonra nə olacaq. Çünki doğrudan da çox unikal bir situasiyadır və o zaman məhz Azərbaycan tərəfi bu boşluğu doldurmaq üçün təklif elədi ki, yəqin sülh müqaviləsi olmalıdır. Hər halda danışıqlar başlanmalıdır, hətta o vaxt hələ fəaliyyətdə olan Minsk qrupunun nümayəndələri də gələndə məndən soruşmuşdular ki, biz indi nə ilə məşğul olaq? Yəni, Sizin məsləhətiniz nədir? Mən dedim ki, indi Qarabağ məsələsi artıq bağlandı. Əgər nə iləsə məşğul olmaq istəyirsinizsə, bir xeyir gətirmək istəyirsinizsə, siz Ermənistan-Azərbaycan normallaşma prosesində iştirak edə bilərsiniz. Amma onlardan hər hansı bir təklif gəlmədi. Onda biz bu təklifi irəli sürdük. Amma irəli sürəndən sonra da heç bir cavab gəlmədi. Ondan sonra biz məlum beş prinsipi rəsmiləşdirdik və bu prinsiplər əsasında faktiki olaraq danışıqlar başlamışdır. Düzdür, o vaxt Ermənistan və bəzi başqa ölkələr bu prinsiplərə Qarabağla bağlı mövzunu da əlavə etmək istəmişdilər. Halbuki biz ilk gündən bunun əleyhinə idik. Çünki mən deyirdim ki, Qarabağ bizim daxili işimizdir, əgər sülh müqaviləsi imzalanarsa, bu, dövlətlər arasındakı müqavilə olacaq. Onu da mən bildirdim ki, bu, çox yığcam bir sənəd olmalıdır. Yəni, 5-10 cildlik yox, maksimum 5-10 səhifəlik əsas prinsiplərdir. Onu da burada, necə deyərlər, velosiped icad etmək lazım deyil, sadəcə olaraq, beynəlxalq hüququn prinsipləri oraya salınmalıdır.

Ancaq bir müddət danışıqların aparılması o qədər də böyük ümidlər doğurmurdu. Çünki Ermənistan və onun arxasında dayanan bəzi ölkələr mütləq Qarabağla bağlı mövzunu oraya salmaq istəmişdilər, xüsusilə status məsələsini. Bir müddətdən sonra artıq hesab edirəm ki, real vəziyyət, bizim addımlarımız və mövqeyimiz, o cümlədən statusun göndərdiyim o ünvanın göstərilməsi müəyyən dərəcədə onların mövqeyində dəyişikliyə səbəb oldu və artıq status yox, "Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri də oraya salınmalı idi" iddiası ilə həm Ermənistan, həm də onun havadarları buna çalışırdılar. Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir. Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da, - yəni, "Ermənistan plyus" belə adlandıraq bu qruplaşmanı, - çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovulmuşdu, amma bunlar buradadır. Yəni ki, onlar, bərabər hüquqa malik deyillər. Halbuki bu, faktiki olaraq rasist bir yanaşma idi. Yəni, bizim mövqeyimiz dəyişməz olaraq qalırdı, ya bu məsələ sülh müqaviləsində əks olunmur, ya da ki, hər iki nümayəndənin hüquqları və təhlükəsizliyi əks olunacaq. Danışıqların belə səmərəsiz keçməsinin də əsas səbəbi bu idi.

Sentyabr hadisələrindən sonra isə biz yeni bir vəziyyətlə üzləşdik. Ermənistana verilən vədlər, xüsusilə də həm BMT-də, həm Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək, Azərbaycan böyük təzyiq altına düşəcək, dırnaqarası bu əməliyyat Azərbaycana baha başa gələcək. Bu əməliyyat, bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədiyi kimi tərtib edə bilərlər və bizə də kimsə təzyiq edib bizi də razı sala bilərlər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə, - çünki burada təkliflər mübadiləsi 5-6 dəfə gedib, mətnlər göndərilir şərhlərlə, - cavab vermirdi. Biz onu artıq rəsmi qaydada bildirəndə ki, 70 gün, yəni o vaxt

deyəsən 60 gün gözləyirik, ondan sonra təklif verdilər və hazırda onların təklifində, yəni onların şərhlərində Qarabağla, Qarabağ ermələri ilə bağlı bir kəlmə belə yoxdur. Yəni, bu mövzu artıq çıxarılıb və faktiki olaraq sülh müqaviləsinin imzalanması üçün real şərait məhz indi yaradılıb - məhz sentyabr əməliyyatından sonra yaradılıb. Onu da bildirməliyəm ki, biz onlardan fərqli olaraq öz şərhlərimizi 70 gündən sonra yox, 30 gündən sonra göndərdik və ondan iki həftə sonra onlar, bax bu ayın 4-də yeni şərhlər göndərdilər. Yəni, yenə də sual yaranır: Əgər bu şərhləri iki həftə ərzində vermək olarsa, sən keçən dəfə 70 gün nəyi gözləmisən? Yəni, mənim fərziyyəm tam sübuta yetirilir.

Yəni bu, belə pərdəarxası hadisələrin bir qədər izahatı idi. Məncə, sizə və ictimaiyyətə maraqlı olar. Amma əsas məsələ odur ki, mən hesab edirəm, sülh müqaviləsinin imzalanması üçün əsas şərtlər indi yaradılmışdır. Ona görə mətn üzrə işlər fəal getməlidir. Bir məsələ də var. Yəqin, siz də bunu bilirsiniz, Ermənistan istəyir ki, bu sülh müqaviləsinin zəmanətçiləri olsun. Biz hesab edirik ki, buna heç bir ehtiyac yoxdur. Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsidir. Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik. Ancaq bu kömək elə olmalıdır ki, məcburi olmasın. Çünki bəziləri indi yarışa çıxıblar ki, danışıqlar bu ölkədə keçirilsin, o ölkədə keçirilsin, ya üçüncü ölkədə keçirilsin. Bu, bir qədər geosiyasi rəqabətə bənzəyən bir şeydir. Mən bunu istəməzdim. Mən ümumiyyətlə istəməzdim ki, Ermənistan-Azərbaycan münasibətləri geosiyasi mövzuya çevrilsin. Bu, bizim iki ölkə arasındakı məsələmizdir, özümüz də bunu həll etməliyik. Əgər razılığa gəlsək, sülh müqaviləsi imzalanacaq. Əgər razılığa gəlməsək, deməli, ya danışıqlar davam etdiriləcək, ya danışıqlar dayandırılacaq. Hər iki variant da mümkündür.

Mirşahin Ağayev: Dörd il bundan qabaq yanvar ayının 21-də Davos İqtisadi Forumunda Sizə bir moderator sual vermişdi: Cənab Prezident, Avrasiyada xeyli qüvvələr birləşib, Rusiya və Çin xatırlanmışdı və belə bir sual verilmişdi ki, Azərbaycan Prezidenti olaraq Siz, ilk növbədə, kimə zəng edərdiniz? Mən o sualın da, cavabın da verildiyi an orada idim və bu gün həmin sualı təkrarlamaq istəyirəm. Niyə? Ona görə ki, o sual veriləndə Azərbaycan hələ 20 faiz əskik idi, ərazi bütövlüyümüz bərpa olunmamışdı. Bu gün dövlət müstəqilliyini, suverenliyini bərpa etmiş bir Liderə bu sualı vermək istəyirəm. Azərbaycan Respublikasının Prezidenti kimi Siz kimə zəng edərdiniz?

**Prezident İlham Əliyev:** Prinsipcə, deyə bilərəm ki, mən, ümumiyyətlə, çox nadir hallarda hansısa dövlət başçısını telefon zəngi ilə narahat edirəm. Çünki hesab edirəm ki, mənim həmkarlarımın hamısı çox məşğul insanlardır və elə bir ciddi mövzu yoxdur ki, bu mövzu ilə bağlı nəsə təcili demək lazımdır. Adətən hər hansı bir mövzu olanda Xarici İşlər Nazirliyi vasitəsilə bu mesajlar göndərilir, ya da ki, köməkçim vasitəsilə. Mən dövlət başçılarının bəzilərini ancaq onların doğum günlərində telefonla zəng edib təbrik edirəm. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi zamanı ən çox telefonla danışdığım insanlar Türkiyə Prezidenti və Rusiya Prezidenti idi. Bu da təbiidir, Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi və Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi. Bu, sadəcə olaraq, Azərbaycan xalqına həmrəylik və dəstək mesajı deyildi. Bu, müharibəyə qarışmaq istəyənlərə bir ciddi mesaj idi ki, kənarda durun. Ona görə Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır və daim zəngləşirdik, söhbətləşirdik, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan maraqlanırdı müharibənin gedişatı ilə bağlı və məni Şuşa qələbəsi münasibətilə ilk təbrik edən də o olmuşdur. Prezident Putinlə də dəfələrlə söhbətim olmuşdur. Çünki bilirsiniz ki, Rusiya bir neçə dəfə müharibəni dayandırmaq üçün səylər göstərmişdi və mən də şərtləri qoymuşdum. Mən hələ oktyabrın ilk ongünlüyündə aramızda olan telefon söhbəti zamanı demişdim ki, biz dayanmağa hazırıq, amma şərtlərimiz var. Onlar bizim torpağımızdan çıxmalıdır və mənə tarix verməlidir, təqvim verməlidir nə vaxt çıxacaq. Mən artıq bunu Azərbaycan ictimaiyyətinə də dedim, yəqin ki, yadınızdadır. Mənim televiziya çıxışlarım da yəqin yadınızdadır ki, Ermənistan bizə vaxt versin, tarix versin və biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Noyabrın 10-da bizə tarix verildi və biz müharibəni dayandırdıq. Ona görə təmaslar daha çox bunun ətrafında idi və əlbəttə ki, noyabrın 9-da, dediyim kimi səhərdən noyabrın 10-da erkən saatlara qədər bu razılaşma, mətn razılaşması prosesi getmişdir. Bu gün prinsip etibarilə mən kimi doğum günü münasibətilə təbrik edirəm, bu mətbuatda var. Məni də kim təbrik edir, onların sayı çox deyil, 4-5 Prezidentdir, mən tərəfimdən də 4-5 Prezidentə zəng edib telefonla təbrik edirəm. Amma yəqin bu gün əgər hansısa ciddi bir məsələ ölkəmiz qarşısında dursa, əlbəttə, ilk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana zəng edərəm, onu məlumatlandıraram.

Fikrət Doluxanov: Cənab Prezident, bir qədər öncə gələcək inkişaf, yeni dövr və yeni missiya barədə söhbət açıldı. Bu yerdə Böyük Qayıdış Proqramına toxunmaq istərdim. Siz çıxışlarınızın birində belə bir ifadə işlətmişdiniz ki, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Biz görürük ki, orada sürətli bərpa və yenidənqurma işləri aparılır. 2024-cü il baxımından gözləntiləriniz nədir və yerli sahibkarların, xarici investorların bu işlərə daha da fəal cəlb olunması üçün hansı institusional addımların atılması nəzərdə tutulub?

**Prezident İlham Əliyev:** Bu günə qədər görülən işlər göz qabağındadır. Bu haqda çox danışmaq istəməzdim. Sadəcə olaraq, bütün böyük infrastruktur layihələri ilə yanaşı, hesab edirəm ki, əsas nailiyyətimiz odur ki,

beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək. Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə mənim tərəfimdən təsdiq olunacaq, bir neçə dəfə artıq müzakirədən keçib. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bizim əsas alətimizdir, bərpa üçün əsas alətimizdir.

Bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Bunlar nəhəng layihələrdir. Bildiyiniz kimi, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər, xəstəxanalar, artıq başlamışdır onların inşaatı, bəziləri artıq istifadəyə verilmişdir. İçməli su xətləri, elektrik enerjisi ilə bağlı layihələr, suvarma ilə bağlı qeyd etdiyim su anbarları, məsələn Sərsəng Su Anbarı - bu gün anbarda ancaq 50 faiz su var. Çünki işğal dövründə ermənilər ancaq onu istismar ediblər. Yəni, oraya bir qəpik də vəsait qoyulmamışdı. Xaçınçay Su Anbarı tamamilə məhv edilmişdi, indi bu yaxınlarda açıldı. Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışını edəcəyik. Suqovuşanı biz yenidən qurduq, indi kanallar çəkilir. Ondan sonra Zabuxçay Su Anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək. Yəni, keçmiş köçkünlər qayıdanda artıq orada əkin-biçin üçün şərait olmalıdır. Onu da bildirməliyəm ki, qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı bizim qurumlarımız ciddi məşğuldur və həm gedənə qədər onlar üçün treninqlər keçirilir, həm də yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və yaradılacaq. Ağdamda və Cəbrayılda iki böyük sənaye zonası artıq fəaliyyətə başlayıb və bu il o zonaların fəaliyyəti böyük dərəcədə genişlənəcək.

Bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər - Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, - hansılarda ki, mən təməl qoymuşam, - orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk. Kəndlər tamamilə dağılmış vəziyyətdədir. Mən Qarabağa son səfərim zamanı oraya baş çəkmişəm. Tamamilə dağılmış vəziyyətdədir, Malıbəyli məscidi də dağılmış və vandallar ondan da peyin anbarı kimi istifadə etmişlər. Yəni, sadaladığım bu, ən azı şəhər və kəndlərə keçmiş köçkünlər qayıdacaq və 2026-cı ilin sonuna qədər o artıq bəyan edildi, hədəfimiz 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Əminəm ki, biz buna da nail olacağıq. Onu da bir daha bildirməliyəm ki, bütün bunları biz öz daxili imkanlar hesabına edirik. Heç bir donor təşkilatı, heç bir digər tərəf bizə kömək göstərmir. Ancaq Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı bizə qardaş dəstəyi göstərmişdir, bütün qalan layihələr daxili imkanlar hesabına reallaşdırılır.

Özəl sektoru da siz qeyd etdiniz, mən çox şadam və bir daha özəl sektora müraciət edərək onlara çağırış etmək istəyirəm ki, Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoysunlar. Artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində bir neçə layihə özəl sektor tərəfindən icra edilir.

Dövlət öz üzərinə düşən vəzifəni icra edəcək, biz keçmiş məcburi köçkünləri qaytaracağıq. Amma, eyni zamanda, mən hesab edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda ancaq o bölgədən çıxmış insanlar yaşamamalıdır. Azərbaycanın istənilən yerindən insanlar orada yaşamaq üçün imkanlara malik olmalıdır. Təbii ki, məsələn, Bakıdan, ya Sumqayıtdan oraya gedib yaşamaq istəyən getsin, ev alsın özünə, mənzil alsın, torpaq alsın, ev tiksin və orada yaşasın. Yəni, onun üçün dövlət, təbii ki, heç bir ev tikən deyil.

Onu da mən bizim bütün aidiyyəti qurumlarımıza bildirmişəm ki, biz orada yaşamaq istəyənlər üçün evlər tikirik, orada bir bağ evi əldə etmək istəyən üçün yox. Ora bağ evi deyil, ora yaşamaq yeridir. Kim orada yaşamaq istəyirsə, dövlət onun üçün pulsuz ev də tikir, hər şey də təşkil edir. Əgər kimsə orada, sadəcə olaraq, gözəl təbiəti və təmiz havanı nəzərə alaraq köçmək istəyirsə, özəl sektor onlar üçün orada, məsələn, Ağdam şəhərində indi özəl sektor bir yaşayış kompleksi inşa edir, çoxmərtəbəli ev, kim istəyir gedib ondan ev alar, orada da yaşayar. Daşaltıda da, Hadrutda da bu gün bu layihələr icra edilir.

Ona görə özəl sektora da mənim tövsiyəm budur ki, bundan istifadə etsinlər. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün Baş planları təsdiqləndi. Şəhərlərin bütün Baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanmışdır, o cümlədən Şuşa şəhəri. Şuşa elə bir şəhərə çevriləcək ki, bunun dünyada bənzəri olmayacaq, memarlıq və təbiət bir vəhdət təşkil edəcək.

Ona görə bizim özəl sektorumuz Bakıda, Sumqayıtda hər bir tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər və görərlər ki, o iqtisadi cəhətdən də səmərəli olar və eyni zamanda, biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir. Ona görə biznesin sosial məsuliyyəti, hesab edirəm ki, bu olmalıdır. Getsinlər, müəssisələr qursunlar, evlər tiksinlər, zavodlar, fabriklər inşa etsinlər, dövlət isə öz üzərinə düşən bütün işləri görəcək - infrastruktur, xəstəxanalar, məktəblər, su anbarları, qazlaşdırma, içməli su,

elektrik enerjisi, evlər, yollar, körpülər. İndi ancaq Murovdağın altındakı tuneli nəzərə alsaq, bunun uzunluğu təxminən 12 kilometrdir. İndi təsəvvür edin, bir tunel 12 kilometrdir, amma belə tunellərin sayı, - düzdür, o ölçüdə yox, - onlarladır. Yəni, 2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək.

Çinarə Nurməmmədova: Cənab Prezident, bu gün biz Böyük Qayıdışdan, bərpa işlərindən danışırıq, amma qarşımızda duran digər vəzifələr də var: sərhədlərin delimitasiyası və demarkasiyası. Ermənistanın baş naziri Nikol Paşinyan sərhədlərin delimitasiya və demarkasiyasının 1975-ci il xəritələrinə əsasən aparılmasını vacib sayır və bəzi ölkələr də bu iddia ilə çıxış edirlər. Niyə bu gün Ermənistan məhz 1970-ci il xəritələrinə istinad edilməsini istəyir? Azərbaycan üçün hansı xəritələr daha əsasdır və xüsusilə də istərdim Naxçıvanın Kərki və Qazaxın yeddi kəndi ilə bağlı məsələyə də münasibətinizi öyrənək ki, delimitasiya və demarkasiya çərçivəsində bu məsələ necə tənzimlənəcək?

Prezident İlham Əliyev: Bu gün işğal altında qalan səkkiz kəndin məsələsi daim gündəlikdədir. Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır. Onu da bildirməliyəm ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: həmin o bölgənin delimitasiya məsələsi, Qazax-Tovuz bölgəsinin.

Nə üçün 1975-ci ilin, yaxud da ki, indi 1970-ci ilin, hətta bəzi təkliflərdə 1970-ci, 1990-cı illərin xəritələri, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm. Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verilmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir. Azərbaycan xalqı əsrlər boyu orada yaşayıb və İrəvanın tarixi, yəni, bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin mövcudluğunu, çoxəsrlik mövcudluğunu təsdiqləyir. İrəvan o şəhərlərdəndir ki, sanki orada köhnə şəhər yoxdur, sadəcə olaraq, Azərbaycan şəhəri olub, o da sökülüb, dağılıb. O qərara gəldikdə isə mən hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər? Yəni, 28 mayda respublika elan olundu, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin - o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni, o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi. 1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir. Bu da tarixi faktdır, xəritələr var, XX əsrin əvvəlinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur, - şərqi, qərbi yoxdur, – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir. O vaxta qədər hissə-hissə bizim torpaqlarımız Ermənistana verilirdi və təxminən 100 min kvadratkilometrdən, - mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam, - 86,6 min kvadratkilometrə düşdü. Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. O vaxta qədər hissə-hissə verilirdi.

Onlar məhz buna görə 1970-ci illərin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, “Ermənistan plyus” qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik.

Bizim mövqeyimiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz bütövlükdə heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır.

O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir, - çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, - həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni,

bizim mövqeyimiz bundan ibarətdir. Ermənistanın mövqeyi nədən ibarətdir, biz bunu başa düşə bilmirik. Sadəcə olaraq bildirmək istəyirəm ki, nə deyirlər. Deyirlər ki, tərəflər güzgü şəklində geri çəkilsin. Amma hara çəkilsin? Bu məsələ ilə bağlı sualı hələ 2021-ci ilin may ayında mənə bəzi həmkarlarım vermişdi. Yadınızdadır, o vaxt sərhəddə müəyyən dəqiqləşmə aparılmışdı və bir telefon zəngi əsnasında dedilər ki, xahiş edirik, siz qayıdasınız. Deyirəm, haraya qayıdaq? Deyirlər ki, haradan gəlmisiniz oraya. Deyirəm, biz Bakıdan gəlmişik, Bakıya qayıdaq? Biz 30 il orada olmamışıq. Əgər o sərhəd sərhəd idisə, onda Ermənistan onu sərhəd kimi tanıyaydı, sərhəd nişanlarını qoyaydı. O, axı bu sərhədi tanımırdı. O hesab edirdi ki, onun sərhədi Ağdamdadır. Ona görə biz oraya Bakıdan gəlmişik, biz orada olmamışıq. Ona görə haraya qayıdaq? Deyin haraya qayıdaq, qayıdaq. Bax, mənim o sualıma cavab olmadı.

Ona görə, əlbəttə ki, biz heç yerə qayıdan deyilik. Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir. Ancaq bizim indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu, dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək.

Çinarə Nurməmmədova: Cənab Prezident, bu, sülh müqaviləsinin predmeti olacaqmı? Çünki bir sıra rəsmilər tərəfindən açıqlama verilib ki, delimitasiya və demarkasiya məsələsi sülh müqaviləsinin predmeti olmayacaq.

**Prezident İlham Əliyev:** Bəli. Prinsipcə, sülh müqaviləsində delimitasiya və demarkasiya ilə bağlı hər hansı bənd ola bilər. Ancaq əgər biz delimitasiyanı gözləyib sülh müqaviləsini təxirə salsaq, onda sülh müqaviləsi heç 30 ildən sonra da imzalanmaya bilər. Çünki dəfələrlə biz demişik ki, bizim dost və qonşu Gürcüstanla delimitasiya hələ başa çatmayıb. Sərhədin cəmi 70 faizi müəyyən olunub və təsdiqlənib. Rusiya ilə bizim delimitasiya prosesimiz 20 il davam etdi, 2012-ci ildə ancaq imzalandı və bu günə qədər 13 il keçib, bütün o dirəklər, nişanlar hələ qoyulmayıb, demarkasiya hələ ki, tam aparılmayıb. Ona görə əgər biz bu iki mövzunu qarışdırsaq, onda sülh müqaviləsi uzanacaq, bəlkə də 30, 50 il bundan sonraya. Biz hesab edirik ki, sülh müqaviləsi imzalanmalıdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Amma yəni, demək istəmirik ki, bizim şərtlər əsasında. Ancaq hesab edirəm ki, bizim şərtlərimiz ən ədalətli şərtlərdir. Delimitasiya prosesi isə davam etməlidir. Kəndlər bizə qaytarılmalıdır. Anklavlarla bağlı komissiyanın işi nəticəsində də razılığa gəlmək olar. Yəni, hesab edirəm ki, bu, tam məntiqli yanaşmadır.

Günel Kərbəliyeva: Cənab Prezident, Azərbaycanın bərpaolunan enerji potensialı ildən-ilə artır. Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir. Hətta 2030-cu ilə qədər bu potensialın 30 faiz artırılması planlaşdırılır. Eyni zamanda, ölkəmiz COP29 kimi böyük bir tədbirə ev sahibliyi edəcək. Qarşıda duran hədəflər, əsas istiqamətlər nələr olacaq?

**Prezident İlham Əliyev:** Bəli, bu məsələyə indi çox ciddi önəm veririk və hesab edirik ki, biz burada da istədiyimizə nail olacağıq. Məqsəd də odur ki, biz bu gün dünyada, xüsusilə dünyanın enerji məkanında gedən proseslərdən geridə qalmayaq. Çünki indi hamımız yaxşı bilirik ki, bir çox aparıcı keçmiş neft şirkəti hətta öz adlarını da dəyişdirib enerji şirkətlərinə çevirirlər və getdikcə yaşıl enerjiyə tələbat artacaq. Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər yaşıl enerji layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Orada müxtəlif məhdudlaşdırıcı addımlar da istisna deyil.

Ona görə biz bu ümumi trendin içində olmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim misilsiz potensialımız var. Dəfələrlə bu barədə rəqəmlər deyilib və təkcə biz tərəfdən yox, Beynəlxalq Maliyyə Korporasiyası, - o da Dünya Bankının bir qoludur, - Xəzərdəki bizim potensialımızı 157 min meqavat həcmində təsdiqləyib. Ona görə indi enerji sahəsində bu istiqamət prioritetdir. Artıq keçən ilin oktyabr ayında birinci böyük Günəş Elektrik Stansiyası istismara verildi və qrafik üzrə biz yaxın üç-dörd ilə bərpaedilən enerji növlərinin həcmini təqribən 3-4 min meqavat səviyyəsinə çatdıracağıq. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi elektrik stansiyalarımızın potensialı hazırda təqribən 7-8 min meqavatdır və yeni stansiya da inşa edilir - 1200 meqavatlıq, yaxın zamanlarda istifadəyə veriləcək. Hazırda bizim elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. İndi bərpaolunan enerji növləri bizə, o cümlədən imkan verəcək ki, həmin o 5 milyard kubmetr qazı yox, bəlkə 1-2 milyard kubmetr qazı elektrik enerjisinin istehsalına xərcləyək, qalan qazı ixrac edək. Onsuz da Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpaolunan enerji hesabına edə bilərik.

İndi imzalanmış kontraktlar və anlaşma memorandumları 10 min meqavat istehsalı nəzərdə tutur. Bizim imzaladığımız kontraktlar və memorandumlar dünyanın aparıcı yaşıl enerji şirkətləri ilədir. Ona görə fərz etmək olar ki, onların hamısı icra ediləcək və bu, bizim bütün daxili tələbatımızı ödəyəcək. Təbii ki, bunun iqlim dəyişikliyi məsələlərinə də müsbət töhfəsi olacaq və eyni zamanda, bizə imkan verəcək ki, təbii qazı daha böyük həcmdə ixrac edək. Hətta əgər 10 min meqavatın yarısı həll olunsa, bu, bizə kifayət edəcək. Ancaq mən hesab edirəm ki, bu 10 min meqavatla bizim işimiz kifayətlənməyəcək, çünki potensial həddindən artıq böyükdür. Həm quruda, həm dənizdə yerlər təsdiq edildi və növbəti böyük günəş və külək stansiyalarının

gələn il istifadəyə verilməsi nəzərdə tutulur. Bax, əsas məsələ bundan ibarətdir və hesab edirəm ki, bunun potensialı həm iş yerlərinin yaradılmasına, yeni texnologiyaların Azərbaycana gətirilməsinə, həm də bölgələrin inkişafına böyük təsiri olacaq. Çünki Xəzər dənizindən kənarda bizim bütün qalan potensial stansiyalarımız bölgələrdə yerləşir, o cümlədən Qarabağ bölgəsində.

Fikrət Doluxanov: Cənab Prezident, dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi baş tutdu və mərasimdə "Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır" fikri bir daha səsləndi. Eyni zamanda, Sizin bu layihələrin həyata keçirilməsində xüsusi rolunuz bir daha vurğulandı. Bu gün Azərbaycanın Avropa üçün rolunu və gələcəyini necə qiymətləndirirsiniz?

**Prezident İlham Əliyev:** Bu, vacib mərasim idi və mənim orada iştirakım, əlbəttə ki, Azərbaycanın artan rolunun təzahürüdür. Çünki bu, təbii ki, Azərbaycan qazından söhbət gedir və Serbiya Azərbaycan qazını alan sayca səkkizinci ölkədir. Bu vaxta qədər Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan artıq bizim qaz sistemimizə qoşuldu, müxtəlif interkonnektorlar da yaradıldı və bütün bu interkonnektorların təkanverici qüvvəsi Cənub Qaz Dəhlizi olmuşdur. Çünki əgər biz vaxtilə bu təşəbbüslə çıxış etməsəydik və nəinki təşəbbüslə, əgər bunu həyata keçirməsəydik, təbii ki, bu gün hər hansı bir interkonnektordan söhbət gedə bilməzdi. Bütün bu interkonnektorlar, o cümlədən Yunanıstan-Bolqarıstan və Bolqarıstan-Serbiya, Rumıniya və Macarıstan Cənub Qaz Dəhlizinin bir budağıdır. Yəni, bu gün səkkiz ölkə Azərbaycan qazını alır, onlardan altısı Avropa ölkəsidir. Gələcəkdə bu ölkələrin sayı artacaq. Çünki biz bir neçə Avropa ölkəsi ilə indi danışıqlar aparırıq və deyə bilərəm ki, danışıqlar önəmli mərhələdədir.

Tələbat var və artacaq, resurslarımız var, "Şahdəniz" qaz yatağı dünyanın ən böyük qazkondensat yatağıdır. Keçən il başlamışdır, amma bu il artıq 1,5 milyard kubmetr qaz "Abşeron" qaz yatağından çıxarılacaq. Bu, əlavə resursumuzdur. Ondan sonra, ümid edirəm ki, hər halda qarşıya belə vəzifə qoyulub, bu ilin sonuna - dekabr ayına qədər "Azəri-Çıraq-Günəşli" yatağında "Dərin qaz" adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq. Orada da potensial çox böyükdür.

Bizim digər layihələrimiz və "Abşeron" qaz yatağının ikinci fazası - bu barədə də qərar qəbul edilməlidir, yəni, investisiya qərarı. Bu qərar qəbul olunarsa, əminəm ki, olunacaq, "Abşeron"da illik hasilatın həcmi 5 milyard kubmetr təşkil edəcək. Yəni, bu, çox əhəmiyyətli rəqəmdir. Ondan başqa, "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan", "Qarabağ" - bütün bu yataqlarda bu gün hazırlığa doğru işlər gedir və onların da resurs bazası kifayət qədər böyükdür. Yəni, mən vaxtilə deyəndə ki, 100 il bundan sonra da Azərbaycan tərəfdaşlar üçün önəmli tərəfdaş olacaq, bunu nəzərdə tuturdum və bu gün bu reallaşır. Onu da bildirməliyəm ki, Cənub Qaz Dəhlizi indi tam gücü ilə işləyir və əgər bu dəhlizlə biz əlavə qaz həcmini göndərmək istəsək, onda o, gərək genişləndirilsin. Oraya, əlbəttə, əlavə vəsait qoyulmalıdır. Amma bu nasos stansiyaları vasitəsilə genişləndirilə bilər və tələbat da var. Prinsip etibarilə Azərbaycanda gələcəkdə yeni qaz infrastrukturunun yaradılması məsələsinə də baxıla bilər, bunu da biz nəzərdən keçiririk.

Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişdik. Avropa Komissiyası qeyd etdiyiniz kimi, Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdır. Bizim Avropa məkanına göndərdiyimiz qazın həcmi çox da olmasa, təqribən 12 milyard kubmetrə yaxındır. Halbuki bu, bizim ixracımızın yarısıdır. Amma ölkələrin əhatəsi məhz o ifadəni tamamilə haqlı edir, yəni, Panavropa təchizatçısı.

Əlbəttə ki, bu, bizim böyük nailiyyətimizdir. Bu, bizə böyük dividendlər gətirir, həm iqtisadi, həm də təbii ki, siyasi. Çünki sirr deyil ki, qaz amili enerji təhlükəsizliyi nöqteyi-nəzərindən ön plandadır. Bizim üstünlüyümüz məhz ondadır ki, biz böyük yatırım qoyaraq müasir qazpaylayıcı şəbəkə yaratmışıq. Resurs bazamız kifayət qədər böyükdür və artacaq. Avropada tələbat da mütləq artacaq. Çünki onlar nə qədər yaşıl enerjiyə keçid etmək istəsələr, yenə də təbii qaza ehtiyacları olacaq.

Amma yaşıl enerjiyə gəldikdə, yenə də burada Azərbaycan öz rolunu oynayacaq. Çünki yaşıl enerji dəhlizi, o cümlədən Qara dənizin altı ilə çəkiləcək kabel də Azərbaycan resurslarına hesablanıb. Yəni, qazla, neftlə bağlı bütün məsələlər həll olunub. Yaşıl enerjini ixrac etməklə bizim önəmimiz daha da artacaq. Avropa Komissiyasında, əlbəttə ki, bunu yaxşı başa düşürlər və martın əvvəlində Bakıda Cənub Qaz Dəhlizinin növbəti Məşvərət Şurası keçiriləcək və bu Məşvərət Şurasına Azərbaycanla Avropa Komissiyası həmsədrlik edir.

Ancaq bu məsələ ilə bağlı bir məqama diqqət yetirmək istərdim. Əfsuslar olsun ki, Avropada bəzi siyasətçilər ya bunu anlamırlar, ya onlarda kifayət qədər informasiya yoxdur və sentyabr hadisələrindən sonra hətta bəziləri bəyan edirdilər ki, Azərbaycanla Avropanın qaz əməkdaşlığı dayandırılmalıdır. Belə açıqlamalar, əlbəttə ki, bizim əməkdaşlığımızı gücləndirmir. Düzdür, bu açıqlama Avropa Parlamentinin sədri tərəfindən verilmişdi. Avropa Komissiyası heç vaxt belə açıqlamalar verməyib və təbii ki, verməyəcək. Amma Avropa Parlamentinin sədri kiçik vəzifə deyil və əgər bu şəxs bunu deyirsə, deməli, burada düşünməyə mövzu var. Amma onu bəri başdan bildirməliyəm ki, əgər hər hansı

bir səbəbə görə bu mövqe üstünlük təşkil etsə, onda, sadəcə olaraq, bizimlə uzunmüddətli kontraktlar imzalayan şirkətlər 100 milyonlarla, bəlkə də milyardlarla avro dəyərində cərimələr ödəməli olacaqlar. Ona görə belə cəfəng açıqlamalar verən məsul şəxslər daha diqqətli olmalıdırlar.

Azərbaycan qaz ixracından neft ixracı ilə müqayisədə qat-qat az gəlir əldə edir. Prinsip etibarilə əgər fərz etsək ki, bu gün bizim qaz ixracımız yoxdur, adi vətəndaş bunu heç vaxt hiss etməyəcək. Əgər bizim qazımızın Avropaya nəqli hansısa səbəbə görə kəsilsə, onda bir çox ölkələr daha çətin vəziyyətə düşəcək və bunu Avropada hər kəs başa düşməlidir, o cümlədən məsuliyyətsiz bəyanatlar verən Avropa Parlamentinin sədri də bunu bilməlidir.

Lidiya Molodtsova: Cənab Prezident, məlum olduğu kimi, Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildən bu beynəlxalq təşkilatda üç il müddətinə sədrliyə başladı. Mənim əvvəlki sualıma cavabınızda Sizin qeyd etdiyiniz kimi, respublikaya etimadın örnəyi olan Bakı Təşəbbüs Qrupunun yaradılması üzrə irəli sürülən təşəbbüslər və uğurlu fəaliyyət sayəsində Azərbaycanın Hərəkatda sədrliyi daha bir il müddətinə uzadıldı. Bu nüfuzlu təşkilata sədrlik Azərbaycana nə verdi və həmin illər ərzində Hərəkat hansı uğurlara imza atdı?

**Prezident İlham Əliyev:** Bu sədrlik bizə BMT-dən sonra ən iri təşkilata rəhbərlik etmək kimi əvəzolunmaz təcrübə verib və doğru yolda olduğumuza dair daha böyük əminlik yaradıb. Çünki Hərəkatın yaranmasının təməl prinsiplərini – daha dəqiq desək, dövlətlərin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini həmişə tam dəstəkləmişik və dəstəkləyirik, həmçinin Hərəkatın qurucularının 60 ildən də çox müddət əvvəl rəhbər tutduqları ideyaları bölüşürük. Məhz böyük geosiyasi mərkəzlərdən uzaq durmaq və heç kimin dediyi ilə oturub-durmamaq. Yəni, bu, mahiyyət etibarilə, müstəqillik uğrunda, müstəqil siyasət uğrunda Hərəkat olub. Hesab edirəm ki, Hərəkat daha qlobal oyunçular adlanan güclərin əleyhinə deyil, öz seçimi, öz ləyaqəti, ölkələrin xalqlarının istədikləri kimi yaşamaq istəyir. Biz bu prinsipləri həmişə bölüşmüşük və indi də bölüşürük. Fikrimcə, hazırda beynəlxalq analitiklər Azərbaycanı daha yaxşı tanıyırlar, bizim rəhbər tutduğumuz prinsiplərə bələddirlər. Gözəl başa düşürlər ki, siyasət uzaqlaşma deyil, dostluq zəminində aparılmalıdır, necə deyərlər, Azərbaycanda deyildiyi kimi, “səninki səndə, mənimki məndə”. Bu, əməkdaşlıq üçün ən yaxşı yoldur. İnteqrasiya prosesləri könüllülük əsasında həyata keçirilməlidir. Heç bir inteqrasiya əsas inteqrantın üstünlüyünə gətirib çıxarmamalıdır. İndi Avropa İttifaqı məkanında bəzi Avropa ölkələrinin, onların öz ölkəsində böyük dəstəyə malik olan rəhbərlərinin necə “ağ qarğaya” çevrildiyini görürük, çünki onların mövqeyi ümumi istiqamətdən fərqlənir. Bəs, onda demokratiya prinsipləri harada qaldı, bu strukturun guya əsaslandığı bərabərlik prinsiplərinə nə oldu? Əgər təşkilatın hər hansı üzvü hansısa məsələyə dair fərqli fikirdədirsə, ona qarşı ayrı-seçkilik, sanksiyalar tətbiq etmək, tamamilə qanunsuz olaraq maliyyə vəsaitindən məhrum etmək lazım deyil. Bütün bunlar dünyanın gözü qarşısında baş verir, yəni, artıq maskalar da çıxarılıb.

Bu səbəbdən biz könüllü inteqrasiya planını dəstəkləyirik, amma bu, məntiqli olmalı, ölkələrin maraqlarına cavab verməlidir. Ona görə də Qoşulmama Hərəkatı məhz qərarların qəbul edilməsində müstəqil olan alternativ struktur kimi yaradılıb, belə ki, həmin ölkələrin əksəriyyəti də müstəmləkəçiliyin nə demək olduğunu bilirlər. Amma zaman keçdikcə bu struktur bir az deqradasiyaya uğrayıb və hətta beynəlxalq arenada onu çox az adam xatırlayırdı. Biz bu təşkilata rəhbərlik etməyə başlayanda, təbii ki, formal rəhbər ola bilməzdik. Nəyin naminə oraya gəlmişdik? Sadəcə, vaxt keçirmək üçün deyil. Biz öz siyasətimizi aparmaq üçün gəldik. Əlbəttə, Azərbaycanın yekdilliklə seçilməsi və yekdil qərarla sədrlik müddətinin uzadılması bu siyasəti inamla aparmağa imkan verdi, çünki biz 120 ölkədən 119-nun mandatına malik idik. Təbii ki, əsas diqqəti ərazi bütövlüyü, suverenlik məsələsinə yönəltdik. Bu mövzu bizim üçün çox vacib idi, amma təkcə onunla kifayətlənmədik. Bütün milli nümayəndə heyətləri ilə apardığımız mütəmadi iş nəticəsində yeni platforma yarada bildik. Əlbəttə, başa düşürdük ki, funksional dinamika da lazımdır. Həmçinin bilirdik ki, təşkilata üzv ölkələrin bəziləri arasında barışmaz ziddiyyətlər mövcuddur və bu, Hərəkata təşkilat qismində transformasiya etməyə imkan vermirdi. Ona görə də platformaları yaradacaq strukturların təsis olunması yolu ilə getməyə qərar verdik. Bütün bunları dərhal etmək mümkün deyildi. Belə ki, biz Hərəkatın cəmi 10 il üzvü olduqdan sonra onun sədri seçildik. Bu səbəbdən bir neçə təşəbbüs irəli sürdük və onlar dəstəkləndi. Parlament, gənclər, qadın platformaları da belə yarandı. Bütün bunlar Hərəkata yeni nəfəs verdi və biz bir neçə sammit və nazirlər səviyyəsində tədbirlər keçirdik. Xüsusən COVID-lə üst-üstə düşdüyü zaman bizim vaksin milliyyətçiliyi ilə mübarizə sahəsində aktiv fəaliyyətimizə və Hərəkata yeni impuls verdi. Deməliyəm ki, bunlar, sadəcə, siyasi bəyanatlar deyildi, həm də əməli baxımdan Ümumdünya Səhiyyə Təşkilatı vaksinasiya aparılması üçün bizim məlumat bazamızdan istifadə edirdi.

Biz özünün əsl simasını göstərən ölkələrə qarşı fəal və çox aşkar çıxış edirdik. Məsələn, bu ölkələrdən biri uzun müddət dünyada mənəvi liderliyə iddia edirdi, hərçənd bunun üçün heç bir əsası yox idi. Mən Kanadanı nəzərdə tuturam. Amma onun dırnaqarası mənəvi liderliyi özünü onda göstərdi ki, bu ölkə lazım olduğundan beş dəfə artıq vaksin aldı. Sonra onların istifadə müddəti qurtardı və hamısını tulladılar. Bu vaksinlərə ehtiyacı olan bir çox ölkələr, sadəcə, özünün

minlərlə, on minlərlə vətəndaşını itirirdi. Həmin vaxt məsələ onda deyildi ki, bu ölkələrin pulu yoxdur, sadəcə, vaksinlərə əlçatanlıq olmayıb. Yeri gəlmişkən, biz də əlçatanlıqla bağlı problemlə üzləşdik. Həmin vaxt mən Çin Xalq Respublikasının Sədrinə məktubla müraciət etdim. Yeri gəlmişkən, Mirşahinin sualından kimə zəng vurduğumu xatırladım. Cənab Si Cinpinə müraciət edərək Azərbaycana vaksin kvotası ayrılmasını xahiş etdim və çox minnətdaram ki, Sədr Si Cinpin olduqca operativ şəkildə cavab verdi və bizə 500 min vaksin ayrıldı, əlavə də 500 milyon doza. Yəni, biz Çindən bu köməyi aldığımıza görə, bir çox ölkələrdən əvvəl, yanvarın 20-dən etibarən vaksinasiyaya başladıq. Bizim satın almaq üçün pulumuz var idi, amma imkanlarımız yox idi. Kanadanın ehtiyacından beş dəfə çox vaksin satın aldığı bir vaxtda bu, təbiidir. Həmin vaksinlər necə yayılırdı? Axı, Çin istisna olmaqla, vaksin istehsalçıları əsasən Qərb ölkələri idi. Nə olsun ki? Onlar bunu necə yayırdılar, biz bütün bunları xatırlayırıq: ancaq özlərinə, sonra isə qalanını tullayırdılar. Yerdə qalanlar ölsə də, ölməsə də, xəstələnsə də - onların vecinə deyildi. Bütün bunlar bizi demokratiyaya, bərabərliyə, ədalətə, insan haqlarına öyrətməyə çalışanların əsl simasını bir daha aşkara çıxarır. Mən bunu yalançılıq, ikiüzlülük və riyakarlıq kimi xarakterizə edərdim. Biz maliyyə yardımı göstərirdik və sonra aldığımız vaksinlərin bir hissəsini ehtiyacı olan ölkələrə - 80-dən çox dövlətə verdik. Yəni, ölkənin, Azərbaycanın miqyasını götürsək, əhali və adambaşına düşən ümumi potensiala görə, yəqin ki, biz hamıdan çox yardım etdik. Bunu tamamilə düzgün hesab edirdik, çünki hər zaman yardım əlini uzatmaq lazımdır. Düşünürəm ki, bizim xarici siyasətimizi uğurlu edən amillərdən biri müraciət edildikdə və imkanımız olduqda həmişə yardım etməkdir. Hesab edirəm ki, həyatda da belədir, imkanın varsa kömək etmək lazımdır, yoxdursa bunu başa düşmək olar. Bu gün, sədrliyimizin başa çatdığı bu ayda onu Uqandaya təhvil veririk. Biz artıq tamamilə başqa struktur təhvil veririk və hələ Uqanda ilə üçlükdə yer alacağıq. Uqandadan sonra Özbəkistan rəhbərlik edəcək. Beləliklə, biz neokolonializm ilə mübarizə də daxil olmaqla, fəaliyyətimizi davam etdirəcəyik. Əlbəttə, dediyim və sizin də qeyd etdiyiniz kimi, Bakı Təşəbbüs Qrupu artıq həyata vəsiqə alıb, onu heç kim heç vaxt yerindən tərpədə bilməz. Hərəkatda aparıcı rola malik olmağımızdan asılı olmayaraq, Bakı Təşəbbüs Qrupu bizim fəaliyyətimizin nəticəsidir. Müstəmləkə ölkələr azadlıq əldə etmədikcə, biz bu məsələdə onlara kömək edəcəyik.

Rövşən Məmmədov: Cənab Prezident, beynəlxalq əlaqələrdən söz düşmüşkən, bir qədər öncə dediyiniz fikirdən çıxış edərək, sonuncu sualımı ünvanlamaq istərdim. Bildirdiniz ki, Qarabağ probleminin həlli qlobal arenada layları tərpətdi və təbii ki, biz həm düşmənlərimizi gördük, onların maskaları yırtıldı, həm də dostlarımızı daha yaxından tanıdıq. Məhz bu baxımdan Azərbaycanın beynəlxalq diplomatiyada atdığı önəmli addımlardan biri də dostlarının sayını artırmaq, əməkdaşlıq coğrafiyasını genişləndirməkdir. Həmçinin Azərbaycanın nümayiş etdirdiyi modellərdən biri də qlobal tədbirləri ölkəmizdə keçirməkdir. Artıq nəinki Bakı, işğaldan azad olunmuş ərazilər belə qlobal tədbirlərə ev sahibliyi edir və elə son üç ildə biz onlarla belə tədbirin adını çəkə bilərik və əlbəttə, 2023-cü il iki mühüm hadisə ilə bizim yadımızda qaldı. Bu, həm COP29-un, həm də Urban Forumunun Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsidir. Bax, bu toplantılardan, bu qlobal platformalardan Azərbaycan həm əməkdaşlıq coğrafiyasının artırılması, həm də ədalətli mövqeyini bir daha bütün dünyaya çatdırmaq baxımından necə istifadə edəcək?

**Prezident İlham Əliyev:** Bəli, bunlar çox önəmli hadisələrdir, bir daha Azərbaycanın beynəlxalq nüfuzunu və bizim uğurlu siyasətimizi göstərir. Çünki COP29-la bağlı hadisələrin gedişatını indi hər kəs bilir və yenə də deyə bilərəm, tam səmimiyyətlə deyə bilərəm ki, bizim çox dəqiq və düşünülmüş diplomatik addımlarımız nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün imkan əldə etdik. Bilirsiniz ki, COP30-un ev sahibi bəlli olsa da - Braziliya, COP29-un ev sahibi son günlərə qədər bəlli deyildi. Xüsusilə son həftələr ərzində, hətta COP konfransı Dubayda başlayandan sonra da hələ aktiv diplomatik təmaslar davam edirdi və biz burada da istədiyimizə nail olduq. Halbuki burada da, yenə də bizim dırnaqarası ənənəvi dostlarımız hər iki tədbirdə bizə əngəl törətməyə çalışırdılar, COP29-da, necə deyərlər, daha gizli formada. Çünki burada, eyni zamanda, bölgədə sülhə doğru bir addım nəzərdə tutulurdu və bu addıma qarşı getmək, əlbəttə ki, heç kimə şərəf gətirməzdi. Ona görə pərdəarxası fəaliyyət daha çox özünü göstərmişdi və Dünya Urban Forumu ilə bağlı açıq şəkildə bizə qarşı kampaniya gedirdi. Səsvermə ərəfəsində bir çox ölkələrə təzyiqlər göstərilirdi ki, amanın günüdür, Azərbaycana səs verməyin. Ancaq orada da iflasla üzləşdilər və bu iki tədbirin keçirilməsi, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu böyük dərəcədə artıracaq.

Bir də ki, bu günə qədər əgər COP tədbirlərini biz nəzərə alsaq, hətta Urban Forumu adətən inkişaf etmiş ölkələrdə, böyük ölkələrdə belə tədbirlər keçirilir. Çünki qonaqların sayına görə bu, ən böyük tədbirdir, yəni, Dubayda təqribən 70-75 min xarici qonaq var idi və bütün başqa amillərlə yanaşı, bu qədər qonağı qarşılamaq, şərait yaratmaq, bütün təşkilati məsələləri həll etmək böyük potensialdan xəbər verir. Yəni, bu, ölkəmizin imkanlarının növbəti nümayişidir. Eyni zamanda, yaşıl gündəliyə bizim münasibətimizdir və biz artıq bu şərəfə layiq görüləndən dərhal sonra bizə qarşı yenə də media kampaniyası başlamışdır. Ənənəvi aktorlar – "Vaşinqton Post", "Nyu-York Times", - yadınızdadır, prezident Tramp onları feyk-nyus adlandırmışdı, çox

haqlı olaraq feyk-nyus adlandırmışdı, - "Fiqaro" və başqaları dərhal bizə qarşı çirkin kampaniyaya başlamışdır. Heç bir əsası olmadan və hətta mənim tərəfimdən COP29-a təyin etdiyim bizim ekologiya nazirini də atəşə tutdular. O, yəqin ki, belə hallarla ilk dəfə rastlaşır və irad tutdular ki, o, uzun illər neft şirkətində işləyib. Bu, nə deməkdir? Mən də 9 il neft şirkətində işləmişəm, sonra? Bu adam neft şirkətində ekologiya üzrə vitse-prezident vəzifəsində işləyib. Ondan sonra altı ildir ki, ekologiya naziri işləyir. Bütün bunlar kənara qoyulur, sanki bu, elə deyil. Amma bunun neft şirkətində çalışması bioqrafiyası var. Hər halda bunlar təbiidir, çünki bütün beynəlxalq tədbirlər keçiriləndə biz belə bir kampaniya ilə üzləşirik, istər Avropa Oyunları olsun, istər "Eurovision", hətta Astronavtika Konqresi. Yəni, necə deyərlər, artıq bu olmasa, biz təəccüblənərik. Əcəba, nə olub? Nəyi düzgün etməmişik ki, bizi indi tərifləyirlər Qərbdə. Yəni, əgər onlar bizi tərifləyirlərsə, deməli, nəsə biz, necə deyərlər xəta törətdik.

Hər halda bu iki tədbirin keçirilməsi doğrudan da böyük hadisədir və əminəm ki, hər iki tədbir uğurla keçiriləcək və gələn qonaqlar Azərbaycan reallıqları ilə tanış olacaqlar. Mahiyyət nöqteyi-nəzərindən, hesab edirəm ki, neft-qaz hasil edən və neft-qaz keçmişi olan ölkələrdə belə tədbirlərin keçirilməsi daha önəmlidir. Çünki bu, bizə irad tutulur və hətta Birləşmiş Ərəb Əmirliklərinə də, ondan əvvəl Misirə də və belə bir irad tutulur ki, neft-qaz hasil edən ölkələrdə bu, üçüncü dəfə baş verir. Amma buna başqa nöqtədən yanaşmaq lazımdır. Bax, bu ölkələr - neftlə, qazla zəngin olan ölkələr bu prosesin içindədirlər. Onlar ümumi işimizə töhfə vermək istəyirlər. Azərbaycan da, bizdən daha çox Birləşmiş Ərəb Əmirlikləri yaşıl enerji olmadan da rahat enerji təhlükəsizliyini nəinki təmin edir, bir çoxlarının enerji təhlükəsizliyini təmin edir. Amma bu, böyük bir məsuliyyət rəmzidir. Onun göstəricisidir ki, biz istəyirik öz vəsaitimizi bu sahəyə ayıraq ki, həm ölkələrimizdə, necə deyərlər, yaşıl enerji inkişaf etsin, həm dünyaya töhfə verək. Burada, əlbəttə ki, indi mahiyyət üzrə də çox ciddi proseslər gedəcək. Azərbaycan COP29-un prezidenti kimi xüsusi rola malik olacaq. Proseslərin gedişatı bizim mövqeyimizdən böyük dərəcədə asılı olacaq. Biz artıq bir neçə ölkədən əməkdaşlıq təklifi almışıq. Bizimlə bu hazırlıq dövründə əməkdaşlığın istiqamətləri müəyyən edilsin və biz bütün ölkələrlə əməkdaşlığa hazırıq, bu, bizim üçün də böyük bir təcrübə olacaq. Çünki bu, yenə də hesab edirəm ki, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır, həm dünya ictimaiyyətinin diqqəti nöqteyi-nəzərindən, BMT Baş Assambleyasından da daha mötəbərdir. Çünki BMT Baş Assambleyasında adətən prezidentlər gəlir, çıxış edir. Çıxış etdiyi dövrdə zalda onların nümayəndə heyətlərindən başqa, adətən heç kim olmur. Bundan sonra da çıxıb gedir. Amma burada real iş aparılacaq, müzakirələr, ola bilər müəyyən fikir toqquşmaları, yəni maraqlı bir proses olacaq və Azərbaycanın da bu prosesə rəhbərlik etməsi, əlbəttə ki, qürurvericidir.

Mirşahin Ağayev: Cənab Prezident, Sizə bayaqdan diqqətlə qulaq asıram, belə baxanda Fransa güclü dövlətdir, nüvə dövlətidir. Biz onlara Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının sədri olduğu dövrdə nəinki uduzmadıq, hətta qalib gəldik. Belə baxanda, mübarizə apardığımız Qərb dövlətlərinin hamısı kifayət qədər qüdrətli dövlətlərdir. Amma, eyni zamanda, zəifləyiblər və Azərbaycan onların heç birinin iradəsi qarşısında sınmır. Belə bir sual vermək istəyirəm. Nədədir Prezident İlham Əliyevin gücü və nədədir onların zəifliyi? Məsələn, niyə onların Azərbaycana gücləri çatmır, bir qadından acığını çıxırlar, özü də qadının heykəlindən? Əməkdaşlarımız Fransada olublar, Natəvanın heykəlinə bükülmüş örtüyü qaldırıblar. Görüblər ki, onu boyayıblar. Nədir onları belə zəif edən və nədir Sizi belə güclü edən?

**Prezident İlham Əliyev:** Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var. Qarabağ məsələsində biz tamamilə haqlıydıq və heç kim bizi bu haqdan məhrum edə bilməz. Müstəqillik ideyalarımızı rəhbər tutmağımızda da haqlı idik. Çünki biz müstəqil ölkəyik. Əgər biz müstəqil ölkəyiksə, nə üçün kiminsə sözü ilə oturub-durmalıyıq? Onda gəlin, müstəqil ölkə olmayaq. Əgər kimsə hesab edirsə ki, bizi idarə edəcək, səhv edir, yenə haqsız odur. Belə cəhdlər olub. Son vaxtlar daha yoxdur. Çünki artıq görüblər. Amma olub. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq, heç vaxt qarışmamışıq. Hətta Ermənistanın daxili işlərinə də heç vaxt qarışmırdıq. Hətta işğal dövründə onların daxili proseslərinə də heç vaxt qarışmırdıq. Halbuki bizim kifayət qədər imkanlarımız var idi. Bu gün də var, bu gün də qarışmırıq. Baxın, bizim daxili işlərimizə nə qədər qarışma cəhdləri olub. Nə qədər məkrli planlar qurulub bizə qarşı. Siz bunların hamısını yaxşı xatırlayırsınız. Hələ 1990-cı illərin əvvəllərində bizə qarşı əsassız 907-ci düzəliş qəbul edilmişdi. Nəyə görə? Guya ki, biz Ermənistanı blokadada saxlayırıq. Axı, bizim torpaqlarımız işğala məruz qalıb, biz necə blokadada saxlaya bilərik? O vaxt hələ Heydər Əliyev hakimiyyətə gəlməmişdi, o vaxt Qərbin təqdir etdiyi dırnaqarası demokratik hakimiyyət Azərbaycanda var idi. Görün o vaxt anti-Azərbaycan hisslər nə qədər geniş vüsət almışdı və ondan sonra biz nə qədər belə əsassız ittihamlara məruz qalmışdıq. Tamamilə əsassız.

Yəni, biz bu məsələdə də haqlı idik, öz müstəqilliyimizi qoruyurduq, necə deyərlər, öz hədəfimizə doğru gedirdik və indi keçmiş hadisələri yeni prizmadan təhlil edərkən görürəm ki, yəqin bizə qarşı olan bu ədalətsizliklərin təməlində Qarabağ məsələsinin həll olunmaması dayanmışdır. Çünki daim bizi təzyiq altında saxlamaq, daim Azərbaycanı diktatura, avtokratiya, demokratiyanı

əzən bir ölkə kimi göstərmək ki, bizim başımız buna qarışsın, biz gecə-gündüz özümüzü müdafiə edək, yaxud da gedək onların qabağında baş əyək, deyək ki, siz bizə sataşmayın. Amma biz nə etdik? Biz əksinə, bizə olan hücumlara qarşı öz mövqeyimizi ortaya qoyduq və onlar da gördülər ki, bizimlə keçmir və Qarabağı azad etməyimizi də ona görə bizə bağışlamırlar ki, onların əlindən bu rıçaq çıxdı. Azərbaycan, məcazi mənada desək, bu qarmaqdan çıxdı. Artıq bu amil yoxdur. İkinci Qarabağ müharibəsindən sonra status və Qarabağ ermənilərinin hüquqları mövzularını ortaya atmışdılar ki, yenə də burunlarını oraya soxa bilsinlər. Beynəlxalq missiyanın oraya göndərilməsini təkidlə tələb edirdilər ki, yenə də vəziyyəti qarışdırsınlar. O rıçaq da əllərindən çıxdı. Ona görə indi yeni bir mövzu axtaracaqlar. Yəni, sizin sualınıza bir qədər geniş cavab verirəm. Amma bax, bunun əsas platforması budur. Biz hər zaman haqlı olmağımızda tam əmin idik və bir dənə də nahaq iş görmədik. İndi yenə də deyirəm, bizi ittiham edirlər ki, biz Ermənistana hücum etmək istəyirik. Mən bunu artıq demişəm, bir daha deyirəm tam səmimiyyətlə, istəsəydik girərdik, lap axıra qədər gedərdik. Cermuk şəhəri - bizim keçmiş əsl adı İstisu olan şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi mühafizə etmək idi. Elə təpələr əlimizdə olmalı idi ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Deyirəm, mənim peykim mənim gözlərimdir. Mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş görməmişik, bu əsasdır, əsas amildir. İkincisi də gücümüz, cəmiyyətimizin birliyi, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik. Birmənalı sizə deyirəm. Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən. Ölümə gedirdilər, siz yaxşı bilirsiniz.

Bizə qarşı olanlar haqqında mən çox danışmışam, bəlkə də kifayətdir bu müsahibə üçün. Amma onlar bizi düzgün qiymətləndirə bilməyiblər, yəqin ki, ona görə uduzublar. Əgər bizi düzgün qiymətləndirsəydilər, bizə qarşı çıxmazdılar, bizə qarşı çıxmaq hər birinə çox baha başa gələ bilər. Qeyd etdiyiniz bu hadisələr həm BMT-də, həm Avropa İttifaqında bunun əyani sübutudur.

Rövşən Məmmədov: Cənab Prezident, artıq üç saata yaxındır ki, müsahibə davam edir və 20-dək istiqamət üzrə suallarımızı cavablandırdınız. Müsahibəyə görə təşəkkür edirik və gələcək fəaliyyətinizdə, xüsusən də yeni missiya uğrunda fəaliyyətinizdə hər birimiz adından Sizə uğurlar arzu edirik, minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm. Sizə də uğurlar, cansağlığı, Yeni ildə yeni qələbələr arzulayıram.

Rövşən Məmmədov: İnşallah.

**Prezident İlham Əliyev:** Sağ olun.

## *Andiçmə mərasimində İlham Əliyevin nitqi*

- Hörmətli xanımlar və cənablar.

İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda, Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir. Bir daha göstərir, elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz. Biz bütün dünyada Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdik, erməni ordusunu qorxaq və təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun Ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, eyni zamanda, İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atmışdır. Onların arasında, ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və üç il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdır. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat göndərib, minalar göndərib, bizə qarşı mina terroru davam edib, daha geniş vüsət almışdır. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistan mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət, digər tərəfdən bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu, həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərir, eyni

zamanda, separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.

Bizim ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış “Komando” silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi

dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatdı. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq Üçüncü Dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü Dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci Dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20 ildən çoxdur ki edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Ordumuz döyüş meydanında öz gücünü göstərib, Ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.

Biz, eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən

Siyasi elmdə müqayisəli analizin tətbiqi xüsusilə XX əsrdə kəskin nəzəri - metodoloji diskussiyalara səbəb olmaqla, müqayisəli politoloji tədqiqatların metodoloji təminatı problemini də aktuallaşdırmışdır. Metodologiya dərketmə və tədqiqat prinsipləri, metodları, müəyyən məntiqi üsulları sistemi kimi, öyrənilən proseslərin mahiyyətini və inkişaf qanunauyğunluqlarını dərindən dərk etməyə imkan verir. Bu sahə ilə məşğul olan tədqiqatçılar müasir müqayisəli politologiyanın ümumi inkişaf məntiqindən çıxış edərək, onun metodoloji təkamülü problematikasına xüsusi maraq göstərirlər. Bu baxımdan müqayisəli politologiyada metodoloji transformasiya problemlərinin öyrənilməsi müasir siyasi elm, o cümlədən Azərbaycan siyasi elmi, eləcə də siyasi elmin sistemyaradıcı bloklarından biri olan müqayisəli politologiyanın inkişafı üçün xüsusi aktuallıq kəsb edir.

### Müqayisəli politologiyanın ənənəvi mərhələsində metodoloji məsələlər

Müqayisəli politologiya (siyasi komparativistika) müasir siyasi elmin əsas və liderlik edən sahələrindən birini təşkil edir. Formalaşması prosesləri XIX əsrin ikinci yarısından başlayan müqayisəli politologiyanın təşəkkülünə təsir edən amillər sırasında qeyri-qərb siyasi sistemləri haqqında məlumatların xeyli artması, politoloqların beynəlxalq siyasi problemlərə, digər ölkələrin və xalqların siyasi qurumlarına, dəyərləri və ənənələrinə, siyasi mədəniyyətlərinə artan maraqları əhəmiyyətli olmuşdur. Məhz həmin vaxt bu elm sahəsinin sonrakı tarixi boyunca bu və ya digər şəkildə təzahür olunan iki əsas elmi iş ənənələri

formalaşır. Onlar yaxın əlaqədə olmaqla, bir-birini tamamlayır, lakin bir sıra parametrlərdə bir-birinə açıq qarşı çıxırlar. Metodoloji yanaşmalarına görə biri konstruktiv və aktiv olmaqla modellərin konstruksiyasına və müqayisələr zamanı məlumat axtarışını istiqamətləndirməyə meyilli, digəri isə daha çox mövcud empirik məlumatlara və onların ümumiləşdirilməsinə yönəlmiş, təsviri xarakterlidir [13, s.110].

Hər bir dövr özünəməxsus yeni problemlərlə səciyyəvidir, bu isə siyasi elmlərdən dinamik inkişaf, baş verməkdə olan proseslərə ayıq münasibət və ümumiləşdirmələrin vaxtında aparılmasını tələb edir [1, s. 10]. Bu vəzifələr XX əsrin ikinci onilliyində müstəqil elm sahəsi və siyasi elmin aparıcı istiqamətlərindən biri kimi özünü təsdiq etmiş müqayisəli politologiyanın da qarşısında dururdu. Vurğulayaq ki, müqayisəli politologiyanın siyasi elmin müstəqil sahələrindən biri olması artıq 1912-ci ildə Amerika siyasi elmlər assosiasiyası (1903-cü ildə yaradılıb) tərəfindən rəsmi olaraq qeyd edilmişdir [9].

Müqayisəli politologiyanın inkişafına xüsusi təkan verən hadisə ABŞ-da 1952-ci ildə keçirilən Evanston seminarı (Evanston, Çikaqo, Şimal-Qərb Universiteti) olmuşdur. Seminarın keçirilməsi gedişində təklif olunan və səkkiz tezisdə öz ifadəsini tapmış metodoloji yanaşma siyasi elmdə ilk növbədə ABŞ-da müqayisəli tədqiqatlara marağın güclü şəkildə artmasına səbəb olmuşdur. Bunun məntiqi davamı olaraq 1954-cü ildə müqayisəli politologiya üzrə Komitə yaradılmış, onun fəaliyyəti vahid nəzəri problemlər kompleksini işləyən və siyasi tədqiqatların vahid metodologiyasını təqdim edən elm sahəsinin yaradılmasına yönəlmişdir [13, s.122]. Bu tendensiyalar çərçivəsində 1950-ci illərin birinci yarısında müqayisəli tədqiqatların aparılması və institutlaşmasına ciddi stimul verən tədqiqat işləri ortaya çıxmışdır ki, onlardan da R.Makridisin "İdarəetmə sistemlərinin müqayisəli tədqiqi" (1954) və "Siyasətin müqayisəli tədqiqi" (1955) , Q.Almondun "Müqayisəli siyasi sistemlər" (1956) adlı əsərlərini və s. göstərmək olar.

Bu zaman müqayisəli politologiya siyasi elmin sahələri arasında faktiki olaraq aparıcı yer tutmuş, siyasi komparativistikanın belə güclü ekspansiyası politologiyanın tədrisi sahəsini də əhatə etmişdir. Belə ki, əgər 1925-ci ildə ABŞ-ın on universitetlərində siyasi elm üzrə təklif olunan on kursdan biri müqayisəli politologiyaya aid edilirdisə, 1945-ci ildə beş kursdan biri, 1969-cü ildə isə artıq üç kursdan biri aid idi [24,s.11]. Bu gün müqayisəli politologiya üzrə ümumi və ixtisaslaşmış kurslar dünyada liderlik edən daha populyar kurslar sırasına daxildir, bu sahədə onlarla jurnallar dərc edilir.

Müqayisəli politologiyada siyasətin müqayisəsində metodoloji məsələlərə diqqəti cəlb edən ilk tədqiqatçılardan biri E.Frimen (ABŞ) hesab olunur. E.Frimen 1873-cü ildə Kral İnstitutu qarşısında müqayisəli siyasət üzrə oxuduğu altı mühazirəsindən ibarət olan "Müqayisəli siyasət" adlı kitabını dərc etmiş (1873), həmin kitabda özünün məşhur tezisini belə ifadə etmişdir: "tarix – keçmişdəki siyasətdir, siyasət isə - indiki tarixdir". Müqayisəli filologiyanın və siyasətin metodlarından konstitusiya qurumlarının tarixinin öyrənilməsi üçün istifadə edərək E.Frimen fərqli tarixi dövrlərdə müxtəlif xalqlar və dövlətlərin oxşar xüsusiyyətlərini müəyyənləşdirməyə çalışmışdı [29]. Müqayisəli siyasi tədqiqatlara V. Vilsonun "Dövlət. Tarixi və praktiki siyasət elementləri" (1889) və C. Bercesin "Siyasi elm və müqayisəli konstitusiya hüququ"(1891) adlı əsərləri də əhəmiyyətli töhfələr vermişdir. Onların işlərinin metodologiyası müqayisəli politologiyada bu gün adətən "ənənəvi yanaşma"ya aid edilən bir sıra xüsusiyyətləri ilə xarakterizə olunur.

Müqayisəli siyasət metodologiyası xüsusilə ABŞ-da populyarlıq qazanmışdı. Lakin bu metodologiya çərçivəsində müasir siyasi elmin metodologiyası və metodlarından əhəmiyyətli dərəcədə fərqlənməklə, K.S.Hacıyevin qeyd etdiyi kimi, "tarixi - müqayisəli" metoddan daha çox istifadə olunurdu [8, s. 39]. Amerika tədqiqatçısı Ç. Merriam siyasi elmin XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlində siyasi elmin təşəkkülü mərhələləri xüsusiyyətlərini təhlil edərkən 1850-1900-cü illəri əhatə edən dövrü tarixi-müqayisəli mərhələ kimi səciyyələndirmiş, məhz müqayisə metodologiyasının

siyasi elmin inkişafında rolu və yerini xüsusi olaraq qeyd etmişdir [31, s.132].

Təxminən ikinci dünya müharibəsinədək davam edən ənənəvi yanaşmanın tətbiq olunduğu dövrdə, siyasi elmdə olduğu kimi, müqayisəli politologiyada da "köhnə" metodoloji yanaşmalardan biri olan institusional yanaşma tətbiq edilirdi. XX əsrin əvvəlində ABŞ və Böyük Britaniyada siyasi elm hələ dövlətşünaslığın – dövlətin, onun funksiyalarının yerinə yetirilməsi vasitələri olan dövlət orqanları və institutlarının öyrənilməsinin özünəməxsus davamı kimi dərk olunurdu. Bu yanaşmanın nümayəndələri əsas diqqəti siyasi prosesin vacib aspektini təşkil edən siyasi institutların öyrənilməsinə ayırırdılar. Beləliklə də, təhlillərlə yalnız formal-hüquqi xarakter daşıyan institutlar əhatə olunurdu. Bu yanaşma çərçivəsində əsas metodlar kimi, indinin izahı üçün keçmişin öyrənilməsini nəzərdə tutan tarixi - komparativ və formal-hüquqi institutların ənənəvi təsviri-induktiv analiz metodları tətbiq edilirdi. Bu analiz tarixi və hüquqi materialın öyrənilməsinə söykənirdi ki, onun təsviri əsasında da dövlətin siyasi institutları səciyyələndirilirdi [20, s.22-23].

Bütövlükdə, institusional yanaşma siyasi tədqiqatlarda tətbiq edilərkən, onun çərçivəsində institusional quruluşa dair zəngin materiallar toplanmış və maraq doğuran əhəmiyyətli nəticələr əldə olunmuşdur. Bununla əlaqədar B.Q.Piters qeyd edirdi: "köhnə institusionalizm xeyli dərəcədə idarəetmə problemlərinin daha dolğun başa düşülməsinə kömək etmişdir. Təsviri tədqiqatlar belə bir nəticəyə gətirib çıxarırdı ki, ilk baxışdan cüzi görünən detallar institutların, fərdlərin real davranışına güclü təsir göstərə bilər" [18, s.219]. Həmin dövrdə siyasi elmdə tendensiyaları səciyyələndirən Amerikalı tədqiqatçı D.Apter isə "institusional yanaşmanın müqayisəli politologiyanın bazisi" olduğunu göstərirdi [6, s.362].

Bununla belə, siyasi tədqiqatlarda institusional yanaşmanın tətbiqinin zəif tərəflərinə elmi ədəbiyyatda analiz predmetinin siyasi institutların öyrənilməsi ilə məhdudlaşdırılması, siyasi davranışın diqqətdən kənarda qalması; insanların siyasi davranışının qeyri-siyasi əsasına diqqətin göstərilməməsi; siyasi institutların öyrənilməsinə formal yanaşma, onların işləməsinin qeyri-formal aspektləri və bu aspektlərin qərarların qəbul olunmasında rolunun nəzərə alınmaması və s. aid edilir [20, s.24]. Ənənəvi mərhələnin metodoloji xüsusiyyəti siyasi proseslərin qanunauyğunluqlarını izah edən ümumi nəzəriyyələrin yaradılmasına deyil, bu proseslərin təsvirinə və müvafiq informasiyanın toplanmasına yönəlməsindən ibarət idi [15, s.7].

Qeyd etmək lazımdır ki, institusionalizm zaman keçdikcə xeyli təkamülə uğramış və bu prosesin ümumi tendensiyası digər metodoloji yanaşmaların bəzi prinsiplərinin qəbul edilməsindən ibarət olmuşdur. Bu baxımdan yeni institusionalizmin (neoinstitusionalizm) səciyyələndirilməsi və onun "köhnə" instituonalizmdən fərqlərinin müəyyən edilməsi vacibdir. "Klassik" institusionalizmdən onu fərqləndirən ilk növbədə "institut" anlayışına daha geniş izahın verilməsi, siyasi analizdə kəmiyyət metodlarından istifadəyə diqqətli yanaşmasıdır. Siyasi elmdə baş vermiş "davranış inqilabı"ndan sonrakı dövrdə təşəkkül tapmış yeni institusionalizm digər istiqamətlərdən fərqli olaraq siyasi institutların siyasi proseslərdə daha sərbəst rolunu qeyd edir, institutların sadəcə təsviri ilə məhdudlaşmır, siyasəti və inzibati davranışı müəyyən edən, müstəqil dəyişən ölçülərin üzə çıxarılmasına cəhd edir. Yeni institusional yanaşmanın bir müsbət tərəfini də onun "köhnə" instituonalizmdən fərqli olaraq, Avropa və Amerika demokratiyalarının öyrənilməsi çərçivələrindən çıxmaqla siyasi analizlə digər dövlətləri, o cümlədən inkişafda olan ölkələri də əhatə etməsi təşkil edir. Neoinstituonalizmin xidməti həm də ondan ibarətdir ki, "onun sayəsində institutlar barədə daha geniş komparativist mövqelərdən söhbət aparmaq olar" [18, s.218-220].

Özünün formalaşması və inkişafında bir neçə mərhələdən keçmiş müqayisəli politologiyada XIX əsrin ikinci yarısı siyasi elmin müstəqil sahəsi kimi təşəkkülü mərhələsi olmuş, XX əsrin birinci yarısı potensialın toplanması, "ənənəvi müqayisəli politologiya" mərhələsi olaraq, 1950-ci illərin əvvəli – 70-ci

illərin sonunadək davam edən dövr ərzində tədricən metodoloji yeniləşmə baş vermişdir [21,s.13]. 1950-ci illər ümumiyyətlə, siyasi elm üçün yeni oriyentasiya ilə səciyyəvi olan dövr olmuşdur. Bunun səbəblərini araşdıran D.İston niyə ABŞ-da 1950-1960-cı illərdə davranış inqilabı baş verdi sualına cavab olaraq bunun mürəkkəb tendensiyalar kompleksinin nəticəsi olduğunu, qismən səbəb kimi isə səthi tədqiqat üslubuna malik, tarixi təsvirlərə bağlı olan ənənəvi siyasi elmin özünün təbii təkamülünü göstərir. İnkişaf etməkdə olan kütləvi sənaye cəmiyyəti problemlərini həll etmək üçün bu cür etibarsız izahlara arxalana bilməzdi. Siyasi institutların və proseslərin başa düşülməsində bir çox məsələlərə aydınlıq gətirilmirdi. Bununla da ənənəvi siyasi elm sadəcə olaraq özünü tükətmişdi [15, s.7-12]. Qeyd etmək lazımdır ki, ABŞ politoloqu U. Rayker də göstərir, 1950-ci illər ümumiyyətlə siyasi elmdə yeni istiqamətlərin intensiv axtarışı dövrü olaraq, İkinci Dünya müharibəsi köhnə ilə yeni arasında aydın bir sərhəd olmuşdur [32, s.194].

Belə şəraitdə siyasi elmdə olduğu kimi, müqayisəli politologiyada da ümumi metodoloji əsasların axtarışı fərqli metodoloji ənənələrin tərəfdarlarını yaxınlaşdırmış, geniş nəzəri-metodoloji razılıq məkanı yaranmışdır.

## Müqayisəli politologiyanın metodoloji yeniləşməsi

Məhz belə şəraitdə 1950-ci illərdə formalaşmış iki yeni metodoloji yanaşmalar – institusional yanaşmanın çatışmazlıqlarının aradan qaldırılmasına yönəlmiş bihevioral yanaşma və sistemli yanaşma müqayisəli politologiyanın metodoloji yeniləşməsini stimullaşdırmışdır. “Bihevioral inqilab” şəraitində tətbiq olunan bihevioral metodoloji yanaşma insanların siyasi davranışının ilkinliyinin tanınması üzərində qurulurdu. Onun əsas inkişaf dövrü keçən əsrin 50-60-cı illərinə təsadüf edir ki, həmin dövrdə də bu metodoloji istiqamət sosial elmlərdə aparıcı mövqelərdən birini tuturdu.

Siyasi proseslərin analizində bihevioral yanaşmanın təşəbbüskarları və ardıcılları ilk növbədə ABŞ-da Çikaqo siyasi elm məktəbinin nümayəndələri olan C.Merriam, B.Berelson, Q.Lassuel və b. olmuşlar. Biheviorçuların diqqət sahəsi siyasi davranışla bağlı olan siyasi prosesin çoxsaylı müxtəlif aspektlərini əhatə edirdi (seçkilərdə səsvermə, müxtəlif siyasi fəallıq formalarında iştirak, liderlik, maraq qrupları və siyasi partiyaların fəaliyyəti və s.) [15, s.11]. Ç.Merriam isə göstərirdi ki, təkcə ayrıca götürülmüş fərdi deyil, həm də onun daxil olduğu qrupu və ya qrupları öyrənmək zəruridir. Fərdlərin və qrupların davranışı və xüsusiyyətlərini siyasi aləmin aparıcı tendensiyalarını daha dərindən bilmək üçün öyrənmək olar [31, s.133].

Bihevioralizmin əsas üstünlüklərinə onun ənənəvi üsulun nöqsanlarından kənar olması, real təcrübəyə və faktlara əsaslanaraq empirik xarakter daşıması; qrup və fərdlərin siyasi davranışını proqnozlaşdırmaq qabiliyyətinə malik olması və s. aid edilir [4, s.15]. Bu metodoloji yanaşmanın güclü tərəfləri kimi həmçinin onun real siyasi praktikaya diqqəti, empirik materiallarla işləmək qabiliyyəti, sosiologiya və psixologiya ilə siyasi proseslərin analizi üçün onların empirik metodlarından istifadə edilməsi baxımından məhsuldar əməkdaşlığı və s. göstərilir. Əsas metodoloji tələb əldə olunan ümumi nəticələrin empirik faktlarla verifikasiyasından ibarət olmuşdur ki, beləliklə də aparılan tədqiqatlar fəlsəfi-etik zəminlərdən və ümumiyyətlə hansısa normativizmdən azad edilmişdir [11].

Tədqiqat predmetinin xüsusiyyətləri ilə yanaşı, bihevioralizmi fərqləndirən əlamətlər kimi, həmçinin onun, birincisi, insanların davranışının müşahidə yolu ilə tədqiq edilməsi; ikincisi, nəticələrin empirik yolla yoxlanılması (verifikasiyası) kimi metodoloji prinsiplərə söykəndiyini də göstərmək olar. Bihevioralizmin bu prinsiplərə söykənməsi ilk növbədə onun nümayəndələrinin fəlsəfi dünyagörüşünün köklərinin pozitivizmə gedib çıxması ilə izah olunurdu. Bununla bağlı olaraq, məsələn, siyasi elmdə “bihevioral inqilab”ın ilk nümayəndələrindən olan Harold Lassuell siyasətin etik məsələlərinin filosoflara ötürülməsini və əsasən siyasi davranışın analizi ilə məşğul olunmasını təklif edirdi [17, s.46,51; 30].

Biheviorçuların proqram müddəalarının əsas bəndlərini praqmatizm, empirizm və dəyər mühakimələrindən tamamilə imtina təşkil edirdi. Biheviorial yanaşmanın qəbul edilməsi politoloqların düşüncə tərzini dəyişmişdi: birincisi, siyasi davranışda oxşarlıqların olmasına görə nəticələrin müqayisəliliyi güclənmişdir; ikincisi, amillərin analiz olunan qarşılıqlı əlaqələri emprik yoxlamalar zamanı özlərinin təsdiqini tapmalı idi; üçüncüsü, məlumatların toplanması və analiz metodlarında dəqiqlik artmış, məlumatların kvalifikasiyası inkişaf etmişdir; dördüncüsü, analizin səviyyələrində normativ yönümlü nəzəriyyədən emprik yönümlü nəzəriyyəyə keçid baş vermişdir; beşincisi, tətbiqi tədqiqata əks olaraq təmiz siyasət nəzəriyyəsinin yaradılmasına maraq artmışdır və s. [15].

Beləliklə, təhlillərdən göründüyü kimi, siyasi elmin müstəqil sahəsi kimi formalaşan siyasi komparativistika çərçivəsində 1950-ci ilədək aparılan müqayisəli tədqiqatlar siyasi institutların müqayisəli-tarixi və müqayisəli-hüquqi təsvirinə əsaslanırdı və onların nəticələri müqayisəli idarəetmədə verilirdi. Digər tərəfdən, bu tədqiqatlar predmet baxımından yarımçıq olurdu, çünki real siyasi təcrübə elmi müqayisədən kənarda qalırdı. Həmçinin araşdırmaların əhatə məkanı həmin vaxtın bir neçə aparıcı dövlətləri ilə məhdudlaşırdı. Bütün bunlar nəzərə alınmaqla biheviorial inqilab (1950-1960-cı illər) siyasi müqayisələrin qeyri-mükəmməlliyinin aradan qaldırılmasına yönəlmiş, bu müqayisələri makrosəviyyəyə - rollar, struktur və funksiyalar, onların siyasi mədəniyyətlə əlaqələri kateqoriyalarında nəzərdən keçirilən siyasi sistemlər səviyyəsinə yönəltmişdir.

Bununla belə biheviorializm bəzi qüsurlar və mübahisəli məqamlardan da azad olmamışdır. Bu metodoloji istiqamət daha çox biliklərin praktiki tətbiqinə görə "xüsusi məsuliyyətdən" abstraktlaşmaq cəhdlərinə, siyasi münasibətlərin dəyərlər aspektlərini öyrənmək qabiliyyətinə malik olmamasına, siyasi proseslərə sistemli yanaşmanın olmamasına, tarixi-mədəni kontekstə etinasızlığa və s. görə tənqid olunurdu [7, s.85-86].

Biheviorializmin qeyd olunan nöqsanları, həmçinin onun siyasi həyatın bir çox suallarına cavab vermək, bəzi siyasi hadisələr barədə qabaqcadan xəbər vermək qabiliyyətinə malik olmaması onun böhranına səbəb olmuş və, ABŞ politoloqu D.İstonun qeyd etdiyi kimi, "postbiheviorial inqilabı" törətmişdir. "Postbiheviorial inqilab" bəzi yeni metodoloji istiqamətlərin yaranması ilə nəticələnmiş, onların nümayəndələri həmçinin elmilik meyarları çərçivəsində qalaraq biheviorializmin nöqsanlarının aradan qaldırılmasına və vaxtı çatmış suallara cavab verməyə cəhd edirdilər [27, s.15]. Amerika siyasi elmlər Assosiyasiyasının (Amerikan Political Science Assosiation) 1969-cu ildə keçirdiyi 65-ci illik qurultayında D.İston post-biheviorializmin əsasını təşkil edən metodoloji yenilikləri təqdim etmişdir. Onlarda post-biheviorializmin problemin məzmun tərəfinin metodlar üzərində prioritetliyi, sosial dəyişikliyə oriyentasiya, sosial relevantlıq, dəyərlərin rəhbər tutulması və s. öz ifadəsini tapmışdır [28].

Təhlillərdən göründüyü kimi, eyni zamanda tədqiqatçıların bir hissəsi biheviorial ənənələrdə öz işlərini davam edərək bu metodoloji yanaşmanın əsas müddəalarını dövrün tələbələrinə adaptasiya etməyə, uyğunlaşdırmağa cəhd edirdilər. Biheviorçular və postbiheviorçular elmi tədqiqatın başlıca məqsədinin fərd və qrup səviyyəsində davranışın izah edilməsindən ibarət olduğundan çıxış edərək, həm də iddia edirdilər ki, təqdim etdikləri nəzəriyyələrinə inamın olması üçün həmin nəzəriyyələrin empirik yolla yoxlanılması zəruridir. Bu, həm də nəzəri nəticələrin faktiki materialların interpretasiyası əsasında qurulan postbiheviorialist metodlarda da öz ifadəsini tapır [10, s.29-30]. Bu baxımdan "postbiheviorial biheviorizmə" aşağıdakı səciyyəvi xüsusiyyətlərin xas olduğunu göstərmək olar:

– təkcə emprik mənşəli nəzəriyyələrin deyil, həmçinin qalan digər nəzəriyyələrin də əhəmiyyətinin verifikasiya prinsipini saxlamaqla tanınması;

– tam verifikasiya prinsipindən imtina və qismən verifikasiyanın tanınması;

– texniki üsulların mütləqləşdirilməsindən imtina, analizdə keyfiyyət metodlarından və tarixi yanaşmadan istifadə olunması;

– dəyəri yanaşmanın (öyrənilən hadisənin qiymətləndirilməsi imkanının) qaçılmazlığının və əhəmiyyətlli olmasının tanınması, qəbul edilməsi və s.

Siyasi elmdə, eləcə də onun bir vacib istiqamətini təşkil edən müqayisəli politologiyada bihevioralizmin nöqsanlarının aradan qaldırılmasına sistemli metodoloji yanaşma yönəlmişdir. Keçən əsrin 50-60-cı illərində siyasi elmdə tətbiq olunan sistemli yanaşma çərçivəsində cəmiyyətin bir obyekt kimi öyrənilməsi sistemin xüsusiyyətlərinin inteqrallığı haqqında məsələləri xüsusilə ortaya qoymuşdur. Belə ki, hələ sistem hərəkatının əvvəlinədək sosial sistemlərin bəzi növləri (ictimai-siyasi quruluşlar, mədəniyyətlər və sivilizasiyalar) təsvir edilmiş, sosiologiyanın baniləri cəmiyyəti canlı orqanizm, o cümlədən sosial orqanizm kimi nəzərdən keçirirdilər. Bu baxımdan Avstriyalı bioloq L. Fon Bertalanfinin 1930-cu illərdə təklif etdiyi "Ümumi sistemlər nəzəriyyəsi"nin müddəaları maraq doğurur. Onun nəzəriyyəsi sistemlərin quruluşu, işləməsi və inkişafı qanunauyğunluqlarını təqdim edən metodoloji konsepsiyadır. Sistemli yanaşmanın sosial sistemlərdə tətbiqini mümkün sayan Bertalanfi sistemin bir-birinə təsir edən elementlərdən ibarət struktur olduğunu qeyd edərək göstərirdi ki, "sistem qarşılıqlı əlaqədə olan elementlər dəstidir" [33]. Sonralar L. Fon Bertalanfinin ideyaları əsasında T.Parsons struktur-funksionalizmi işləmiş, cəmiyyətə sistemli yanaşmanın tətbiqi nəticəsində onun əsas inteqrativ keyfiyyəti insanların qarşılıqlı əlaqələrindən ibarət olan sistem kimi nəzərdən keçirilməsinə başlanılmışdır. Siyasi elmdə isə "sistem" anlayışı elmi dövriyyəyə D.İston tərəfindən daxil edilmiş və siyasi hadisələrin, proseslərin, strukturların bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqədə sistemli təsviri üçün istifadə olunur,. O, göstərir ki, siyasi həyat bir sistem olaraq boşluqda mövcud kimi deyil, fiziki, bioloji, sosial və psixoloji mühitlərdə öyrənilməlidir. Belə olmasa, siyasi sistemlərin sabit və dəyişən aləmdə özünüqoruma fenomeninin təhlili əsaslarının qoyulması mümkün olmazdı [14, s. 320]. Sistemli yanaşmanın spesifikası onunla müəyyən olunur ki, bu metodoloji yanaşma tədqiqatı inkişaf edən obyektin tamlığının açılıb göstərilməsinə, onun çoxlu və müxtəlif tipli əlaqələrinin müəyyən edilməsinə və bu əlaqələrin vahid nəzəri mənzərəsinin yaradılmasına yönəldir.

D.İston haqlı olaraq siyasi sistemlər nəzəriyyəsinin banisi kimi tanınır, çünki məhz o, sistemli yanaşmanı siyasi elmə gətirmiş, sistemli analiz metodlarının siyasət sahəsinin araşdırılmasına tətbiqini uyğunlaşdırmışdır. Onun "Siyasi həyatın sistemli təhlili" kitabında [26] siyasi sistem "giriş" və "çıxış" mexanizmləri vasitəsi ilə xarici mühitlə fasiləsiz qarşılıqlı əlaqədə olan münasibətlərin müəyyən məcmusu kimi nəzərdən keçirilir, təqdim etdiyi konsepsiyası kibernetikanın baza ideyalarına uyğun qurulmuşdur. D. İstonun metodoloji yanaşması siyasi sistemin ətraf mühitdən daimi olaraq impulslar alan "açıq sistem" kimi başa düşülməsinə əsaslanır. Bu zaman siyasi sistemin əsas məqsədi mühitə adaptasiya və uyğunlaşma yolu ilə özünün mövcudluğunu və dayanıqlılığını qorumaqdır. "Girişdə" sistem xaricdən impulslar, siqnallar, resurslar alır; bütövlüyünə təhlükə yaradan çağırışlarla qarşılaşır. D. İston onları iki kateqoriyaya ayırır: 1) təhlükəsizliklə, fərdi azadlıq və bərabərliklə, iştirakla, istehlak nemətləri ilə əlaqəli olan "tələblər"; 2) sistemə daxil olan "dəstək"lər, o cümlədən sistemə bəzi tələbləri ödəməyə və onların səbəb olduqları münaqişələri tənzimləməyə imkan verən "dəstək"lər. Xarici mühitdən "girişlərə" daxil olan bütün axınlar siyasi sistem daxilində işlənir və bu, sistemin bütün tərkib elementlərinin özünəməxsus reaksiyası vasitəsilə baş verir ki, bu da son nəticədə siyasi sistemin məcmu şəklində müəyyən cavab reaksiyasına səbəb olur və mühitə adaptasiyasını göstərir. "Çıxışda" bu reaksiya bəzi siyasi hərəkətlər, hökumət aktları və tədbirlər formasını alır. Əks reaksiya, öz növbəsində, sistemin ətraf mühitlə qarşılıqlı əlaqələrinin yeni dövriyyəsinin başlanğıcı olmaqla, onda müəyyən dəyişikliklərə səbəb olur ki, bu da sonra yeni "tələblər" və "dəstəklər" yaradır.

Beləliklə, D. İstonun konsepsiyasının başlıca üstünlüklərindən biri odur ki, burada siyasi sistem ətraf mühitlə daimi qarşılıqlı əlaqədə olan və özünün "cavablarını" elementlərinin durumu və reaksiyası ilə fasiləsiz olaraq "müqayisə edən" bütöv orqanizm kimi dinamikada nəzərdən keçirirdi. Onun təklif etdiyi sistemli analiz metodologiyası siyasi sistemin işləməsi qaydalarının, sabitliyinin qorunub saxlanılması şərtlərinin, digər sistemlərlə münasibətlərinin qanunauyğunluqlarının axtarışı və müəyyən edilməsini asanlaşdırır. Bu problematika D. İstonun "Siyasətin sistemli analizi kateqoriyaları" adlı məqaləsində də təhlil edilmiş, burada siyasi sistemin sistemli analizinin başlıca cəhətləri səciyyələndirilmişdir [14].

Sistemli yanaşmanın nümayəndələri ondan çıxış edirdilər ki, tədqiqat obyekti kimi, siyasəti kibernetik və, daha geniş, kommunikativ qarşılıqlı əlaqələr, struktur – funksional asılılıqlar və bəzi digər təşkilati prinsiplər fərqləndirir. Buradan da belə məlum olurdu ki, siyasətin tədqiqi və başa düşülməsi vəzifələri mürəkkəb və müxtəliftərəfli siyasi aləmdə müvafiq aspektlərin üzə çıxarılması ilə bağlıdır. Bu baxımdan tədqiqatçılar tərəfindən sistemli yanaşmanın (təhlilin) sistemli-komponent, sistemli-struktur, sistemli-funksional, sistemli-kommunikasiya, sistemli-inteqrativ, sistemli-tarixi aspektlərinin ayrılması maraq doğurur [2, s.213]. H.Babaoğlu sistemli yanaşmanın tətbiqi aspektinə toxunaraq göstərir ki, bu yanaşma ümumilikdə idarəedənə iki böyük məsələni həll etməyə imkan verir: birincisi, sistemdə və altsistemdə mexanizmlərin qarşılıqlı təsiri barədə təsəvvürləri genişləndirmək və dəqiqləşdirmək; onu öyrənmək və mümkünsə onun yeni xüsusiyyətlərini açıb göstərmək; ikincisi, meyarlar üzrə və strateji vacib məsələlərin həlli istiqamətində sistemin fəaliyyətinin effektivliyini yüksəltmək [3, s.264].

Sistemli metodoloji yanaşmanı məşhur ABŞ politoloqu Q.Almondun struktur – funksionalizmi tamamlayır [5, 23]. Bu zaman o, T.Parsonsun struktur-funksionalizminə söykənərək siyasi sistemin sosiumun digər hissələrindən ayrı, nisbətən müstəqil hissəsi kimi tanınmasına əsaslanan konsepsiyasını işləmişdir. Siyasi sistem "cəmiyyətin və ya onun müəyyən qruplarının kollektiv məqsədlərinin qoyulması, formalaşdırılması və həyata keçirilməsi ilə məşğul olan və bir-biri ilə əlaqəli olan institutlar və müəssisələrinin məcmusudur". Q.Almond siyasi sistemin analizinin analitik baxımdan üç müxtəlif səviyyəsini ayırır:

- sistem və onun mühitlə qarşılıqlı əlaqəsi;
- sistemin daxili işləməsi;
- sistem tərəfindən özünüqoruma və adaptasiya funksiyalarının yerinə yetirilməsi. Analizin bu səviyyəsində istənilən cəmiyyətin kifayət qədər adekvat təsviri üçün onu sistem, struktur və funksiyalar kimi üç anlayış kontekstində nəzərdən keçirmək lazımdır.

Beləliklə, sistemli və struktur-funksional metodoloji yanaşmalar çərçivəsində cəmiyyət özünə davamlı elementləri, həmçinin onlar arasındakı əlaqələr üsullarını daxil edən sistem kimi təsəvvür edilir, həmin elementlər, onlar arasındakı əlaqələr üsulları sistemin strukturunu yaradırlar. Bu elementlərdən hər biri sistemin bütöv tam şəkildə saxlanılması üçün cavab olaraq müəyyən funksiyalar yerinə yetirir.

Struktur – funksional yanaşmanın metodoloji yanaşma kimi əsas xidmətləri ən əvvəl ondan ibarət olmuşdur ki, onun və siyasi sistemlər nəzəriyyəsinin yaranması siyasi prosesin universal komponentlərinin ayrılmasına əsaslanan nəzəriyyənin yaranmasını mümkün etmişdi. Bununla belə, tədqiqatçılar struktur – funksional yanaşmanın bəzi nöqsanlarını da qeyd edirlər. Belə ki, bu yanaşmada siyasi proseslərin analizinin mikrosəviyyəsinə lazımi diqqət yetirilməmiş, siyasi aktorların sərbəstliyi və fəallığı, həmçinin sosial amillərin təsiri lazımınca qiymətləndirilməmişdir. Bundan başqa, struktur – funksional yanaşmanın çatışmayan cəhətinə münaqişələrin səbəbləri və mexanizminin öyrənilməsinə lazımi diqqətin yetirilməməsi də aid edilir.

Bütün bunlara baxmayaraq struktur-funksionalizmin danılmaz üstünlükləri onu şərtləndirdi ki, bu metodoloji yanaşma 1960-70-ci illərdə böhran keçirsə də, bu günə qədər siyasi proseslərin analizində geniş tətbiq ol-

unur. Təcrübə göstərir ki, bu yanaşmanın digər metodoloji yanaşmaların elementləri ilə məcmu şəklində istifadə olunması daha yaxşı nəticələr verir. Siyasi komparativistikanda keyfiyyətcə yeni, o cümlədən nəzəri-metodoloji xarakterli elmi nəticələrin əldə olunması da əhəmiyyətlidir. Bu baxımdan Q.Almond müqayisəli politologiyada struktur-funksional yanaşmanı işləyərkən, siyasi sistemlərin (onların müqayisəsində əsaslanılacaq) xüsusiyyətlərinin səciyyələndirilməsi xüsusi maraq doğurur [5 , s.37, 81].

Bütövlükdə isə, təhlillərdən göründüyü kimi, "yeni" müqayisəli politologiyada tətbiq olunan bihevioralizm və sistemli, struktur-funksional yanaşmalar çərçivəsində tədqiqatların empirik bazasına yaxud təmiz nəzəriyyəyə üstünlük verilirdi ki, bu da müqayisəli politoloji tədqiqatların dinamik siyasi proseslərdən uzaqlaşmasına gətirib çıxarmışdır. Nəticədə tədqiqatçıların qarşısına bu metodoloji yanaşmalara münasibətlərinə yenidən baxmaq problemi çıxmışdır. Beləliklə də, 1960-cı illərin sonundan başlayaraq müqayisəli politoloji tədqiqatlara yeni metodoloji oriyentasiyaların təsiri artmış, bihevioralizm və struktur-funksionalizm tənqidə məruz qalmışlar. Bütün bunlar həmçinin emprik yönümlü müqayisəli politologiyanın da tənqidinə səbəb olmuşdur. Qeyd olunanlardan görünür ki, burada metodoloji modellərin müəyyən transformasiyası baş verməklə, marağın oxşarlıq və ümumi asılılıqların axtarışından fərqlərin göstərilməsinə və daha müxtəlif təsnifatların yaradılmasına keçməsi müşahidə olunmuşdur.

Göründüyü kimi, 1970-ci illərdə müqayisəli politologiyada məzmunun dəyişməsi ilə yanaşı ciddi metodologiya dəyişikliklər də baş verirdi, bu isə ilk növbədə bihevioralizmin və struktur funksionalizmin əhəmiyyətinin yenidən dəyərləndirilməsi ilə bağlı idi. Bihevioralizmin, struktur – funksionalizmin və digər əsas metodoloji istiqamətlərin böhranının ən qızğın dövrü 1960-1970-ci illərə təsadüf etmişdir. Siyasi tədqiqatlarda metodoloji vakuumun yaşandığı həmin dövr gələcək tədqiqatlar üçün yeni metodoloji əsasın axtarılması ilə səciyyələnən bir dövr olmuşdur. Belə şəraitdə politoloqların müraciət etdikləri nəzəriyyə və metodoloji istiqamətlərdən biri iqtisadiyyatdan götürülmüş rasional seçim nəzəriyyəsi oldu. Rasional seçim nəzəriyyəsində insan müstəqil, fəal siyasi aktor kimi çıxış edir, bu nəzəriyyə insanın davranışına "daxilən" baxmağa imkan verirdi. Qeyd etdiyimiz kimi, siyasi elmə rasional seçim nəzəriyyəsi iqtisadi elmdən gəlmişdir. Bu nəzəriyyənin əsasları E.Dauns, D.Blek, Q.Simon, həmçinin L.Şapley, V.Rayker və b. tərəfindən qoyulmuşdur.

Siyasətdə rasional seçim nəzəriyyəsi əsasən siyasətçilərin və seçicilərin davranışlarını izah etmək üçün istifadə olunur. Bu nəzəriyyə ondan çıxış edir ki, insanlar özlərinin şəxsi maraqlarına əsaslanaraq qərar verirlər, bu zaman onlar sərfiyyatı minimallaşdıran, faydaları isə maksimallaşdıran variantı seçəcəklər.

Rasional seçim nəzəriyyəsinin tərəfdarları aşağıdakı metodoloji mühakimələrdən və insan davranışının işlək konseptual modelinin formalaşdırılmasına imkan verən zəminlərdən çıxış edirlər:

Birincisi, metodoloji fərdçilik: tədqiqat cəmiyyət yaxud strukturdan deyil, canlı və fəaliyyətdə olan fərddən başlamalıdır. Cəmiyyət və strukturlar fərdə nisbətdə ikinci dərəcəlidirlər, məhz fərd öz fəaliyyətində münasibətləri və institutları yaradır, strukturlar deyil, fərdlər fəaliyyətdə olur. Ona görə də fərdin maraqları onun özü tərəfindən müəyyən edilir.

İkincisi, fərdlərin rasionallığı: yəni onların öz üstünlüklərini özünün maksimal mənfəətinə müvafiq ardıcıllıqla yerləşdirmək qabiliyyəti. Fərd həmişə rasional hərəkət edir, yəni o, bütün şəraitlərdə özünün mənfəətini maksimallaşdırmağa çalışır. Entoni Dauns qeyd edir ki, "hər dəfə rasional davranış haqqında danışarkən, biz ilk vaxtdan eqoistik məqsədlərə yönələn rasional davranışı nəzərdə tuturuq" [25, s.28]. Bu zaman fərd gözlənilən nəticələrin və məxaricin nisbətini müəyyən edir və faydasını maksimallaşdırmağa çalışaraq, eyni zamanda sərfiyyatlarını minimuma endirməyə cəhd edir. Siyasi partiyalar da seçkilərdə mümkün qədər çoxlu sayda seçicilərin dəstəyini qazanmaqla, maksimal fayda əldə etməyə çalışırlar.

Üçüncüsü, seçimin optimallığı: insanın şəxsi maraqlarının maksimallaşdırılmasına,

sosial qarşılıqlı əlaqələrin optimallaşdırılması şəraitlərinə istiqamətlənməsi (aktor ən yaxşı nəticələr verən hərəkəti seçəcək).

Dördüncüsü, fərdlərin qarşılıqlı fəaliyyəti yaxud fəaliyyət mübadiləsi: cəmiyyətdə fərd tək hərəkət etmir, insanların qarşılıqlı seçim asılılığı mövcuddur, gözlənilir ki, digərləri də rasional hərəkət edəcək. Qrupda da hərəkət edərkən fərd, qrupun imkanlarından istifadə etsə də, yenə öz maraqlarından çıxış edəcək. Hər bir fərdin davranışı müəyyən norma və qaydaların məcmusunu ifadə edən institusional şəraitdə həyata keçirilir, yəni institutların müəyyən hərəkətlərinin təsiri altında. Bu institusional şəraitin özünü isə insanlar yaradır, lakin bunun əsasında fəaliyyət mübadiləsinin həyata keçirilməsinə insanların razılığı durur. Fərdlər fəaliyyət prosesində əslində institutlara uyğunlaşmır, daha doğrusu, onları özlərinin maraqlarına müvafiq olaraq dəyişdirməyə çalışırlar. İnstitutlar isə, öz növbəsində verilən üstünlüklərin sırasını, ardıcıllığını dəyişə bilərlər, bu da o deməkdir ki, dəyişiklik siyasi aktorlar üçün həmin şəraitdə sərfəli olmuşdur [21, 68].

Bu metodoloji yanaşma fərdin davranışına təsir edən sosial və mədəni-tarixi faktların zəif nəzərə alınmasına, izah imkanlarının məhdud olmasına, “kollektiv 6hərəkətlərin” məntiqinə zidd olan bəzi müddəalara görə tənqid edilir. Rasional seçim yanaşmasının tərəfdarları yalnız öz məqsədlərini güdən, daim mənfəət əldə etməyə can atan insanın siyasi həyatdakı iştirakını ancaq rasional düşüncə ilə əlaqələndirərək mənəvi dəyərləri, ənənələri, şəxsi məsləkləri qətiyyən nəzərə almırlar. Lakin belə utilitarist istiqamətin əsasını təşkil edən rasionalizmin mütləqləşdirilməsi, siyasətin insan davranışının tamamilə əqli və xudbin formalarının cəmi kimi interpretasiyası həyatın bu sahəsi haqqında yeni nəticələrin əldə edilməsinə heç də imkan yaratmır [2, s.21]. Bununla belə bu nəzəriyyənin bir sıra üstünlükləri onun populyarlığını şərtləndirir. Tədqiqatçıların fikrincə, rasional seçim və yeni institusionalizm konsepsiyaları bütün analiz səviyyələrinin inteqrasiyası üçün müəyyən dərəcədə faydalıdır. Siyasi həyatın subyektiv aspektləri, siyasi aktorların daxili aləmi, inanclar, niyyətlər və dəyərlər siyasi analizin bütün növlərində mərkəzi yer tutur, yəni belə nəticəyə gəlinir ki, siyasi metodologiya postmodern inkişaf fazasına daxil olur.

Beləliklə də, ABŞ politoloqu Q.Almond 1997-ci ildə yazdığı “Siyasi elm: fənnin tarixi” adlı məqaləsində XX əsrdə siyasi elmin üç yüksəliş yaşadığını göstərərkən: (birinci yüksəliş 1920-1940-cı illərinə təsadüf etməklə Çikaqo məktəbi ilə bağlı olmuş, həmin vaxt empirik tədqiqat proqramları işlənilmiş, həmçinin kəmiyyət amillərinin əhəmiyyətinə diqqət yönəldilmişdir; ikinci, 1950-1960-cı illər siyasi tədqiqatların inkişafı üçün daha əhəmiyyətli olan yüksəliş siyasətə davranış (bihevioral) yanaşmasının yayılması və peşəkarlığın artması ilə səciyyələnir), "rasional seçim" və “metodoloji fərdçilik” çərçivəsində məntiqi - riyazi metodların və iqtisadi modellərin tətbiqi üçüncü yüksəlişin səciyyəvi xüsusiyyəti olduğu qeyd edilir. zamanı müəllif bu sahənin metodoloji fikirmüxtəlifliyi üzərində qurulduğunu iddia edərək, onun inkişafı mənzərəsini plüralistik qarşılıqlı əlaqələr əsasında təqdim edir [23].

Beləliklə də, 1970-ci illərin əvvəli müqayisəli politologiyada böhranın başlanması, metodoloji yanaşmalarda plüralizm problemi ərafında diskussiyaların aparılması ilə səciyyəvi olmuşdur ki, “plüralist” mərhələyə keçidi şərtləndirmişdir.

## Müqayisəli politologiyanın inkişafında metodoloji yanaşmaların plüralizmi və sintezi problemləri

Təhlillərdən göründüyü kimi, siyasi komparativistikada 1970-ci illərin ortalarından (1990-cı ilədək davam edib) başlayan dövr tədqiqatçılar tərəfindən “plüralist” mərhələ kimi müəyyən edilir. Həmin dövrdən metodoloji yanaşmaların plüralizmi siyasi tədqiqat predmeti və onun sərhədləri haqqında, istifadə olunan metodlar və alınan nəticələrin həqiqiliyi meyarları, nəzəri və empirik tədqiqat səviyyələrinin nisbəti haqqında diskussiyalar yaradır. Müqayisəli politologiyanın plüralistik dövrü göstərdi ki, metodoloji müxtəliflik və politoloji müqayisəyə müxtəlif yanaşmaların

qarşıdurması elmi nəticələrin əhəmiyyəti və dəyərini azaldır [22, s.302]. Metodoloji yanaşmalar ayrı-ayrılıqda mövcud olmamalı və bir-birini inkar etməməklə, qarşılıqlı əlaqədə biri digərini tamamlamalıdır. Digər tərəfdən, metodoloji yanaşmaların məhsuldar qarşılıqlı əlaqələri onların hər - birinin zəif cəhətlərinin müəyyən dərəcədə aradan qaldırılmasına imkan verər ki, bu onların və bütövlükdə siyasi elmin inkişafı üçün faydalı olar.

Metodoloji yanaşmaların səmərəli qarşılıqlı əlaqələri baxımından, məsələn, göstərmək olar ki, əgər bihevioralizm empirik metodların inkişafı, sosiologiya və psixologiya ilə əməkdaşlıq, insanların real siyasi və tənqidi davranışının motivasiyası mexanizmlərinə maraq kimi metodologiya elementləri vasitəsilə optimal şəkildə institusionalizmi tamamlayır. Öz növbəsində institusionalizm komplementarlıq əsasında postmodernist konsepsiyalarla səmərəli qarşılıqlı əlaqədə ola bilər ki, bu da artıq siyasi institutların siyasi aktorların davranışının obyektiv-subyektiv trayektoriyası kimi başa düşülməsinə əsaslanan neoinstitusionalizmin yaranmasını şərtləndirir. Müasir postmodernizm istənilən konseptual fərqlərin, o cümlədən metodoloji yanaşmaların plüralizminin yerində olmasından, məhsuldarlığından çıxış edir və bunu norma hesab edir. Lakin bu metodoloji plüralizm elmin inkişafına maneçilik etməməli, metodoloji yanaşmalar ayrı - ayrılıqda kəsişməyən sahələr kimi bir-birini qarşılıqlı inkarla dağıtmamalı, əksinə sintezə nail olmaqla məhsuldar şəkildə qarşılıqlı əlaqədə olmalıdırlar [6].

Bu məsələlərlə bağlı L.Smorqunovun mülahizələri və irəli sürdüyü müddəalar da maraq doğurur. Tədqiqatçının göstərdiyi kimi, əgər müqayisəli politologiyanın plüralist mərhələsində siyasi proseslərin tədqiqində tətbiq olunan neoinstitusional metodologiya bir çox tendensiyalardan birini təşkil edirdisə, 1990-2010-cu illəri əhatə edən iki onillikdə neoinstitusionalizm üstünlük təşkil edən metodologiya kimi müqayisəli politologiya sahəsinin daha çox ciddilik və dəqiqlik istiqamətində bəzi siyasi məzmunu itirməklə dəyişməsinə imkan yaratmışdır. Bununla da, neoinstitusionalizm müqayisəli politologiyada üstün metodoloji paradiqma kimi bu sahənin müasir inkişaf mərhələsinin bir sıra xüsusiyyətlərini müəyyən etmişdir: birincisi, müqayisəli politologiya tədqiqatların fənlərarası səviyyəsini artırmaq üçün əhəmiyyətli bir təkan aldı; ikincisi, neoinstitusionalizm müqayisəli politologiyada konseptuallaşdırma və modelləşdirmənin rolunu və əhəmiyyətini artırdı; üçüncüsü, müqayisəli tədqiqatların izahedici funksiyasının reallaşması dərəcəsi artdı; dördüncüsü, neoinstitusionalizm müxtəlif mədəni kontekstlərdə institutların yaranması şərtlərini təhlil etməyə və, bir tərəfdən, universal ümumiləşdirmələr əldə etməyə və ya, digər tərəfdən, universal modellərdən istifadə edərək müxtəlif ölkələrin institusional quruluşunun xüsusiyyətlərini izah etməyə imkan verdi və s. [22, s.302-304].

Bu baxımdan müqayisəli politologiya bu mərhələdə nəinki əhəmiyyətli metodologiya əldə etdi, həm də institusional transformasiya və konsolidasiya proseslərinin üstünlük təşkil etdiyi demokratik keçidlər hesabına tematik canlanma yaşadı. Neoinstitusionalizmin müxtəlif versiyalarını (iqtisadi, sosioloji, tarixi, təşkilati, normativ, diskursiv, konfliktoloji və s.) nəzərə alaraq deyə bilərik ki, müqayisəli siyasi tədqiqatlar müxtəlif institutların formalaşması və fəaliyyətinin öyrənilməsinin fənlərarası sahəsinə çevrilmiş və siyasətin isə, institusionallaşmış sahə kimi, müxtəlif tematik-metodoloji yanaşmalardan istifadə edilməklə təhlilinə başlanmışdır. Bu da müqayisəli politologiyanın nəzəri sahə kimi əhəmiyyətini artırmağa və komparativ siyasi tədqiqatlara ciddilik və bütövlük verməyə imkan vermişdir.

XXI əsrdə müqayisəli tədqiqat metodologiyasında müəyyən narahatedici problemlərin ortaya çıxdığı vaxtda əvvəllər də neoinstitusional metodologiyanın bir sıra məhdudiyyətləri aradan qaldırılsa da, böhran problemi kökündən həll edilmədi. Məsələn, başa çatan "demokratikləşmənin üçüncü dalğası" (və mümkün "dördüncü" dalğanın perspektivi) komparativistlərin diqqətini məsələn, siyasi prosesin digər formalarına (məs., "rəngli inqilablar" fenomeni və ya "rasional davranış" kimi) yönəltdi, lakin onların tədqiqində neoinstitusionalizm şəbəkə yanaşması, konstruk-

tivizmlə, akseologiya ilə birləşməli oldu. Odur ki, böhranın aradan qaldırılması bir sıra nəzəri-metodoloji ənənələrin sintezi yolunda mümkündür ki, bu da müqayisəli politologiyada sintetik metodologiyaların axtarışı problemini ortaya qoymuşdur.

Postmodern yönümlü tədqiqatçılar müxtəlif konsepsiyaların plüralizmini tanısalar da, eyni zamanda onların heç birinin həqiqət olduğunu iddia edə bilməyəcəyini vurğulayır və siyasi metodologiyada mövcud paradiqmaların sintezinə, onların arasında siyasi tədqiqatın yüksək effektivliyinə nail olunmasına töhfə verəcək qarşılıqlı əlaqələrin qurulması tendensiyasının daha əsaslandırılmış olduğundan çıxış edirlər [11, s.129].

Beləliklə, təhlillərdən də göründüyü kimi, müqayisəli politologiyada yaşanan böhranlı durumlar şəraitində məzmunda, tədqiqat mövzularında yeni hadisələrin dərk olunmasına keçidlə müşayiət olunan dəyişikliklərlə yanaşı, metodologiya sahəsində də ciddi dəyişikliklər baş vermiş və verməkdədir. Bu metodoloji transformasiya prosesini səciyyələndirən əsas tendensiyalar, birincisi, radikal tendensiyadır: daha aydın şəkildə postmodern və feminist siyasi-nəzəri oriyentasiyalarda təqdim olunur. Postmodern və feminist müqayisəli politologiyada nəzəriyyə və metod məsələlərini problem kimi ortaya qoyurlar. Politoloji postmodern müqayisəli politologiyanın özünü problemləşdirməklə, real siyasi aləmin strukturları və funksiyalarının oxşarlıqlarına dair konsensusa əsaslanan dərketmənin həqiqi nəticəsinin əldə edilməsi imkanının özünü sual altına qoyur; ikinci tendensiya müqayisəli – tarixi metodologiyanın əhəmiyyətinin bərpası ilə bağlıdır; öz ifadəsini marksist ənənələrinin və M.Veberin siyasi müqayisə metodologiyasının siyasi komparativistikada tətbiqi cəhdlərində tapır; üçüncü tendensiya isə, yeniləşdirmə tendensiyası kimi müəyyən olunur və yeni konseptual yanaşmalara müraciət etmək yolu ilə müqayisəli elmi analizin metodoloji alətlərinin genişləndirilməsi ilə bağlıdır. Bu yeni konseptual yanaşmalar statistik analiz vasitələri kompleksinin istifadə edilməsi və inkişafına, eyni zamanda kəmiyyət və keyfiyyət tədqiqatlarının vəhdəti probleminin həll olunmasına imkan verirlər. Bu tendensiya çərçivəsində radikal və tarixi-müqayisəli oriyentasiyalarda təzahür olunan müsbət tərəflərin istifadə olunması inkar edilmir [16, s.81-82].

Qeyd olunan tendensiyalarla yanaşı, siyasi komparativistika müasir inkişaf mərhələsində yeni problemlərlə, yeni tələblərlə üzləşir. Bu gün müqayisəli politoloji tədqiqatlarda tətbiq olunan metodologiyanın təkmilləşdirilməsi, yeni metodların axtarışı, əhatə olunan mövzuların yenidən qurulması, yeni müstəqil istiqamətlərin yaradılması, əsas kateqoriyaların məzmununun identikliyi və s. kimi məsələlər müzakirə olunan və xüsusi əhəmiyyət kəsb edən diskussiyalı problemlərdəndir.

**Nəticə.** Beləliklə, müasir inkişaf mərhələsində siyasi elmin ən vacib sahələrindən birini təşkil edən müqayisəli politologiya özünün təkamülü prosesində bu və ya digər metodoloji yanaşmanın üstünlüyünü əks etdirən bir neçə mərhələdən keçmişdi. ”Ənənəvi”, “yeni” , “plüralistik” və “neoinstitusional” mərhələlərini yaşamış müqayisəli politologiyada baş vermiş metodoloji tramsformasiya çərçivəsində “ənənəvi” (institusional) yanaşma, bihevioral, struktur-funksional yanaşmalar, neoinstitusional rasional seçim nəzəriyyəsi və digər metodoloji yanaşmalar müxtəlif nisbətdə tətbiq edilmiş, bununla da metodoloji alətlərin müasir yenilənmə tendensiyaları şərtlənmişdir. Yeni sosial-siyasi dəyişikliklərin dərk edilməməsi müqayisəli politologiyanın əsas nöqsanlarından biri olmaqla, XX əsrin sonunda meodoloji plüralizm mərhələsində əldə olunan nəticələr elmi dürüstlük meyarına cavab vermirdi ki, bu da müqayisəli politoloyi tədqiqatların metodoloji əsaslarında sintezin axtarışını fəallaşdırmış, bu kontekstdə konstruktiv və idraki yanaşmaların sintez şəklində tətbiqinin əhəmiyyəti artmışdı. Müasir mərhələdə müqayisəli siyasi analizin yeni metodoloji alətləri əsasən formalaşmış, öyrənilən obyektin xüsusiyyətlərindən asılı olaraq tədqiqat istiqamətləri genişlənmişdir.

Bununla belə siyasi elmin sistemyaradıcı sahələrinə aid olan müqayisəli politologiyada bir sıra prinsipial problemlər mövcuddur ki, onlar da daha çox nəzəriyyə və metodologiyanın sadələşdirilmiş şəkildə başa düşülməsi ilə

əlaqədardır. Belə ki, metodologiyanın obyektin daha geniş kontekstdə nəzərdən keçirilməsi üsulu kimi deyil, metodlar haqqında elm kimi başa düşülməsi üstünlük təşkil edir. Müqayisəli politologiyanın müasir inkişaf mərhələsində onun metodoloji parametrləri hansılardır, hansı çağırışlara cavab axtarılır və s. kimi suallar aktuallıq kəsb edir. Qarşıya qoyulan vəzifələrə toplanmış təcrübəyə tənqidi yanaşmaqla, aparılan tədqiqatların səthiliyi və təsviri xarakterinin aradan qaldırılmasını, müqayisəli politologiyanın elmi istiqamət və akademik fənn kimi vəhdətinə nail olunmasını da aid etmək olar.

**Ədəbiyyat:**


1. Abbasbəyli A.N. Dünya siyasəti. Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 584 səh.
2. Ələkbərova N.İ. Siyasi elmin tarixi və metodologiyası (Dərslik. Ali məktəbin magistratura pilləsi üçün). Bakı, “Azərbaycan” nəşriyyatı, 2005. 240 səh.
3. Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdırma (Dərslik).Bakı, “MSA”, 2012, 300 səh.
4. İbadov, N. F.Müqayisəli politologiya. Dərslik. -Bakı, “Elm”, 2010. 221 səh.
5. Алмонд Г. Сравнительная политология сегодня: мировой обзор / Г. Алмонд, Дж. Б. Пауэлл, К. Стром, Р. Далтон. – М. : Аспект Пресс, 2002. 537 с
6. Аптер Д.И. Сравнительная политология: вчера и сегодня // Политическая наука. Новые направления. М., 1999, 815 с.
7. Бэрри Б. Политическая теория:вчера и сегодня // Политическая наука: новые направления./ Под ред.Р.Гудина, Х.-Г.Клингеманна.М., 1999. С.85-86.
8. Гаджиев К.С. Введение в политическую науку. - М., 1997. 490 с. с. 39-40
9. Гаман-Голутвина О.В. Современная сравнительная политология перед вызовами развития//https://www.perspektivy.info/oykumena/amerika/sovremennaja_sravnitelnaja_politologija_pered_vyzovami_razvitija_2020-05-13.htm
10. Дегтярев А. Основы политической теории. : Учебное пособие / А.А. Дегтярев. - М.: Высшая школа, 1998. 239 с.
11. Жуковский А.Г. Проблема методологического плюрализма политологической науки // Государственное и муниципальное управление. Ученые записки СКАГС. 2010. № 2. С. 120-131
12. Жуковский А.Г. Современные парадигмы политологического исследования. Автореф.дисс. на соиск. уч.степ. док. полит. наук. 23.00.01 .Ростов-на-Дону, 2011. 48 с.
13. Ильин М.В., Сморгунов Л.В. Сравнительная политология// Политическая наука, 2001, №2. С.109-145
14. Истон Д. Категории системного анализа политики // Политология : хрестоматия / сост. М. А. Василик, М. С. Вершинин – М. : Гардарики, 2000. – С. 319–331.
15. Истон Д. Политическая наука в США: прошлое и настоящее // Политология: Хрестоматия. / Сост. Б.А.Исаев М., А.С.Тургаев, А .Е.Хренов.- Спб.:Питер, 2006.464 с. С.7-12.
16. Куппаева Б. Т . Проблематика сравнительной политологии // БЮЛЛЕТЕНЬ НАУКИ И ПРАКТИКИ – BULLETIN OF SCIENCE AND PRACTICE. Научный журнал (scientific journal) №2 2016 . с. 70-86.
17. Павлов А.В. Гражданская война политической теории //Политическая концептология 2010.№ 4, с.40-65.
18. Питерс Б.Г. Политические инситуты вчера и сегодня // Политическая наука: новые направления. Пер. С англ. Под редакцией Гудина Р., Клингеманна Х.-Д.- М.: Вече, 1999. 815с.
19. Политическая наука: новые направления Ин-т “Открытое общество”; Пер. С англ. Под редакцией Гудина Р., Клингеманна Х.-Д. науч. ред. рус. изд. Шестопал Е.Б. М.:Вече, 1999. 815 с.
20. Политический процесс: основные аспекты и способы анализа (под редак-

цией Е. Мелешкиной) - М.: изд-во "Весь мир", 2001. 304 с.
21. Сморгунов Л. В. Сравнительная политология. Учебник. М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2012. 472 с.
22. Сморгунов Л. В. Методологический синтез в современной сравнительной политологии // Журнал МЕТОД: Московский Ежегодник Трудов Из Обществоведческих Дисциплин. 2014. №4, с.300-310
23. Almond, G. A., 'Political Science: The History of the Discipline', in Robert E. Goodin, and Hans-Dieter Klingemann (eds), A New Handbook of Political Science (Oxford, 1998; online edn, Oxford Academic, 1 Nov. 2003), pages 50–96
24. Bill Y.A., Hardgrave R.L. Comparative politics. The quest for theory. – L.anham, 1981 – X, 261 p.s.11
25. Downs, Anthony (1957). An Economic Teory of Democracy. New York, Harper, 1957. 320 p.
26. Easton D. Systems Analysis of Political Life. New York: John Wiley & Sons LTD,1965. Pages: 536.
27. Easton D. The Future of the Postbehavioral Phase // Monroe K. R. Contemporary Empirical Political Theory. Publisher: University of California Press, 1997, Pages: 364.
28. Easton D. The New Revolution in Political Science // American Political Science Review , Volume 63 , Issue 4 , December 1969 , pp. 1051 - 1061
29. Freeman, E. A. Comparative Politics. Six lectures on comparative politics delivered before the Royal Institution in January and February 1873. New York: Macmillan (1873) Reprint years. 2016. Publisher: Palala Press (May 24, 2016), 388 p.
30. Gunnell J.G. In Search of the Political Object: Beyond Methodology and Transcendentalism // What Should Political Theory Be Now. Ed. by Nelson J.S. Albany, 1983. P. 25-¬52
31. Merriam Ch. New Aspects of Politics. University of Chicago Press, 1925. 253 p.
32. Riker W. The Ferment of the 1950s and the devekop,emt of Rational Choice Theory// Contemporary Empirical Political Theory. Ed.by Manroe K.R. Berkeley et al., University of California Press, 1997. Reprint 2020, P.194.
33. Von Bertalanfy L. General System Theory. Foundations, Development, Applications. - N. Y., 1968. - 289 p. [Электронный ресурс]. URL: https://monoskop.org/images/7/77/Von_Bertalanffy_Ludwig_General_System_Theory_1968.pdf

1994-cü ilin oktyabr – 1995-ci ilin mart aylarında xaricdən yönəldilən və idarə olunan hərbi-siyasi müxalifətin çevriliş cəhdlərinin qarşısının alınmasından, "Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək ənənəsinə son qoyulduqdan" [4, s.1 ] sonra ölkəmizin ən yeni tarixinin artıq keyfiyyətcə yeni mərhələsi başlanırdı. Yeri gəlmişkən, biz politoloq Hikmət Babaoğlunun belə bir fikri ilə razıyıq ki, "əgər 1991-1993-cü illər ərəfəsində edilmiş çevriliş cəhdləri hakimiyyət boşluğu və böhranından, ölkəyə rəhbərlik edən şəxslərin irrasionallığından qaynaqlanırdısa, 1993-cü ildən sonrakı cəhdlər Ümummilli lider Heydər Əliyevin siyasi sabitliyi və ümummilli bütövlüyü təmin etmək üçün gördüyü tədbirlərə əks reaksiya idi" [6, s.64].

Yeni mərhələnin səciyyəvi xüsusiyyətləri kimi sabitliyin tamamilə bərqərar olması, siyasi və dövləti institutların, hakimiyyət strukturlarının formalaşmasının başa çatdırılması çıxış edirdi. Məhz bu mərhələdən etibarən Heydər Əliyev böhran meneceri missiyasını uğurla başa vurur və sözün tam mənası ilə dövlətçiliyimizin memarı vəzifəsini şərəflə həyata keçirir; dünyanın analoji problemlərlə üzləşən bir çox ölkələri üçün örnək sayıla biləcək işlək idarəçilik mexanizmlərinə, daim inkişafda olan sosial-iqtisadi strukturlara malik, qlobal kolliziyalar şəraitində optimal xarici siyasi kurs yürüdən və müxtəlif növ təhdid və çağırışlara adekvat cavablar təqdim edən, qlobal, regional və daxili siyasi trendlərin düzgün təhlilinə əsaslanan dövlətçilik modelinin – Üçüncü respublikanın institusional əsaslarının və fəaliyyət prinsiplərinin yaradılması məhz Ulu Öndərin yeni – dövlət quruculuğu strategiyasını müvəffəqiyyətlə gerçəkləşdirməsinin bariz ifadəsi idi.

Beləliklə, 1993-2003-cü illərdə Heydər Əliyev böhrandan effektiv çıxış kursunu həyata keçirməyə, eləcə də keyfiyyətcə yeni funksional sistem, başqa sözlə Azərbaycan dövlətçiliyinin yeni modifikasiyasını yaratmağa müvəffəq olmuşdur; bu zaman o, siyasi yaradıcılıq subyekti kimi fəaliyyət göstərərək, məzmun və mahiyyət etibarı ilə yeni idarəçilik metodlarını və üslublarını işləyib hazırlamış və tətbiq etmişdir.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də hüquqi dövlətin Azərbaycan modelini yaratması olmuşdur. Bu istiqamətdə ən mühüm addım

1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan dövlətinin konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi idi. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamında vurğulandığı kimi, "Ölkəmizin Əsas Qanunu – Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsiplərinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir" [1, s. 1].

Bu konstitusiya Azərbaycan tarixində ilk dəfə olaraq müasir demokratiya standartlarına tamamilə cavab verməklə, ölkədə gedən institusional dəyişiklikləri dünyanın qabaqcıl ölkələrinin hüquqi-normativ təcrübə və praktikalarına uyğun məcraya yönəltmişdi. Lakin demokratiya ideyası bu zaman mexaniki yox, yaradıcı surətdə emal edilərək, Azərbaycanın milli-mənəvi dəyərlər sistemi ilə mütənasiblikdə götürülmüşdür.

Yeri gəlmişkən, bir məsələyə münasibətimizi bildirmək istərdik.

Heydər Əliyev demokratik inkişafın, yeni siyasi və sosial gerçəkliyin doğurduğu transformasiyanın önəmini və zəruriliyini şüurlu surətdə qəbul etmiş və bu istiqamətdə nəhəng işlər görmüşdü. Fəqət onun analitik zəkası demokratiyanı ehkamçı, müəyyən "universalist" şablonlar üzrə epiqonçu mənimsənilməsinin xalqımızın və dövlətimizin strateji mənfəətləri nöqteyi-nəzərindən son dərəcə yararsız və hətta zərərli olduğunu anlamağa imkan verirdi. Ulu Öndər "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində" özünün demokratiya haqqında təsəvvürlərini aşağıdakı şəkildə xülasə edirdi: "demokratiya xaos, hərc-mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir" [9]. Heydər Əliyevin diskursu üçün səciyyəvi olan bu qısa fraqmentdə böyük dövlət xadiminin siyasi fəlsəfəsinin bir sıra əsas yönəlişliklərini görüb sezmək mümkündür. Əvvəla, burada "demokratiya" kateqoriyası politoloji anlayış kimi anarxiyanın, hakimiyyətsizliyin antitezisi olaraq çıxış edir. Yəni bir siyasi rejim qismində demokratiya, bəzilərinin hesab etdiyi kimi, cəmiyyətdə dövlət hakimiyyətinin zəiflədilməsinin (onun mühüm atributları kimi "hərc-mərclik" və "özbaşınalıq" işarələnmişdir) sinonimi olaraq deyil, yeni, yüksək təşkilatlanmış siyasi toplumun daha qabaqcıl düzəni olaraq anlaşılır. Bu zaman "demokratiya" kateqoriyası "inkişaf" konsepti ilə korrelyasiyada götürülür. Yəni demokratiya sadəcə özü üçün məqsəd ola bilməz; o məhz inkişaf və tərəqqinin daha optimal şərtlərini təmin edəcək siyasi düzən olaraq nəzərdən keçirilir.

İkincisi, qlobal neoliberal həmlə kontekstində 1980-90-cı illərdə hakim təmayülə çevrilmiş demokratiyanın "universalist" (daha doğrusu, unifikasiyaedici) təfsiri əslində Qərbdə unikal şərtlər daxilində təşəkkül tapmış siyasi və sosiomədəni institutların mexaniki şəkildə dünyanın digər regionlarına "nəql edilməsini" nəzərdə tuturdu. Həqiqətdə belə bir təfsir faktiki olaraq demokratikləşməyə milli dövlətlərin zəiflədilməsinə, qlobal və transmilli aktorların ağalığının möhkəmləndirilməsinə yönəlmiş bir alət kimi baxışa haqq qazandırırdı. Bu baxımdan Heydər Əliyevin "Müraciətində" və ümumən diskursunda demokratiya haqqında tərifi faktiki olaraq yuxarıdakı təmayülə qarşı çevrilmişdir. O, bir tərəfdən milli dövlətlərin özünəməxsusluğunu, suveren hüququnu dəstəkləyir, digər tərəfdən demokratiyanın siyasi və sosiomədəni müxtəliflikdən qaynaqlanan variativliyi ideyasına haqq qazandırır. Demokratiyanın Heydər Əliyev tərəfindən verilmiş tərifi daşlaşmış rəyi – doksanı (doksa yunanca ümumi yayılmış rəy deməkdir) sarsıtmaqla, eyni zamanda siyasi

quruluş və rejimlərin mənsub olduqları məkan və zaman kontekstində təhlili zərurəti üzərinə diqqəti yönəldir. Heydər Əliyev Azərbaycanda milli dövlət quruculuğunu bu sahədə mövcud olan beynəlxalq normaları, dünya təcrübəsini olduğu kimi deyil, onları xalqımızın milli mentalitetinə, adət-ənənələrinə adaptasiya etməklə aparırdı.

Ulu Öndərin nəzəriyyəsində demokratiya (və istənilən siyasi düzən) dinamik sistem kimi nəzərdən keçirilirdi, fəqət bu zaman invariantların da önəmi vurğulanırdı; hər bir sistem digərləri ilə ümumi qanunauyğunluqlar aşkara çıxarsa da, bəlli fenomenal, təkrarolunmaz xüsusiyyətlərə də malikdir. Digər tərəfdən, belə bir baxış demokratiyanın fundamental prinsipi kimi qanunun aliliyi ideyasını ön plana çəkirdi: həqiqi demokratik üsul-idarə yalnız qanunlar əsasında idarə olunan dayanıqlı siyasi sistemdə fəaliyyət göstərə bilər.

Dövlət quruculuğunun əsaslarını təsbit etmiş müstəqil Azərbaycanın ilk konstitusiyası haqlı olaraq Heydər Əliyevin əsəri hesab olunur. Sözügedən əsas qanunu hazırlayan komissiyanın 1995-ci ildə noyabrın 10-da olmuş son iclasındakı çıxışında Prezident Heydər Əliyev bu barədə qeyd edirdi: “Komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun, bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm” [7, s.472-473].

Məlum olduğu kimi, 1991-1993-cü illərdə Azərbaycanın yeni konstitusiyasının hazırlanması üçün iki dəfə komissiya yaradılmasına baxmayaraq, keçmiş iqtidarlar dövründə bu məsələyə lazımi səviyyədə diqqət yetirilmədiyindən, bu təşəbbüslər öz bəhrəsini verməmişdi. Mövcud ədəbiyyatda düzgün olaraq qeyd edilir ki, məhz Heydər Əliyevin qətiyyətli şəkildə prosesə müdaxilə etməsindən sonra yeni konstitusiyanın hazırlanması üzrə işlər sürətlənir. Milli Məclisin 2 may 1995-ci il tarixli qərarı ilə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 34 nəfərdən ibarət tərkibi təsdiq olundu. İyunun 5-də olmuş komissiyanın ilk iclasında öz çıxışında Azərbaycanda konstitusiya quruculuğu tarixinə toxunan və o illərdə ictimai-siyasi hadisələri dərindən təhlil edən Ulu Öndər yeni konstitusiyanın məramı, qaynaqları və istinad edəcəyi hüquqi praktikalara, habelə mahiyyət cəhətlərinə aydınlıq gətirirdi: “Biz elə bir Konstitusiya layihəsi hazırlamalı, və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun... Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır... Konstitusiya yaratmaq üçün tarixi keçmişimizə nəzər salmalıyıq, eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməli, bəhrələnməliyik... Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir... Ona görə də hər bir vətəndaşın hüquqlarının qorunması, azadlıqlarının təmin edilməsi və hər bir vətəndaşa cəmiyyətimizdə, ölkəmizdə özünə layiqli yer tutmaq imkanlarının yaradılması – bunlar hamısı Konstitusiyamızda öz əksini tapmalıdır” [2, s.1-2].

Göründüyü kimi, görkəmli dövlət xadimi yeni Konstitusiyanı ümumbəşəri demokratik dəyər və nailiyyətlər əsasında, lakin eyni zamanda Azərbaycanın konkret siyasi və sosiomədəni ənənə və xüsusiyyətlərini nəzərə

almaqla tərtib etməyi məqsədəuyğun sayırdı. Bu zaman Ulu Öndər hüquq bərabərliyi prinsipinin Konstitusiyada hərtərəfli təsbitinə çağırırdı və bu prinsipə öz təfsirini verirdi: “Mən bərabər hüquqlar haqqında danışanda onu nəzərdə tuturam ki, dinindən, dilindən, milliyyətindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq insanların hamısının eyni hüquqlara malik olması və bu hüquqlardan səmərəli istifadə imkanları əldə etməsi Konstitusiyamızda öz əksini tapmalıdır”” [2, s.1-2]. Aydındır ki, gətirilən sitatda Heydər Əliyevin hüquqi dövlət quruculuğu ilə əlaqədar prioritet önəm verdiyi müddəalar yer almışdır.

Ümummilli liderimizin rəhbərliyi altında 6 ay müddətinə hazırlanan və ümumxalq səsverməsi yolu ilə 1995-ci ilin noyabrın 12-də qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası yuxarıda bəhs edilən prinsip və yönəlişlikləri bütün dolğunluğu ilə gerçəkləşdirdi. Orada ölkənin inkişaf vektoru müəyyənləşdirilməsi, demokratik əsaslarla hakimiyyət bölgüsünün təsbit edilməsi ilə bərabər insan hüquq və azadlıqlarının təminatı prioritet məqsədlər kimi xüsusi vurğulanırdı. Təsadüfi deyildir ki, konstitusiyanın 158 maddəsindən 48-i, başqa sözlə, təqribən üçdə biri sırf insan hüquq və azadlıqlarının təminatına yönəlmişdi. Müasir Azərbaycan Konstitusiyasında konstitusionalizmin klassik ideyası öz əksini tapmışdır: insan hüquq və azadlıqlarının prioriteti; siyasi plüralizm; hakimiyyətlərin bölgüsü; konstitusion nəzarət institutu və s. Konstitusiya “ictimai müqavilə” olaraq dövlət, cəmiyyət və fərd arasında münasibətləri müəyyən etdi, insan hüquqlarının prioritetini özündə təsbit etdi. O, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilə və konvensiyalarda insan hüquqlarına dair nəzərdə tutulmuş müddəaları tam şəkildə ehtiva edir. Konstitusiyanın ikinci bölməsinin “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” adlanan üçüncü fəsli hüquq və azadlıqların təminatı və müdafiəsi mexanizmlərini müəyyənləşdirir [5, s.10-24]. Konstitusiyanın 12-ci maddəsi dövlətin ali məqsədinin insan hüquqlarını təmin etmək olduğunu müəyyən edir. Burada insan hüquqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi nəzərdə tutulmuşdur. Konstitusiyanın 71-ci maddəsində irqindən, milliyyətindən, dinindən, dilindən, cinsiyyətindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Bu hüquq və azadlıqlar birbaşa qüvvədədir. Konstitusiyanın 25-ci maddəsinə əsasən, onların həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Bu zaman xüsusi olaraq qeyd edilirdi ki. Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquq və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası həm birinci nəsil (şəxsi və siyasi hüquqlar), həm də ikinci nəsil (sosial-iqtisadi və mədəni hüquqlar) insan hüquqlarını ehtiva etməklə, Azərbaycanda hüquqi dövlətin sonrakı inkişafının, ölkədə vətəndaş cəmiyyəti quruculuğunun qüdrətli təməlinə çevrildi.

Ümummilli lider Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli sərəncamı ilə təsis edilmiş Hüquq İslahatları Komissiyası beynəlxalq ekspertlərin iştirakı ilə Avropa standartlarına cavab verən müxtəlif və qanunları hazırlamış, bununla da milli qanunvericiliyin modern əsaslar üzərinə keçirilməsinə şərait yaratmışdır.

İnsan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərmanı və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı»nı xüsusilə qeyd etmək lazımdır [8, s. 313-

319; 10]. Sözügedən fərman və sərəncam insan hüquqları məsələsinə ümumdövlət əhəmiyyətli məsələ səviyyəsinə qaldırırdı. Belə ki, bu sənədlərdə insan hüquqlarının müdafiəsi sahəsində mühüm tədbirlərin həyata keçirilməsi, o cümlədən Milli Məclis tərəfindən qanunların qəbulu amanı Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların əsas meyar kimi rəhbər tutulması, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə səlahiyyətli müvəkkili təsisatının yaradılması, ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər nəzərdə tutulmuş, daha sonralar həmin aktlarda təsbit olunmuş məsələlərin həlli istiqamətində mühüm islahatlar həyata keçirilmişdir.

Təsadüfi deyil ki, ilk Dövlət Proqramının qəbul olunduğu gün – iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda insan hüquqları günü elan edilmişdir. Maraqlı və mahiyyət etibarilə böyük rəmzi məna daşıyan məqam odur ki, məhz həmin tarixdə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən "İnstitusional quruculuq paketi" qəbul edilmiş və bu paket çərçivəsində BMT-yə üzv olan dövlətlərdə insan hüquqları sahəsində vəziyyəti qiymətləndirməyə imkan yaradan yeni universal dövri icmal mexanizmi təsis edilmişdir.

Beləliklə, Heydər Əliyevin dövlət quruculuğu strategiyasının təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, o Azərbaycan Respublikasında hüquqi dövlətin özünəməxsus modelinin müəllifidir. Onun rəhbərliyi ilə ölkədə keçirilmiş demokratik islahatlar, vətəndaş cəmiyyəti quruculuğu, konstitusional və institusional dəyişikliklər demokratik, hüquqi dövlətin yeni tipinin təşəkkül tapmasına, bütün vətəndaşların siyasi, iqtisadi, sosial-mədəni azadlıqlarını təmin edən çağdaş sosial-siyasi sistemin formalaşmasına gətirib çıxarmışdır ki, bu sistem özündə üzvi surətdə ümumbəşəri norma və prinsipləri milli dəyərlərlə birləşdirir.

**Ədəbiyyat:**

1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 yanvar 2013-cü il, № 2679) // Azərbaycan. – 2013, 22 yanvar. – №14. – s. 1.
2. Azərbaycan Respublikası Prezidenti, Yeni Konstitusiya layihəsi hazırlayan Komissiyanın sədri Heydər Əliyevin nitqi // Azərbaycan. – 1995, 7 iyun. – №105. – s.1-2.
3. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 sentyabr 2022-ci il/ president.az/az/artcles/view/57413
4. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 mart 2001-ci il // Azərbaycan. – 2001, 23 mart. – №64. – s.1
5. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun, – 2009, – s.10-24.
6. Babaoğlu H. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. – Bakı: MSA, – 2013, – 455 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Dördüncü kitab: iyun, 1995 – noyabr, 1995 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, – 1997. – 528 s.
8. Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On dördüncü kitab: dekabr 1997 – fevral 1998 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr. –2005. – 520 s.
9. Əliyev H. Yeni 2001-ci il, Yeni Əsr və Üçüncü Minillik münasibətilə Azərbaycan xalqına müraciət, 29 dekabr 2000-ci il // Azərbaycan, – 2000. – 30 dekabr.
10. İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı (18 iyun 1998-ci il, №832). – Bakı: Qanun. – 2007. – 8 s.
11. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı: Azərbaycan. – 2008. – 840 s.
12. Подвинцев О. Б. Идея «несостоявшихся государств» в российском постимперском контексте // Научный ежегодник Института философии и права УрО РАН. – 2007. – Вып. 7. – с.204-214.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, hüquqi dövlət, demokratik islahatlar, vətəndaş cəmiyyəti*

**Sevda Aliyeva (Ahadova)**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*The Department of Public Service and Personnel Policy,*
*Professor, Doctor of Political Sciences*

## HEYDAR ALIYEV MODEL OF LEGAL STATE

### ABSTRACT

The analysis of Heydar Aliyev's state-building strategy allows us to conclude that he is the author of a particular model of legal state management in the Republic of Azerbaijan. The democratic reforms, civil society building, and constitutional and institutional changes with its implementation led to the formation of a new type of democratic, legal state, a modern socio-political structure that ensures the political, economic, and socio-cultural freedoms of all citizens. Within organically universal norms and principles with national values.

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan Republic, rule of law, democratic reforms, civil society*

**Севда Алиева (Ахадова)**

*Профессор кафедры "Государственной службы и кадровой политики"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук*

## МОДЕЛЬ ПРАВОВОГО ГОСУДАРСТВА ГЕЙДАРА АЛИЕВА

### РЕЗЮМЕ

Анализ стратегии государственного строительства Гейдара Алиева позволяет прийти к выводу, что он является автором особой модели легального государственного управления в Азербайджанской Республике. Демократические реформы, построение гражданского общества, конституционные и институциональные изменения, осуществляемые с их реализацией, приводят к формированию нового типа демократического, правового государства, формированию современной общественно-политической структуры, обеспечивающей политические, экономические, социокультурные свободы всех граждан в себе органически универсальные нормы и принципы с национальными ценностями.

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджанская Республика, верховенство закона, демократические реформы, гражданское общество*

DOI: 10.30546/2309-1347.2024.1307

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 354

**YUSİF HÜSEYNOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: y_huseynov@mfa.gov.az*

# AZƏRBAYCANDA FƏLAKƏT RİSKLƏRİNİN AZALDILMASI SİYASƏTİNİN İNKİŞAFI

## Azərbaycanda fəlakət riskinin azaldılması siyasətinin hazırlanması

Növbəti on ildə davamlı inkişafa mənfi təsir göstərən təbii fəlakətlərin artması ilə əlaqədar iqlim dəyişikliyinə və ekoloji təhlükəsizliyə aid proqramların icrasına diqqətin artırılması mühüm əhəmiyyət kəsb edir [1]. Bu xüsusda, müvafiq qərarlar qəbul etmək və milli maraqlara uyğun siyasət aparmaq üçün fəlakət risklərinin azaldılması, ölkədə mövcud vəziyyətin qiymətləndirilməsi və strategiyanın hazırlanması mühüm əhəmiyyət kəsb edir. Xüsusilə qiymətləndirmə prosesində BMT-nin Fəlakət Risklərinin Azaldılması üzrə Senday Çərçivəsində (bundan sonra Seday Çərçivəsi) göstərilən elementlərin istifadəsi ilə inkişaf modelinin yaradılması labüd olardı [4]. Nəzərə alsaq ki, son illərdə iqlim dəyişikliyi və təbii fəlakətlər dünyanın bir çox ölkəsində olduğu kimi Azərbaycanın da davamlı inkişafına ciddi təhdidlər törədir, fəlakət risklərinin azaldılması strategiyasının ölkənin milli təhlükəsizlik konsepsiyasına salınması, xüsusən də post-münaqişə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yenidənqurma və bərpa işlərində diqqətə alınması çox vacibdir.

Bu baxımdan, bu tədqiqat işində Azərbaycanın risk profili, fəlakət risklərinin azaldılması üzrə milli proqramın yaradılması prosedurları və adaptiv tədbirlərin həyata keçirilməsi təhlil ediləcək və təkliflər hazırlanacaq. Ələlxüsus, tədqiqat işində fəlakət risklərinin azaldılması ilə bağlı siyasətə dair protokolları və idarəetmə prinsiplərini formalaşdırmaqla dövlət qurumlarının, özəl şirkətlərin, beynəlxalq təşkilatların və QHT-lərin aidiyyəti istiqamətlər üzrə fəlakət risklərinin azaldılması siyasətinə cəlb etmək və inteqrasiyasını təmin etmək yolları araşdırılacaq. Bununla da, Azərbaycanın Fəlakət Risklərinin Azaldılması üzrə Dövlət Proqramı (FRADP) Senday Çərçivə Proqramında göstərilən Davamlı İnkişaf Məqsədlərinin (DİM) prioritet və məqsədlərinə nail olmağa yönəlmiş siyasətin səmərəli həyata keçirilməsinə dəstək olacaq. Ümumiyyətlə, həmin risklərin potensial təsirini azaldan proqramların planlaşdırılmasında DİM önəml rol oynaya bilər. Belə ki, risklərin idarə edilməsi və fəlakətlərə qarşı dayanıqlığın yaradılması Azərbaycanın Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası çərçivəsində, məhz dayanıqlı inkişaf sahəsində olan uzunmüddətli inkişaf proqramları və strategiyaları ilə dəstəklənə bilər. Bu ona imkan verəcək ki, fəlakət risklərinin azaldılmasının effektivliyini dayanıqlı inkişaf

məqsədlərinin həyata keçirilməsi ilə müqayisə edək və Azərbaycan cəmiyyətinin ətraf mühitlə uyğunlaşması strategiyasını lazımı səviyyədə icra edək.

Məlumdur ki, əksər ölkələrdə fəlakət risklərinin idarə edilməsi proqramları adətən təbii fəlakət risklərinin kifayət qədər nəzərə alınmaması ilə nəticələnir [11]. Risklərin tam miqyası və potensial nəticələri ciddi şəkildə nəzərə alınsa belə, mümkün həll yollarının müvafiq qiymətləndirilməsi zaman və yüksək maliyyə vəsaiti tələb edən bir prosesdir [13]. Hər bir halda, ölkələr bu istiqamət üzrə hazırlanan proqramlarında təbii fəlakətlərin tezliyini, yerini, xüsusiyyətlərini və ehtimal olunan şiddətini, habelə onların insanlara və əmlaklara mümkün təsirlərini nəzərə almalıdırlar. Eyni zamanda, uzunmüddətli planlaşdırmaya real yanaşmalar formalaşdırmaq üçün yaşayış yerlərinə və həyati əhəmiyyət kəsb edən infrastruktura qarşı təhlükələri tanımaq, eyni zamanda bu təhlükələrin əsas xüsusiyyətlərini müəyyən etmək vacibdir [8].

Birmənalı olaraq qəbul etmək lazımdır ki, fəlakət riskləri DİM-ə nail olmaq səylərini təhdid edir və bu həyat şəraitinin pisləşməsinə, infrastruktura və iqtisadi fəaliyyətə dağıdıcı təsir göstərir. Fəlakətlər nəticəsində yaranan xərclər ekoloji, sosial, siyasi, maliyyə və sağlamlıq xarakterli digər fövqəladə hallarla qarşılıqlı əlaqədədir [13]. Eyni zamadan kanalizasiyaya, içməli suya, ictimai nəqliyyata və təhlükəsiz mənzillərə çıxışa, qlobal aclıq və yoxsulluğun azaldılmasına, səhiyyə xidmətlərinin göstərilməsinə və ekosistemlərin qorunmasına yönəlmiş davamlı investisiyalar təbii fəlakətlərin mənfi təsirləri ilə yenidən zədələnə bilər.

Eyni zamanda, fəlakət risklərinin azaldılması strategiyası çərçivəsində davamlılığı artırmaq üçün Azərbaycanda tez-tez rast gələnən təbii fəlakətləri təhlil etmək, fəlakətlə bağlı xərclərin maliyyələşdirilməsi üsullarını təyin etmək, eləcə də Azərbaycanın potensial bərpa planlarını hazırlamaq mühüm əhəmiyyət kəsb edir. Həmçinin Azərbaycana təsir edən əsas risklərin, hər bir konkret fəlakətlə bağlı ən çox ehtimal olunan zərərlərin və fəlakətlərin idarə olunması üçün məsuliyyəti öz üzərinə götürən qurumların müəyyən edilməsi çox vacibdir. Eyni zamanda, əvvəlki fəlakətlərə cavab tədbirlərinin təcrübəsinə əsaslanaraq milli fəlakətlərin idarə edilməsi strategiyalarının effektivliyi və səmərəliliyi üzərində iş aparılmalı və nəhayət, Azərbaycanın təbii fəlakətlərin nəticələrinin qiymətləndirilməsinin yeni üsullarını mənimsəməsi imkanları nəzərdən keçirilməlidir.

Yuxarıda göstərilən istiqamətlər üzrə işlərin aparılmasında BMT-nin Fəlakət Risklərinin Azaldılması üzrə Ofisinin (UNDRR) xüsusi rolu qeyd oluna bilər. Belə ki, Ofis Azərbaycanın aidiyyəti dövlət qurumları ilə beynəlxalq təşkilatlar və QHT-lər arasında birgə fəaliyyət planı olan Senday Senday Çərçivəsində təyin olunmuş 7 qlobal hədəfin həyata keçirilməsinə, fəlakət risklərinin azaldılması üzrə texnoloji və elmi-innovativ yanaşmaların geniş şəkildə tətbiq olunmasına, monitorinqlərin keçirilməsinə və data bazaların toplanmasına dəstək verə bilər. Bu qlobal hədəflərin tətbiq edilməsi Azərbaycanda baş verə biləcək fəlakət risklərinə qarşı beynəlxalq yanaşmanın və təcrübənin tətbiq edilməsini təşviq edəcəkdir.

Xüsusilə post-münaqişə dövründə yenidənqurma işlərinin Azərbaycanın fəlakət risklərinin azaldılması üzrə strategiyasına daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Bunun sayəsində ətraf mühitin qiymətləndirilməsi, zədələnmiş, deqradasiyaya uğramış və ya məhv olmuş təbii ehtiyatların milli hesabatı hazırlana və beynəlxaq səviyyədə ictimailləşdirilə, bununlada keçmiş münaqişənin təsirinə məruz qalmış ərazilərin beynəlxalq səviyyədə bərpa və texniki yardımı həyata keçirilə bilər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında uzunmüddətli işğaldan sonra fəlakət risklərinin azaldılmasında preventiv addımların atılması, yeni şəhərsalma, infrastruktur, yaşıl enerji, ekologiya, kənd təsərrüfatı və kommunikasiya

layihələrində risklərin nəzərə alınması, hazırlıq, çevik reaksiya vermə, eləcə də həmin iqtisadi rayonlarda elmi araşdırmaların aparılması, təbii fəlakətlərin yaranmasının səbəbləri, əlamətləri və zədələyici təsirlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunanları nəzərə alaraq, bu tədqiqat işi ölkəmiz üçün, xüsusilə post-münaqişə dövründə həm iqtisadi və sosial mənada əhəmiyyətini və miqyasını, həm də Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Azərbaycanın dövlət səviyyəsində verdiyi yüksək diqqəti nəzərə alaraq, fəlakət risklərinin azaldılması strategiyasının həyata keçirilməsini təhlil edəcək və təkliflər irəli sürəcəkdir [18].

## Azərbaycanın risk profili və planlaşdırma

Azərbaycanda təbii fəlakətlər baş verdikdə, adətən, onlar əmlak, heyvandarlıq, kənd təsərrüfatı və infrastruktura, eləcə də ətraf mühit və insan həyatı üçün mənfi nəticələrə gətirib çıxarır. Eyni zamanda, qeyd olunmalıdır ki, Azərbaycanın yerləşdiyi coğrafi məkanda fəlakət risklərinin yüksək olması, ölkə ərazisində dağlıq relyef şəraitində geniş yayılmış sürüşmələrin, uçqunların, sellərin, vaxtaşırı baş verən zəlzələlərin olması və ən önəmlisi bu kimi fəlakət risklərin mühüm enerji (BTC, BTE, TANAP) və nəqliyyat (BTK, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, Zəngəzur korridoru) layihələrinə potensial təhlükə mənbəyi rolunu oynayır. Nəzərə alsaq ki, Azərbaycanda yuxarıda göstərilən qlobal layihələr həyata keçirilir, mütləqdir ki, qlobal iqlim dəyişiklikləri fonunda Senday Çərçivəsinin həyata keçirilməsi bilavasitə ölkənin maraqlarına xidmət edir.

Həm Azərbaycanda yaşayan insanların həyatı, həm də ölkənin davamlı iqtisadi inkişafı yuxarıda qeyd olunanlarla yanaşı, bir sıra digər potensial fəlakətlərlə də təhdid olunur. Buna baxmayaraq, Azərbaycanın dövlət qurumları və qeyri-hökumət təşkilatları təbii fəlakətlərin risklərini minimuma endirməyə qadirdirlər, bir halda ki, yaxın gələcəkdə baş verə biləcək fəlakət risklərini anlamaq üçün qabaqcıl təhlillər aparsınlar və lazımi işləri həyata keçirsinlər. Sözügedən riskləri aradan qaldırmaq üçün tədbirlər görülməsə, regional inkişaf proqramları, o cümlədən ölkənin inkişaf məqsədləri zərər görə bilər [19].

Fəlakət risklərinin azaldılması istiqamətində qabaqcıl təhlillərin aparılması və lazımi tədbirlərin görülməsi üçün mütləq şəkildə məlumatların toplanması prosesi həyata keçirilməlidir. Belə ki, toplanmış məlumatlar vasitəsilə riskləri uğurla hesablamaq üçün keyfiyyətli tədqiqat aparmaq və nəticələri effektiv təhlil etmək imkanı yaranacaqdır. Ələlxüsus, baş verən təbii fəlakətlərdən toplanmış məlumatlar əsasında risklərin təhlili

**Cədvəl 1.** Azərbaycanda təbii fəlakətlərin növləri

| Növ | İzah | Nümunələr |
|---|---|---|
| Hidro-meteoroloji | Təbii atmosfer və klimatoloji proseslər | Palçıq axınları, sel, külək, quraqlıq, yanğınlar, yağışlar, səhralaşma, qar uçqunları və istilər |
| Geoloji | Yerin təbii prosesləri | Torpaq sürüşməsi, vulkanik aktivlik, zəlzələ |
| Bioloji | Bioaktiv və ya zəhərli maddələrin ifrazı | Yoluxucu xəstəliklər, təbii qaz və neft infrastrukturu qəzaları, sənaye qəzaları, eləcə də digər əlaqəli infestasiya hadisələri |

Mənbə: Müəllifin tərtib etdiyi ədəbiyyatdan hazırlanmışdır.

aparıldığı üçün, məlumat toplama bazasının düzgün formalaşması və bu baxımdan ölkənin risk profilinin daha dəqiq hesablanması da mümkün olacaqdır [2]. Bundan əlavə, toplanmış məlumatların adekvat qiymətləndirilməsi üçün zəruri maliyyə resurslarının və kifayət qədər vaxtın təmin edilməsinə də diqqət yetirilməlidir.

Həmçinin, münaqişədən sonrakı yenidənqurma, reabilitasiya və fəlakətlərin idarə edilməsi də Azərbaycanın fəlakət riskinin azaldılması üzrə milli proqramına daxil edilməlidir. Bu proqrama münaqişədən sonra ətraf mühitin qiymətləndirilməsi, zədələnmiş, deqradasiyaya uğramış və ya məhv olmuş təbii ehtiyatlara bərpa və texniki yardım da daxil edilə bilər.

Fəlakət Riskinin Azaldılması üzrə Dövlət Proqramının (FRADP) əsas rolu ölkədə risklərə qarşı dayanıqlılığın formalaşdırılması və milli səviyyədə effektiv fəlakət riskinin azaldılması tədbirlərinin yaradılması, inkişafı, idarə edilməsi və mühafizəsinin uzunmüddətli təşviqidir [18]. Bu Proqram həmçinin aşağıdakıları təsvir edən hərtərəfli milli strategiya sənədi kimi müəyyən edilə bilər: risklərin azaldılması ilə bağlı siyasətin həyata keçirilməsi və bu sahədə dayanıqlılığın artırılması əlaqələndirilmiş şəkildə həyata keçirilə bilər [8].

Təklif olunan proqram aidiyyəti qurumların fəal şəkildə birlikdə işləyə biləcəyi platformanı tərtib etmək və bu istiqamətdə uğurlu nəticələr əldə etmək üçün tədqiqatı, innovasiyanı və digər yeni texnologiyaları təşviq etmək imkanı yaradacaqdır. Vurğulamaq lazımdır ki, belə bir milli platformanın yaradılması metodologiyası davamlı inkişaf məqsədlərinin gündəliyindən irəli gələn bir çox istiqamətlər üzrə işlərin qurulması və həyata keçirilməsi üçün açardır. Metodoloji protokollar məhz bu baxımdan fəlakət riskləri üzrə proqramları, siyasətləri, institusional islahatları və modernləşdirmə strategiyalarını yeni yanaşma ilə təmin etmək siyasətini nəzərdə tutur [3].

**Qiymətləndirmə və hazırlıq**

Proqramın qiymətləndirilməsi BMT-nin Fəlakət Riskinin Azaldılması Ofisi (UNDRR) tərəfindən aparıla və bu, Dövlət Proqramının hazırlanmasında həyata keçiriləcək ilk böyük fəaliyyət ola bilər. Qiymətləndirmənin məqsədi milli səviyyədə proqramın hazırlanmasına cavabdeh olan qurumlarla, o cümlədən Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası ilə inkişaf prosesini hazırlamaqdır [5]. Həmçinin Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi, Maliyyə Nazirliyi, o cümlədən Dövlət Statistika Komitəsi kimi digər aidiyyəti dövlət qurumlarının, ali məktəblərin, tədqiqat müəssisələrinin cəlb edilməsi Fəlakət Risklərinin Azaldılması Proqramının inkişaf prosesinin əhatə dairəsini, metodologiyasını və tələblərini artıracaqdır. Bu baxımdan, qiymətləndirmə prosesi öhdəliyi mümkün olan ən yüksək səviyyədə təmin etməyə kömək edəcək və milli proqramın icrasına cavabdeh olacaq ekspertlərdən ibarət milli komandanın hazırlanmasına kömək edəcəkdir [16]. Milli komanda ilkin faktların araşdırılmasını həyata keçirəcək, bu sahədə audit aparacaq və strategiya sənədi və fəaliyyəti üzrə planı hazırlayacaqdır. Həmçinin biznes qurumlarından, icra strukturlarından, QHT-lərdən və özəl sektor təşkilatlarından olan ekspertlərin hazırlıq prosesinə cəlb edilməsi ölkənin mövcud və tarixi iqtisadi şəraitini, habelə sosial və siyasi infrastrukturunu dərindən dərk etməyə kömək edəcəkdir.

Milli komandanın əsas məqsədlərindən biri də Azərbaycanın milli inkişaf məqsədlərini, strategiyalarını və siyasətini hərtərəfli qiymətləndirmək üçün mövcud proqramları və sənədləri nəzərdən keçirmək və təhlil etməkdir. Bundan əlavə təklif olunan Dövlət Proqramını ölkənin davamlı inkişaf prioritetlərinə uyğunlaşdırmaq və ən yaxşı metodun müəyyənləşdirilməsinə komandanın səylərini yönəltmək olduqca vacibdir. Bu, son nəticədə mühüm məlumatların geniş şəkildə toplanmasına gəti-

rib çıxaracaq və Azərbaycanda mövcud fəlakət risklərinin azaldılması sahəsində vəziyyəti, onun zəif və güclü tərəfləri, potensialları haqqında aydın təsəvvür əldə etməyə imkan verəcəkdir. Yuxarıda qeyd olunan ilkin proseslər başa çatdıqdan sonra milli komandanın qiymətləndirmələri, təklifləri və tövsiyələri əsasında məsləhətləşmələr və tövsiyələr nəzərdən keçirildikdən sonra resursların səmərəli səfərbər edilməsi üçün monitorinq alətlərinin, qiymətləndirmə mexanizmlərinin və strategiyalarının hazırlanması həyata keçirilə bilər.

Hər bir ölkənin özünəməxsus üslubu və metodik xronologiyası əhəmiyyətli dərəcədə dəyişə bilər; bununla belə, Azərbaycanın strategiyası beynəlxalq standartlara və standartlaşdırılmış təcrübələrə əsaslanmalıdır [13]. Bundan əlavə, ölkənin ümumi təhlükəsizliyinə və inkişafına töhfə verən mövcud digər dövlət proqramları, xüsusilə elm və təhsil sahəsində mövcud olan universitetlərin, tədqiqat institutlarının və Milli Elmlər Akademiyasının rolu xüsusi vurğulanmalıdır. Eyni yanaşma Azərbaycanda pandemiya və quraqlığa davamlı, ekoloji cəhətdən təmiz və davamlı ərzaq təhlükəsizliyinə aid olan dövlət proqramlarına da aid edilə bilər [9]. Eyni zamandan, yuxarıda qeyd olunan istiqamətləri və proqramları vahid çərçivədə birləşdirmək və idarə etmək üçün ekspert qurupundan istifadə edilə bilər. Beləliklə, təklif olunan ekspert qrupu və ya hazırda mövcud olan Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası fəlakət risklərinin azaldılması strategiyasının hazırlanmasını və ya Azərbaycanın mövcud olan dövlət proqramlarına inteqrasiyasını təmin edə bilər [7].

Qərar qəbuletmə və icra səlahiyyətlərinin genişləndirilməsi ilə ekspert qrupunun rolunu gücləndirməklə, fəlakət risklərinin azaldılması (FRA) üzrə proqramın hazırlanması tezləşəcəkdir. Zəruri vəzifələr ekspert qrupuna verildikdən sonra o, audit prosesinə başlayacaq və strategiyanın hazırlanması üzərində işləyəcəkdir. Ekspert qrupunun məqsədlərinə çatması üçün layihənin hazırlanması və tərtibi prosesində UNDRR mühüm rola malik ola bilər. Bu fəaliyyətlərə UNDRR profili və proqram qiymətləndirmələri daxil ola bilər və bu, yerli ekspertlərlə birlikdə müvafiq beynəlxalq təcrübəni Azərbaycana gətirməyə kömək edəcəkdir. Qeyd etmək vacibdir ki, bu cür beynəlxalq dəstək istənilən ölkənin dövlət proqramının hazırlamasında mühüm rol oynayır və həm iqtisadi və sosial sektorlarda fəlakət risklərinin azaldılması strategiyasında yerli aspektləri nəzərə alır, həm də daha geniş coğrafi məkanda regional əməkdaşlığa töhfə verir [17]. Bu cür yanaşma Azərbaycana özünün risksiz strategiyasının hazırlanmasına fayda verər və milli strategiyanı hazırlayarkən ölkənin iqtisadi və sosial potensialının qiymətləndirilməsini yaxşılaşdıra bilər. Nəticədə, ekspert qrupu hazırlıq dövrünün ilkin mərhələsini başa vuraraq, tövsiyələr və təlimatlarla birlikdə dövlət proqramı üçün ilkin yol xəritəsini hazırlaya bilər.

Digər əsas hazırlıq mərhələsi fəlakət risklərinin azaldılması proqramının hazırlanması prosesinin həyata keçirilməsidir. Bu, Azərbaycanda proqramın inkişafının müxtəlif mərhələlərinin həyata keçirilməsi ilə bağlı məsul dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı gücləndirəcək və təklif olunan Senday Çərçivə metodologiyasından və FRA üzrə qiymətləndirmə alətlərindən daha səmərəli istifadəyə imkan verəcək. Məqsədlər, əhatə dairəsi və konkret vəzifələr ekspert qrupu tərəfindən müəyyən ediləcək və aşağıda göstərilən aspektlərdə Azərbaycana əhəmiyyətli faydalar verəcək:

I. Fəlakət risklərinin azaldılması sahəsinin qiymətləndirilməsi Azərbaycanın cari iqtisadi və sosial infrastrukturu barədə aydın anlayış və dəyərli biliklər verəcək;

II. Bütün tərəflərin bir platformada iştirakı dövlət proqramının uzunmüddətli effektivliyini və uğurunu təmin edəcək;

III. Milli komandanın yaradılması ilə Azərbaycan mühüm təcrübəyə malik olacaq və bununla da həm milli, həm də beynəlxalq səviyyədə öz insan və institusional potensialını gücləndirəcək.

## Məlumatların toplanması, layihənin tərtibi və nəticələri

FRA strategiyasını hazırlanmasında ölkənin cari potensialı ilə bağlı məlumatların aydın şəkildə başa düşülməsi çox vacibdir. Bu kontekstdə müvafiq məlumatların toplanması vaxt və maliyyə resurslarının istehlakı baxımından çox vacib, eyni zamanda çox mürəkkəb prosesdir. Məhz bu səbəbdən Azərbaycanda məlumatların toplanması və təhlili ölkənin əsas güclü və zəif tərəflərini anlamaq məqsədinə kömək edəcəkdir [14]. Güclü və zəif tərəflər başa düşüldükdən sonra milli FRA strategiyasının formalaşdırılması inkişaf prioritetləri ilə asanlıqla uyğunlaşacaqdır.

Belə ki, bu strategiya çərçivəsində bütün müvafiq məlumatları toplayacaq ekspert qrupu sosial sahə ilə bağlı həyata keçirilən dövlət proqramlarının nəticələrindən istifadə edərək, Azərbaycanın aidiyyəti dövlət qurumları və inzibati strukturları ilə birgə sosial və iqtisadi sahələri əhatə edən anket/sorğu forması tərtib edə bilərdi. Bu anketin strukturu sadə formada tərtib edilməli, mövcud qaydalar, yanaşmalar və onların məqsədləri haqqında məlumat əldə etmək imkanı verməli, dəqiq və şəffaf tədqiqat nəticələrinə gətirib çıxaracaq yüksək keyfiyyətli məlumatların toplanmasına xidmət etməlidir. Bu istiqamətdə ekspert qrupunun fəaliyyətinə köməklik göstərmək baxımından Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rolu çox mühüm olacaqdır [15]. Toplanmış məlumat həm davamlı inkişaf məqsədlərinin ölçülməsinə, həm də Sənday Çərçivəsinin icrasına töhfə vermək imkanını artıracaqdır [6].

FRADP təbii və texnogen fəlakətlərin risklərini azaltmaq üçün dövlətin rəsmi fəaliyyət planının əsasını təşkil edəcəkdir. Ələlxüsus, dayanıqlı inkişafı qoruyub saxlamaqla Azərbaycanın bütün növ təbii fəlakətlərə davamlılıq səviyyəsini yüksəltməklə, onun strateji inkişaf istiqamətini müəyyən edəcəkdir. Bu mənada, məlumatların toplanması strukturu formalaşdıqdan sonra növbəti addım əsas strateji sahələrin və məqsədlərin formalaşmasına yönələcək və bu da FRADP layihəsinin hazırlanması prosesini sürətləndirəcəkdir. Eyni zamanda, Azərbaycan Respublikasının DİM üzrə Əlaqələndirici Şurası risklərin azaldılması sahəsində auditinin aparılmasına və fəaliyyət planı ilə bağlı sənədlərin hazırlanmasına dəstək verə bilər. Burada Əlaqələndirici Şuranın əsas məsuliyyəti və rolu proqramı bütün əsas maraqlı tərəflərə uyğun hazırlamaq, yerli və beynəlxalq ekspertlər cəlb edərək prosesi istiqamətləndirmək, təhlil etmək və izləməkdir [10].

Əlaqələndirici Şuranın digər məsuliyyəti dövlət proqramının inkişafı üçün bütün zəruri

**Cədvəl 2.** Azərbaycan Respublikası FRADP-nın hazırlanması üzrə iş planı

| **Fəaliyyət Planı** | |
|---|---|
| 1. | FRADP-nın inkişafının razılaşdırılması |
| 2. | Milli səviyyədə davamlı inkişaf üzrə koordinasiya şurasının təyin edilməsi |
| 3. | FRA üzrə ekspert qrupunun yaradılması |
| 4. | Beynəlxalq ekspertlərin dəvət edilməsi |
| 5. | Məlumatların toplanması və risk tədqiqatlarının aparılması |
| 6. | Aparılan yoxlamalara əsaslanmış auditlərin həyata keçirilməsi |
| 7. | İlk FRADP layihəsinin hazırlanması |
| 8. | FRA üzrə ekspert qrupu ilə Əlaqələndirici Şura arasında FRADP layihəsinin təsdiq edilməsi üçün ilkin görüşün keçirilməsi |
| 9. | Yekun FRADP layihəsinin hazırlanması |
| 10. | FRADP-nın qəbul edilməsi |

Mənbə: Müəllif

**Cədvəl 3.** Qiymətləndirmə

| **Azərbaycanın fəlakət risklərinin qiymətləndirilməsi imkanı FRADP-ın ilk müsbət nəticəsi olacaq. Azərbaycanda təhlükə mənbəyi olan potensial risklər aşağıdakı qiymətləndirmə yolu ilə müəyyən ediləcək.** | |
|---|---|
| 1 | Daşqın risklərinin azalması üçün çaylar üzrə sel modellərinin hazırlanması və istifadəsi. |
| 2 | Müvafiq ölçülü daşqınlar üzrə risk xəritələrinin hazırlanması. |
| 3 | Çay hövzələrinin və sellərə məruz qalan yerlərin müəyyən edilməsi. |
| 4 | Sel zonalarını göstərən xəritələrin hazırlanması. |
| 5 | Eroziyaya, güclü küləyə və quraqlığa məruz qalab zonaların müvafiq ölçülü xəritələrinin hazırlanması və paylanması. |
| 6 | Bütün müvafiq hüquqi şəxslərə seysmik risk zonası barədə məlumatların və statistik məlumatların paylaşılması. |
| 7 | Torpaq sürüşmələrinin təsirinə məruz qala biləcək ərazilərin göstərildiyi xəritələrinin hazırlanması. |
| 8 | Fəlakət riskləri üzrə Atlasın bələdçi kimi hazırlanması və istifadəsi. |
| 9 | Qəzalar haqqında məlumat bazasının hazırlanması və daim yenilənməsi. |

Mənbə: Müəllif

**Cədvəl 4.** İdarəetmə və İnkişaf

| **Fəlakət riskləri üzrə mexanizmlərin idarə edilməsi və inkişafı FRADP-ın ikinci müsbət nəticəsi olacaq və dövlət proqramlarına inteqrasiya olunacaq.** | |
|---|---|
| 1 | FRA tədbirlərinin inkişaf və bərpa proqramlarına inteqrasiyası. |
| 2 | Azərbaycanda təbii fəlakətlərin inkişaf məqsədlərinə potensial təsirinin müəyyən edilməsi. |
| 3 | Təbii fəlakət risklərinin idarə edilməsi məsələlərinin torpaq istifadəsinin planlaşdırılması ilə bağlı milli protokolun və qərarların irəli çəkilməsi prosesi ilə birləşdirilməsi. |
| 4 | Fəlakətlərin potensial nəticələrinin azaldılması üçün effektiv maliyyə vəsaitlərinin təqdim edilməsi. |
| 5 | Təbii fəlakət riskinin effektiv idarə edilməsi üçün elmi əsasların yaradılması. |

Mənbə: Müəllif

resursları və məqbul platformaları təmin etmək olacaq. Bütün zəruri resurslara daxil olmaq imkanı həm ekspert qrupu, həm də cəlb olunan digər dövlət qurumları üçün dəstək platforması kimi xidmət etməlidir. İş planı hazırlandıqdan sonra Əlaqələndirici Şura və ekspert qrupu FRADP-ı inkişaf etdirmək üçün lazım olan tədbirlər üçün strategiya yaratmağa başlamalıdır.

FRADP Azərbaycanda potensial fəlakətlərlə bağlı risklərin effektiv uzunmüddətli idarə edilməsi və azaldılması üçün zəmin yaradacaq. Proqram fəlakət risklərinin idarə edilməsi məqsədlərinə nail olmaq üçün geniş əhatəli metodları təmin edəcək və mənfi təsirləri azaltmaqla yanaşı, daha yüksək səviyyədə davamlılığı təmin edəcəkdir. Bura, post fəlakət dövrləri ilə bağlı yarana biləcək xaosun idarə edilməsi, rehabilitasiya və yenidən bərpa məsələləri də daxildir [12]. FRADP-ın işlənib hazırlanması və tətbiqi ətraf mühitin rifahı və insan fəaliyyəti arasında davamlı harmoniyaya səbəb olan siyasət və nəticələri təşviq etmək məqsədi də daşıyır. Yuxarıda qeyd olunanları nəzərə alaraq, proqramın real məqsədini və proqnozlaşdırılan təsirlərinin effektiv təhlilini hazırlamaq üçün nəticələri aşağıda cədvəl formasında göstərilən dörd kateqoriyaya bölmək lazımdır [11].

**Cədvəl 5.** Cavab və hazırlıq

| | |
|---|---|
| **Fəlakətlərə hazırlıq və cavab vermə qabiliyyətinin gücləndirilməsi FRADP-ın üçüncü gözlənilən nəticəsi Azərbaycanda təbii fəlakətlərinin vurduğu ziyanı, həlakı və nəticələrini azaltmağa kömək olacaq.** | |
| 1. | Fəlakətlərə qarşı cavab və hazırlıq planının təqdim edilməsi. |
| 2. | Fəlakətə hazırlığın və cavab vermə qabiliyyətinin gücləndirilməsi. |
| 3. | Fəlakətlərə hazırlıq və cavab vermə qabiliyyətinə beynəlxalq yardımın göstərilməsi. |
| 4. | Regional və milli səviyyədə fəlakətlərin idarə edilməsi qabiliyyətinin sürətli reaksiya və koordinasiyasının təmin edilməsi. |
| 5. | Xilasetmə xidmətinə erkən xəbərdarlıq sistemlərinin əlavə edilməsi. |

Mənbə: Müəllif

**Cədvəl 6.** İctimai məlumatlılıq

| | |
|---|---|
| **Təlimlərin təşkili ilə xəbərdarlıq üsullarının və bacarıqlarının inkişafı FRADP-ın dördüncü gözlənilən nəticəsi olacaq.** | |
| 1. | Çoxsaylı risklərin qarşısının alınmasında ictimai məlumatlandırma siyasəti təşkili. |
| 2. | İbtidai siniflərdan universitetlərə qədər hər kəsin FRA üzrə məlumatlılığının artırılması. |
| 3. | Dövlət qulluqçularının FRA üzrə məlumatlılığının təkmilləşdirilməsi. |

Mənbə: Müəllif

## Nəticə

Çox güman ki, təbii fəlakətlər Azərbaycana ciddi təsir göstərməkdə davam edəcək. Bu baxımdan, bu cür hadisələrin təbii mühitə mənfi təsirlərini effektiv şəkildə azaldan prosedurların və protokolların vaxtında həyata keçirilməsinə ciddi ehtiyac var. Problemə çoxşaxəli yanaşma potensial fəlakətlərin gözlənilən nəticələrini yumşaltmağa kömək edəcək. Fəlakətlərə hazırlıq və cavab tədbirləri taktikasını milli strategiyalara daxil etməklə və risklərin azaldılmasını davamlı inkişaf proqramlarına sürətlə inteqrasiya etməklə, Azərbaycan milli səviyyədə fəlakət risklərinin təsirlərini azalda bilər. Bu proqram ölkədə gələcək nəsillər üçün uzunmüddətli davamlı tərəqqi konsepsiyasını təmin edəcəkdir.

Fəlakət riskinin azaldılması üçün strateji üsullar Sendai Çərçivə 2030-da işlənib hazırlanmışdır. Bu strategiyalar qiymətləndirmə məqsədləri üçün istifadə edilə bilər və Azərbaycanın FRADP-ına mühüm töhfə verə bilər. Bu sənəd ölkənin risk profilinə, onun FRA üzrə planlaşdırma strategiyalarını və potensial icra prosedurlarını təhlil etmə qabiliyyətinə ciddi töhfə verəcəkdir. Eyni zamanda, bu sənəddə təklif olunan metodologiya nəzərə alınsa və proqram şəklində qəbul edilsə, bu Azərbaycanın təbii fəlakət riskinin azaldılmasına yönəlmiş ilk dövlət proqramı olacaq, ölkədə vahid FRA sistemi yaranacaq, fəlakətlərə hazırlıq və cavab potensialı təkmilləşərək effektivlik artacaq.

FRADP həyata keçiriləcəyi təqdirdə, proqram Azərbaycanın milli təhlükəsizliyinin təhlili və qiymətləndirilməsi prosesində mühüm vasitəyə çevriləcək. Belə ki, bu sənəd Azərbaycanın gələcəkdə qarşılaşa biləcəyi çətinlikləri və riskləri nəzərə alaraq effektiv FRA strategiyalarının hazırlanması üçün lazım olan tədbirləri müəyyən etməyə çalışacaq.

**Ədəbiyyat:**


1. Alakbarov, U. 2019. "Innovative Technologies of Public Administration Driving World Leadership of the Republic of Azerbaijan in Sustainable Inclusive Development." Public Administration: Theory and Practice 65 (1): 99–108.
2. Albrito, P. 2018. "Local level implementation of the Sendai Framework for Disaster Risk Reduction 2015–2030." International Journal of Disaster Risk Reduction 31: 1307–1308. https://doi.org/10.1016/j.ijdrr.2017.12.005
3. Amaratunga, D., Sridarran, P., Haigh, R., Bhatia, S., and Pruksapong, M. 2019. "Reducing Risks and Building Resilience at the Local Level: A Global Review of Local DRR Strategies." Contributing Paper to GAR 2019. United Nations Office for Disaster Risk Reduction. https://www.undrr.org/quick/11763
4. Asian Development Bank. 2019. "Climate Change and Disaster Risk Management." https://www.adb.org/what-we-do/topics/climate-change
2020-ci ildə ərazi bütövlüyünü təmin edən Azərbaycanın ötən ilin sentyabr ayında dövlət suverenliyini bərpa edərək üçrəngli Dövlət Bayrağımızı oktyabrın 15-də ilk dəfə olaraq Xankəndi, Xocalı, Xocavənd və digər şəhərlərdə (rayonlarda) ucaltması xalqımızın 30 ildən bəri susamış milli qürur və iftixarına təşnə oldu. Qarabağdakı qanunsuz xunta rejiminin mövcudluğunun qorunub saxlanılmasına xidmət edən genimiqyaslı hərbi-siyasi, diplomatik, iqtisadi təşəbbüslərin qarşısını birdəfəlik alan rəsmi Bakı erməni millətçiliyinə, xaricdəki diaspor və lobbisinə öldürücü zərbə vurdu. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkiləri üç onillikdən sonra ilk dəfə bütün ölkə ərazisini əhatə etdi. Beləliklə, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə suverenliyini tam təmin etməsi ilə rəsmi İrəvanın istinad etdiyi qondarma "mübahisə predmeti" aradan qalxdı.

## Milli ideya: növbəti hədəf – Qərbi Azərbaycan

Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan zorla köçürülmüş azərbaycanlıların hüquqlarının bərpası məsələsini yeni geosiyasi reallıqda cəmiyyətin əsas milli ideyasına çevirməyi, bu məqsədlə sistemli və ardıcıl tədbirlər həyata keçirməyi zəruri hesab edir. 1989-cu ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmiş qurumun 2022-ci ildə "Qərbi Azərbaycan İcması" adı ilə yenidən formalaşması, təşkilatlanaraq fəaliyyətə başlaması tarixi torpaqlarından qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi baxımından yeni imkanlar açıb. İcma hazırda Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriqayıtma hüququna əsaslanaraq, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz, ləyaqətli şəkildə qayıtmasını, sonrakı mərhələdə onların fərdi və kollektiv hüquqlarının təmin olunmasını əsas məqsədləri kimi müəyyənləşdirib.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə görüşü zamanı

Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas hədəflərini açıqlaması, qarşıda duran vəzifələri dəqiqliklə ifadə etməsi təşkilatın fəaliyyətinin səmərəliliyinin təmini baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Proqram xarakterli həmin çıxışla ölkəmizin ictimai-siyasi həyatında yeni bir mərhələyə – Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi, Ermənistan ərazisindəki maddi-mənəvi, dini irsimizin, folklorumuzun qorunması və bərpası uğrunda genişmiqyaslı fəaliyyətə start verilmişdir.

Ermənistandan zorla köçürülmüş soydaşlarımızın tarixi məskənlərinə qayıtmaq və bərabər hüquqlar əsasında yaşamaq hüququnun dünya dövlətləri, xüsusilə də rəsmi İrəvan tərəfindən tanınması qarşımızda duran başlıca hədəflərdən biridir. Eyni zamanda, hazırda müasir Ermənistan dövlətinin tarixi Azərbaycan ərazilərində yaradılması ilə bağlı faktların beynəlxalq ictimaiyyətinə diqqətinə çatdırılması da effektiv əks-hücumun təşkili baxımından xüsusi aktuallıq kəsb edir. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında ziyalılarla görüşü zamanı deyib: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir... Biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır". [5]

Zorla köçürülmüş azərbaycanlı əhalinin pozulmuş hüquqlarının bərpası – problemin beynəlxalq platformalarda müzakirəyə çıxarılması və obyekriv hüquqi-siyasi qiymətini alması, ilk növbədə, Ermənistanın müharibə cinayətlərinin ifşası baxımından vacibdir. Azərbaycanı əsassız olaraq "etnik təmizləmədə" ittiham etməyə çalışan Ermənistanın ötən əsrin 80-cı illərinin sonunda deportasiya, soyqırımı, etnik təmizləmə və digər ağır müharibə cinayətlərinə yol verdiyini təsdiqləyən təkzibedilməz faktlar, videogörüntülər mövcuddur.

Ümumiyyətlə, deportasiya insanlıq əleyhinə cinayət kimi ilk dəfə olaraq Nürnbeq Tribunalı Nizamnaməsinin 6-cı maddəsində təsbit edilib. Deportasiyanın ictimai təhlükəliliyi əhalinin uzun müddət olduğu qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan, insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpağından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, 1988-1989-cu illərdə aparılan etnik təmizləmə nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 250 min nəfərə qədər azərbaycanlı zorakılıqla doğma yurdlarından qovulub. Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyası həyata keçirilərək 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti alıb, on minlərlə ailənin əmlakı qarət olunub. Ermənistan ərazisində azərbaycanlılara məxsus tarixi və mədəni irs, o cümlədən, məscidlər, qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

Ermənistanın azərbaycanlılara xas mədəni-tarixi irsin vəziyyətinin qiymətləndirilməsi məqsədilə YUNESKO missiyasının göndərilməsinə imkan verməməsi də rəsmi İrəvanın ifşa olunacağından əndişələndiyinin bariz göstəricisidir. İrəvan şəhərindəki Təpəbaşı məhəlləsi də daxil olmaqla, Azərbaycan mədəni irsinin nümayişkaranə şəkildə dağıdılması Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci il 7 dekabr tarixli qərarının kobud şəkildə pozulmasıdır. Xatırladaq ki, məhkəmə həmin qərarında Ermənistandan azərbaycanlıların mədəni irs yerlərinin, etnik və mədəni mülkiyyət nümunələrinin dağıdılması, mədəni izlərinin silinməsi siyasətinə son qoymağı tələb edib. [6]

Ermənistanın dövlət səviyyəsində Azərbaycanafob siyasət yürütməsi, nifrət və qisas ideologiyasını təşviq etməsi soydaşlarımızın qayıdışı prosesinə maneə yaratmaq planlarının tərkib hissəsidir. Azərbaycanlılara

qarşı etnik təmizləmədə və digər ağır müharibə cinayətlərində iştirak etmiş şəxslərin mükafatlandırılması və "qəhrəmanlaşdırılması" rəsmi İrəvanın beynəlxalq hüquqa zidd davranışlarını nümayiş etdirir. Bütün bunlar, eyni zamanda, Ermənistanda digər xalqların nümayəndələrinə qarşı dözümsüz münasibətin, ksenofob yanaşmasının təzahürləridir. Qeyd edilən faktların dünya ictimaiyyətinə çatdırılması, təcavüzkara qarşı siyasi-hüquqi müstəvidə yeni cəbhənin açılması ölkəmizin xarici siyasətində mühüm istiqamətlərdən birinə çevrilib.

Prezident İlham Əliyev 2023-cü il noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edərkən bildirib ki, Azərbaycan hazırda birgəyaşayış, habelə geriqayıtma hüququ ilə əlaqədar rəsmi İrəvana aydın və şəffaf proqramı təqdim edib. Lakin Ermənistan azərbaycanlıların bu ölkəyə geriqayıtma hüququnu inkar edir və bununla əlaqədar hər hansı bir baxış ortaya qoymayıb. [7]

Uzun müddətdən sonra məsələyə dair mövqeyini açıqlayan Ermənistanın Baş nazir Nikol Paşinyanın Qərbi Azərbaycan İcmasının fəaliyyəti ilə bağlı qərəzli və əsassız fikirlər səsləndirməsi göstərir ki, rəsmi İrəvan azərbaycanlıların qayıdış hüququnu tanımaq niyyətindən uzaqdır və bu prosesə mane olmaq üçün ənənəvi qarayaxma kampaniyasını işə salmağa, real vəziyyəti təhrif etməyə çalışır. N.Paşinyanın noyabrın 24-də erməni ictimaiyyəti ilə görüşü zamanı rəsmi Bakının azərbaycanlıların Ermənistana qayıdışı və hüquqlarınını bərpası ilə bağlı tələblərini ölkəsinə qarşı "təhdid", "yeni müharibəyə hazırlıq" kimi dəyərləndirməsi rəsmi İrəvanın ciddi təlaş və panika ovqatında olduğunu göstərir. [8]

Dövlət başçısı İlham Əliyev lokal antiterror tədbirlərindən sonra suverenliyimizin tam bərpa olunduğunu, Azərbaycanın hansısa ölkəyə qarşı ərazi iddialarının olmadığını bəyan edib. 2023-cü il oktyabr ayının 17-də Füzuli rayon sakinləri ilə görüşü zamanı Prezident İlham Əliyevin söylədiyi fikirlər Azərbaycanın Zəngəzur dəhlizini guya hərbi yolla açmağa çalışması, Ermənistana qarşı yeni müharibəyə başlayacağı barədə iddiaların əsassızlığını bir daha sübuta yetirib: "Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq". [9]

Bu gün Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış fəlsəfəsinin mahiyyətində bir vacib amil dayanır: Qarabağ ermənilərinə öz vətəndaşları kimi yanaşan, onların bütün konstitusion hüquqlarını və layiqli həyat səviyyəsini təmin etmək əzmi nümayiş etdirən rəsmi Bakı Ermənistandan da deportasiya edilmiş soydaşlarımıza münasibətdə analoji yanaşma tələb edir. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda çıxışı zamanı bununla bağlı deyib: "Ermənistanın bugünkü ərazisində kökləri olan azərbaycanlılar qayıtmağı çox arzu edirlər. Onların bəzilərinə elə gəlir ki, orada kəndlərdə məskunlaşma tam realdır və mən də bu cür düşünürəm. Bəziləri isə ulu babalarının məzarını, sadəcə, gedib ziyarət etmək istəyir. Digərləri, sadəcə, səfər edib qayıtmaq istəyir. Bir sözlə, buna icazə verilməlidir. Ermənistan oradan deportasiya olunmuş yüz minlərlə azərbaycanlının təbii humanitar tələbatlarının qarşısını almalı deyil" [4].

Soydaşlarımızın geriyəqayıtma hüququnun reallaşdırılmasının Ermənistan qarşısında ciddi tələblər kimi irəli sürülməsi, eləcə də Qərbi Azərbaycan İcmasının təşkilatlanaraq beynəlxalq miqyasda fəal iş aparması rəsmi İrəvanı ciddi şəkildə narahat edir. Rəsmi Bakının qaldırdığı problemin kifayət qədər ciddi, danılmaz fakt və sübutlara söykənməsi ölkəmizin Ermənistan üzərində psixiloji-siyasi üstünlüyünü təmin edir, münaqişəinin əsl səbəbləri ilə bağlı həqiqətləri dünyaya çatdırır. Ermənilərin qondarma "etnik təmizləmə" iddialarını kor-koranə dəstəkləyən bəzi dövlətlərin və təşkilatların 250 minədək azərbaycanlının doğma torpaqlarından deportasiya

edilməsi faktının üzərində sükutla keçməsi isə aşkar qərəzin, ikili standartların göstəricisidir.

Qərbi Azərbaycan İcması ötən bir il müddətində bu və digər faktların beynəlxalq platformalarda təbliği, cəmiyyətin mövcud potensialının yeni milli ideya ətrafında səfərbər edilməsi yönümündə sistemli və ardıcıl fəaliyyət göstərir. Təşkilatın BMT-yə göndərdiyi yeddi sənədin təşkilatın rəsmi sənədi kimi yayılması Ermənistanın müharibə cinayətlərinin ifşası, Qərbi azərbaycanlıların pozulmuş hüquqlarının bərpası baxımından son dərəcə əhəmiyyətli sayıla bilər.

İcma ölkəmizin hücum diplomatiyasının uğurla reallaşdırılmasına sanballı töhfələrini verir, regionda cərəyan edən hadisələrə, qlobal planda ölkəmizin mənafelərinə qarşı yönəlmiş təhdidlərə operativ reaksiya nümayiş etdirir. Təşkilatın təşəbbüsü ilə 2023-cü ildə Milli Məclisdə keçirdiyi beş ictimai dinləmə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının siyasi, hüquqi, mədəni-mənəvi, humaitar aspektlərinin müəyyən edilməsi baxımından son dərəcə əhəmiyyətli tədbirlər olub. “Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış”, “Qərbi Azərbaycan: soyqırımına məruz qalan tarixi-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi”, “Qərbi Azərbaycana qayıdış: hüquqi aspektlər”, “Keçmişdən gələcəyə çağırış: Qərbi Azərbaycana qayıdış fəlsəfəsinə gənclərin baxışı” mövzusunda ictimai dinləmələr, Azərbaycan Milli Xalça Muzeyində nümayiş olunan “Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız” adlı sərgi, “Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll” mövzusunda beynəlxalq tədbir təşkilatın çoxşaxəli, səmərəli və praktik fəaliyyətinin əyani təsbitidir. İcma soydaşlarımızın qayıdış tələbinin beynəlxalq müstəviyə çıxarılması ilə yanaşı, onlara Ermənistanın bütün dövlət strukturlarında tamhüquqlu vətəndaş kimi iştirak etmək imkanının yaradılmasını, sosial problemlərinin həllini, dövlət işlərində təmsil olunmaq haqqının təmin olunmasını zəruri hesab edir.

Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə hörmətsiz yanaşan ölkə olması, Azərbaycanın yekun sülh sazişinin imzalanması ilə əlaqədar təkliflərini adekvat cavablandırmaması, “sülhə maraqlı tərəf” görüntüsü yaratsa da, əməldə prosesi yubatması, ərazisini geosiyasi rəqabət meydanına çevirməsi, bir sözlə, qeyri-konstruktivliyi fonunda Qərbi Azərbaycana Qayıdışla bağlı hədəfin yaxın tezlikdə reallaşması, ola blər ki, kimlərə real təsir bağışlamır. Lakin unutmayaq ki, 2020-ci ilədək daxildə və xaricdə müəyyən qüvvələr Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin qısa zamanda təmin ediləcəyinə də skeptik yanaşma nümayiş etdirirdilər. Fəqət, özünün də qeyd etdiyi kimi, nəyi nə zaman və necə edəcəyini yaxşı bilən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı həsrətində olduğu Qələbəyə qovuşduraraq ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etdi.

Qeyd edilənlərin məxrəcində əminliklə söyləmək mümkündür ki, Prezident İlham Əliyevin dövlət idarəetmə fəlsəfəsində Qərbi Azərbaycana Qayıdış artıq milli ideya səviyyəli məsələdir. Buna uzunmüddətli, ardıcıl səy və zəhmət tələb edən, iki ölkə arasında etimad quruculuğu proseslərinin nəticəsi kimi reallaşacaq fəaliyyət kimi yanaşmaq lazımdır. Azərbaycanın uğurlu diplomatiyası, güclü iqtisadiyyatı, sərmayəçi dövlət statusunda çıxış etməsi, qlobal layihələri inamla reallaşdırması fonunda Ermənistanın uzun müddət bu qayıdışa qarşı çıxması, özünütəcrid siyasəti yürüdərək regional əməkdaşlıqdan kənarda qalması inandırıcı görünmür.

35 il davam edən münaqişəyə, ərazilərimizin işğalına qüdrətli və müdrik liderinin rəhbərliyi ilə son qoyan, tarixi ədaləti bərpa edən Azərbaycan xalqı hazırda tarixi seçim ərəfəsindədir. Tarixinin ən güclü Azərbaycanını yaratmış, xalqımızı şanlı zəfərə qovuşdurmuş alternativsiz liderə – cənab İlham Əliyevə cəmiyyətin mütləq çoxluğunun 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar

prezident seçkilərində etimad göstərəcəyi şübhəsizdir. Məhz bu müdrik seçimin nəticəsi olaraq da Azərbaycanın keyfiyyətcə yeni mərhələdə qarşısında duran yeni hədəflərə uğurla çatacağını, yaxın perspektivdə inkişaf etmiş ölkələr səviyyəsinə yüksələcəyini əminliklə demək mümkündür.

### İlham Əliyev: "Mən əminəm ki!.."

Böyük Amerika yazıçısı Mark Tven deyirdi ki, torpaq alın, çünki onu istehsal etmirlər.

Ulu öndər Heydər Əliyevin də torpaqla bağlı çox ibrətamiz bir kəlamı vardı... keçirdiyi müşavirələrin birində demişdi ki, dövlətin mənafeyi torpaqdır. Torpaqdan qiymətli dünyada heç nə yoxdur. Hər şeyi almaq, düzəltmək, tikmək olar. Amma Azərbaycanda yenidən bir hektar torpaq sahəsi yaratmaq olmaz.

Bu isə milli tariximizin Zəfər memarı cənab İlham Əliyevin sözləridir: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar". [10]

Milli-etnik kimliyi, varlığı, düşüncəni təyin və təmin edən əsas vəsilələrdən biri milli ideyadır. Azərbaycan xalqı uzun müddət belə bir milli ideyanın axtarışında oldu. Prezident İlham Əliyev Qarabağı, Şuşanı hər bir azərbaycanlı üçün milli ideya elan etdi və qazandı.

Milli ideya ehkam deyil, zamanın redaktəsinə məruz qala bilir. Və bu gün hədəfdəki milli ideya dövlət başçısının iki onillikdən bəri az qala hər çıxışında xatırlatdığı Qərbi Azərbaycandır. Onun da qayıdacağı gün gələcək və biz o torpaqlara qayıdacağıq! Öndə müzəffər Ali Baş Komandan olacaq!

**Ədəbiyyat:**


1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 dekabr 1997-ci il. № 656 / https://e-qanun.az/framework/4099
2. 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Prezidenti, komissiyanın sədri Heydər Əliyevin yekun nitqi - 14 yanvar 1998-ci il // https://lib.aliyev-heritage.org/az/7012267.html
3. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi // https://azertag.az/xeber/vetene_xalqa_ve_dovlete_sedaqet_andiazerbaycan_respublikasinin_prezidenti_ilham_heyder_oglu_eliyevin_andichme_merasimi-299081 [01.11.2003]
4. İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib // https://president.az/az/articles/view/62400 [06.12.2023]
5. İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub // https://president.az/az/articles/view/58330 [24.12.2022]
6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti qərarına dair məlumatı/ https://www.mfa.gov.az/az/news/no49921
7. İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib // https://president.az/az/articles/view/62174 [13.11.2023]
8. Nikol Paşinyan erməni sakinlərin Qarabağı tərk etməsi ehtimalının artdığını deyir // https://www.amerikaninsesi.org/a/7281744.html [24.09.2023]
9. İlham Əliyev "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb // https://president.az/az/articles/view/61643 [17.10.2023]
10. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi // https://president.az/az/articles/view/58470 [24.12.2022]


***Açar sözlər:*** *dövlətçilik təfəkkürü, suverenlik, deportasiya, işğalçılıq siyasəti, ststus-kvo, ərazi bütövlüyü, Qərbi Azərbaycan*

**Khalid Niyazov**

*Baku State University*
*Department of International Relations*
*Honored journalist, Dr. in Political Sciences*

# RETURN TO WESTERN AZERBAIJAN AS A NATIONAL IDEA IN ILHAM ALIYEV'S PHILOSOPHY OF STATEHOOD

## ABSTRACT

At different times in different countries, the national idea had ultranationalist shades. The deprivations and humanitarian catastrophes to which Great Russian chauvinism, German National Socialism, Italian fascism, and the imperial ambitions of Japan subjected human culture have not yet been erased from memory. Therefore, in the modern era, the search for the national idea of states has become a popular subject matter, if it is possible to express it that way, of the political Olympiad.

The main components of the national idea of Azerbaijan in the 21st century are the preservation of the state, its territorial integrity and independence, the comprehensive development of the economy, the welfare of citizens, modern educational standards, moral development, democracy, security, and the whole range of problems arising from it. Although Azerbaijan endured the occupation of its lands by Armenia for 30 years, it did not stop searching for peace. Deportations that took place at various stages of the last century also gave way to genocides.

Finally, the 44-day Patriotic War of 2020 eradicated Armenian separatism, restored justice and made significant adjustments to the geopolitical architecture of the South Caucasus.

Today, the main issue on the political agenda is the protection of the rights of our compatriots expelled from our historical territory, Western Azerbaijan, since the beginning of the last century and ensuring their return to their homeland. Moreover, this is a complex, systemic issue: it has historical, political-ideological, cultural-spiritual, and legal roots.

***Keywords:*** *state thinking, sovereignty, deportation, occupation policy, status quo, territorial integrity, Western Azerbaijan*

**Халид Ниязов**

*Бакинский Государственный Университет,*
*кафедра “Международные отношения”,*
*доктор политических наук, Заслуженный журналист*

# ВОЗВРАЩЕНИЕ В ЗАПАДНЫЙ АЗЕРБАЙДЖАН КАК НАЦИОНАЛЬНАЯ ИДЕЯ В ФИЛОСОФИИ ГОСУДАРСТВЕННОСТИ ИЛЬХАМА АЛИЕВА

## РЕЗЮМЕ

В разное время в разных странах национальная идея имела ультранационалистические оттенки. Лишения и гуманитарные катастрофы, которым подвергли человеческую культуру великорусский шовинизм, немецкий национал-социализм, итальянский фашизм и имперские амбиции Японии, еще не стерты из памяти. Поэтому в современную эпоху поиск национальной идеи государств стал чуть ли не популярной темой, если можно так выразиться, политической олимпиады.

Основными составляющими национальной идеи Азербайджана в XXI веке являются: сохранение государства, его территориальной целостности и независимости, всестороннее развитие экономики, благосостояние граждан, современные стандарты образования, нравственное развитие, демократия, безопасность и целый спектр вытекающих из этого вопросов. Хотя Азербайджан в течение 30 лет терпел оккупацию своих земель Арменией, он не прекращал поиски мира. Депортации, имевшие место на разных этапах прошлого столетия, также сменялись геноцидом.

Наконец, 44-дневная Отечественная война 2020 года искоренила армянский сепаратизм, восстановив справедливость, и внесла существенные коррективы в геополитическую архитектуру Южного Кавказа.

Сегодня главным вопросом политической повестки дня является защита прав наших соотечественников, изгнанных с нашей исторической территории – Западного Азербайджана с начала прошлого века, и обеспечение их возвращения на родину. А это является комплексно и системно решаемым вопросом, который он имеет исторические, политико-идеологические, культурно-духовные, правовые корни.

***Ключевые слова:*** *государственное мышление, суверенитет, депортация, оккупационная политика, статус-кво, территориальная целостность, Западный Азербайджан*

DOI: 10.30546/2309-1347.2024.1310

**H Ü Q U Q**
**L A W**

UOT: 34. 342. 324.4; 342.5

**EMİN QULİYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosent əvəzi, hüquq üzrə fəlsəfə doktoru**

*e-mail: guliyev.emin.r@gmail.com*

# POST-MÜNAQİŞƏ BƏRPA VƏ YENİDƏNQURMA FƏALİYYƏTİNİN NORMATİV-HÜQUQİ ƏSASLARININ FORMALAŞMASINA DAİR DÜNYA TƏCRÜBƏSİNİN BƏZİ ASPEKTLƏRİ

İkinci Qababağ müharibəsi (44 günlük müharibə) nəticəsində Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində həlledici zəfərlər qazanması, tarixi qələbələr əldə etməsi ilə torpaqlarımızın işğaldan azad olunması zəruri olaraq həmin ərazilərin tezliklə bərpası, yenidən qurulması, məcburi köçkünlərin öz yurdlarında məskunlaşdırılması, Ermənistan Respublikası ilə sərhədlərin delimitasiyası, demarkasiyası məsələlərinin qəti olaraq həlli, perspektivdə Qarabağın erməni əhalisinin ölkəmizin siyasi-hüquq sistemlərinin əhatəsi hüdudlarına yenidən qayıtması problemlərini gündəmə gətirmişdir. Bütün bunlar isə olduqca mürəkkəb, çoxcəhətli olan ərazilərin rekonstruksiya, reinteqrasiyası, sülh quruculuğu anlayışlarının təhlilini zəruri edir.

Qeyd etmək lazımdır ki, yaxın vaxtlaradək işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması və onunla bağlı kompleks problemlərin həllinə həsr olunmuş tədqiqatlar aparılsa da, onlar daha çox fraqmentar səciyyə daşımış, həm də problemin maliyyə-iqtisadi, təşkilati-texniki, yaxud infrastruktur, mənəvi-psixoloji aspektlərinin həllini nəzərdə tuturdu. Halbuki, müasir dövrdə Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində bərpa işlərinə başlanılması, bununla bağlı qanunvericilik aktlarının, Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq fərmanların, sərəncamların qəbul edilməsi bu sahədə beynəlxalq əməkdaşlığın genişlənməsi ərazilərin rekonstruksiyası probleminə kompleks yanaşmanı, o cümlədən onun hüquqi problemlərinə diqqətin artırılmasını tələb edir. Bu təkcə ölkəmizin real ictimai-siyasi, iqtisadi, maliyyə şəraitinin nəzərə alınması ilə müvafiq tədbirlər paketinin hazırlanmasını, qəbul edilməsini deyil, müvafiq sahədə aparıcı demokratik dövlətlərin uyğun təcrübəsinin öyrənilməsi və mənimsənilməsini də nəzərdə tutur.

Məlum olduğu kimi, müxtəlif səviyyəli hərbi münaqişələr, müharibələrdən sonra zəruri olaraq gələn post-münaqişə dövrü müəyyən proses olaraq nəzərdən keçirilir və bu mövqe artıq hamı tərəfindən qəbul edilmiş sayıla bilər. Bu isə o deməkdir ki, onun normativ-hüquqi bazası, faktiki əsasları, həyata keçirilməsi subyektləri və obyektləri, müəyyən tədbirlər kompleksindən ibarət olan mərhələləri, hüquqi və faktiki nəticələri fərqləndirilməlidir [19, s. 10-11]. Bu prosesin tərkib elementlərinin təhlili, elmi araşdırılması post-

münaqişə dövrünün bərpası, yenidənqurması anlayışlarının müxtəlif aspektlərinin, ilk növbədə də hüquqi tərəflərinin daha dərindən dərk olunmasına şərait yaradacaqdır.

Lakin post-münaqişə dövrü mücərrəd bir anlayış olmaqla yanaşı konkret ictimai şəraitdə baş verir, konkret dövlətlərin, cəmiyyətin müxtəlif siyasi subyektlərinin cari fəaliyyətində təcəssüm edir. Digər ictimai hadisələrdə olduğu kimi burada da, ümumi anlayışın daha dərindən öyrənilməsi, onun real ictimai modellərinin müxtəlif tərəflərinin təhlili və ümumiləşdirilməsinə əsaslanır. Beləliklə, bu günədək dünyanın müxtəlif yerlərində baş vermiş silahlı münaqişələrin nəticəsi olaraq bərpa və yenidənqurma proseslərinin təşkili və həyata keçirilməsi xüsusiyyətlərinin konkret təhlili zərurəti meydana gəlmişdir. Belə bir təhlil əsasında dünya dövlətlərinin post-münaqişə bərpa və yenidənqurma proseslərinin müxtəlif modellər üzrə təsnifatı və onların əsas xüsusiyyətlərinin aydınlaşdırılması mümkün olacaqdır.

Müharibədən sonrakı bərpa və rekonstruksiya fəaliyyətinə bu və ya digər formada bəşər tarixinin müxtəlif mərhələlərində rast gəlinirsə də, onun hüquqla nizamlanan mütəşəkkil və çoxmərhələli tədbirlər kompleksi olaraq tam formalaşması XIX əsrin ortalarına aid edilə bilər. Buna görə də məhz həmin dövrdən başlayaraq dünya dövlətlərinin müvafiq təcrübəsinin təhlili və ümumiləşdirilməsi mümkün ola bilər.

İlk növbədə, qeyd etmək lazımdır ki, post-münaqişə bərpa və yenidənqurma prosesinin başlanması və başa çatmasını bildirən faktiki və hüquqi əsaslar fərqləndirilə bilər. İstənilən müharibədən, silahlı münaqişədən sonra bərpa və yenidənqurma dövrünün başlanması bir qayda olaraq, müharibənin, yaxud istənilən digər silahlı münaqişənin başa çatmasını rəsmiləşdirən hüquqi aktlarda ifadə olunur. Məsələn, ABŞ tarixində Vətəndaş Müharibəsinin (1861-1865) başa çatmasından dərhal sonra geniş miqyas almış və elmi ədəbiyyatda "Cənubun yenidən qurulması" adlandırılan prosesin başlanğıc nöqtəsi adətən cəbhə boyu Konfederasiya ordusunun ayrı-ayrı bölmələri komandanlığının kapitulyasiya aktını qəbul etmələri ilə əlaqələndirilir [7, s. 25]. Yəni cənub ştatlarının müharibədən sonrakı yenidən qurulması siyasəti, Konfederasiya ordusu bölmələrinin rəsmən silahlı müqaviməti başa çatdırması və cənub ştatlarının tamamilə federal ordu tərəfindən işğal olunduqdan sonra həyata keçirildi. Lakin müharibənin gedişatından asılı olaraq bu və ya digər cənub ştatında onun faktiki olaraq başlanması anı digərlərindən fərqli ola bilərdi. Məsələn, hələ müharibənin qələbə ilə başa çatmasını gözləmədən ABŞ prezidenti A. Linkoln bir neçə cənub ştatında - Tennessi, Arkanzas və Luizianada «Yenidənqurma hökumətinin» qurulmasına, Cənubi Karolinada isə keçmiş qullara torpaq payının verilməsinə dair qərarlar qəbul etmişdir. Buna görə də qeyd olunur ki, yenidənqurma müxtəlif cənub ştatlarında müxtəlif vaxtlarda başlamış, lakin demək olar ki, onların hamısında eyni vaxtda 1877-ci ildə Respublikaçılarla Demokratlar arasında əldə olunmuş kompromis nəticəsində başa çatmışdır [7, s.30].

Bundan fərqli olaraq, artıq Birinci Dünya Müharibəsindən sonrakı dövrlərdə müharibənin başa çatması və post-münaqişə prosesinin başlanması artıq "mərkəzləşdirilmiş" qaydada, ölkənin bütün silahlı qüvvələrinin hər yerdə və eyni vaxtda döyüşləri dayandırdığını bildirən vahid hüquqi sənədlə rəsmiləşdirilməyə başlandı. Bununla bağlı, İkinci Dünya Müharibəsində məğlub olmuş Almaniyanın və Yaponiyanın kapitulyasiyası və bundan sonrakı post-müharibə bərpası dövrlərini göstərmək olar. XX əsrin ikinci yarısında baş vermiş vətəndaş müharibələri, etnik-dini münaqişələr zəminində alovlanan dövlətlərarası silahlı münaqişələr şəraitində qalib və məğlub tərəfin müəyyənləşdirlmədiyi, yaxud müəyyənləşdirilməsinin məqsədəuyğun olmadığı bir şəraitdə müharibə və münaqişələrin "qızğın" fazasının

başa çatdığını göstərən əsas hüquqi sənəd xüsusi müqavilə, razılaşma formasında rəsmiləşdirilir. Misal kimi, Bosniya müharibəsində tərəflər arasında davamlı atəşkəs rejimini və tədricən post-münaqişə rekonstruksiyası prosesinin başlanğıcı olan 1995-ci il Deyton Razılaşmasını göstərmək olar.

Bununla yanaşı qeyd etmək lazımdır ki, post-münaqişə rekonstruksiyasının planlaşdırılması və həyata keçirilməsinin konkret hüquqi sənədlə əlaqələndirilməsi şərti xarakter daşıyır. Çünki yenidənqurma və bərpa işləri hələ müharibə rəsmən başa çatmamış da başlanıla bilər. Məsələn, ABŞ Vətəndaş Müharibəsi dövründə Prezident A. Linkolnun qəbul etdiyi aktlarla Konfederasiya qüvvələrindən azad edilmiş ərazilərdə qulların sərbəst buraxılması və sonralar digər cənub ştatlarını da əhatə edəcək tədbirlər kompleksi artıq həyata keçirilməyə başlanmışdır [1, s.181-84]. Eyni qaydada, İkinci Dünya Müharibəsinin gedişatı boyu Müttəfiq dövlətlər Almaniya və Yaponiya silahlı qüvvələrindən silah gücünə götürdükləri ərazilərdə bərpa və yenidənqurma işlərinin müəyyən hissəsini artıq görməyə başladılar və bu işlərin bir qismi (məsələn, hərbi canilərin tutulub mühakimə edilməsi, yerli hakimiyyət orqanları nümayəndələrinin işğalçı ordunun nümayəndələri ilə əvəzlənməsi, əhalinin sadə məişət və təsərrüfat tələbatlarının ödənilməsinə köməklik göstərilməsi kimi tədbirlər) sonralar geniş miqyasda Almaniyanın və onun Avropadakı müttəfiqlərinin ərazilərində davam etdirildi.

Digər tərəfdən, maraq doğuran məsələlərdən biri təcrübədə "post-münaqişə dövrünün bərpası" anlayışının "müharibənin başa çatması" və "müharibə vəziyyətinin başa çatması" anlayışları ilə qarşılıqlı nisbəti məsələsidir. Dünya dövlətlərinin bu günədək formalaşmış təcrübəsində müharibə vəziyyəti iki dövlətin, qrup dövlətin öz aralarında və ya bir dövlət daxilindəki siyasi qüvvələrin (vətəndaş müharibəsi) bir-biri ilə müharibə etdiyi zamanı əhatə edən dövrdür. Bir qayda olaraq, müharibə vəziyyəti ali dövlət hakimiyyəti orqanı tərəfindən elan edildiyi andan və ya faktiki olaraq hərbi əməliyyatların başlandığı andan yaranır. Bunlar dövlətlərin, müəyyən ərazilərin, bölgələrin və yerli icmaların xüsusi fors-major hal olaraq müharibənin baş verməsi ilə bağlı xüsusi yaşayış şəraitidir. Bu şərait müharibə iştirakçıları, onların hakimiyyəti altında olan, yaxud tərəfində çıxış edən şəxslər üçün xüsusi hüquqi nəticələr doğurmaqdadır. Adətən müharibə vəziyyəti döyüş əməliyyatlarının başa çatmasından bir müddət sonra müharibə edən tərəflər arasında sülh müqaviləsinin bağlanması ilə aradan qalxır.

İdeal vəziyyətdə post-müharibə dövrü, müharibə vəziyyətinin yekun mərhələsi olmaqla müvafiq sülh müqaviləsinin bağlanması ilə başa çatmalıdır. Məsələn, Yaponiya İkinci Dünya Müharibəsinin sonunda 2 sentyabr 1945-ci ildə Yaponiya İmperiyasının təslim olmasından 28 aprel 1952-ci ildə San-Fransisko müqaviləsinin qüvvəyə minməsinə qədər İkinci Dünya Müharibəsinin qalib müttəfiqləri tərəfindən işğal edilmiş və idarə olunmuşdur. Başqa sözlə, Yaponiyanın yenidən qurulması mərhələsi onun ABŞ ilə müharibə vəziyyətinin aradan qaldırılması ilə eyni vaxtda, yəni 1951-ci il San-Fransisko Müqaviləsinin 1-ci maddəsi ilə aradan qaldırıldı [13]. Lakin, İkinci Dünya Müharibəsinin digər məğlub dövləti Almaniya ilə müəyyən siyasi səbəblərə görə sülh müqaviləsini bağlamaq mümkün olmadı və burada müharibədən sonrakı rekonstruksiya dövrü 1949-cu ildə iki Alman dövlətinin – Almaniya Federativ Respublikasının və Almaniya Demokratik Respublikasının konstitusiyalarının qəbulu ilə faktiki olaraq başa çatmış oldu. Sülh müqavilısi isə ondan təxminən 50 il sonra – 12 sentyabr 1990-cı ildə imzalandı [15].

Ölkə daxilində qızışan hərbi münaqişə şəraitində isə müharibə vəziyyətinin tam olaraq aradan qaldırılması müharibənin nəticələrini əks etdirən Konstitusiyanın qəbul edilməsi, yaxud separatist çıxışların dəf edilməsi

nəticəsində müvafiq ərazilərin yenidən dövlətin tərkibinə tamhüquqlu üzv olaraq qəbul edilməsi çıxış edəcəkdir.

Beləliklə, müharibədən sonrakı bərpa və yenidənqurma fəaliyyətinin məhz bir proses olaraq müəyyən başlanğıc və yekun nöqtələrinin olduğunu qəbul etsək də, dünya təcrübəsində onlar tam dəqiqliyi ilə müəyyən olunmadığını da qeyd etmək lazımdır.

Post-müharibə rekonstruksiyası prosesini bilavasitə nizamlayan normativ hüquqi bazaya gəldikdə isə, qeyd etmək lazımdır ki, müxtəlif vaxtlarda baş vermiş müxtəlif xarakterli hərbi münaqişələrdən sonrakı bərpa prosesinə dair təcrübənin ümumiləşdirilməsi bizə aşağıdakıları qeyd etməyə imkan verir.

XIX əsrin ortalarında ABŞ Vətəndaş müharibəsindən sonra qəlib çıxmış tərəfin – Federal Hökumətin hələ müharibənin qızğın vaxtlarında irəli sürdüyü cənub ştatlarının separatizminin dəf edilməsi, bütün Birləşmiş Ştatlar boyunca vahid konstitusiya qaydasını bərqərar etmək kimi rəsmi, konstitusion məram və məqsədlərinə uyğun gəlirdi. Qeyd etmək lazımdır ki, Cənubun yenidən qurulması prosesi sanballı milli konstitusion-hüquqi bazaya malik olmuşdu. Onun əsasında ABŞ Konstitusiyası ilə yanaşı, Konqresin və Prezidentin müxtəlif vaxtlarda qəbul etdikləri normativ hüquqi aktlar, habelə ABŞ Ali Məhkəməsinin təcrübəsi dayanmışdı. Bu sırada 1863-cü il yanvarın 1-də Kölələrin Azad edilməsi haqqında Bəyannamənin qəbulunu xüsusi olaraq qeyd etmək lazımdır. Həmçinin Cənubun yenidən qurulması dövründə qəbul edilmiş federal Konstitusiyaya üç düzəliş bütün ölkəni əhatə etməklə yanaşı, ilk növbədə cənub ştatlarındakı yenidənqurma işinə də təsir göstərmiş oldu [1, s. 181-186].

XX əsrin əvvəllərindən, daha doğrusu Birinci Dünya Müharibəsindən sonra Versal-Vaşinqton sisteminin qurulmasından başlayaraq istənilən dövlətlərarası hərbi münaqişələrdə post-müharibə dövrünün bərpası prosesi çoxlu sayda müxtəlif səviyyəli beynəlxalq müqavilə və razılaşmalara əsaslanır. Həmin razılaşmalar, postmüharibə dövrünün dövlətlərarası münasibətlər sisteminin təməlini müəyyən etməklə yanaşı, müharibədə məğlub olmuş dövlətlərin hüquqi sisteminin əsaslarının yaradılmasına da təkan vermişdir. Məsələn, Almaniyanın İkinci Dünya Müharibəsindən sonrakı aqibətinə, anti-Hitler koalisiyası dövlətləri ilə qarşılıqlı münasibətlərinə dair əsas beynəlxalq hüquqi sənədlər onun post müharibə rekonstruksiya prosesinin hüquqi əsasını da təşkil etmişdir. Həmin sənədlər sırasına ABŞ Prezidenti Franklin Ruzvelt və Böyük Britaniyanın Baş naziri Uinston Çörçill tərəfindən elan olunmuş 4 avqust 1941-ci il tarixli Atlantik Xartiya, Tehran Konfransında (28 noyabr -1 dekabr 1943-cü il) ABŞ, Böyük Britaniya və SSRİ arasında əldə olunmuş razılaşma, Almaniya ərazisində 3 işğal zonasının yaradılması haqqında 12 sentyabr 1944-cü il tarixli London protokolu, Avropada yeni sərhədləri müəyyən etmiş və Almaniyanın 4 işğal zonasına bölünməsini qət etmiş Yalta konfransında (4 fevral – 11 fevral 1945-ci il) və Potsdam konfransında (17 iyul – 2 avqust 1945-ci il) əldə olunmuş razılaşmalar və nəhayət, dörd müttəfiq dövlətin nümayəndələri tərəfindən 5 iyun 1945-ci il tarixdə imzalanmış Almaniyanın məğlubiyyəti haqqında Berlin Bəyannaməsi aid edilə bilər [2, s. 1224-1225], [4], [5], [9], [11].

Sonuncu akt məhz Almaniyanın post-müharibə dövrü rekonstruksiyasının normativ əsası olaraq xüsusi əhəmiyyət kəsb etmişdir. Burada yekun hüquqi fakt olaraq Almaniyanın məğlubiyyəti elan olunur və burada ali hakimiyyətin dörd müttəfiq dövlətin hökumətləri tərəfindən həyata keçiriləcəyi göstərilir. Bəyannamədə qeyd olunurdu ki, Almaniyada elə bir mərkəzi hakimiyyət və ya hökumət yoxdur ki, qayda-qanunun təmin olunması, ölkənin idarə olunması və qalib dövlətlərin tələblərini yerinə yetirmək qabiliyyətinə malik olsun. Bu səbəbdən qalib dövlətlərin – ABŞ, Böyük Britaniya, SSRİ və Fransanın hökumətləri rəsmən 31 dekabr 1937-ci il tarixinə

olan sərhədi hüdudlarında Almaniya ərazisi üzərində ali hakimiyyət funksiyalarını öz üzərinə götürdülər. Onlar bu vaxtadək Almaniyanın hökumətində, silahlı qüvvələrinin ali komandanlığında, istənilən vilayət, bələdiyyə və ya yerli hökumətlərin hakimiyyət orqanlarında olan səlahiyyətləri müstəsna olaraq həyata keçirməli idilər.

Həmin akta yerli əhalinin gündəlik həyatı, habelə müharibənin başa çatması ilə əlaqədar qəbul edilmiş normativ sənədlərin icrası üzərində nəzarət mexanizmi və Almaniyanın işğal zonalarının (şərq işğal zonası – sovet hərbi administrasiyasının idarəçiliyi altında; şimal-qərb işğal zonası – Britaniya hərbi administrasiyasının idarəçiliyi altında; cənub-qərb işğal zonası – ABŞ hərbi administrasiyasının idarəçiliyi altında; qərb işğal zonası – Fransa hərbi administrasiyasının idarəçiliyi altında), Berlin şəhərinin isə müvafiq olaraq işğal sektorlarının sərhədləri müəyyən edilmişdir. Lakin eyni zamanda, elan olunurdu ki, Bəyannamədə sadalanan siyasi-hüquqi tədbirlər Almaniyanın ilhaqı kimi dəyərləndirilə bilməz, zira Almaniyanın yekun sərhədləri və onun hüquqi vəziyyəti qəti olaraq sülh müqaviləsinin imzalanması ilə təsdiq olunmalı idi [17].

Göstərilən beynəlxalq-hüquqi sənədlər həm müharibədən sonrakı Almaniyanın idarə olunması sistemini, həm də müvəqqəti idarəetmə orqanlarının fəaliyyəti istiqamətlərini, onların qəbul etdiyi aktların hüquqi qüvvəsini müəyyənləşdirmiş oldu. Belə ki, müharibədən sonra 14 noyabr 1944-cü il tarixli razılaşma və Potsdam razılaşmalarına əsasən Almaniyanın ali hakimiyyəti 4 qalib dövlətin silahlı qüvvələrinin baş komandanları tərəfindən həyata keçirilməli idi. Hərəsi öz işğal zonası hüdudlarında ali hakimiyyət olmaqla yanaşı, qalib dövlətlərin hərbi administrasiyası bütövlükdə Almaniyanın əhatə edən məsələlərlə əlaqədar birgə idarəçiliyi həyata keçirməli idilər. İşğal zonası hüdudlarında müttəfiqlərin silahlı qüvvələrinin komandanlığının hərəkətləri müvafiq hökumətlərin təlimatlarına, əsaslanmalı idi. Beləliklə, göstərilən beynəlxalq hüquqi sənədlərlə yanaşı, SSRİ, Fransa, Böyük Britaniya və ABŞ Hökumətlərinin, habelə onların Almaniyada işğal zonalarının hərbi administrasiyalarının normativ və inzibati aktları Almaniyada müharibədən sonrakı bərpa və yenidənqurma prosesinin hüquqi təməlini təşkil edirdi. Bu normativ aktlarda müharibədən sonrakı Almaniyada yeni dövlət idarəetmə sistemi qurulanadək bütün zəruri ictimai münasibətlərin nizamlanması həyata keçirilirdi [6], [8], [22].

İkinci Dünya Müharibəsi dövründə Yaponiyanın kapitulyasiyası zərurəti 1945-ci il Potsdam Bəyannaməsi ilə təsdiq olunsa da, sonradan həmin kapitulyasiya aktı 2 sentyabr 1945-ci il tarixdə Yaponiyanın ali hərbi və siyasi hakimiyyəti təmsilçiləri tərəfindən imzalansa da, Almaniyada olduğu kimi bununla bağlı silsilə beynəlxalq hüquqi sənəd qəbul edilmədi. Yəni hüquqi olaraq Yaponiyada İkinci Dünya müharibəsindən sonrakı bərpa və yenidənqurma prosesinin əsasını məhz kapitulyasiya aktı təşkil etmişdir. Onun əsasında 1945-ci il sentyabrın 6-da ABŞ prezidenti Harri Truman “Yaponiya üçün ABŞ-ın təslim olmasından sonrakı ilkin siyasəti” adlı sənədi təsdiqlədi. Həmin sənəd işğal və post-müharibə rekonstruksiyası üçün iki əsas məqsəd qoyurdu: Yaponiyanın müharibə potensialını aradan qaldırmaq və Yaponiyanı Birləşmiş Millətlər yönümlü demokratik dövlətə çevirmək. ABŞ hərbi administrasiyasının və onun rəhbərliyi altında fəaliyyət göstərən Yaponiya Hökumətinin 1945-1952-ci illərdə gördüyü tədbirlər kompleksi məhz bu normativ göstərişlərin icrasına yönəlmişdir [14, s. 49].

Yaponiyanın post-müharibə rekonstruksiyasının normativ əsaslarını üç əsas qrup hüquqi akt təşkil etmişdir:

1) beynəlxalq hüquqi aktlar;

2) işğal rejiminin statusu, məqsəd və vəzifələrini müəyyən edən ABŞ ali hakimiyyət orqanlarının aktları;

3) yuxarıda göstərilən mənbələrə əsaslanmaqla qəbul edilmiş və Yaponiyanın milli

hüquqi sisteminin tərkib hissəsi olan hüquqi aktlar – konstitusiya, parlament və hökumət aktları [19].

Onlardan hər biri digərlərinin əsasında qəbul olunsa, vahid məqsəd və vəzifələrə tabe olsa da, hüquqi təbiəti, hüquqi tənzimləmə sistemindəki yerləri fərqli idi (bilavasitə beynəlxalq və ya milli hüquqi əhəmiyyət daşıyırdı).

XX əsrin ortalarından və ikinci yarısından başlayaraq müharibədən sonrakı bərpa və yenidənqurma prosesinin hüquqi əsasları qismində bir çox hallarda xüsusi beynəlxalq hüquqi akt formasında qəbul edilən, lakin məzmunu baxımından əsasən milli hüquqi səciyyə daşıyan aktlar xüsusi olaraq qeyd edilməlidir. Artıq yuxarıda qeyd edilən 1995-ci il Deyton Razılaşması və ya rəsmi adı ilə Bosniya və Herseqovinada sülh haqqında ümumi çərçivə razılaşması bu qəbildən olan sənədlərdəndir. 1995-ci il dekabrın 14-də Parisdə Bosniya və Herseqovina Prezidenti Aliya İzzetbeqoviç, Serbiya Prezidenti Slobodan Miloşeviç və Xorvatiya Prezidenti Franyo Tucman tərəfindən imzalanmış, 1997-ci ildə qüvvəyə minmiş və Bosniyada vətəndaş müharibəsinin başa çatmasını rəsmi olaraq təsdiqləyən bu sənəddə eyni zamanda Bosniya və Herseqovinanın bu günə qədər davam edən konstitusiya quruluşunun əsası qoyuldu. Burada nizamlanan məsələlər aşağıdakı istiqamətləri əhatə edirdi [21].

İlk növbədə ölkənin ərazi quruluşu müəyyən edilirdi. Bosniya və Herseqovina dövlətinin, Sarayevo şəhərinin paytaxt olaraq qalması şərti ilə, iki hissədən - Bosniya və Herseqovina Federasiyası və Serb Respublikasından ibarət olması nəzərdə tutulurdu. Bosniya və Herseqovina Respublikasının sakini həm birləşmiş respublikanın, həm də iki qurumdan birinin vətəndaşı ola bilər. Ərazinin 49%-ni serblər, 51%-ni isə bosniyalılar və xorvatlar aldı. Buna baxmayaraq Bosniya və Herseqovina konfederasiya deyil, vahid federativ bir dövlət kimi elan edildi; onun heç bir tərkib hissəsi qanunla müəyyən edilmiş qaydada federasiyanın çıxa bilməzdi.

Deyton razılaşması çərçivəsində diqqət yetirilən ikinci vacib məsələ mərkəzi dövlət hakimiyyəti orqanlarının statusu və səlahiyyətləri məsələsi idi. Siyasi-ərazi vahidlərinin statusu baxımından yüksək dərəcədə mərkəzləşdirilməmiş olan Bosniya və Herseqovina, formalaşması zamanı ölkənin etnik-dini tərkibi nəzərə alınan mərkəzi hakimiyyət orqanlarına – qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarına, o cümlədən konstitusiya məhkəməsinə malikdir.

Dövlət başçısının funksiyaları hər millətdən bir nəfər olmaqla üç nəfərdən ibarət Rəyasət Heyətinə verildi. Qanunvericilik hakimiyyəti Xalqlar Palatasından və Nümayəndələr Palatasından ibarət Parlament Skupşinasına məxsus olmalı idi. Deputatların üçdə biri Serb Respublikasından, üçdə ikisi Bosniya və Herseqovina Federasiyasından seçilməlidir. Eyni zamanda, parlament səlahiyyətlərinin icrası zamanı "xalqın vetosu" qaydasının tətbiq də mümkündür: üç xalqdan birindən seçilən deputatların əksəriyyəti bu və ya digər təklifin əleyhinə səs verərsə, digər iki xalqın mövqeyinə baxmayaraq, təklif rədd edilmiş sayılır. Ümumiyyətlə, mərkəzi orqanların səlahiyyətləri razılaşma əsasında həyata keçirilməli idi və çox məhdud idi. Real hakimiyyət Bosniya və Herseqovina Federasiyası və Bosniya Serb Respublikasının idarəetmə orqanlarına verildi.

Müqavilə xüsusi olaraq keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının ittiham etdiyi şəxslərə Bosniya və Herseqovina Respublikası ərazisində dövlət vəzifəsi tutmağı qadağan edirdi. Bununla da Bosniya müharibəsində dinc əhaliyə qarşı cinayətlərin törədilməsində əli olan şəxslər hakimiyyətdən uzaqlaşdırıldı və onların post-müharibə rekonstruksiyası işinə müdaxiləsi imkanları aradan qaldırıldı.

Razılaşmada Bosniya və Herseqovinanın normal rekonstruksiyası prosesinin təmin

olunması, bağlanmış bütün sazişlərin və müqavilələrin lazımi səviyyədə icrası üzərində nəzarət məqsədilə müxtəlif beynəlxalq təşkilatlara geniş səlahiyyətlər də verilirdi. Belə ki, ölkənin bütün idarəetmə sistemi Bosniya və Herseqovina üzrə Ali Nümayəndəliyin nəzarəti altında fəaliyyət göstərməli idi. Razılaşmaların və faktiki olaraq müharibədən sonrakı bərpa və yenidənqurma işlərinin təminatı sistemi iki hissəyə ayrılmışdır. Hərbi-inzibati təminatı Bosniya və Herseqovina Respublikası ərazisinə 20 dekabr 1995-ci ildə 60 min əsgərdən ibarət tərkibdə yerləşdirilən NATO qoşunlarının kontingenti (IFOR) yerinə yetirməli idi. Onlar bölgədə BMT sülhməramlılarını əvəz etməli idilər. Mülki təminat isə Ali Nümayəndəliyin Aparatına həvalə edilmişdir. Bundan əlavə razılaşmanın tələblərinə uyğun olaraq 1996-cı ildə Bosniya və Herseqovinada ilk azad seçkilərin təşkili Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına həvalə edilmişdi.

Onu da qeyd etmək lazımdır ki, Bosniya və Herseqovinanın müharibədən sonrakı bərpası və yenidən qurulması üçün beynəlxalq-hüquqi və konstitusion-hüquqi əsas təkcə Bosniya və Herseqovinada sülh haqqında ümumi çərçivə razılaşması ilə məhdudlaşmır. Məsələn buraya müvafiq çərçivə razılaşmasından başqa 1995-ci ildə qəbul edilmiş daha 12 beynəlxalq-hüquqi sənəd təşkil edir:

1) Sülh nizamlanmasının hərbi aspektləri haqqında razılaşma,
2) Bölgədə sabitləşmə haqqında razılaşma,
3) Qurumlar arasında təmas xətləri və bununla əlaqəli məsələlər haqqında razılaşma,
4) Seçkilər haqqında razılaşma,
5) Bosniya Herseqovinanın Konstitusiyası,
6) Arbitraj haqqında razılaşma,
7) İnsan haqları haqqında razılaşma,
8) Qaçqınlar və məcburi köçkünlər haqqında razılaşma,
9) Milli abidələrin mühafizəsi haqqında razılaşma,
10) Bosniya və Herseqovinada publik korporasiyaların təsis olunması haqqında razılaşma,
11) Sülh nizamlanmasının mülki aspektləri haqqında razılaşma,
12) Xüsusi beynəlxalq polis qüvvələri haqqında razılaşma [21].

Göründüyü kimi bir çox məsələləri kompleks şəkildə nizamlamağa çalışan bütün bu beynəlxalq hüquqi sənədlər Bosniya müharibəsindən sonra sülh quruculuğunun, ölkənin yenidən qurulmasının təməl hüquqi bazasını təşkil etmişdir. Rəsmi olaraq beynəlxalq müqavilə hesab olunsa da, Deyton Razılaşmalarının məzmunu və mahiyyəti konstitusion-hüquqi səciyyə daşıyırdı. Onun əsas məqsədi müharibə vəziyyətində olan üç xalq arasında qarşılıqlı etimadın bərpa olunmasından və bunun üçün zəruri milli hüquqi mexanizmlərin yaradılmasından ibarət idi. Razılaşmaların müəyyən etdiyi prinsiplər əsasında hazırlanmış Bosniya və Herseqovina Respublikasının Konstitusiyasının mətni həmin razılaşmaların əlavəsi olaraq və eynilə onlar kimi Bosniya və Herseqovina, Xorvatiya və keçmiş Yuqoslaviya tərəfindən təsdiq olunmuşdur.

Müharibədən sonrakı yenidənqurma və bərpa prosesinin müqaviləyə əsaslanmasının digər nümunəsi Səudiyyə Ərəbistanının Taif şəhərində aparılan danışıqlar nəticəsində Livanda vətəndaş müharibəsinin (1975-1990) başa çatmasını rəsmiləşdirən Taif sazişləri olmuşdur. Rəsmi adı ilə "Milli Barışıq Müqaviləsi" kimi tanınan 22 oktyabr 1989-cu ildə imzalanmış və Livan Parlamenti tərəfindən 5 noyabr 1989-cu il tarixdə təsdiq edilmiş Taif Razılaşmasının məqsədi "Livanda vətəndaş müharibəsini bitirmək və siyasi normallığa qayıtmaq üçün çərçivənin" təmin edilməsindən ibarətdir [12].

Sazişin özü ikili təbiətə malikdir. Bir tərəfdən o, Livanda 15 illik vətəndaş müha-

ribəsinə son qoymaq və o vaxtlar işğal altında olan İsrailin dəstəklədiyi Cənubi Livanın xristian separatçı ordusunun nəzarətində olan Livanın cənubunda mərkəzi Livan hökumətinin hakimiyyətini bərpa etmək idi. Yəni burada ilk növbədə müharibədən sonrakı konstitusiya quruculuğu ön plana çıxır [10].

Digər tərəfdən Razılaşmada Suriya hərbi qüvvələrinin Livandan çıxarılması üçün vaxt cədvəli də müəyyən edilmişdir. Yəni burada Livandakı müharibənin fəsadlarının aradan qaldırılmasına dair müəyyən beynəlxalq hüquqi öhdəliklər də yer almışdır.

Müqavilə müharibədə tərəf kimi çıxış etmiş Livanın müxtəlif məzhəbləri arasında “qarşılıqlı birgəyaşayış” və onların “uyğun siyasi təmsilçiliyi” prinsipini vətəndaş müharibəsindən sonra parlament seçkiləri ilə bağlı qəbul edilməli olan qanunların əsas məqsədi olaraq müəyyən etdi. O, həmçinin Livanda ötən əsrin 40-cı illərində konstitusiyanın əsasını təşkil etmiş Milli Pakt siyasi sistemini yenidən quraraq, parlament, prezident və baş nazir arasında səlahiyyət bölgüsünü müəyyən etmiş oldu. Belə ki, əgər Razılaşmadan əvvəl sünni müsəlman baş nazir vəzifəyə xristian-maroni prezident tərəfindən təyin edilirdi və onun qarşısında cavabdeh idisə, Taif Razılaşmasından sonra baş nazir, ənənəvi parlament sistemində olduğu kimi, qanunverici orqan qarşısında məsuliyyət daşıyırdı. Bununla da Razılaşma sünni baş nazirin səlahiyyətlərini xristian prezidentin səlahiyyətlərinə nisbətən genişləndirdi. Razılaşmadan əvvəl əhəmiyyətli icra hakimiyyəti səlahiyyətlərinə malik olan prezident, əksər parlament respublikalarında olduğu kimi, real və əhəmiyyətli səlahiyyətləri olmayan bir fiqura çevrildi. Nazirlər Kabinetinin tərkibi isə xristianlar və müsəlmanlar arasında bərabər bölünməlidir. Razılaşma həmçinin Livan parlamentinin spikerinin səlahiyyət müddətini də bir ildən dörd ilə qədər uzatmış oldu. Livan parlamentinin – Deputatlar Palatasının sayı xristianlar və müsəlmanlar arasında bərabər bölünmüş 128 üzvə qədər artırıldı ki, bu da müsəlmanların əksəriyyətini təmin etdi [12].

Razılaşma həmçinin ölkə ərazisindəki bütün milli və dini silahlı birləşmələrin tərksilah edilməsini nəzərdə tuturdu. Yeganə istisna kimi “Hizbullah” partiyasına cənubda İsrailə qarşı döyüşən milis deyil, “müqavimət qüvvəsi” kimi silahlı birləşmələri saxlamağa icazə verildi [12].

Taif Razılaşması dini məzhəbə görə siyasi bölgünün aradan qaldırılmasını milli prioritet kimi müəyyən etsə də, bunun üçün heç bir zaman çərçivəsi nəzərdə tutmayıb. Qeyd etmək lazımdır ki, sırf beynəlxalq hüquqi sənəd olan Deyton razılaşmalarından fərqli olaraq, Taif sazişi xarici ölkənin ərazisində bağlansa da, onun tərəfləri ölkənin siyasi sisteminin əsas subyektləri olmuşdur. Yəni Livanın müharibədən sonrakı sülh quruculuğuna təkan vermiş bu hüquqi sənəd konstitusiya müqaviləsi kimi dəyərləndirilə bilər.

Onu da qeyd etmək lazımdır ki, bəzi hallarda müasir dövrdə müharibədən sonrakı bərpa və yenidənqurma prosesləri qalib tərəfin səlahiyyətli orqanları tərəfindən xüsusi hüquqi akt qəbul edilməsi ilə, yaxud ümumiyyətlə heç bir akt qəbul edilmədən də başlanıla bilər. Məsələn, İraqda 2004-2014-cü illər ərzində həyata keçirilən yenidənqurma və bərpa prosesi buna nümunə ola bilər.

Bir siyasi-hüquqi anlayış olaraq XIX əsrin ortalarından başlayaraq formalaşmış və İkinci Dünya Müharibəsi dövründə özünün qəti olaraq oturuşma mərhələsinə qədəm qoyan post-münaqişə dövrünün rekonstruksiyası fəaliyyəti zəruri hüquqi forma olmadan səmərəli şəkildə həyata keçirilə bilməz. Bu ilk növbədə həmin prosesin bir-biri ilə əlaqəli mərhələlərdən ibarət olmasından, ictimai həyatın həssas məqamlarına toxunmasından, zəruri olaraq ölkənin ali, yerli hakimiyyət orqanlarının, ədliyyə, hüquq mühafizə sisteminin fəaliyyətini əhatə etməsindən, qabaqcadan müəyyən edilmiş proqram sənədləri əsasında həyata keçirilməsindən, müxtəlif sə-

viyyələrdə zəruri hüquqyaratma, hüquqtətbiqetmə proseslərinin təşkilini tələb etməsindən irəli gəlir.

Müxtəlif tarixi dövrlərdə həyata keçirilmiş rekonstruksiya fəaliyyətinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, həmin fəaliyyətin hüquqi bazası müxtəlif hüquqi sistemlərə və qəbul edilmə səviyyəsinə malik olan hüquqi aktlara əsaslana bilər (beynəlxalq və milli hüquqi aktlar). Bu zaman müəyyən edilmiş əsas tendensiyalardan biri post-münaqişə rekonstruksiya prosesinin legitimliyinin müqavilə əsasına dayanmasıdır. Həmin aktların ümumi səciyyəvi cəhətləri sırasında onların legitimliyinin münaqişə edən tərəflərin döyüş əməliyyatlarını olduğu vəziyyətdə dayandırmaq, yaxud məğlub edilmiş tərəfin silahlı müqaviməti dayandıraraq tam təslim olmaq iradəsinə əsaslanmaları göstərilməlidir.

Əvvəllər post-müharibə bərpa prosesinin xarici (beynəlxalq) iştirakçısının hüquq və vəzifələrini, beynəlxalq öhdəliklərini rəsmiləşdirən beynəlxalq müqavilələr hazırda əlavə olaraq rekonstruksiya olunan ərazilər üçün konstitusion-hüquqi əhəmiyyət də kəsb etməyə başlamışdır. Bunun əsas səbəblərindən biri müasir dövrdə beynəlxalq insan hüquqları institutunun təsiri və həmin institutların beynəlxalq müqavilə və konvensiyalar vasitəsilə post-müharibə bərpası prosesinin humanistləşdirilməsinə cəhd göstərilməsindən ibarətdir. Qeyd olunan tendensiyanı müvafiq sahədə mütərəqqi hal hesab etmək olar.

**Ədəbiyyat:**

1. ABŞ demokratiyası haqqında əsas mətnlər (tərtibçi Melvin İ. Urofski), Bakı, FAR CENTRE, 2005, 486 səh.
2. Atlantic Charter, August 14, 1941 / https://avalon.law.yale.edu/wwii/atlantic.asp
3. Bevans, Charles Irving, Treaties and Other International Agreements of the United States of America, 1776-1949: Volume 1, Multilateral, 1931-1945. Washington^ Department of State. 1968, p.
4. Bradley Mark L., Bluecoats and Tar Heels: Soldiers and Civilians in Reconstruction North Carolina, Kentucky: University Press of Kentucky, 2009 370 pp.
5. Crimean Conference https://avalon.law.yale.edu/wwii/yalta.asp
6. Erlichman, Camilo, and Knowles, Christopher (eds.). Transforming Occupation in the Western Zones of Germany: Politics, Everyday Life and Social Interactions, 1945-55 Bloomsbury, 2018
7. Franklin, John Hope, Reconstruction after the Civil War, Chicago, The University of Chicago Press, 2012, 304 p.
8. Knowles, Christopher, Winning the Peace: The British in Occupied Germany, 1945-1948, Bloomsbury Academic, 2017, 288 p.
9. Mayle, Paul D. Eureka Summit: Agreement in Principle & the Big Three at Tehran, 1943, U of Delaware Press, 1987, 210 p.
10. Salamey Imad, Failing consociationalism in Lebanon and integrative options https://www3.gmu.edu/programs/icar/ijps/vol14_2/SALAMEY%20-%2014n2%20IJPS.pdf?gmuw-rd=sm&gmuw-rdm=ht
11. Shutz Carl, Report on the Condition of the South (1865) / https://constitutioncenter.org/the-constitution/historic-document-library/detail/carl-schurz-report-on-the-condition-of-the-south-december-181865

12. The Taif Agreement / https://www.un.int/lebanon/sites/www.un.int/files/Lebanon/the_taif_agreement_english_version_.pdf
13. Treaty of peace with Japan / https://treaties.un.org/doc/publication/unts/volume%20136/volume-136-i-1832-english.pdf
14. Takemae, Eiji, Inside GHQ: The Allied Occupation of Japan and its Legacy. Translated by Ricketts, Robert; Swann, Sebastian. New York: Continuum, 2002, 751 p.
15. Vertrag vom 12. September 1990 über die abschießende Regelung in bezug auf Deutchland “2+4 - Vertrag” / https://www.auswaertiges-amt.de/blob/243466/2851e102b97772a5772e9fdb8a978663/vertragstextoriginal-data.pdf.
16. Weber Jurgen (Central European University Press, 2004). Germany, 1945–1990
17. Гуминенко М.В. Что такое "Реконструкция Юга" (1865-1871) http://dugward.ru/history/Hist36.html
18. Декларация о поражении Германии и взятии на себя верховной власти в отношении Германии Правительствами СССР, Соединенного Королевства и США и Временным Правительством Французской Республики / http://militera.lib.ru/h/lavrenev_popov2/31.html.
19. Еремин В.Н. История правовой системы Японии. – Москва: РОССПЭН. – 2010. – 293 с.
20. Инструменты обеспечения господства права в постконфликтных государствах. Проверка: основа для практической деятельности / Организация Объединенных Наций. – Нью-Йорк; Женева. – 2006. – 25 с.
21. Организация Объединенных Наций. Конвенции и соглашения. 1995 год https://www.un.org/ru/documents/decl_conv/conv_yugoslavia.shtml
22. Советская военная администрация в Германии, 1945-1949. Справочник / отв. ред.: Я. Фойтцик, А. В. Доронин, Т. В. Царевская-Дякина; при участии: Х. Кюнцель, Д. Н. Нохотович. – Москва: РОССПЭН. – 2009.

***Açar sözlər:*** *münaqişədən sonrakı dövr; rekonstruksiya, reinteqrasiya, rekonstruksiyanın normativ əsasları, sülh razılaşması, Deyton razılaşmaları, Taif Razılaşması*

**Emin Guliyev**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Law*
*Acting Assistant Professor, Ph.D. in Law*

# SOME ASPECTS OF THE GLOBAL EXPERIENCE IN THE FORMATION OF THE NORMATIVE LEGAL FRAMEWORK FOR POST-CONFLICT RESTORATION AND RECONSTRUCTION ACTIVITIES

## ABSTRACT

The purpose of this article is to determine what constitutes a set of normative and legal bases that determine the content of society's material and moral life after the end of wars, the elimination of the conflict's consequences, the restoration and reconstruction of the territories freed from occupation, and the analysis of reconstruction models, which can be considered a classic example of post-war reconstruction in the modern world.

The research has been done extensively using cognitive methods defined within the framework of the social sciences and humanities. In particular, logical, historical, comparative-legal, concrete-sociological, systemic-structural, and systemic-functional methods were used here. Based on the application of these methods, different issues related to the research topic were analyzed integratively; specific associated trends were identified, and generalizations were made.

As a result of our research, the content of the concrete normative legal framework of the reconstruction and reintegration processes as a necessary stage after the end of the wars and armed conflicts that have taken place in the world until now has been determined, and the role played by different levels of legal acts, primarily international treaties and agreements, in the process of post-war reconstruction has been shown through concrete examples. The main result of the research is that the borders between international-legal and constitutional-legal means for the legal regulation of post-conflict reconstruction are gradually removed. It is primarily manifested in the content of such a regulation.

***Keywords:*** *post-conflict period, reconstruction, reintegration, normative framework for reconstruction, peace agreement, Dayton Agreement, Taif Agreement*

**Эмин Гулиев**

*И.о. доцента кафедры «Права» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

# НЕКОТОРЫЕ АСПЕКТЫ МИРОВОГО ОПЫТА ФОРМИРОВАНИЯ НОРМАТИВНО-ПРАВОВОЙ БАЗЫ ПОСТКОНФЛИКТНОЙ ДЕЯТЕЛЬНОСТИ ПО ВОССТАНОВЛЕНИЮ И РЕКОНСТРУКЦИИ

## РЕЗЮМЕ

Целью настоящей статьи является определение того, что представляет собой комплекс нормативно-правовых мер, регулирующих содержание мероприятий по восстановлению и реконструкции постконфликтных территорий, анализ основных моделей правового регулирования послевоенной реконструкции, которые можно считать классическим примером послевоенного восстановления в современном мире. В ходе исследования широко использовались познавательные методы, определенные в рамках общественных и гуманитарных наук. В частности, здесь использовались логический, исторический, сравнительно-правовой, конкретно-социологический, системно-структурный и системно-функциональный методы, на основе применения которых вопросы, относящиеся к теме исследования, были проанализированы во взаимодействии, выявлены определенные тенденции, связанные с ними, сделаны обобщения.

В результате проведенного исследования было проанализировано конкретное содержание нормативной базы процессов послевоенного восстановления и реинтеграции - необходимого этапа после окончания войн и вооруженных конфликтов, а также описаны попытки юридического разрешения некоторых возникших проблем в этой сфере. Главным результатом является указание на постепенное стирание граней между международно-правовыми и конституционно-правовыми инструментами правового регулирования постконфликтной реконструкции. Это находит своё выражение, прежде всего, в содержании такого рода регулирования.

***Ключевые слова:*** *постконфликтный период, реконструкция, реинтеграция, нормативные основы реконструкции, мирное соглашение, Дейтонские соглашения, Таифское соглашение*

DOI: 10.30546/2309-1347.2024.1552

# H Ü Q U Q
# L A W

UOT: 343.2/.7

**HAFİZ MUSAYEV**

**Bakı Dövlət Universiteti, Beynəlxalq Hüquq; Hüquq fakültəsinin İnsan hüquqları va informasiya hüququ UNESCO kafedrası, hüquq üzrə fəlsəfə doktoru**

*e-mail: elchin.gulaliyev1@gmail.com*

## REGİONAL TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA TERRORÇULUQLA MÜBARİZƏNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Tarixi təcrübə onu göstərir ki, terrorçuluğun yaranması və yayılması sosial daxili və xarici ziddiyyətlərin, xüsusilə də ictimai böhranların, müharibələrin, inqilabların genişlənməsi şəraiti ilə daha çox şərtlənir. Terrorçuluğun dağıdıcı nəticələrində hər bir ölkənin konkret tarixi şəraiti, milli xarakterin və ənənələrin xüsusiyyətləri, xalqın tarixi yaddaşı mütləq əks olunur. Terrorçuların dinc vətəndaşlara qarşı yönəlmiş cinayətləri ilə yanaşı, enerji daşıyıcıları ilə zəngin və qiymətli unikal faydalı qazıntı növlərinə malik ərazilərə nəzarəti ələ keçirmək, dünyanın müxtəlif ölkələrində baş verən siyasi proseslərə təsir göstərmək, kütləvi qırğın silahlarına yiyələnmək cəhdləri bəşəriyyət üçün təhlükəlidir. Müxtəlif şəraitlərdə terrorçuluğu bir cinayətkar fəaliyyət kimi fərqli mövqelərdən qiymətləndirirlər. Məsələn, hər hansı bir təşkilat üçün terror fəaliyyəti milli-azadlıq mübarizəsidirsə, ölkənin rəsmi dairələri və əhalisi üçün isə bu, qanunçuluğun kobud şəkildə pozulması və cinayət hadisəsidir. Bəzən terrorçuluq hadisəsi banditizmlə məhdudlaşdığından bu və ya digər dövlətin daxili işi olaraq qalır.

Xüsusi olaraq qeyd etməyə dəyər ki, milli, regional və qlobal səviyyədə beynəlxalq terrorizmin yaranmasını şərtləndirən iqtisadi, sosial, dövləti-siyasi və ideoloji halların öyrənilməsi və ümumiləşdirilməsi vacibdir. Bununla bərabər beynəlxalq terrorizmin fəaliyyətini gücləndirən və dərinləşdirən obyektiv səbəblər də araşdırılmalıdır. Terrorizmin səbəbləri haqqında çoxsaylı fikirlər, konsepsiya və mövqelər mövcudluğu hələ problemin həll yollarının tapılması demək deyildir. Müasir anlayışda terrorçuluq – terrorun tətbiqi, yəni vahimə yaratmaq, hədə-qorxu gəlmək, şəxsiyyətə, cəmiyyətə və dövlətə qarşı güc tətbiq etməkdir. Axırıncı halda terror milli sərhədlərdən kənara çıxır və beynəlxalq xarakter alır. Bu baxımdan yanaşdıqda terrorçuluq transmilli xarakter daşımaqla ölkələri və onların sərhədlərinin təhdid altına alır. Beynəlxalq terrorizmin təkamülü gedişində meydana gələn yeni elementlər dövlətlərarası əməkdaşlığın regional və qlobal səviyyələrdə aparılmasının nə dərəcədə həyati əhəmiyyət kəsb etdiyini açıq şəkildə göstərir. Lakin aparılmış müşahidə və təhlillər məhz beynəlxalq əməkdaşlıq sahəsində bir sıra fundamental hüquqi problemlərin və ehtimalların mövcudluğunu ortaya çıxartdı. Belə qlobal xarakterli kazuslar müvafiq sahədə beynəlxalq əməkdaşlığın birbaşa özülünü zədələməklə yanaşı, antiterror fəaliyyətlərinin səmərəliliyinin həddindən artıq zəifləməsinə səbəb olur.

Beynəlxalq terrorçuluq  xaricdə yerləşən və ya xaricdən rəhbərlik edilən bir qrup şəxsin güc və zorakılıqdan qeyri-leqal istifadəsidir. O

digər ölkələrin əhalisinə və hökumətlərinə qarşı yönəlmişdir. Terrorçuluğun bu növünün təzahürünün başlıca formaları kimi hava piratçılığını, girovların götürülməsini, genişmiqyaslı partlayışların törədilməsini, diplomatların və digər siyasi liderlərin oğurlanmasını və onların azad olunması üçün siyasi planda hər hansı bir dəyişiklikləri tələb edilməsini və s. göstərmək olar. Buna görə də dünya ictimaiyyəti üçün daha böyük təhdid beynəlxalq terrorçuluqdur. Onun surətlə genişlənməsi çoxlu sayda insanlara məşəqqət və ölüm gətirir. Beynəlxalq terrorçuluğa qarşı mübarizə aparmağın mürəkkəbliyi onun harada, nə vaxt, məhz hansı təşkilat və şəxs tərəfindən həyata keçiriləcəyi barədə səhih məlumatın çox çətinliklə alınmasındadır [7].

Narkotiklərin qanunsuz dövriyyəsi hazırda bütün bəşəriyyəti narahat edən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən biridir. Ən gəlirli kriminal sahələrdən olan narkobiznesdən əldə olunan qeyri-qanuni gəlirlərin terrorçuluğun maliyyələşdirilməsinə yönəldilməsi onun təhlükəlilik dərəcəsini daha da artırır. Müasir şəraitdə məhz narkoterror anlayışının yaranması da əbəs deyildir [8].

Azərbaycan hüquq elmində beynəlxalq terrorçuluqla mübarizədə regional əməkdaşlıq məsələləri, xüsusilə bu sahənin beynəlxalq hüquqi tənzimlənməsi sahəsində yaranmış və prosesin inkişaf yolları hal-hazıradək kompleks şəkildə tədqiq olunmamışdır. Bununla belə, problemin beynəlxalq hüquqi Avropa cinayət hüququ və beynəlxalq nəqliyyat hüququ beynəlxalq cinayət hüququ, beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində regional əməkdaşlığın istiqamətləri, habelə bir sıra beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının fəaliyyətində tətbiqi problemləri, Azərbaycan Respublikasının mülki aviasiyasının təhlükəsizliyinin təmin edilməsinin konstitusion-hüquqi problemləri və s. sahələrdə elmi-nəzəri və hüquqi araşdırmalar aparılmışdır. Regional əməkdaşlıq kontekstində beynəlxalq terrorçuluğa qarşı mübarizənin bir sıra problemləri isə öz araşdırıcılarını gözləməkdədir.

Beynəlxalq terrorçuluq anlayışı ilə bağlı müzakirələrin davamlı olması problemin həlli istiqamətində atılan addımların yetərli olmadığını göstərir. Məhz bundan çıxış edən Avropa İttifaqı Şurasının 2002-ci il tarixli Çərçivə Qərarının 1-ci maddəsinin, habelə "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Şurası Konvensiyasının Preambulasının sonuncu paraqrafının müddəaları əsasında beynəlxalq terrorçuluq anlayışını mənalandırmaq mümkündür ki, bunun üzərində ayrıca dayanmağa dəyər, belə ki, beynəlxalq terrorçuluq anlayışına kompleks şəkildə yanaşma sərgilənməlidir, yəni siyasi, iqtisadi, sosial, dini, mənəvi, mədəni və s. sahələrdə maraqlarını təmin etmək məqsədilə törədilən əməl kimi qiymətləndirilməlidir. Praktika göstərir ki, beynəlxalq hüququn öz müqəddəratını müəyyən etmək prinsipindən sui-istifadə yolu ilə milli, etnik, dini və s. pərdə altında dövlətlərin beynəlxalq hüquqla təsbit edilmiş ərazilərini parçalamağa yönəldilmiş separatçı fəaliyyətlər də beynəlxalq terrorçuluğun mənbələri sırasında hesab edilməlidir. Separatçılıq fəaliyyəti nəticəsində formalaşan beynəlxalq və dövlət nəzarətindən kənar ərazilər -bunlar beynəlxalq hüquqda “boz zonalar” (“grey zones”) adlandırılır və terrorçu düşərgələrinin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, yeni üzvlərə təlimlərin keçirilməsi, habelə terror aktların planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaratmaqla yanaşı, dünyanın müxtəlif regionlarına “terror ixracı”nda böyük rol oynayır.

Fikrimizcə, beynəlxalq terrorizmin yaranmasının səbəb və şəraitinin araşdırılması yalnız kriminoloji metoda əsaslanmamalıdır. Burada sosial-siyasi proseslərin idarə olunmasının metod və vasitələri də diqqətdə saxlanılmalı, milli, regional və qlobal səviyyədə beynəlxalq terrorizmin yaranmasını şərtləndirən iqtisadi, sosial, siyasi və ideoloji hallar araşdırılmalı və qiymətləndirilməlidir. Hazırda beynəlxalq leksikonda vətəndaşlıq qazanmış beynəlxalq terrorizm beynəlxalq təhlükəsizliyə ciddi təhlükə kimi beynəlxalq sənədlərdə

mükəmməl şəkildə təfsirini tapmamışdır və yəqin ki elə də tezliklə buna cəhd edilməyəcəkdir. Bu baxımdan iki məqama diqqət yetirmək lazımdır, birincisi, elmi-texniki tərəqqinin belə yüksək sürətlə getdiyi şəraitdə cəmiyyətlərarası təbəqələşmə, zənginlik və yoxsulluq arasındakı fərqlər getdikcə dərinləşir ki, yaranmış şəraitdə terrorçuluğun ağıla gəlməyən növləri yaranır və təhlükələrin miqyası genişlənir və dərinləşir; ikincisi, terrorçuya münasibətdə ümumqəbul olunmuş beynəlxalq-hüquqi normanın mövcud olmaması, belə ki, beynəlxalq miqyaslı hər hansı terrorun səbəbkarı olan şəxs və ya qrupların bir dövlətdə "qəhrəman", digər dövlətdə isə "terrorçu" kimi qələmə verilməsinin mümkünlüyü. Məsələn, erməni terrorçusu G.Nijde Ermənistanda "milli qəhrəman" kimi tanınmasına baxmayaraq, o bütün dünyada alman faşistləri ilə əməkdaşlıq və qatillik edən şəxs kimi qəbul olunmuşdur, hətta Rusiyada, Peterburqda onun heykəli qoyulsa da, ictimaiyyətin təzyiqi ilə sökülüb götürüldü. Yaranmış vəziyyət beynəlxalq hüquq normalarında mövcud boşluqların aradan qaldırılmasını tələb edir. Təsadüfi deyil ki, terrorçuluq anlayışına 1936-1981-ci illər arasında 109 fərqli izah verilmişdir. ABŞ-da 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra BMT Baş Məclisinin VI Komitəsi bu anlayışın mənalandırılması baxımından çoxsaylı təklifləri nəzərdən keçirsə də, indiyədək ümumi qərar qəbul edilməmişdir.

Terrorçuluğun qarşısının alınmasında dünya dövlətləri tərəfindən həyata keçirilən sərhəd siyasəti sahəsində əməkdaşlığın mühüm rolu vardır. MDB ölkələrinin 13.04.2018-ci il tarixində keçirilmiş 47-ci plenar iclasında qəbul olunmuş MDB üzvü olan dövlətlərin sərhəd bölgəsində istifadə etdiyi termin və anlayışların lüğətində sərhəd siyasətinə belə bir tərif verilmişdir. "Sərhəd siyasəti" – sərhəd təhlükəsizliyi mühitinin yaradılmasına yönəldilmiş, sabitliyin, təhlükəsizliyin və sərhədlərin toxunulmazlığının təmin edilməsi, vahid iqtisadi və gömrük məkanının formalaşması, beynəlxalq və daxili terrorizmlə birgə mübarizənin təşkili, separatizm və millətçiliyin hər cür təzahürünün, həmçinin narkotik ticarətinin qarşısının alınması, sərhəd hadisələrinin və ərazi mübahisələrinin sülh yolu ilə həlledilməsi məqsədilə MDB dövlətlərinin dövlət hakimiyyəti təsisatları tərəfindən həyata keçirilən razılaşdırılmış, birgə koordinasiyalı fəaliyyətdir [11].

Azərbaycan terrorçuluqla beynəlxalq hüquqi mübarizə prosesində fəal iştirak edir və bu qlobal bəla ilə mübarizənin təsirliliyi beynəlxalq əməkdaşlığın imkanlarından səmərəli istifadə edilməsi ilə yanaşı, terrorçuluğa milli səviyyədə müqavimətin gücləndirilməsi nəticəsində mümkün ola bilər [7, s.61].

Ölkəmizin milli qanunvericiliyində terrorçuluqla mübarizə məsələləri geniş şəkildə təsbit olunmuşdur.

Azərbaycan Respublikasının terrorçuluqla mübarizə haqqında qanununda terrorçuluqla mübarizənin beynəlxalq hüquq normalarına uyğun bütün prinsipləri nəzərə alınmışdır [2].

Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" qanununda terror təhdidi və ona qarşı səmərəli mübarizə vəzifəsi haqqında konseptual müddəalar əksini tapmışdır. Qanunda beynəlxalq terrorçuluq Azərbaycan Respublikasının milli təhlükəsizliyinə əsas təhdidlər kimi nəzərdə tutulmuş, müvafiq olaraq, beynəlxalq terrorçuluğa və transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması üçün əsas təhdidlər qismində müəyyən edilmişdir [3].

Terrorçuluğa və digər transmilli cinayətlərə qarşı mübarizədə əks-kəşfiyyatın rolu əvəzsiz olmaqla günü-gündən fəallaşır. "Kəşfiyyat və əks kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda onunla mübarizədə öz əksini tapmışdır [4].

Bu gün beynəlxalq terrorçuluğun genişlənməsində və güclənməsində dini radikal elementlərin mühüm rolu vardır. Dini radikalizm hər hansı dinin üstünlüyünü, xüsusi imtiyaza malik olduğunu təbliğ edərək, özündən olmayan dini qruplara qarşı dözümsüz münasibət göstərən, başqalarına qarşı fiziki və ya mənəvi

güc tətbiq edən qrupların fəaliyyətlərinə şamil edilir [5].

Müəlliflərin terrorçuluğa müxtəlif yanaşmalarının bir neçəsinə diqqət yetirək. N.Nağıyevin yanaşmasına görə terrorçuluq "yeni təhdid" kimi nəzərdə tutulur [8,s.61]. Qorbunova görə, terrorçuluq qlobal xarakter daşımaqla insanlığın mövcudluğuna təhlükə kimi çıxış edir [10]. Qələndərova terrorçuluğu dövlət terrorçuluğu kimi nəzərdən keçirir. Onun fikrincə dövlət terrorçuluğu bir dövlət tərəfindən düşünülmüş və məqsədyönlü şəkildə digər dövlətin ərazisində həyata keçirilən zorakılıq metodudur [6].

Terrorçuluğun geniş spektrləri Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ətraflı şərh olunmuşdur. Azərbaycan Respublikası Cinayət Məcəlləsində göstərilir: "Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədir [1].

XX əsrin sonlarına qədər beynəlxalq terrorizmə qarşı mübarizənin hüquqi, elmi-siyasi və nəzəri əsaslarının hazırlanması kontekstində mühüm işlər görülsə də başlıca praktiki addımlar 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra atılmağa başladı ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- birincisi, bütün beynəlxalq və regional təşkilatlar beynəlxalq terrorizmlə mübarizə ilə bağlı beynəlxalq hüquqi sənədlər qəbul etdilər;
- ikincisi, dünyanın bütün dövlətləri beynəlxalq terrorizmi məhkum edən və qanunvericilik yolu ilə təsbit olunan hüquqi sənədlər qəbul etdilər;
- üçüncüsü, beynəlxalq birlik çərçivəsində beynəlxalq terrorizmə və onu dəstəkləyən dövlətlərə qarşı barışmaz mövqe təşəkkül tapdı, qlobal cinayətkarlığa qarşı mübarizədə beynəlxalq birliyin səylərinin birləşdirilməsi üçün zəmin yarandı, bu sahədə konkret addımlar atıldı və beynəlxalq terrorizmlə mübarizəni hədəfləyən beynəlxalq koalisiya formalaşdı. KİV-in yazdığına görə, bu koalisiyaya 30-a qədər dövlət, o cümlədən də Azərbaycan Respublikası daxil idi. Azərbaycan antiterror koalisiyasının sıralarında NATO blokunun Balkanlarda, İraqda və Əfqanıstanda həyata keçirdiyi tədbirlərdə fəal iştirak etmişdir [12].

Ermənistan Respublikası terroru həyata keçirən və dəstəkləyən dövlətdir. Ermənistan daimi dövlət terroru həyata keçirən və dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir.

Tədqiqatçılar təhlükəsizliyin təmin olunmasının, imkanların səmərəli şəkildə konsolidasiyasından qaynaqlandığı fikrini müdafiə edir. Lakin regional aspektdə məsələyə yanaşdıqda region ölkələrinin və ya subyektlərinin maraqlarının təbiətinə görə əməkdaşlıq əlaqələrini qorumaq həmişə asan olmur. Buna baxmayaraq müasir beynəlxalq və regional münasibətlər sistemi beynəlxalq hüququn tələblərini üstün tutur ölkələr arasında qarşılıqlı əməkdaşlığı təşviq edir.

Bildiyimiz kimi milli maraqlar ölkənin inkişafının səviyyəsindən, sosial və siyasi formasından, o cümlədən müxtəlif cəhətlərindən asılıdır. Bir sıra milli maraq mahiyyəti kəsb edən məsələlər var ki, onlar bütün region ölkələri üçün ümumi xarakterə malikdir.

Dövlətlər regional mühitin terrorçuluqdan mühafizəsini təmin etməlidirlər. İnsan hüquqları sahəsində standartlar dövlətlərin üzərinə yaşamaq hüququnu və digər insan hüquq və əsas azadlıqlarını təmin etmək öhdəliyi qoyur. Terror aktları ümumiyyətlə dövlətlərin öhdəlikləri çərçivəsində qorumalı olduqları bütün hüquqları pozur. Bu o demək deyil ki, terror

aktının həyata keçirilməsi dövlətin insan hüquqlarını müdafiə edə bilməməsinin sübutudur. Buna baxmayaraq, dövlət bu hüquqları qorumaq üçün lazımi tədbirlər görə bilmirsə, onların pozulmasına görə məsuliyyətin bir hissəsi ona verilir. Buna görə təsirli bir terrorla mübarizə strategiyası dövlətin insan hüquqları öhdəliklərinin bir hissəsi ola bilər. Çünki, terrorçuluq regional təhlükəsziliyi və region ölkələrində insan haqlarını inkar edir.

İnsan hüquqları sahəsində beynəlxalq səviyyədə tanınmış standartlara uyğun olaraq hökumətlərdən bir sıra vacib universal prinsipləri nəzərə almaq və onlara riayət etmək tələb olunur. Bunun üçün dövlət qurumlarından müəyyən bir intizam və hərəkət ardıcıllığı tələb olunur. Terrorçuluqla mübarizə mexanizmləri və insan hüquqları sahəsində hüquqi müdafiə ilə təmin edilmiş standartlar bir-biri ilə sıx bağlıdır. İnsan hüquqlarını rədd edən və ya pozan antiterror qanunları və tətbiqləri insan hüquqları və qanunun aliliyi prinsipləri və demokratik dəyərləri rəhbər tutan bir cəmiyyətdə uğursuzluğa məhkumdur və qəbuledilməzdir.

Regional mühitdə terrorçuluq və ekstremizmin baş qaldırması və aktivləşdirilməsi üçün sosial-mədəni şərtlər müasir reallıqların göstərdiyi kimi müxtəlifdir. Lakin son illərdə bir sıra qeyri-ənənəvi formalar da fərqlənir ki, bunlara ekoloji, bioloji və s. aiddir. Eyni zamanda, bütün dağıdıcı tipli və müxtəlif təzahürlərin arxasında terror və ekstremist davranışın yaranmasında, eləcə də aktivləşdirilməsində təşkilatlanmış şəkildə əks olunan ümumi fəaliyyət var [5, s.41].

Düzgün qurulmuş və reallaşdırılan dövlət siyasəti nəticəsində gücün əldə edilməsi və səmərəli idarə olunması dövlətə qısa müddətdə təhlükəsizliyin təmin olunması ilə bağlı şəraitə hakim olmaq imkanı verir.  Bu yanaşmaya görə, imkanları digər dövlətlərdən üstün olan bir dövlət, əhəmiyyətli təhdidlərlə qarşılaşmadan gücünü beynəlxalq səviyyədə səmərəli şəkildə istifadə edə və proqnozlaşdıra bilər.

Hazırda regional əməkdaşlıq beynəlxalq səmərəli əməkdaşlıq mühitinin formalaşması üçün əsas rolunda çıxış edir. Buna görə də ilk növbədə regional səmərəli əməkdaşlığa təhdid ola biləcək amillərin qarşısının alınması diqqət mərkəzində saxlanılmalıdır. Regional səviyyədə təhlükəsizliyə təhdid ola biləcək əsas dağıdıcı amil terrorçuluqdur və terrorçuluq müxtəlif formalarda təzahür edir.

Müasir dövrdə terrorçuluğu real, genişmiqyaslı və uzunmüddətli təhlükə adlandırmaq olar [13]. Hal-hazırda bu, milli səviyyədən regional və hətta beynəlxalq səviyyəyə qədər bütün səviyyələrdə ölkələrin inkişafına təsir edən ən mühüm amillərdən biridir. Müasir dövrün terror aktları qəddarlığı və çox sayda qurbanların olması ilə seçilir. Terror aksiyalarının təşkilatçıları kütləvi informasiya vasitələrinin ən çox diqqətini fəaliyyətlərinə cəlb etmək, eləcə də cəmiyyətdə maksimum rezonans yaratmaq üçün əhaliyə mümkün olan maksimum ziyan vurmağa çalışırlar. Müasir terrorçuluğun siyasi mübarizə metodundan düşmənə ziyan vurma vasitəsinə və eyni zamanda müəyyən fikri geniş ictimaiyyətə çatdırmaq vasitəsinə çevrilərək daha rasional və praqmatik hala gəldiyini iddia etmək olar.

Məlumdur ki, hazırda terrorçuluq problemi sözün əsl mənasında qlobal xarakter almışdır. Bu fenomenlə mübarizə müasir inkişaf mərhələsində bəşəriyyətin qarşısında duran ən vacib vəzifələrdən birinə çevrilir.

Beynəlxalq hüquq baxımından bu problemin həlli üçün "terrorçuluq" və "beynəlxalq terrorçuluq" kimi anlayışların vahid və aydın tərifini inkişaf etdirmək və bu sahədə terminologiyaya universal bir yanaşma ortaya qoymaq xüsusilə vacibdir. Bu məsələnin vacibliyinə baxmayaraq, bu gün dünyada "terrorçuluq" anlayışının vahid şərhi yoxdur. Həm müxtəlif dövlətlərin qanunvericilik aktlarında, həm beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə, həm də müvafiq mövzulara həsr olunmuş elmi əsərlərdə bu fenomenin tərifləri olduqca ziddiyyətlidir. Bu cür uyğunsuzluqların səbəbi kimi fərqli dövlətlərin terror təhlükəsini və onun mənbələrini fərqli şəkildə müəyyənləşdirməsi, qanunverici və hüquqmühafizə orqanlarının bu məsələyə konkret

vəzifələri və dövlət maraqlarını rəhbər tutaraq fərqli yanaşmasıdır.

Xarici təcrübənin öyrənilməsi göstərir ki, uğursuz miqrasiya siyasəti millətçi və radikal əhval-ruhiyyənin böyüməsi üçün güclü bir katalizator rolunu oynaya bilər. Qeyd edək ki, Azərbaycan bu məsələdə həyata keçirilən dövlət siyasətinin əsaslılığı, eləcə də hərtərəfliliyi baxımından yerləşdiyi regiondakı ölkələr arasında ən münbit mühitə malikdir. Qafqaz və Xəzər regionu təhlükəsizlik mühitində təhdidlərin aradan qaldırılması istiqamətində Azərbaycanın oynadığı aparıcı rol təhlükəsizlik mühitinin əsas bazisini təşkil edir [9, s.61]. Xüsusilə, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, antiterror əməliyyatları nəticəsində ölkənin bütün ərazisində Konstitusiya quruluşunun bərpa edilməsi regionda yeni əməkdaşlıq platformalarının yaradılması üçün mühüm addım olmuşdur.

Regionumuzda dövlətlərarası münaqişələrin həllində medianın milli zəmində münaqişələri necə təqdim etməsi də mühüm rol oynayır.

Etnik müxtəlifliklərin təhdid kimi əks olunması nəinki münaqişələrin həllinə kömək etmir, əksinə, münaqişəli vəziyyətlərin gərginləşməsi üçün zəmin yaradır.

Regional müstəvidə münaqişələrin yaranmasının əsas problemləri arasında aşağıdakılar sadalana bilər:

– millətlərarası ixtilafın qızışdırılması;
– hazırda ən aktual məsələlərdən biri olan su resurslarından istifadə ilə bağlı problemlər;
– işsizlik;
– dini ekstremizm;
– siyasi manipulyasiyaların sürətlənməsi.

Qafqaz və Xəzər təhlükəsizlik mühitində Azərbaycan istisna olmaqla milli dil ilə əlaqəli münaqişə vəziyyətlərinin olması da regional təhlükəsizliyin təmin olunmasında yeni çağırışları formalaşdıran mühüm amillərdən biridir. Bu məsələni problem xarakterli edən əsas xüsusiyyətlər aşağıdakılardır:

- münaqişənin qarşısını almaq strategiyasının zəifliyi;
- münaqişə vəziyyətlərinin mümkünlüyünü inkar etmək;
- faktlar olmadan münaqişə vəziyyətlərinin mövcudluğunun qəbul edilməsi.

Terror fəaliyyətini “stimullaşdıran” amillərin minimuma endirilməsi və onların tənzimlənməsinin beynəlxalq mexanizmlərinin işləkliyinin təmin edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan insan hüquqlarının qorunması məsələlərini daimi diqqətdə saxlamaq, beynəlxalq hüquqdan irəli gələn regional mexanizmlərin təkmilləşdirilməsi zəruridir.

İnsan hüquqlarının qorunması vasitələri münaqişələrə cavab vermək və sülh, eləcə də sabitliyi təmin etmək üçün yaradılmışdır. Buna görə də terror təhlükəsi problemini həll etmək üçün beynəlxalq insan hüquqlarının qorunması çərçivəsindən istifadə edilə bilər.

Müasir şəraitdə dövlətlərarası əməkdaşlıq olmadan, qarşılıqlı şəkildə xüsusi fəaliyyətlər həyata keçirilmədən mürəkkəb struktura və təzahürlərə malik beynəlxalq terrorçuluqla mübarizədə müsbət nəticələr əldə etmək mümkün deyildir və bu sahədə əməkdaşlıq zəruridir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2022.
2. Azərbaycan Respublikasının terrorçuluqla mübarizə haqqında Qanunu. Bakı, 1999.
3. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. 2004.
4. "Kəşfiyyat və əks - kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 2004.
5. Heydərov S., Qənbərov A və Qafarov A, Din və ideoloji təhlükəsizlik. – Bakı. – 2007. –277 s.
6. Qələndərova E. Terror anlayışı və onun müasir növləri // Qanun jurnalı. – 2017. №01(267). – s.108.
7. Musayev H, Beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmət orqanlarının fəaliyyətinin prinsip və xüsusiyyətləri. – Bakı, Çaşıoğlu. – 2009. – 316 s.
8. Nağıyev N, Milli təhlükəsizlik nəzəriyyəsinin əsasları. – Bakı. – 2007. –148 s.
9. Nağıyev N, Milli və beynəlxalq təhlükəsizlik. – Bakı: Şirvannəşr. – 2010. –148 s.
10. Горбунов, К Терроризм: социально-психологическое исследование: монография / К.Г. Горбунов. – Омск: Изд-во Ом. гос. ун-та, – 2010. – 384 с.
11. Глоссарий терминов и понятий, используемых государствами-участниками СНГ в пограничной сфере. (к постановлению МПА СНГ от 13 апреля 2018 года N 47-13 принят на сорок седьмом пленарном заседании Межпарламентской Ассамблеи государств - участников СНГ). 2018.
12. Резолюция 1373 (2001), Совет Безопасности ООН, S/RES/1373 (2001), 28.09.2001 // Борьба с международным терроризмом: сб. документов/науч. ред. В.В.Устинов. – М.: ТК Велби, Изд-во Проспект. – 2005. – с. 396-397
13. Малеев Ю. Н. Международное воздушное право, кн. 1, М.: Право, 1980


***Açar sözlər:*** *terrorçuluq, terror təşkilatları, beynəlxalq terrorçuluq, terrorçu, dövlət terroru*

**Hafiz Musayev**

*Baku State University*
*Department of Human Rights and Information Law UNESCO*
*Ph.D. in Law*

## MAIN CHARACTERISTICS OF COOPERATION IN THE FIGHT AGAINST TERRORISM AS A THREAT TO REGIONAL SECURITY

### ABSTRACT

The thesis examines the concept of terrorism and its development trends in the modern era. It investigates terrorism as a threat to national and international security. Attention is paid to the close connections between terrorism and separatism, drug, arms, and human trafficking. In addition, a number of methods and techniques used by terrorist organizations in the 21st century are mentioned. The author analyzes the operational characteristics of terrorist organizations and their contemporary aspects. The opinions of researchers in this field are presented. Attention is also paid to the legislative recognition of terrorism as a threat. The author especially emphasizes that in modern

conditions, it is impossible to achieve positive results in the fight against international terrorism without interstate cooperation and the mutual implementation of special measures. Also, in the thesis, the author provides evidence that Armenia is a state that carries out state terrorism and supports terrorism. At the end, appropriate conclusions are drawn.

***Keywords:*** *terrorism, terrorist organizations, international terrorism, terrorist, state terrorism*

***Хафиз Мусаев***

*Бакинский Государственный Университет, Международное право;*
*Кафедра прав человека и информационного права ЮНЕСКО*
*юридического факультета, доктор философии по праву*

## ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ БОРЬБЫ С ТЕРРОРИЗМОМ В ОБЕСПЕЧЕНИИ РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

### РЕЗЮМЕ

В статье рассматривается понятие терроризма, в том числе тенденции развития терроризма в современную эпоху. В основном терроризм исследуется как угроза национальному и международному терроризму. Уделяется внимание тесным связям терроризма с сепаратизмом, наркобизнесом, торговлей оружием и людьми. Помимо этого, упоминается ряд методов и приемов, используемых террористическими организациями в XXI веке. Уделяется внимание оперативным характеристикам террористических организаций, исследуются современные аспекты терроризма, выражается отношение к мнениям исследователей в этой области, а также законодательному закреплению терроризма как угрозы. Автор особо подчеркивает, что в современных условиях невозможно добиться положительных результатов в борьбе с международным терроризмом без межгосударственного сотрудничества и без взаимного осуществления специальных мероприятий. На основе фактов доказывается, что Армения является государством, осуществляющим государственный терроризм и поддерживающим терроризм.

***Ключевые слова:*** *терроризм, террористические организации, международный терроризм, террорист, государственный терроризм*

DOI: 10.30546/2309-1347.2024.1311

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**ELVİN ƏZİZBƏYOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**İntellektual sistemlərin idarə olunması kafedrasının müdiri, dosent**

*e-mail: eazizbayov@dia.edu.az*

**GÜLŞƏN ŞEYDAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**İntellektual sistemlərin idarə olunması kafedrasının magistrantı**

*e-mail: nilay.alina@bk.ru*

## DÖVLƏT QULLUQÇULARININ PEŞƏKARLIĞININ YÜKSƏLDİLMƏSİNDƏ İNNOVASİYALARIN TƏTBİQİ

### Giriş

Dövlət sektorunda baş verən dəyişikliklər ölkənin inkişafı, sosial və mədəni həyatına mühüm təsir göstərir. Dövlət siyasətinin ümumi məqsədi vətəndaşların rifahı və həyat keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün dövlət qurumlarında müasir dövrün çağırışlarına uyğun dəyişikliklər zərurəti meydana çıxır. Bu mənada, dövlət sektorunda, o cümlədən idarəetmədə və dövlət qulluğunda innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Dövlət qulluğunda innovasiyalar, eyni zamanda dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyin yüksəldilməsinə xidmət edir. Qeyd olunan səmərəlilik isə vətəndaşlara daha keyfiyyətli xidmətin göstərilməsi ilə nəticələnir. Bəhs olunan məsələlər hazırda dövlət qulluğunun aktual problemlərindəndir. Bu səbəbdən mövzunun aktuallığı onun elmi araşdırılması zərurətini ortaya qoyur.

### Dövlət qulluğunda innovasiyalar

Qloballaşma bütün sahələrdə olduğu kimi, dövlət qurumlarında da yeniliklərin tətbiqi zərurətini ortaya qoymaqdadır. Belə ki, dövlət qurumları dəyişən tələbləri qarşılamaq, səmərəliliyi təmin etmək və rəqabət edə bilmək üçün mütəmadi olaraq yeni xidmətlərin istehsalına təşviq edilir. Qeyd etmək lazımdır ki, dövlət qulluğunda innovasiyalar çox vacib, lakin az tədqiq edilən bir mövzudur. İnnovasiyalarla əlaqədar çalışmalar əsasən özəl sektorla bağlıdır. Halbuki, innovasiya dövlət sektoru üçün də olduqca əhəmiyyətlidir [1]. Xidmət, xidmətin göstərilmə üsulu, həyata

keçirilmə əsasları və s. aspektlərdən yanaşmaqla dövlət sektorunda innovasiyalar aşağıdakı kimi təsnifləndirilir:

- Məhsul innovasiyası: yeni və ya təkmilləşdirilmiş xidmətlər;
- Sistem innovasiyası: mövcud struktur bazasının yenilənməsi, yeni baza əsasların qurulması;
- Proses innovasiyası: dövlət xidmətinin istehsal üsulunda və ya təqdim olunmasındakı keyfiyyətin inkişaf etdirilməsi;
- Struktur-inzibati innovasiya: dövlət siyasətində və idarəçiliyində yeniliklər, dəyişikliklər;
- Anlayış innovasiyası: yeni anlayışlara bağlı olaraq yeni idarəetmə formatlarının tətbiq edil-məsi [2].

Bəzi tədqiqatlarda dövlət sektorunda innovasiyaların tətbiq sahələri aşağıdakı kimi müəyyənləşdirilir:

- E-dövlətlə bağlı olan sahələrdə (idarəetmə yükünün azaldılması, İKT-nin tətbiqi, keyfiyyət və sürətli fəaliyyətin təmini üçün dövlət xidmətlərinin "elektronlaşdırılması", dövlət idarəetməsinin müasirləşdirilməsi);
- İdarəetmənin sadələşdirilməsi istiqamətində (qanunvericilik yükünün azaldılması, dövlət proqramları və onların müddətlərinin yenidən qurulması);
- Dövlət tenderləri sahəsində (dövlət tender proseslərinin müasirləşdirilməsi, e-tender və s.);
- Yenilikçi mədəniyyətin kütləviləşdirilməsi istiqamətində və s. [3].

Dövlət idarəetməsində innovasiyaların tətbiqi və bununla da dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyin yüksəldilməsi istiqamətində bir sıra qabaqcıl Qərb ölkələrinin təcrübələri diqqəti cəlb edir.

Hazırkı dövrdə, demək olar ki, dünyanın əksər ölkələrində innovasiyalı cəmiyyət, həmçinin elektron hökumətə keçidlə bağlı bir sıra beynəlxalq və milli proqramlar hazırlanaraq həyata keçirilir. Ədəbiyyatda bu keçidin aşağıdakı üç əsas modeli müəyyənləşdirilmişdir:

1. Kontinental-Avropa;
2. Anqlo-Amerikan;
3. Asiya modelləri adlandırılır [4].

Xüsusilə diqqət çəkən İngilis-Amerikan modeli ABŞ-da, Kanadada və Böyük Britaniyada inkişaf etmişdir. ABŞ-da əsas məqsəd dövlət idarəçiliyi problemləri haqqında vətəndaşların informasiya ilə təminatının universal xidmətini təmin etməyə imkan verən informasiya supermagistrallarının yaradılmasına yönəldilmişdir.

Kontinental-Avropa modeli müvafiq tövsiyələrin bütün Avropa İttifaqı ölkələrində icrasının məcburiliyi ilə; Avropa xalqlarının və ölkələrin inteqrasiyasının yüksək dərəcəsiylə; Avropada informasiya məkanında dövr edən informasiya münasibətlərini və informasiya axınlarını nizama salan sərt qanunvericiliklə fərqlənir.

"E-dövlətin" Asiya modeli spesifik idarəetmə üslubuna söykənir, korporativ mədəniyyətin Asiya tipli və iyerarxiyalı piramida prinsipinə görə təşkil edilmiş dövlət idarəçiliyinin çoxsəviyyəli sistemini əks etdirir [5].

Qeyd etmək lazımdır ki, Avropada dövlət sektorunda kifayət qədər innovasiyalar tətbiq edilməkdədir. Lakin tədqiqatlar göstərir ki, özəl sektorla müqayisədə dövlət sektorunda innovasiyaların tətbiqi nisbətən geri qalır. Avropada dövlət sektorunda innovasiyaların sistematik olaraq ölçülməsi həyata keçirilərək mövcud problemlər, boşluqlar müəyyənləşdirilməyə çalışılır. Bu istiqamətdə, xüsusi olaraq iki layihə diqqəti cəlb edir: Şimal Ölkələrində Dövlət Qulluğunda İnnovasiyaların Ölçülməsi və NESTA layihələri.

Birinci layihə Danimarka, Finlandiya, İsveç, Norveç və İslandiyanı əhatə etməklə 2012 mərkəzi, bölgə və yerli idarəetmə orqanları üzrə həyata keçirilmişdir.

Layihənin məqsədi dövlət sektorunda innovasiya ilə bağlı məlumat toplamaq, həmin məlumatlar əsasında müəyyən bir çərçivə

işləmək olmuşdur. Layinin yekunu olaraq belə qənaətə gəlinmişdir ki, innovasiya ilə bağlı əsas hərəkətverici qüvvə idarəetmə, ən əsas əngəl isə maliyyə ilə bağlıdır [6].

NESTA layihəsi üzrə aparılmış araşdırmaların nəticəsi olaraq dövlət qurumlarında innovasiya səviyyəsini ölçmək üçün alətlər müəyyənləşdirilmiş və qurumların istifadə edə biləcəkləri innovasiya həcminə hesablanan diaqnostik qiymətləndirmə təklif edilmişdir. Layihəyə görə, diaqnostik qiymətləndirmə, həmçinin qurumların innovasiya qabiliyyətlərinin dəyərləndirilməsi və inkişaf etdirilməsini təmin edəcəkdir [7].

Azərbaycanda da dövlət idarəetmə sahəsində aparılan islahatlar çərçivəsində innovasiyaların tətbiqinə geniş yer verilir. İdarəetmədə operativliyin, şəffaflığın, vətəndaş məmnuniyyətinin təmin olunmasında innovasiyalar mühüm rola malikdir. Həmçinin innovasiyaların tətbiqi dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyinin artırılmasında da vacib məqamlardandır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında dövlət idarəetməsində innovasiyaların tətbiqi ilə bağlı ölkə prezidenti tərəfindən bir sıra fərman və sərəncamlar imzalanmış, həmçinin dövlət proqramları, fəaliyyət planları və s. təsdiq edilmişdir. Məhz bütün bunlar dövlət qulluğunda yeni metodların tətbiqi işinin sürətləndirilməsi, idarəetmədə informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə dövlət idarəçiliyinin müasir tələblər səviyyəsində qurulmasına xidmət edir.

## İdarəetmədə elektron xidmətlərin tətbiqinin dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyinin artırılmasında rolu

Təhlillər göstərir ki, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin elektronlaşdırılması dövlət qulluğunda səmərəliliyin artırılmasında çox mühüm rol oynayır. Bu isə, dövlət orqanları, inzibati bürokratiya ilə vətəndaşlar arasında yeni münasibətlərin formalaşmasına zəmin yaradır. İnnovativ xidmətlərə keçid şəffaflığın təmin edilməsi, süründürməçilik hallarının aradan qaldırılması, vətəndaşlarla dövlət strukturları arasında zaman itkisinə səbəb olan canlı əlaqənin minimuma enməsi ilə nəticələnir. Sosial innovasiyalar respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün prioritet vasitə hesab edilir. İnnovativ xidmətlərin sosial sferada miqyası və onlardan istifadə edən vətəndaşların sayı artdıqca şəffaflıq da artır [8].

Azərbaycanda idarəetmədə elektron xidmətlərin tətbiqi ilə bağlı işlərin sürətləndirilməsində 2011-ci il mayın 23-də "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” [9] imzalanmış Prezident Fərmanının mühüm rolu olmuşdur. Fərmanda göstərilir ki, modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruridir.

Fərmanın icrası nəticəsində, elektron xidmətin təkmilləşdirilməsi məqsədi ilə dövlət orqanlarının, eləcə də elektron imza xidmətindən istifadə məqsədi ilə müraciət edən hüquqi və fiziki şəxslər elektron imza ilə təmin edilmiş, dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin aparılmasının təmin edilməsi məqsədi ilə zəruri tədbirlər həyata keçirilmiş, dövlət orqanlarının elektron xidmətlərindən “bir pəncərə” prinsipi əsasında istifadənin təşkili məqsədilə “elektron hökumət” portalı yaradılmış, dövlət qulluqçularının informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması məqsədi ilə tədris kurslarının təşkili istiqamətində zəruri tədbirlər görülmüşdür.

Atılan bu addımlar sonrakı mərhələdə dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyin artırılmasında mühüm rol oynamışdır.

İdarəetmədə elektron xidmətlərin tətbiqi istiqamətində ən mühüm addımlardan biri e-hökumətin qurulmasıdır. Hazırda bu istiqamətdə xeyli işlər görülmüş, o cümlədən e-hökumət portalı yaradılmışdır.

E-hökumət portalında yerləşdirilmiş e-hökumətin əhəmiyyətini əks etdirən aşağıdakı müddəalar onun ümumilikdə dövlət idarəetməsində, həmçinin dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması sahəsindəki rolunu ortaya qoyur:

– Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;
– Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
– İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi;
– Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi;
– İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması [10].

Qeyd edək ki, e-hökumət elektron idarəetmənin tərkib hissəsi olaraq idarəetmədə vətəndaşların iştirakını təşviq etmək məqsədilə hökumətin, vətəndaş cəmiyyətinin, siyasi institutların İKT-dən istifadə etməsidir. Həmçinin e-hökumət səmərəli idarəçiliyin təmin olunmasının mühüm vasitəsidir. Elektron hökumət elektron idarəetmənin alt sistemi kimi nəzərdən keçirilə bilər [11].

Göründüyü kimi, e-hökumətin tətbiqi dövlət qulluğunda innovativ yenilik olmaqla, səmərəli fəaliyyətin təşkilinə, həmçinin keyfiyyətli xidmətin, şəffaflığın, operativliyin təmin olunmasına şərait yaradır. Bu da öz növbəsində vətəndaş məmnuniyyətini təmin edir.

İdarəetmədə elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş iki Fəaliyyət Planı - həm “Azərbaycan Açıq hökumətin təşviqinə dair 2012-2015- ci illər üçün, həm də “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın [12] da mühüm əhəmiyyəti olmuşdur. Qeyd edək ki, Milli Fəaliyyət Planlarında açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi məsələləri yer almışdır. Fəaliyyət planlarına əsasən reallaşdırılan elektron xidmətlərin təkmilləşdirilməsi dövlət qulluğunda idarəetmənin şəffaflığı, həmçinin dövlət qulluqçularının peşə fəaliyyətlərinin səmərəliliyinin artırılmasında mühüm rola malikdir.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında da idarəetmədə innovasiyaların tətbiqi ilə bağlı mühüm məsələlər öz əksini tapmış və reallaşdırılmaqdadır. Konsepsiyanın “Müasir dövrümüzün əsas çağırışları” bölməsində qeyd edilir: “Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın “müsbət yüklü” effektidir və getdikcə daha

çox hər bir ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir” [13].

Hazırkı mərhələdə dövlət idarəetməsi sahəsində davam etdirilən islahatların əsas qayəsini vətəndaşların məmnunluğunun təmin edilməsi, insan faktorunun əsas götürüldüyü müasir idarəetmə modelinin formalaşdırılması təşkil edir.

Qurulan yeni modeldə “dövlət qulluğu” anlayışı “cəmiyyətə, xalqa qulluq” mənasını ifadə edir, vətəndaşla məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzi formalaşdırılır. Əhaliyə dövlət xidmətlərinin istehlakçısı kimi, onun məmnunluq səviyyəsinə isə dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi meyarı kimi yanaşılır. Qiymətləndirmə və nəzarət sistemində də müvafiq dəyişikliklər edilir, ictimai rəy, şəffaflıq, çeviklik, xidmətlərin göstərilməsində keyfiyyət, fasiləsizlik ön plana keçir. Beləliklə, qlobal inkişafın müasir meyilləri və milli-tarixi dövlətçilik ənənələrinə əsaslanan islahatlar nəticəsində dövlət xidmətlərinin təqdim olunmasının forma və üsulları müntəzəm olaraq təkmilləşdirilir, dövlət qulluğu peşəkar kadr korpusundan ibarət mühüm sosial-hüquqi mexanizmə çevrilir [14].

27 oktyabr 2018-ci il tarixdə “Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Fərman [15] da dövlət qulluqçularının peşə fəaliyyətində səmərəliliyinin yüksəldilməsində innovasiyaların tətbiqi ilə bağlı mühüm addım hesab edilməlidir. Belə ki, Fərmanla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün “Elektron sənəd dövriyyəsi sistemi” yaradılmışdır. Həmçinin Fərmanda dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinin təmin edilməsi məsələsi də öz əksini tapmışdır.

## Dövlət qulluğunda ASAN Xidmət innovasiyası

Azərbaycan Respublikasında dövlət idarəetməsinin müasirləşdirilməsi, şəffaflığın təmin edilməsi və bu sahədə innovasiyaların tətbiq edilməsi istiqamətində atılmış addımlar sırasında Prezident tərəfindən imzalanmış fərmanla 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması [16] xüsusi qeyd edilməlidir. Agentliyin yaradılmasında əsas məqsəd dövlət orqan-larının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsindən ibarət olmuşdur.

Agentliyin nəzdində ASAN xidmət innovasiyası tətbiq olunmuşdur. ASAN Xidmət dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin etməklə idarəetmədə səmərəliliyin yüksəldilməsində mühüm rol oynamaqdadır.

Agentlik mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət qurumları) əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi həyata keçirilir [17].

Qeyd etmək lazımdır ki, ASAN Xidmət innovasiyasının tətbiqi ilə aşağıdakı məqsəd-

lərə nail olunması istiqamətində ciddi nəticələr əldə edilmişdir: vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılması [18].

Qeyd etmək lazımdır ki, ASAN xidmətin dövlət qulluğunda səmərəliliyin artırılmasındakı innovativ rolu müxtəlif beynəlxalq qurumlar tərəfindən də təsdiqlənməkdədir. Məsələn, 2014-cü ildə qlobal miqyaslı konsaltinq və audit şirkəti olan "Pricewaterhouse Coopers" (PwC) tərəfindən dünyanın 18 iri şəhərində aparılmış "Dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi mərkəzinin müqayisəli təhlili" adlı araşdırmasına əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər. Aparılan araşdırma zamanı sosial innovasiyaların operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və həmçinin dörd qiymətləndirmə meyarı (xidmətlərin əlyetərliliyi, rahatlıq, növbələrin idarə olunması, əks-əlaqə) nəzərə alınıb. "ASAN xidmət" dünyada ilk üçlüyə daxil olub [19].

Bundan başqa, 26 iyun 2015-ci il tarixində Kolumbiyanın Medellin şəhərində Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətlərinin göstərilməsi sahəsində qaliblərin mükafatlandırılması mərasimində "ASAN xidmət", "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında ən yüksək 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub. Forum vasitəsi ilə "ASAN xidmət" modelinin uğurlu təcrübəsinin dünyanın müxtəlif ölkələrində tətbiqi təşviq olunub [20].

Azərbaycan Respublikasında dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində innovativ həllərin tətbiqi ilə bağlı dövlət siyasətinin tərkib hissəsi olaraq 14 mart 2018-ci il tarixdə Prezident İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Fərmanına [21] əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılmışdır.

Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

**Nəticə**

Göründüyü kimi, idarəetmədə innovasiyaların tətbiqi prosesi davamlı xarakter kəsb edir. Burada məqsəd dövlət qulluğunun daha da səmərəli olması, vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Bu istiqamətdə Azərbaycanda atılan addımlar xüsusilə diqqəti cəlb edir. İdarəetmə sahəsində İKT-nin, innovasiyaların davamlı şəkildə tətbiqinə yaradılan şərait müstəsna əhəmiyyətə malikdir. Ölkədə idarəetmə sahəsində innovasiyaların tətbiqi ilə bağlı həm normativ, həm də institusional islahatlar aparılır. Normativ islahatlar çərçivəsində bir-birini tamamlayan və islahatların davamlılığını təmin edən fərmanlar, sərəncamlar imzalanır, dövlət proqramları, strategiyalar və s. qəbul edilir. Bunların əsasında dövlət idarəetməsi sahəsində fəaliyyətlər, xidmətlər təkmilləşdirilir, dövlət qulluqçularının peşə fəaliyyətində səmərəlilik artır və sonda bütün bunlar vətəndaşlara keyfiyyətli xidmət göstərilməsi ilə nəticələnir.

İnstitusional islahatlar da eyni templə davam etdirilir. Ölkədə yaradılmış dünyada analoqu olmayan innovasiya-ASAN Xidmət artıq beynəlxalq miqyasda ciddi maraq doğur-

muşdur. Ümumiyyətlə dövlət səviyyəsində institusional sahədə həyata keçirilən innovativ fəaliyyət idarəetmənin müasir tələblər səviyyəsində qurulması, şəffaflığın artırılması və vətəndaş məmnunluğuna nail olunmasında müstəsna əhəmiyyətə malik olmaqla mühüm uğurlarla müşayiət olunmaqdadır.

Bütün bunlar innovasiyaların tətbiqinin dövlət qulluğunda peşə fəaliyyətinin səmərəliliyinin artırılmasındakı əhəmiyyətini ortaya qoyur. Ölkədə bu istiqamətdə atılan addımlar dövlət qulluğu sisteminin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat:**


1. ybd.dergi.comu.edu.tr/.../avrupa-da-kamu-sektorunde-inova
www.inovasyon.org/pdf/MA.Kamuda.Inovasyon.pdf
3. Paul Cunningham ve Aikaterini Karakasidou, Innovation in the Public Sector, INNO POLICY Trendchart Policy Brief No. 2, 2009, s. 6-7.
4. United Nations E-Government Survey 2014: E-Government for the Future We Want. New York, 2014 - http://u npan3.u n.o rg/ego vkb/Por tals/egovkb /Documents/ un/2014-Survey/E-Gov_Comp lete_Survey-2014.pdf
5. www.stj.sam.az/.../sosial-innovasiya-siyasəti-mövcud-modellər-və-azərbaycan-nümunəs
6. Bloch, Carter (2011), Measuring Public Innovation in the Nordic Countries (MEPIN), Danish Centre for Studies in Research and Research Policy: Aarhus.
7. https://www.researchgate.net/publication/306038250_Avrupa%27da_Kamu_Sektorunde_Inovasyon_ve_Yenilikci_Yontemler
8. http://www.stj.sam.az/post/sosial-innovasiya-siyas%C9%99ti-m%C3%B6vcud-modell%C9%99r-v%C9%99-az%C9%99rbaycan-n%C3%BCmun%C9%99si
9. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 23 may, 2011-ci il
10. https://www.e-gov.az/az/content/read/2
11. Chesbrough H.Open Innovation: The New Imperative for Creating and Profiting from Technology. Harvard Business School Press, 2003. s.2
12. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 27 aprel 2016-cı il
13. "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərman ilə təsdiq edilmişdir - http://www.president.az/files/future_az.pdf
14. http://www.asan.gov.az/az/media/news/idareetmede-mueasir-islahatlarin-esas-istiqametleri-seffafliq-asan-xidmet-vetendas-memnunlugu
15. Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 oktyabr 2018
16. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 13 iyul 2012-ci il.
17. http://vxsida.gov.az/az/page/agentlik-haqqinda
18. http://www.asan.gov.az/az/about
19. http://www.stj.sam.az/post/sosial-innovasiya-siyasəti-mövcud-modellər-və-azərbaycan-nümunəsi
20. "ASAN xidmət" BMT-nin mükafatı ilə təltif edildi /27 iyun 2015/ - http://www.asan.gov.az/az/content/view/249/2644#.Vg6CVPntlBd
21. Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 14 mart 2018

***Açar sözlər:*** *Dövlət qulluğu, dövlət qulluğunda innovasiya, idarəetmədə elektron xidmətlər, e-hökumət*

**Elvin Azizbayov**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*
*Head of the Department of Control for Intelligent Systems*
*Associate Professor*

**Gulshan Sheydayeva**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*
*Department of Control for Intelligent Systems*
*Master's student*

# APPLICATION OF INNOVATIONS IN IMPROVING THE PROFESSIONALISM OF CIVIL SERVANTS

## ABSTRACT

The application of innovations has an exceptional role in increasing the efficiency of civil servants' activities. Currently, innovation manifested in all fields due to the influence of globalization does not bypass the civil service. However, innovation in public service, although a critical issue, needs to be studied more. In most countries, many international and national programs related to the transition to an innovative society and electronic government are being developed and implemented.

In Azerbaijan, the issue of applying innovations in the sphere of civil service is of great importance, and in this direction, serious normative and institutional measures are implemented. The digitalization of services provided to the population by state institutions ensures the improvement of the quality of services provided to citizens, as well as transparency. All these serve to speed up the application of new methods in the civil service, establish state administration at the level of modern requirements with the application of innovations, and increase the efficiency of civil servants in their professional activities.

***Keywords:*** *civil service, innovation in public service, electronic services in management, e-government*

**Эльвин Азизбеков**

*Заведующий кафедрой Управления интеллектуальными системами
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики, доцент*

**Гюльшан Шейдаева**

*Магистрант кафедрой Управления интеллектуальными системами
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики*

# ПРИМЕНЕНИЕ ИННОВАЦИЙ В ПОВЫШЕНИИ ПРОФЕССИОНАЛИЗМА ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ

## РЕЗЮМЕ

Применение инноваций играет исключительную роль в повышении эффективности работы государственных служащих. В настоящее время инновации, проявляющиеся во всех сферах в связи с влиянием глобализации, не обходят стороной и государственную службу. Однако инновации в государственной службе, хотя и являются очень важным вопросом, недостаточно изучены. В большинстве стран мира разрабатывается и реализуется ряд международных и национальных программ, связанных с переходом к инновационному обществу и электронному правительству.

В Азербайджане большое значение имеет вопрос применения инноваций в сфере государственной службы и в этом направлении реализуются серьезные нормативные и институциональные меры. В частности, электронизация услуг, предоставляемых населению государственными учреждениями, обеспечивает повышение качества услуг, предос-тавляемых гражданам, а также обеспечение прозрачности. Все это служит ускорению внедрения новых методов на государственной службе, налаживанию государственного управления на уровне современных требований с применением нововведений, повышению эффективности государственных служащих в их профессиональной деятельности.

***Ключевые слова:*** *государственная служба, инновации на государственной службе, электронные услуги в управлении, электронное правительство*

DOI: 10.30546/2309-1347.2024.1312

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**САБИРА БАГИРОВА**

**И.о. доцента кафедры Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по физико-математическим наукам**

*e-mail sofnene@bk.ru*

**ОЛЬГА МУХТАРОВА**

**Доцент кафедры Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по физико-математическим наукам**

*e-mail: ovmukhtarova@mail.ru*

## ОБ ОСНОВНЫХ ПОДХОДАХ И КРИТЕРИЯХ ОЦЕНКИ ДЕЯТЕЛЬНОСТИ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ

Сравнительно быстро меняющиеся политические и социально-экономические условия современности ставят перед государственным управлением (службой) новые задачи и цели. Достижение этих целей и задач требует от государственных органов и государственных служащих все более качественной деятельности и улучшение методов управления. Важными аспектами оценки в этом направлении являются: эффективность, профессиональная компетентность, результативность, а также выявление их сильных и слабых сторон. В связи с этим Кабинетом Министров по Указу Президента Азербайджанской Республики Ильхамом Алиевым от 6 апреля 2021 года были подготовлены «Правила оценки работы государственной службы». Согласно Указу задачи должны соответствовать деятельности и служебным функциям госслужащего, а цели – чётко определены, измеримы и достижимы [1]. Степень важности задач и критерии оценки определяются в процентах со стороны руководителя. Здесь следует отметить, что правильное формирование кадровой политики является крайне необходимым для верного выбора соискателя, что позволяет: 1) экономить время при найме; 2) формировать мотивационные цели; 3) использовать кадровые резервы; 4) создавать условия труда; 5) проводить тренинги для личностного роста сотрудника. Методы оценки при этом допускают как качественные, так и

количественные оценивания сотрудника [2]. К качественным методам оценивания относятся:

- фактические достижения, с учетом просчёта и ошибок;
- сравнение с эталонными показателями;
- оценка качества выполнения;
- проведение групповой дискуссии (беседа с экспертами);
- учитывание мнения сотрудников.

К количественным методам оценивания относятся:

- выставление баллов по соответствующей шкале;
- отбор сотрудников по баллам;
- собеседования с независимыми экспертами (свободная бальная система.

Помимо этого, конечно же, учитываются управленческие навыки, умение решать нестандартные задачи и принятия решений. Более конкретно, с учётом вышеизложенного, деятельность государственного служащего оценивается по следующим критериям: профессиональные знания, отношение к служебным должностям, способность анализировать и решать проблемы, креативность и инициативность, обмен опытом, умение работать в команде. Оценка за задание определяется путем умножения важности задания на индивидуальную оценку по формуле:

$$T = t_1 \times MD_{t_1} + t_2 \times MD_{t_2} + \ldots\ldots + t_n \times MD_{t_n},$$

где T - общий балл по уровню выполнения заданий, $t_1$ - оценка за первое задание, $MD_{t_1}$ - степень важности первого задания в процентах, $t_2$ - оценка за второе задание, $MD_{t_2}$ - степень важности второго задания и т.д.

Работа руководителей оценивается по следующим критериям: прогнозирование, управление, способность влиять и вдохновлять внутри команды, навыки командообразования. При оценке критериев оценка умножается на степень значимости критерия и для каждого критерия определяется индивидуальная цена. Общая цена определяется по формуле:

$$M = m_1 \times MD_{m_1} + m_2 \times MD_{m_2} + \ldots + mn \times MD_{m_n},$$

где M - общий балл по критериям, $m_1$ - величина, приведённая по первому критерию, $MD_{m_1}$ - степень значимости первого критерия в процентах, $m_2$ - величина, приведённая по второму критерию, $MD_{m_2}$ - степень значимости второго критерия в процентах и т.д. Суммарный балл по уровню выполнения задач определяется следующей формулой :

$$YQ = T \times 50\% + M \times 40\% + AI \times 10\%,$$

где YQ – итоговая оценка служебной деятельности государственного служащего, T – общий балл по уровню выполнения заданий, M – общий балл по критериям, AI – цена трудовой дисциплины.

После выставления окончательной цены проводится собеседование с государственным служащим, где обсуждается результат оценивания [3]. Результат оценки вносится в Реестр государственных служащих Азербайджанской Республики.

Современные методики оценивания сделали не менее актуальными и периодические экзамены-аттестации, которые позволяют оценить актуальное состояние компетенций и знаний государственного служащего.

Проводимые исследования относительно подходов и критериев оценки деятельности государственных служащих показывают, что качество и компетентность государственных служащих могут также быть оценены не только в вышеизложенной плоскости, но также в плоскости управления талантами. Цель управления таланта-

ми – обеспечить приток талантов, поскольку они являются основным ресурсом [4]. На сегодняшний день управление талантами является одним из приоритетных направлений развития системы государственной службы. В 2015 году Австралийская комиссия по государственной службе выпустила документ – «Руководство по управлению талантами» [5]. Центральное место в вопросах определения таланта занимает критерий высокого потенциала-способность соискателя выполнять сложные , неоднозначные и масштабные задачи. Анализируя зарубежный опыт [6] можно сказать, что эффективная деятельность и способность адаптиро- ваться далее у сотрудников с талантами намного выше. С этой точки зрения выбор и методы оценки деятельности государственных служащих в системе управления талантами становится более актуальным.

Наблюдения показывают, что в республике самыми распространёнными методами оценки являются собеседование и тесты. Собеседование имеет субъективный и объективный характер, в процессе которого можно определить «проблемное поле» оцениваемого, уточнить уровень квалификации и профессионализма соискателя или сотрудника, дать необходимые рекомендации и коррекции. Тестирование проводится с учётом специфики деятельности органа власти. Исследования в этом направлении дают основание утверждать, что в целях усовершенствования тестов необходим уход от простых тестов, нужны ситуационные задачи для установления соответствия, ранжирования и установления значимости и прочее. Крайне важным здесь является применение единых критериев и подходов к оценке деятельности государственных служащих, стандартизация инструментов для масштабирования и сопоставления результатов оценки. Отметим ряд факторов, необходимых для повышения объективности и сопоставимости результатов оценки:

- не использовать общие методики оценивания;
- разработать методы оценки, которые содержат семантические подходы, анализ текстов, речи;
- создать ассессмент-центр (оценочный центр), профессиональные игры-симуляцию, информационную семантику;
- проводить отбор при помощи оценочных профилей для каждого государственного органа.

Ключевые критерии отборочного этапа можно определить следующим образом:

- валидность (соответствие задач профессиональной деятельности);
- доступность оценочных процедур;
- вариантификация (соответствие специфике оцениваемых);
- отчётность (конкретный госорган и цель учитываются);
- доступность и сопоставимость результатов оценки в различных аспектах;
- соблюдение полноты компетенций и полномочий относительно замещаемой должности.

На основе факторов и критериев следует составить матрицы-таблицы, элементами которой являются плюсы или минусы проведённых оценок для соискателей и сотрудников государственной службы. В соответствии с матрицей, применяемые методы и инструменты оценивания должны ориентироваться на использование в сфере государственной службы, другими словами необходимо разработать пакет оценивания компетенций и профессионально-личностных качеств следующего содержания:

- ✓ анкеты, позволяющие агрегировать результаты оценки кандидатов на все уровни должностей;
- ✓ учётная характеристика «критерия высокого потенциала»;
- ✓ нестандартные задачи на проверку понимания установок государствен-

ной службы (для кандидатов на должность «специалиста» и руководителя);
- ✓ видео материалы на проверку прогностических и стресс-устойчивых способностей (для кандидатов на должность руководителя).

В заключении можно отметить, что предложенная методика оценивания государственных служащих и соискателей позволят значительно облегчить задачи руководителей государственных органов, в значительной мере мотивировать сотрудников на лучший результат, а также помочь при отборе кандидатов на повышение должности. Рассмотренные критерии дают возможность дать оценку деятельности и эффективности государственного служащего.

**Литература**:


1. Dövlət qulluğu haqqında: [ Электронный ресурс]: закон № 926-IQ URL: http://www.e-qanun.az/framework/4481
2. “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında: [Электронный ресурс]: решение Каб.Мин. от 06.04.2021 №89
   URL: http://e-qanun.az/framework/47192
3. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında: [Электронный ресурс]: решение Каб.Мин. от 23.11.2018 №739 URL: az/ framework/47192
4. Борщевский Г.А. Оценка эффективности работы государственных гражданских служащих // Управленческие науки. – 2012-№ 2 (3). – С.8-15.
5. Армстонг М. Практика управления человеческими ресурсами. 8-е издание. СПб: Питер, 2004.
6. APS Talent Management Guide. https//www.aps.gov.au/talent-management-guide.
7. Кантровиц Т., Тузински К., Рейнс Дж. Отчет о глобальных тенденциях в оценке персонала за 2018 год // SHL GATR, 2018.


***Ключевые слова:*** *государственные служащие, методы оценки, матрица оценки, кадровая политика, управление талантами*

**Səbirə Bağırova**

*Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin
idarə olunması kafedrasının dosent əvəzi, fizika-riyaziyyat
elmləri üzrə fəlsəfə doktoru*

**Olqa Muxtarova**

*Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin
idarə olunması kafedrasının dosenti,
fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru*

# ƏSAS YANAŞMALAR VƏ MEYARLAR HAQQINDA DÖVLƏT QULLUQÇULARININ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## XÜLASƏ

Məqalədə dövlət qulluqçularının fəaliyyətinin həm keyfiyyət və həm də kəmiyyət baxımından qiymətləndirilməsinin əsas yanaşma və kriteriyaları müzakirə olunur. Dövlət qulluğu işinin inkişafı üçün istedadların idarə olunması və dövlət qulluqçularının səriştələrinin, peşəkar və şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi paketi perspektivli istiqamətlərdən biri kimi qeyd edilir.

***Açar sözlər:*** *dövlət qulluqçuları, qiymətləndirmə metodlarını, qiymətləndirmə matrisi, kadr siyasəti, istedadların idarə olunması*

**Sabira Bagirova**

*Associate Professor of the Department of Control for Intelligent Systems of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, Ph.D. in Physics-Mathematics Sciences*

**Olga Mukhtarova**

*Associate Professor of the Department of Control for Intelligent Systems of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, Ph.D. in Physics-Mathematics Sciences*

# ABOUT THE MAIN APPROACHES AND CRITERIA PERFORMANCE EVALUATION OF CIVIL SERVANTS

## ABSTRACT

The article discusses the main approaches and criteria for qualitative and quantitatively assessing civil servants' performance. The package of talent management and evaluation of civil servants' competencies and professional and personal qualities for developing civil service work is noted as one promising direction.

***Keywords:*** *civil servants, evaluation methods, evaluation matrix, personnel policy, talent management*

DOI: 10.30546/2309-1347.2024.1313

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**HILALA JAFAROVA**

**Associate Professor of the Department of Control for Intelligent Systems of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Mathematics**

*e-mail: hilala_jafarova@unec.edu.az*

**ASAD RASULOV**

**UNEC, International Master's and Doctorate Center**

*e-mail: asad_rasulov@unec.edu.az*

# COMPARISON OF THE EFFECTIVENESS OF RESNET AND INCEPTION NEURAL NETWORK ARCHITECTURES IN PLANT CLASSIFICATION

## Introduction

Machine learning and deep learning are fast-growing areas of artificial intelligence that have become an integral part of our daily lives. They have found applications in fields as diverse as computer vision, natural language processing, medicine, autonomous driving, and biology. One of the areas where machine learning and deep learning are delivering significant benefits is in plants.

Image recognition is an important tool when analyzing and classifying plants. Machine learning and deep learning approaches can develop models that can automatically recognize and classify plants based on their external characteristics, such as leaf shape, flower and stem structure

The branch of artificial intelligence that deals with processes and algorithms that computers can learn from data and experience is machine learning Unlike traditional design, where the designer defines rules explicitly, machine learning enabling systems to independently recognize patterns and make predictions based on training data It becomes strategic.

The basic idea of machine learning is to use algorithms that can learn from data and adjust their predictions based on experience. The following types of tasks have been demonstrated in machine learning.

- **Supervised learning:** the algorithm is trained on the training data, where each pattern is recorded (example: classification of images);

- **Unsupervised learning:** the algorithm is trained on raw data and searches for patterns (example: data collection);
- **Reinforcement learning:** the agent interacts with the environment and receives rewards for actions performed (example: training a toy robot).

Deep learning, an important part of machine learning uses deep neural networks to solve complex problems. Deep neurons consist of multiple neurons that can extract and analyze objects at various levels of abstraction. This allows them to identify complex patterns in data and excel in related tasks such as visualization, text analysis, and speech recognition.

In botany, deep learning has become an important tool for automated plant analysis and plant trait analysis Deep learning models are trained on large numbers of plant images and can identify plant species and species exactly.

The popularity of machine learning and deep learning in plant science is increasing every year, more research and publications are devoted to this topic and let's take a look at the many existing studies that demonstrate the consumption of artificial intelligence use to identify plants.

In [3] modern deep learning approaches for plant identification and disease classification are divided into multiple models, multiple labels, multiple results, and multiple tasks, based on existing methods which can use backbone CNNs Generalized Stacking is analyzed so CNN (GSMo) generating multiple features. CNN proposed for an alternative model.

In [5] provides a detailed overview of plant image analysis methods including deep learning applications. It covers various aspects of plant image analysis, such as species classification, disease diagnosis and growth analysis.

In [6] explores convolutional neural networks (CNNs) to detect unsupervised representations of plant traits collected at the Royal Botanic Gardens, Kew, England. A visualization technique based on deconvolution networks (DN) is used to gain insights into the selected features of the CNN model.

In this [7] learn useful leaf features directly from the raw representations of input data using Convolutional Neural Networks (CNN), and gain intuition of the chosen features based on a Deconvolutional Network (DN) approach.

**Methodology**

This section provides a mathematical overview of two popular deep neural network architectures: ResNet and Inception. We will describe the basic mathematical concepts underlying them, as well as the structure of the models themselves.

The main idea of ResNet (Residual Network) is to use "residual blocks" to train deep neural networks without the vanishing gradient problem. Each residual block represents connected layers that allow information about the original data to be preserved.

Mathematical Rationale: Let x denote the input data to the residual block. However, instead of directly predicting the output, ResNet predicts the difference between the output of the block and the input x, which is denoted as F(x). Formally, $F(x) = H(x) - x$, where H(x) is the predicted output of the block. The predicted difference and the input data are then summed: the output of the block is $x + F(x)$.

The ResNet structure includes many residual blocks connected in series. Blocks can be improved by adding convolutional layers, activation functions, and batch normalization layers. The final model is a series connection of blocks.

The Inception architecture (GoogLeNet), presented in the Google study, uses modules called "Inception modules" that allow the model to learn different filters and characteristics of the input data simultaneously. This promotes

more efficient training and allows the model to extract a wider range of features from images.

Mathematical rationale: The Inception module includes several parallel convolution and pooling operations. The results of these operations are concatenated, allowing the model to extract different characteristics from data at different scales.

The structure of the Inception model consists of sequentially connected Inception modules. These modules can be configured with different numbers of layers and filters.

### Application of Models

This part provides information about the technologies and tools that were used to conduct research on image recognition in botany. Our approach includes several key steps, and for each of them we used specific technologies.

Technologies used in collecting and preparing data: Python, OpenCV, NumPy. The study used a dataset of images of botanical objects such as rose, dandelion, tulip, sunflower and daisy flowers. The Python programming language in combination with the OpenCV and NumPy libraries was used to read images, pre-process them and create a dataset. This step included tasks such as scaling, resizing, and normalizing images.

To train image recognition models, two popular neural network architectures were chosen: ResNet and Inception. The Keras library, which runs on top of the TensorFlow framework, was used to create and configure these models. In addition, ImageDataGenerator, a data augmentation tool that can increase the number of training examples by applying various transformations to images such as rotation, flipping, and resizing, was also used. This helped improve the generalization ability of the models.

The Matplotlib library was used to evaluate the accuracy of the models and generate plots. We evaluated the accuracy of our models on a test dataset and created graphs showing the evolution of accuracy and loss over time during training.

After successful training, the models were saved into Keras files (with the keras extension). This makes it easy to recover trained models for future use, both in this article and in future studies.

### Comparison of Accuracy of Resnet and Inception Models

In this section of the article, we will compare two different neural networks: ResNet and Inception in the task of recognizing images of botanical objects. For clarity, we will provide graphs of the accuracy of each model over training time.

The first model during training was ResNet. From the training accuracy graph (see Figure 1), it can be seen that the accuracy of ResNet increases as the number of epochs increases up to a certain point. However, then, as the number of layers increases, the quality of the convolutional network begins to decrease.

Next in line was the Inception model. Starting from the first training epochs (see Figure 2), the Inception model achieved high accuracy and maintained it throughout training. This indicates the high efficiency of Inception in the task of recognizing botanical objects.

Inception model appropriately designed initialization modules with a large array of images with wide variation in the content of the represented image are incorporated into convolutional neural networks to reduce computational costs.

### Conclusion

Comparing the training accuracy of two models - ResNet and Inception, it is clear that Inception significantly outperforms ResNet. It achieves high accuracy almost from the very beginning of training and maintains it throughout the entire process, while ResNet shows improvement in accuracy over time




**Fig. 1.** ResNet accuracy plot




**Fig.2.** Inception accuracy plot

until a certain point, and then accuracy declines. The accuracy of the ResNet model at the end of training was below 0.80, under the same conditions the accuracy of Inception was about 0.90. It is also worth noting that the training time for ResNet was 7 hours, while Inception took 4.5 hours to train.

Based on these results, a suitable architecture can be selected to solve the problem of plant species classification through image recognition. Python, OpenCV, NumPy to conduct research on image recognition in botany in the proposed work. The research used a dataset of images of botanical objects

such as roses, dandelions, tulips, sunflowers and daisies. The Python programming language along with the OpenCV and NumPy libraries were used to read the images, preprocess them, and create the dataset. The Keras library, which runs on top of the TensorFlow framework, was used to create and configure these models. In addition, ImageDataGenerator, a data augmentation tool that can increase the number of training samples by applying various transformations to images such as rotation, translation, and resizing, was also used. This helped to improve the generalizability of the models.

**References:**


1. Alex Krizhevsky et al., “ImageNet Classification with Deep Convolutional Neural Networks” https://proceedings.neurips.cc/paper_files /paper/2012/file/c399862d3b9d6b76c843 6e924a68c45b-Paper.pdf
2. Ivan Vasilev et al., "Python Deep Learning", Packt Publishing Ltd, 2019 M01 16 - 386 pages, 2019.
3. Jianping Yao et al., Deep Learning for Plant Identification and Disease Classification from Leaf Images: Multi-prediction Approaches, 2023, https://doi.org/10.48550/arXiv.2310.16273
4. Laith Alzubaidi et al., Review of deep learning: concepts, CNN architectures, challenges, applications, future directions.”, Journal of Big Data volume 8, Article number: 53 (2021), https://journalofbigdata.springeropen.com /articles/10.1186/s40537-021-004448
5. S.Dutta Gupta, Yasuomi Ibaraki, Plant Image Analysis, Fundamentals and Applications, ImprintCRC Press, p.398, 2014, doi.org/10.1201/b17441
6. Sue Han Lee et al., Deep-Plant: Plant Identification with convolutional neural networks, The International Conference on Image Processing, 2015, https://doi.org/10.48550/arXiv.1506.08425
7. Sue Han Lee et al., How deep learning extracts and learns leaf features for plant classification, Pattern Recognition, Volume 71, November 2017, pp. 1-13, doi.org/10.1016/j.patcog.2017.05.015.


***Keywords:*** *machine learning, deep learning, image recognition, neural networks*

**Hilalə Cəfərova**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “İntellektual sistemlərin idarə olunması” kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru*

**Əsəd Rəsulov**

*UNEC, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi*

## BİTKİLƏRİN TƏSNİFATINDA RESNET VƏ INCEPTION NEYRON ŞƏBƏKƏ ARXİTEKTURALARININ SƏMƏRƏLİYİNİN MÜQAYISƏSİ

### XÜLASƏ

Təqdim olunan məqalə iki güclü neyron şəbəkə arxitekturasının, ResNet və Inception-ın hərtərəfli müqayisəli tədqiqini təqdim edir, onların bitki növlərinin təsnifatında tətbiqinə diqqət yetirir. Python kodu tətbiqlərindən istifadə edərək, bu tədqiqat dərin öyrənmə modellərinin əsasını araşdırır və botanika sahəsində təsnifat problemlərinin həllində onların effektivliyini araşdırır.

Müasir süni intellekt, maşın öyrənmə üsulları və dərin öyrənmə dövründə bitki növlərinin yarpaq formaları, rəngləri və kök strukturları kimi vizual atributlarına əsaslanaraq tanınması böyük əhəmiyyət kəsb etmişdir. ResNet və Inception, hər ikisi təsvirin tanınmasında öz şücaətləri ilə məşhurdur, bu sahədə hansı arxitekturanın üstün performans nümayiş etdirdiyini müəyyən etmək üçün dərindən araşdırılır.

Bu tədqiqat bu neyron şəbəkələri qurmaq, öyrətmək və qiymətləndirmək üçün çox yönlü və geniş istifadə olunan proqramlaşdırma dili olan Python-dan istifadə edir. Nəticələrimiz bitki növlərinin dəqiq təsnifatı üçün ən uyğun neyron şəbəkəsi arxitekturasının seçilməsi ilə bağlı dəyərli fikirlər təqdim edir və bu, təkcə botanika sahəsində deyil, həm də müxtəlif sahələrdə təsvirin tanınmasının daha geniş tətbiqlərindən faydalanır.

***Açar sözlər:*** *Maşın öyrənmə, dərin öyrənmə, təsvirin tanınması, neyron şəbəkələr*

**Хилала Джафарова**

*Доцент кафедры Управления интеллектуальными системами*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по математике*

**Асад Расулов**

*UNEC, Международный Центр Магистратуры и Докторантуры*

## СРАВНЕНИЕ ЭФФЕКТИВНОСТИ НЕЙРОННЫХ СЕТЕВЫХ АРХИТЕКТУР RESNET И INCEPTION В КЛАССИФИКАЦИИ РАСТЕНИЙ

### РЕЗЮМЕ

В статье представлено всестороннее сравнительное исследование двух мощных архитектур нейронных сетей – ResNet и Inception, с упором на их применение в классификации видов растений. Используя реализации кода Python, представленное исследование углубляется в суть моделей глубокого обучения и изучается их эффективность в решении проблем классификации в области ботаники.

В современную эпоху искусственного интеллекта, методов машинного обучения и глубокого изучения распознавание видов растений на основе визуальных признаков, таких как форма листьев, цвет и структура стебля, приобрело огромное значение. ResNet и Inception, известные своим мастерством в распознавании изображений, были тщательно изучены, чтобы определить, какая архитектура демонстрирует превосходную производительность в этой области. В исследовании используется Python, как универсальный и широко используемый язык программирования, для создания, обучения и оценки этих нейронных сетей. Наши результаты дают ценную информацию о выборе наиболее подходящей архитектуры нейронной сети для точной классификации видов растений, что принесет пользу не только области ботаники, но и более широким применениям распознавания изображений в различных областях.

***Ключевые слова:*** *машинное обучение, глубокое обучение, распознавание изображений, нейронные сети*

DOI: 10.30546/2309-1347.2024.1314

**İ Q T İ S A D İ Y Y A T**
**E C O N O M Y**

UOT 336.77

**YUSİF ZEYNALOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru**

*e-mail: yusifzeynal.@gmail.com*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN RESPUBLİKADA HƏYATA KEÇİRDİYİ AQRAR SİYASƏT VƏ İSLAHATLAR

Sosialist təsərrüfatçılıq sistemi ilə idarə olunan Azərbaycan iqtisadiyyatı ötən əsrin 70-ci illərinə qədər getdikcə tənəzzülə uğramış, elmin istehsalatdan ayrı mühitdə fəaliyyəti artıq reallığa çevrilmişdi. 1969-cu ildə Azərbaycan KP MK-nın iyul plenumunda Ulu Öndər Heydər Əliyevin birinci katib seçilməsi ölkə həyatında ciddi, pozitiv dəyişikliklərin əsasını qoydu. Məhz Ümummilli lider Heydər Əliyevin təkzibedilməz, inandırıcı arqumentləri, prinsipiallığı, inadkarlığı sayəsində 1970-ci ildə Sov. İKP MK-nin və SSRİ Nazirlər Sovetinin 23 iyul tarixli “Azərbaycan SSR–də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında” qərarı qəbul olundu.

Məlumdur ki, keçən əsrin 70-90-cı illərində Azərbaycanda kənd təsərrüfatının bütün sahələri inkişaf etmişdir və keçmiş Sovetlər İttifaqında pambıq mahlıcı, konyak, tütün, barama, meyvə-tərəvəz və konserv məhsulları ixrac edən ölkə olmuşdur. Qazanılmış bu uğurların əsasında Ümummilli Lider Heydər Əliyevin böyük idarəçilik qabiliyyəti və uzaqgörən iqtisadi siyasəti dayanırdı [6].

Həmin dövrü səciyyələndirən ölkə Prezidenti cənab İlham Əliyev qeyd edir: "Bütün dövrlərdə – 1970-ci illərdə, ondan sonra, 1990-cı illərdə Heydər Əliyevin ölkənin aqrar sahəsinə diqqət və qayğısı çox yüksək səviyyədə idi. O çox gözəl bilirdi ki, hər bir xalqın və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar sahə müstəsna rol oynayır. Müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər saldıqda görürük ki, ölkənin iqtisadi inkişafında, əhalinin həyat səviyyəsinin yüksəlməsində elmi təcrübəyə əsaslanmış aqrar siyasət olduqca böyük rol oynayır."

Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və idarəçiliyi sayəsində iqtisadiyyatın digər sahələri ilə yanaşı, kənd təsərrüfatı da 70-ci illərdən sonra təmərküzləşmə və regional ixtisaslaşma nəticəsində görünməmiş inkişaf tempinə çatmış və nəticədə pambıqçılıq, üzümçülük, meyvəçilik kimi ixracyönümlü sahələrdə məhsul istehsalı 3-4 dəfə, digər sahələrdə, məsələn, taxılçılıqda, heyvandarlıqda, quşçuluqda məhsul istehsalı isə ən azı 2 dəfə artmışdır. Azərbaycan kəndinin sosial siması dəyişmiş, xüsusən kənd əhalisinin real gəlirlərinin səviyyəsi Respublikanı ittifaq miqyasında öncül mövqeyə çıxara bilmişdi. Bu nəticələrin əldə olunmasında Ulu öndər

Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövlətinin iqtisadi siyasətinin böyük əhəmiyyəti və rolu olmuşdur. Ölkədə istər sahibkarlığın, istərsə də bütövlükdə milli iqtisadiyyatın formalaşması və inkişafında ən vacib məsələlərdən biri də aqrar sahədə qiymət mexanizminin düzgün qurulması və dövlətin qiymət siyasətidir. Qiymət siyasəti dövlətin ümumi iqtisadi siyasətinin başlıca tərkib hissəsi olub iqtisadi və sosial inkişafın son dərəcə vacib amillərdəndir [4].

Ümummilli Lider Heydər Əliyevin yüksək intellektual idarəetmə qabiliyyəti və bu sahədəki elmi uzaqgörənliyi, geniş dünyagörüşü, təcrübəsi və dərin zəkası, intellektual potensialının zənginliyi, həmçinin dərin, qlobal düşüncə tərzi Azərbaycandakı aqrar islahatların uğurunun uzunmüddətli inkişafının təməlini qoymuşdur.

Məlumdur ki, Azərbaycanda 1990-cı illə müqayisədə 1992-1995-ci illərdə ölkə iqtisadiyyatında gedən tənəzzüllə əlaqədar olaraq, taxıl istehsalı 1,5 dəfə, pambıq 2,0 dəfə, tütün 4,5 dəfə, tərəvəz 2,0 dəfə, üzüm 3,9 dəfə, çay yarpağı 3,3 dəfə, ət istehsalı 2,1 dəfə, süd istehsalı 1,2 dəfə aşağı düşmüşdür və malqaranın sayı 1,1 dəfə, qoyunların sayı 1,2 dəfə azalmışdır.

Uzun müddət yaradılmış istehsal və sosial infrastrukturları, xüsusilə meliorasiya və su təsərrüfatı sistemi, çoxillik əkmələr, üzüm və çay plantasiyaları dağılmaq dərəcəsinə çatmışdı. Torpaqların münbitliyinin qorunub saxlanması, xəstəlik və zərərvericilərə qarşı mübarizə, baytarlıq, seleksiya və heyvandarlıqda cins işinin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi işi praktiki olaraq dayandırılmışdı. Yeyinti və yüngül sənayc məhsulları istehsalı sahəsində də ağır vəziyyət yaranmışdı. Bütün bunların nəticəsində ölkə həm xarici, həm də daxili bazarda öz mövqeyini itirmişdi.

Kənd təsərrüfatı texnikası, gübrələr, pestisidlər və sair istehsal vasitələrinin respublikaya gətirilməsi ilbəil azalmış, islahatlar ərəfəsində ölkəyə əslində kənd təsərrüfatı texnikası gətirilməmişdi. 1991-ci illə müqayisədə 1994-cü ildə respublikaya gətirilən traktorların sayı 52,8 dəfə, kotanların sayı 48,3 dəfə, kultivatorların sayı 33,2 dəfə, dişli malaların sayı 2 dəfə azalmışdı. Aqrar islahatlar ərəfəsində mövcud texnikanın orta hesabla 90-95%-i istismar müddətini iki dəfə artıq başa vurmuş, köhnəlmişdi. Heyvandarlığın inkişafı üçün hər il 1 mln. tona qədər yem alınır, bitkiçilik üçün 20-40 min ton toxum gətirilirdi. Kənd təsərrüfatı müəssisələrinin maliyyə nəticələri getdikcə pisləşirdi. Ölkəyə kənd təsərrüfatı məhsulları idxalının miqdarı ildə 400 mln. ABŞ dollarına çatmışdı. Həmin dövr kənd təsərrüfatına kapital qoyuluşunun xüsusi çəkisi 14%-dən 1.97%-ə enmişdi. Beləliklə, 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi ildə orta hesabla 12% aşağı düşmüşdü [5].

Bununla belə köhnə iqtisadi sistemin dağılması və yeni sistemin formalaşdırılması üzrə heç bir tədbir görülmürdü. Ölkədə sənaye məhsulları ilə kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı tarazlıq pozulmuş, kəndin istehsal və sosial infrastrukturunun inkişafında ağır vəziyyət yaranmışdı. Praktiki olaraq məktəb, mədəniyyət, məişət xidməti və səhiyyə obyektlərinin tikintisi dayandırılmışdı. Əsas fondların köhnəlməsi sürətlənmiş, kənd təsərrüfatı və mal sənayesinin texniki təchizatı olduqca zəifləmişdi. İstehsal proseslərində elmi və texniki tərəqqinin nailiyyətlərinin tətbiqi demək olar ki, unudulmuşdu. Ümumiyyətlə, islahatlar ərəfəsində kənd təssərrüfatında durum aşağıdakı xarakterik problemlərlə səciyyələnirdi:

– bitkiçilikdə və heyvandarlıqda genofond sıradan çıxır, elit və sənaye toxumçuluğunun, eləcə də cins-damazlıq təsərrüfatlarının maddi-texniki bazası zəifləyirdi;
– Azərbaycan ərzaq məhsulları ixrac edən ölkədən idxal edən ölkəyə çevrilir,

ölkə əhalisinin çox hissəsinin ərzaq məhsullarına minimum istehlak tələbatı beynəlxalq təşkilatların və ayrı-ayrı ölkələrin humanitar yardımları hesabına ödənilirdi;

– uzun müddət formalaşmış dövlətlərarası istehsal-iqtisadi və elmi-texniki əlaqələr pozulmuş, yeni daxili və xarici iqtisadi münasibətlərin yaradılmasında ləngimələrə yol verilirdi;

– ölkədə ümumi böhran vəziyyətinin mövcudluğu, qeyri-sabitlik və hakimiyyət uğrunda çəkişmələr və bu vəziyyətin uzun müddət davam etməsi nəticəsində əsas növ kənd təsərrüfatı məhsulları üzrə istehsalın ümumi həcminin azalması və işsizliyin artması davam edirdi;

– bank sisteminin demək olar ki, dağılması maliyyə və kredit resurslarındakı ciddi çatışmazlıq 1992-1994-cu illərdə inflyasiyanın həddən artıq surətlə artmasına şərait yaradırdı;

– ərzaq məhsulları istehsalının artırılmasında və istehsalın iqtisadi səmərəliliyin yüksəldilməsində elmin roluna əhəmiyyət verilmirdi.

Göründüyü kimi, iqtisadiyyatda, o cümlədən aqrar-sənaye kompleksində mövcud olan vəziyyət və bu vəziyyətdən çıxmaq üçün tələb olunan tədbirlər aqrar sahədə əsaslı dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir [8].

Kənd təsərrüfatında çalışanların gəlirləri azalmaqla həyat şəraiti və səviyyəsi də pisləşirdi. Bu da öz növbəsində kənd yerlərində işsizliyin artmasına və yoxsulluq həddinin dərinləşməsinə səbəb oldu. Bütün bunlar, aqrar sahədə mövcud vəziyyətdən çıxmaq üçün əsaslı dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir. Qeyd edilən problemlərin mövcudluğu və həllinin zəruriliyi aqrar sahənin inkişafına yeni təfəkkür tərzi ilə yanaşmağı tələb edirdi. 1990-cı illərin əvvəllərindən dünyada baş verən siyasi proseslər, postsovet məkanındakı ciddi dəyişikliklər aparılmasını və böhran vəziyyətindən çıxmaq üçün radikal tədbirlərin görülməsini tələb edirdi. Bu zaman Azərbaycan müstəqil, öz adət-ənənələrinə, milli mentalitetə və maraqlara uyğun dəyişikliklər aparmağı əsas məqsəd kimi ön plana qoymalı idi. Bunun üçün iqtisadi sistemin dəyişdirilməsi, dünyanın inkişaf etmiş ölkələrinin keçdiyi yol, bəşəri dəyərlər, demokratik dövlət quruluşu əsas götürülməli və ölkənin spesifik xüsusiyyətləri nəzərə alınmalı idi.

Bundan əvvəlki dövrdə islahat pərdəsi altında həyata keçirilən sistemsiz, xaotik, məqsədi və nəticələri məlum olmayan tədbirlərə son qoymaq, yeni, xalqın mənafeyinə xidmət edən islahatlar aparmaq tələb olunurdu. Ölkənin müstəqilliyi, xarici iqtisadi əlaqələr və inteqrasiya mülkiyyət formasının və istehsal münasibətlərinin dəyişdirilməsini zərurətə çevirirdi. Ona görə də aqrar sahədə həm institusional dəyişiklik həyata keçirilməli, həm də ictimai-dövlət mülkiyyət forması dəyişdirilərək özəl mülkiyyətçilik bərqərar olunmalı idi. Bazar iqtisadiyyatında bazis rolunu oynayan özəl mülkiyyətçilik və sahibkarlığın yeni prinsiplər əsasında təşəkkül və formalaşması vacib idi. Beləliklə, ölkə həyatında ilk dəfə olaraq, radikal dəyişiklik, əsaslı islahatların həyata keçirilməsi aktual məsələ kimi ön plana keçdi. Artıq totalitar idarəçilik modelinin iflasa uğradığı, mahiyyətcə sosialist təsərrüfat sisteminə mənsub olan təsərrüfat subyektlərini bundan sonra əvvəlki qayda ilə idarə edilməsinin mümkün olmadığı aydın oldu. Azərbaycanı, dünyanın sivil dövlətləri sırasına çıxarmağın yeganə yolunun cəmiyyətin həyatının demokratikləşdirilməsinin və iqtisadiyyatın dinamik inkişafının bazar münasibətlərinə keçmək istiqaməti müəyyənləşdirildi [5].

Məlumdur ki, Ümummilli Lider Heydər Əliyev 1992-ci və 1993-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən iqtisadiyyatı düşdüyü tənəzzüldən xilas etməyin yeganə yolu islahatlar olduğunu

bildirmişdi. O, müəyyən etmişdi ki, artıq planlı və mərkəzləşdirilmiş ictimai təsərrüfatçılıq sistemi müasir dövrlə ayaqlaşa bilməz. Keçmiş ümumi iqtisadi məkanın dağılması, sosialist təsərrüfatçılığının nəticələrinin bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş ölkələrin iqtisadi nəticələri ilə müqayisəsinin ölçüyə gəlməməsi, ümumən dünyada bazar sisteminin üstünlük təşkil etməsi və gələcək qloballaşma kimi strateji amilləri görən Heydər Əliyev sərbəst iqtisadi sistemə keçidi iqtisadi inkişafın açarı kimi müəyyən etmişdi. Ona görə də o, Naxçıvanda ikən 1992-ci ildə Culfa rayonunda ilk dəfə olaraq aqrar islahatlar aparılmasına dair qərar qəbul etmişdi. Sonralar Culfa təcrübəsi respublikada aqrar islahatların həyata keçirilməsində və hüquqi-normativ bazanın hazırlanmasında model kimi istifadə olunmuşdur [8].

Respublika iqtisadiyyatının inkişafının ancaq islahatlarla bağlı olduğunu göstərən Heydər Əliyev 1993-cü il 29 sentyabr tarixdə Milli Məclisin iclaslarında demişdir: “Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Şübhəsiz ki, gələcəkdə müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatını yalnız bazar iqtisadiyyatı yolu ilə, azad iqtisadiyyat yolu ilə qaldıra bilərik”.

Aqrar islahatların həyata keçirilməsində dünya təcrübəsinə əsaslanmaq məqsədi ilə 1994-cü ildə Çin Xalq Respublikasının, İsrailin, Rusiya Federasiyasının, Qazaxıstan Respublikasının aqrar sahə üzrə iqtisadçı alimlərinin, rəhbər işçilərinin və mütəxəssislərinin iştirakı ilə Azərbaycan Respublikasının Milli Məclisində “Aqrar islahatların aparılması təcrübəsi”nə dair Beynəlxalq konfrans keçirildi.

21 iyun 1994-cü ildə Prezident sarayında keçirilən müşavirədə Heydər Əliyev ölkədə aqrar islahatların və siyasətin zəruriliyini bildirərək göstərirdi ki: “Kənd təsərrüfatı məsələləri bu gün müzakirələrimizdə daha çox yer tutur. Bu olduqca əsaslıdır. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sahədə də nicat yolumuz və gələcəyimiz iqtisadi islahatların aparılmasıdır” [8,9].

İlk mərhələdə Respublikada aqrar islahatın hüquqi bazasının yaradılması qərara alındı. Xeyli hazırlıq işləri görüldükdən sonra, nəhayət aqrar islahatların strateji istiqamətlərini müəyyənləşdirən “Aqrar islahatının əsasları haqqında” və “Sovxoz və kolxozların islahatı haqqında” qanunlar 18 fevral 1995-ci ildə təsdiq edildi. Bu qanunlarla aqrar sektorda yeni mülkiyyət münasibətlərinin formalaşması və müxtəlif növlü təsərrüfat subyektlərinin yaradılması, eyni zamanda bu sahəyə dövlət himayəsinin istiqamətləri müəyyən edilmiş və aqrar bazarın dövlət tənzimlənməsinin hüquqi əsasları yaradılmışdır.

Aqrar islahatlar elə formada aparılmalı idi ki, torpaq və əmlak üzərində mülkiyyət formasını dəyişməklə, birinci növbədə dərinləşməkdə olan tənəzzülün qarşısı alınsın. Digər tərəfdən mövcud potensialı (istehsal vasitələri və insan resurslarını) ən optimal şəkildə hərəkətə gətirməklə tədricən aqrar bölməni böhran vəziyyətindən çıxarmaq və bu sahənin inkişafında dönüş yaratmaq mümkün olsun. Odur ki, torpaq və əmlak üzərində mülkiyyət formaları müəyyənlaşdirilərkən milli, yerli və perspektiv inkişaf istiqamətləri nəzərə alınmaqla milli səviyyədə dövlət mülkiyyəti, yerli səviyyədə bələdiyyə mülkiyyəti və xüsusi mülkiyyət formaları müəyyənləşdirildi. “Sovxoz və kolxozların islahatı haqqında” qanunda islahat aparılan təsərrüfatların əmlak məsələləri və əmlakın özəlləşdirilməsi, habela kənd təsərrüfatında müxtəlif növlü müəssisələrin yaradılmasının hüquqi əsasları öz əksini tapmışdır.

“Aqrar islahatların əsasları haqqında” qanun Azərbaycan Respublikasının aqrar bölməsində islahatın əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən edir. İslahatın nəticəsinin səmərəliliyi onun həyata keçirilməsi prosesində qanunda göstərilən prinsiplərə düzgün əməl edilməsindən daha çox asılıdır. İslahatın aparılması vaxtı sosial

ədalətin və könüllülüyün təmin edilməsi, əmtəə istehsalçılarına təsərrüfat fəaliyyətinin təşkilində və öz məhsullarına sərəncam verməkdə tam sərbəstliyin gözlənilməsi, istehsalın sabitləşdirilməsinə və məhsul istehsalının artırılmasına imkan verir. Dövlətin iqtisadi siyasəti ilə aqrar islahatın uzlaşması aqrar islahatın həyata keçirilməsinin əsas prinsiplərindən biri hesab olunur.

Qanunda aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması təsbit olunur. Dövlət və bələdiyyə mülkiyyətinə aid ediləcək obyektlər, torpaqların dövlət və bələdiyyə mülkiyyətinə ayrılması, meliorasiya və su təsərrüfatı obyektləri üzərində mülkiyyət münasibətlərinin və burada əsas vəzifə, aqrar sahənin inkişaf istiqamətlərinin dəyişdirilməsi, emal sənayesinin və istehsal infrastrukturu obyektlərinin dövlətsizləşdirilməsi, sosial infrastrukturda yeni mülkiyyət münasibətləri və istehlak kooperasiyası islahatının aparılması istiqamətlərini müəyyənləşdirir. Bununla yanaşı, qanunda elmi tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, meliorasiya və su təsərrüfatı obyektlərinin, baytarlıq və bitki mühafizəsi, damazlıq və toxumçuluq təsərrüfatlarının, maşın-sınaq stansiyalarının, təbiəti mühafizə obyektlərinin, qoruqların və s. dövlət mülkiyyət məsələləri, əmlak payı almaq hüququ olan şəxslərin qərarı ilə kəndin sosial infrastrukturunun taleyinin həlli, milli adət-ənənənin gözlənilməsi, Azərbaycan kəndinin daha da inkişaf etdirilməsi ön plana çəkilir.

Torpaq üzərində mülkiyyət formaları, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarının verilməsi, torpaq islahatının bir sıra şərtlər nəzərə alınaraq aparılması, meliorasiya və su təsərrüfatı obyektləri üzərində mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi və suyun pullu istifadəsinin tətbiqi barədə mühüm istiqamətlə, müəyyən edilir. Burada mülkiyyət münasibətlərindən asılı olaraq yaradılan müxtəlif növlü təsərrüfatların təsnifatı verilir və onların yaradılması yolları açıqlanır, sovxoz və kolxozlarin islahatının formaları, üsulları və istiqamətləri göstərilir. İnzibati qaydada bir təsərrüfat formasının başqa formaya çevrilməsinə və ya ləğv edilməsinə yol verilmir. Qanuna görə vətəndaşlar təsərrüfat formalarının seçilməsində tam sərbəstdirlər. Eyni zamanda təsərrüfatçılığın formasının seçilməsində könüllük prinsipləri gözlənilir ki, bu da kənddə azad sahibkarlığın inkişafına imkan yaradır.

Araşdırmalar və dünya təcrübəsi göstərir ki, aqrar islahat iqtisadi islahatların ən mühüm tərkib hissəsi olmaqla bərabər, bu sahənin özünəməxsus spesifik xüsusiyyətləri vardır. Onları nəzərə almadan bütünlüklə aqrar sahənin inkişafına nail olmaq qeyri-mümkündür. Məhz bu mənada qanunda kənd təsərrüfatında yoluxucu xəstəliklərə, zərərvericilərə qarşı karantin və müalicə tədbirlərinin aparılması, kadr hazırlığı və elmi təminatı, istehsal və sosial infrastrukturunun yaradılması üçün dövlət vəsaitinin ayrılması nəzərdə tutulmuşdur. Qanunda aqrar bazarın dövlət tərəfindən tənzimlənməsinə xüsusi diqqət yetirilir, onun istiqamətləri göstərilir. Mühüm kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, əmtəə istehsalçılarının xarici bazarın zərərli təsirindən qorunması və təminatlı daxili bazarın yaradılması, maliyyə-kredit müəssisələrinin işinin onun tələbatına uyğunlaşdırılması və s. vacib məsələlərin həyata keçirilməsini dövlət öz üzərinə götürür.

“Sovxoz və kolxozların islahatı haqqında” qanuna əsasən hər bir sovxoz və kolxozda onların istifadəsindəki torpaqdan, habelə əmlakdan pay almaq hüququ olan şəxslərə öz paylarını alıb, təsərrüfatın yeni, hər hansı təşkilati-hüquqi formasını könüllü seçmək səlahiyyəti verilir. Buradan aydın olur ki, sovxoz və kolxozların islahatını aparmaqda məqsəd bazar iqtisadiyyatına uyğun müxtəlif növlü təsərrüfat formaları yaratmaq və kənddə azad sahibkarlığı inkişaf etdirməkdir. Bununla əlaqədar islahatın vəzifələrindən biri özəlləşdirilən təsərrüfatların kəndli (fermer) təsərrü-

fatlarına bölünməsindən, sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli kənd təsərrüfatı müəssisələrinə çevrilməsindən, sovxozların bazasında dövlət kənd təsərrüfatı müəssisələrinin yaradılmasından, şəxsi yardımçı təsərrüfatların inkişafından, yaradılmış təsərrüfatların kooperasiyası və xidmət sahələrinin təşkilindən ibarətdir.

Qanunda əmlakın düzgün bölüşdürülməsi və islahat prosesində ədalətsizliyə yol verilməməsi üçün bir sıra metodoloji əhəmiyyətli qaydalar müəyyənləşdirilmişdir. Belə ki, sovxozlarda əmlak inventarlaşdırılır və qiymətləndirilir, müəssisənin debitor və kreditorlarla haqq-hesabı aparılir və əmək haqqı üzrə borclar ödənilir. Daha sonra, müəssisənin əmlakında bölünməyən və bölünən hissələr müəyyənləşdirilir.

Kənd təsərrüfatında müxtəlif növlü müəssisələrin təşkilati-hüquqi formalarından biri dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin yaradılmasıdır. Bu müəssisələr sovxozların dövlət mülkiyyətində qalan hissəsi əsasında yaradılır. Dövlət kənd təsərrüfatı istehsalı müəssisələri əmlakı özəlləşdirilən və əmlakı dövlət mülkiyyətində saxlanılan müəssisələrə bölünür.

Toxumçuluq, damazlıq təsərrüfatları, atçılıq zavodları, elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə bazaları, vəhşi heyvandarlıq sovxozları və digər dövlət əhəmiyyətli müəssisələrin yalnız əsas istehsal məqsədlərini təmin etmək üçün tələb olunan əmlakı dövlət mülkiyyətində saxlanilir, qalan əmlak özəlləşdirilir.

Respublikada aparılan aqrar siyasətin və islahatların həyata keçirilməsində olduqca böyük əhəmiyyət kəsb edən qanunlardan biri də uzun müddət müzakirələrdən sonra, - Heydər Əliyev tərəfindən imzalanan, 1996-cı il 16 iyulda qəbul edilən "Torpaq islahatı haqqında" Qanundur. Bu qanunun əsas məqsədi torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, ölkədə bazar iqtisadiyyatını inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təhlükəsizliyinə nail olmaq idi. Bu qanunla Respublika torpaqları üzərində üç: dövlət, bələdiyyə və xüsusi mülkiyyət forması müəyyənləşdirilmişdir [1].

Məlumat üçün bildiririk ki, hal-hazırda Azərbaycan Respublikasında mövcud 8,6 milyon hektar torpaqların 56,9% – dövlət torpaqları, 23,5%-i bələdiyyə torpaqları və 19,6%-i xüsusi mülkiyyətə verilmiş torpaqlardır [9].

Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış "Torpaq islahatı haqqında" Qanun əslində iqtisadiyyatın ən mürəkkəb sahəsi olan aqrar sektorda inqilabi dəyişikliklər aparmaq üçün hüquqi əsasdır. Cəmiyyətin yeni iqtisadi-siyasi sistemə keçməsində həlledici rol oynayan bu qanun uzun axtarışların və gərgin zəhmətin bəhrəsidir. Bu qanunun qəbul edilməsində əsas məqsəd aqrar bölməni böhrandan çıxarmaqla iqtisadiyyatı sabitləşdirmək və əhalinin sosial-iqtisadi vəziyyətini və ölkənin ərzaq təhlükəsizliyini yaxşılaşdırmaqdan ibarətdir [7].

Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev tərəfindən 1995-1996-cı illərdə imzalanmış qanunlar, yəni aqrar sahə üçün qəbul edilən normativ hüquqi sənədlərdən ən vacibləri: "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", və "Torpaq islahatı haqqında" qanunlardır. Bu vaxtında qəbul edilmiş qanunlar aqrar bölmədə dərin, əsaslandırılmış islahatların aparılmasının təşkilati-hüquqi və sosial-iqtisadi əsaslarını müəyyənləşdirmək, mövcud bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formaları yaratmaq, kəndlərdə azad sahibkarlığı inkişaf etdirmək və torpaq üzərində yeni mülkiyyət münasibətləri formalaşdırmaqdan ibarətdir. Bu qanunların qəbul edilməsində məqsəd göründüyü kimi aqrar bölməni düşdüyü dərin böhran və tənəzzüldən çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, onun dinamik inkişafını təmin etmək, iqtisadiyyatın şaxələndirilməsini dərinləşdirmək, ölkənin ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq və

əhalinin sosial-iqtisadi vəziyyətini, həyat səviyyəsini yüksəltməkdən ibarətdir [5].

Bu qanunlar Respublikanın aqrar bölməsində aparılacaq dərin və əsaslandırılmış islahatların əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən edir. Aparılan bu islahatların nəticəsinin iqtisadi səmərəliliyi onun həyata keçirilməsi prosesində qanunlarda göstərilən prinsiplərə düzgün, dəqiq əməl edilməsindən çox asılıdır. Aqrar islahatların aparılması ölkədə sosial ədalətin təmin edilməsi, əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinin təşkilində, idarəedilməsində və özləri istehsal etdikləri məhsullara sərəncam verməklə və qiymətlər qoymaqda tam sərbəstliyi təmin edir. Dövlətin iqtisadi siyasəti ilə aqrar sahədə həyata keçirilən islahatların uzlaşması, ölkədə həyata keçirilən aqrar modernləşmənin əsasını təşkil edir.

Qəbul edilmiş bu qanunlar Respublikanın aqrar bölməsində yeni yaradılmış mülkiyyət münasibətlərinin formalaşdırılmasını təsbit edir. Belə ki, Dövlət və bələdiyyə mülkiyyətinə aid ediləcək obyektlər, torpaqların dövlət və bələdiyyə mülkiyyətinə ayrılması, meliorasiya və su təsərrüfatı, irriqasiya obyektləri üzərində mülkiyyət münasibətlərinin və burada əsas vəzifə olaraq aqrar bölmənin inkişaf istiqamətlərinin dəyişdirilməsi, emal sənayesinin və istehsal infrastrukturu obyektlərinin dövlətsizləşdirilməsi (özəlləşdirilməsi) sosial infrastrukturda yeni mülkiyyət münasibətləri və istehlak kooperasiyası islahatının aparılması istiqamətlərini müəyyənləşdirir. Qanunlarda elmi tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, meliorasiya və su təsərrüfatı obyektlərinin, baytarlıq və bitki mühafizəsi, damazlıq və toxumçuluq təsərrüfatlarının, maşın-sınaq stansiyalarının, təbiəti mühafizə obyektlərinin, qoruqların, dövlət mülkiyyəti məsələləri, əmlak payı almaq hüququ olan şəxslərin qərarı ilə kəndin sosial infrastrukturunun taleyinin həlli, milli adət-ənənənin gözlənilməsi, Azərbaycan kəndinin daha da inkişaf etdirilməsi ön plana çəkilibdir [9].

Dünya təcrübəsi göstərir ki, aqrar islahat iqtisadi islahatların ən mühüm tərkib hissəsi olmaqla bərabər, bu sahənin özünəməxsus, spesifik xüsusiyyətləri də vardır. Onları nəzərə almadan bütövlükdə aqrar sahənin inkişafına nail olmaq qeyri-mümkündür.

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən imzalanan 22 mart 1999-cu il tarixli fərman ölkədə aqrar sahədə sahibkarlığın inkişafına böyük təkan verdi.

Məlumat üçün bildirək ki, hal-hazırda Azərbaycanda il ərzində istehsal olunan ÜDM-in 83-84%-i özəl sektorda, yerdə qalan hissə isə dövlət sektorunda istehsal olunur. Lakin kənd təsərrüfatı məhsullarının 99,4%-i özəl sektorda, yəni fermer təsərrüfatları və fərdi təsərrüfatçılar tərəfindən istehsal olunur [10].

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətini uğurla davam etdirən prezident İlham Əliyevin ölkənin aqrar sektoruna göstərdiyi diqqət, qayğı və düzgün iqtisadi siyasətinin nəticəsidir ki, Azərbaycanda aqrar sektorda hər il yüksək və uğurlu nəticələr əldə edilir.

Məlumdur ki, 2020-ci ildə dünyadakı koronavirus pandemiyası ilə əlaqədar, 1995-ci ildən sonra ilk dəfə Azərbaycan iqtisadiyyatında ÜDM-də azalma – 4,3% oldu. Lakin bu azalma, tənəzzül ölkənin aqrar sektoruna təsir etmədi. Belə ki, 2020-ci ildə Azərbaycanda əkilmiş 968 min ha taxıl sahələrindən 2,9 mln ton taxıl toplandı, məhsuldarlıq hektardan 30,7 sentner oldu və 1,7 mln ton meyvə; 208 min ton üzüm; 336 min ton pambıq; 253 min ton şəkər çuğunduru; 591 min ton ət; 2,2 mln. ton süd; 1,9 mln. ədəd yumurta istehsal olunmuşdur. Qeyd edək ki, son 5 ildə ölkədə aqrar sektorda iqtisadi artım hər il 4-5 % olur [2].

Hər bir ölkə əhalisini zəruri kəmiyyət və keyfiyyətdə ekoloji təmiz ərzaq məhsulları ilə təmin etmək üçün öz daxili istehsalına arxalanmalı və həm də başqa ölkələrdən ərzaq məhsulları idxal etməlidir. Ölkədə əhalini

ərzaq məhsulları ilə təmin etmək üçün illik istehlakın 17-20%-i həcmində taxıl ehtiyatı olmalıdır. BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı FAO tərəfindən dünyada taxıl ehtiyatları üzrə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 60 günlük istehlak həcmi səviyyəsində (17-20%) olmaqla ehtiyat müəyyənləşdirilmişdir [3,9].

Respublikada iqtisadiyyatın aqrar bölməsində aparılan ardıcıl, düzgün, şaxələndirilmiş iqtisadi siyasətinin və islahatların nəticəsidir ki, ölkə əhalisinin ərzaq təhlükəsizliyi yüksək səviyyədədir. Belə ki, hazırda Azərbaycan dövlətində ərzaq təhlükəsizliyinin vəziyyəti belədir: buğda ilə təminat - 60-62%; meyvə - 100%; tərəvəz – 100%; kartof – 90-95%; şəkər – 100%; mal əti – 90%; qoyun əti – 100%; quş əti – 100%; süd – 80%; yumurta ilə - 100% təminat var.

Göstərilən iqtisadi faktlardan bu nəticəyə gəlmək olar ki, Ümummilli Lider Heydər Əliyevin ölkənin aqrar sektorunda həyata keçdiyi iqtisadi siyasət və islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla, dinamik və tarazlı şəkildə davam etdirilir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. III kitab. Bakı. – 1997. – 840 s.
2. Azərbaycanın statistik göstəriciləri. 2013-2021 illər. – Bakı.
3. Abbasov, A.F. Ərzaq təhlükəsizliyi. – Bakı. – 2007. – 600 s.
4. Alıyev, İ.H. Azərbaycanda aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. – Bakı. – 2003. – 316 s.
5. Əhmədov, İ.V. Kənd təsərrüfatının idarə edilməsi. – Bakı. – 2006. – 880 s.
6. Əliyev, İ.N. Heydər Əliyev və Azərbaycan kənd təsərrüfatı. – Bakı. – 1997. – 152 s.
7. Heydər Əliyev və dövlətin aqrar siyasəti. – Bakı. – 2003. – 776 s.
8. İbrahimov, İ.H. Aqrar islahatlar və sahibkarlığın inkişafı. – Bakı. – 2005. – 220 s.
9. İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı. – Bakı. – 2016. – 653 s.
10. Zeynalov, Y.Ə., Quliyev, F.M. Milli iqtisadiyyat. Dərs vəsaiti. – Bakı. – 2018. – 636 s.

***Açar sözlər:*** *aqrar siyasət, aqrar islahat, qanun, istehsal, istehlak, iqtisadi artım, lider*

**Yusif Zeynalov**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*
*Department of State Regulation of the Economy*
*Associate Professor, Ph.D. in Agriculture*

# AGRICULTURAL POLICY AND REFORMS IMPLEMENTED IN THE REPUBLIC BY NATIONAL LEADER HEYDAR ALIYEV

## ABSTRACT

The article sheds light on the deep, thought-out economic policy and reforms carried out by national leader Heydar Aliyev in the agrarian sector during his tenure as President of the Republic of Azerbaijan. In 1992–1995, due to the recession in the country's economy, the production of agricultural products decreased by almost twofold compared to 1990.

The three laws adopted by the President of the Republic, Heydar Aliyev, in 1995–1996, "On the Basics of Agrarian Reform," "On the Reform of the State Farm and Collective Farms," and "On Land Reform," are the timely and correctly adopted economic laws that lead to the development of the agrarian sector in Azerbaijan politics and reforms. As a result, the recession in the agrarian sector stopped; a dynamic, balanced development began; the country's food security was ensured, and the population's standard of living increased.

***Keywords:*** *agrarian policy, agrarian reform, law, production, consumption, economic growth, the leader*

**Юсиф Зейналов**

*Доцент кафедры Государственного регулирования экономики*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по сельскому хозяйству*

# АГРАРНАЯ ПОЛИТИКА И РЕФОРМЫ, ПРЕТВОРЁННЫЕ В ЖИЗНЬ В РЕСПУБЛИКЕ ОБЩЕНАЦИОНАЛЬНЫМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ

## РЕЗЮМЕ

В статье рассказывается о глубокой, продуманной экономической политике и реформах, проведенных Общенациональным Лидером Гейдаром Алиевым в аграрном секторе в период его пребывания на посту Президента Азербайджанской Республики. Из-за спада в экономике страны в 1992-1995 гг. производство сельскохозяйственной продукции сократилось почти в 2 раза по сравнению с 1990-м годом. 3 закона, подписанные Президентом Республики Гейдаром Алиевым в 1995-1996-х годах: «Об основах аграрной реформы», «О реформе совхозов и колхозов» и «О земельной реформе» стали своевременно и правильно принятыми экономической политикой и реформами, приведшими к развитию аграрного сектора в Азербайджане. В результате прекратился спад в аграрном секторе, началось динамичное, сбалансированное развитие, была обеспечена продовольственная безопасность страны, повысился уровень жизни населения.

***Ключевые слова:*** *аграрная политика, аграрная реформа, закон, производство, потребление, экономический рост, лидер*

DOI: 10.30546/2309-1347.2024.1315

## İ Q T İ S A D İ Y Y A T
## E C O N O M Y

UOT 336.77

**АДИЛЬ СУЛТАНОВ**

**Доцент кафедры Государственного регулирования экономики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономике**

*e-mail: sultanovadil@gmail.com*

# К ВОПРОСУ ТЕОРЕТИКО-ЭКОНОМИЧЕСКОГО АНАЛИЗА РЯДА СОВРЕМЕННЫХ КАТЕГОРИЙ

8 Ноября 2023 года, день празднования третьей годовщины Победы, освобождения захваченных территорий. Весь азербайджанский народ и другие народы, которые жили и будут жить в Азербайджане, в их многоконфессиональной, мультикультуральной, многонациональной Родине, и вставшие плечом к плечу с азербайджанцами на защиту и освобождение от захватчиков своей Родины, страны, в которой бок о бок проживают в Азербайджане на протяжении сотен лет, в условиях дружбы, взаимного уважения, желания поддержать друг друга и оказания помощи в те или иные трудные моменты жизни, как говорится, и в радости, и в горести.

Вопросы, которые мы хотели бы озвучить в данной статье, в контексте теоретико-экономического анализа, связаны с новыми, вновь открывшимися возможностями, реалиями и вызовами для сегодняшнего Азербайджана, а именно: необходимостью восстановления, практически нового строительства жилья, дорог, мостов, объектов культурно-бытового назначения, школ, детских садов и всего-всего, в целостности составляющих основу и создающих возможность и условия для жизни сотен тысяч людей, беженцев, которые, наконец, вычеркнули из своего сознания это очень горькое слово, большое число которых были убиты, покалечены и изгнаны с территорий своего постоянного проживания, Карабахского региона. Предстоит еще много-много других восстановительных работ на огромной территории, практически 20% территории независимого, суверенного Азербайджана, восстановившему свою независимость в 1991 году, после распада СССР.

У нас, граждан Азербайджана, в памяти Первая карабахская война, 316 российский полк, который «помогал нашим любимым соседям» в «арменизации» и оккупации Карабахского экономического района Азербайджана.

Это было смутное время, о котором представители моего поколения много чего знают и помнят, как по факту истории Азербайджана, так и по негативными последствиям, проводимой по отношению к Азербайджану не справедливой политике.

Необъяснимое политическое решение в 1828 году, в год подписания Туркменчайского договора, привнесшего на западные территории Азербайджана, в регион Южного Кавказа, более 200 тысяч армян из Ирана и Турции, что бы создать на терри-

тории западного Зангезура государство христиан из армян. И что особенно интересно, обязали местное азербайджанское население уступить им самые плодородные земли, помогать им деньгами, советами и т.д., что бы пришлые люди «легче пережили своё перемещение» на новое место для жизни. А что было дальше, мы знаем.

Ещё один интересный факт, (который в советское время почему-то умалчивался), свидетельствующий об огромном значении и месте в годы Второй мировой войны 1941-1945 гг. роли и актуальности Азербайджана для того военного времени, значимость азербайджанской нефти, которая транспортировалась по Каспийскому морю, из-за отсутствия возможностей для транспортировки её по земле. Был найден интересный выход из ситуации – добытая нефть заливалась в цистерны и буксировалась катерами по морю, а затем по реке Волга на нефтеперабатывающие предприятия на востоке Российской федерации. Как писал в своих мемуарах маршал К.М.Жуков, если бы не было бакинской нефти и, соответственно, топлива для танков и самолётов, то, каков бы мог быть итог той жестокой войны, представить себе невозможно (материал из Википедии).

Азербайджан отправил на защиту нашей Родины, СССР, 700.000 тысяч бойцов, практически все мужское население, из которых более половины не вернулись домой.

И, еще одна горькая страница в истории Азербайджана – январь 1990 года, ввод советских войск в столицу суверенного Азербайджана, в город Баку и, самое главное, как эти войска входили в город...

Это история нашего любимого Азербайджана, которое мы не имеем права забывать. Никогда!

Что касается одной из очень значимых рассматриваемых проблем данной статьи, то здесь уместно вспомнить очень интересный учебник, составленный, подготовленный и предложенный для изучения студентами на факультетах Академии государственного управления при Президенте Азербайджанской Республики, а именно - акад. Алакбаров У.К. «Основы управления устойчивым развитием и экологической цивилизацией» Учебник для высших учебных заведений. Баку, «Azpoliqraf», 2017, 192 с. (нам была оказана честь проводить занятия по данному предмету в рамках Академии Государственного Управления при Президенте Азербайджанской Республики).

В этом учебнике, посвящённому анализу и всестороннему рассмотрению новых, очень актуальных с точки зрения значимости знания и изучения современных тенденций и категорий, проявляющихся в Азербайджане, которые важны для изучения не только студентами Академии, но и широкому кругу людей, которым интересно проследить пути развития нашего родного Азербайджана, со сравнительных позиций, с государствами мира по вопросам, характеризирующих уровень и качество развития, основных движущих сил, предполагающих такое развитие, которое определяет верность, и главное, своевременность принятия того или иного решения по направлениям поступательного развития страны.

На протяжении определенного периода времени, некоторые экономические формы, понятия, категории, будучи озвученные в конкретных условиях тех лет, в связи изменением условий или появлением новых категорий или понятий, как панацеи в решении обостряющихся проблем окружающей среды, появлении серьезных проблем, требующих незамедлительного решения этих проблем, не давали ожидаемых результатов.

Данное исследование посвящено изучению механизма реализации триединой концепции (экономической, социальной и экологической составляющих) в процессе становления зеленой, эколого-сберегающей, щадящей экономики. Делается попытка осмысления новых реалий, рассматриваемых в контексте современного уровня развития общества, выявления основных составляющих, способствующих охране

окружающей человека среды, которая, по мере становления процесса рационального и бережного использования всего того богатства, которым обладает человечество.

Необходимо, по нашему мнению, новое осмысление и анализ двух, теснейшим образом взаимосвязанных между собой категорий – зеленая экономика и устойчивое развитие – в контексте современного состояния социально-экономического развития общества, их субординации, взаимосвязи и взаимообусловленности, места, значения и роли в процессе обеспечения непрерывного и поступательного развития по всем направлениям, от которых зависит степень своевременности и интенсивности решения текущих задач, способных сдвинуть с мертвой точки назревшие проблемы окружающей человека среды.

Анализ этих взаимосвязанных категорий устойчивое развитие и зеленая экономика состоят в осмыслении и дальнейшем углублении изучения и применения новых форм и методов развития зеленой экономики в Азербайджане, а именно, исследование экологического налогообложения, т.е. введение зеленых налогов; экологической ответственности и методов ее страхования; рынка разрешений (а это очень важно!) на загрязнение окружающей среды, его квотирование; поиск эффективных сочетаний экономических, социальных и экологических инструментов; совершенствование соответствующего принципам зеленой экономики и устойчивого развития новых зеленых принципов ценообразования; исследование и использования опыта зарубежных стран в сфере разработки и реализации стратегии становления и развития в процессе перехода к зеленой, ресурсо- и материало-сберегающей, мало затратной экономике.

Эти две экономические формы – зеленая экономика и устойчивое развитие - с экономической и исторической точки зрения функционируют в двух параллельных плоскостях: устойчивое развитие - есть динамический процесс, реализуемый лишь в процессе движения, а зеленая экономика - статичная, базисная экономическая форма, развивающаяся внутри и на базе рыночной экономической системы, представляя собой новый тип экономической системы, выступающей основой и импульсом устойчивого развития, создающей адекватные условия для своего функционирования и обеспечения устойчивости экономики.

Историческая и знаменосная «Декларация Конференции Организации Объединенных Наций по проблемам окружающей человека среды», Принятая Конференцией ООН, состоявшейся в Стокгольме в 1972 году, [2] (50 лет тому назад!), практически является одной из первых Деклараций ООН, в которой систематизированы общечеловеческие проблемы, выведенные на первый план в силу сложившихся на планете обстоятельств, требующих незамедлительного принятия мер по изменению подхода к природе и окружающей человека среды. Начиная с этого момента, практически ни одна Конференция ООН не обходит стороной те или иные существующие или вновь выявившиеся общечеловеческие проблемы, как-то: охрана окружающей среды; питьевая вода и ее нехватка; продовольственная безопасность и пути ее гарантированного решения; новый подход к использованию невоспроизводимых энергетических ресурсов и поиск ее альтернативных источников и заменителей; поиск новых подходов и введение платных отношений, зеленых, или экологических, налогов за пользование природными ресурсами, или, как их называют, натуральным капиталом, достающимся людям как бесплатный, демографические проблемы, дармовой ресурс, который практически ни в одной экономической системе не амортизировался, новые формы и специфика их проявлений, новые тенденции миграции населения, осмысление глобальных структурных изменений и современных форм проявления демографических процессов, меры по их преодолению, а также поиску путей их решения; неграмотность и нищета населения планеты, ее количественные и качественные показатели; интенсификация

применения и становление новых приемов производства, создание и применение дружественных к природе технологий, совершенствование моделей, способов и методов производства, отказ от технологий, не соответствующих требованиям сегодняшнего дня, и ряд других, тесно связанных между собой общечеловеческих проблем, которые, как это не парадоксально, взаимно обусловливают друг друга.

Все вышеперечисленное, будучи очень актуальным и злободневным, стоящем на повестке дня, рассматривались поодиночке, они не рассматривались в единстве, что вызывало их разночтение.

Нами была сделана попытка осмысления новых реалий, рассматриваемых в контексте современного уровня социально-экономического развития общества с учетом экологических аспектов, выявление их роли и влияния на окружающую человека среду, на процесс рационального и бережного использования всего того богатства в интересах всех и каждого, живущих на планете, помня при этом, об интересах и будущих поколений.

Их рассмотрение требовало четкого определения их субординации, взаимосвязи и взаимообусловленности, места, значения и роли в процессе обеспечения непрерывного и поступательного развития по всем направлениям, от которых зависит степень интенсивности, и, самое главное, своевременности решения текущих задач, способных сдвинуть с мертвой точки назревшие проблемы окружающей человека среды.

Устойчивое развитие и зеленая экономика – с экономической и исторической точки зрения функционируют в двух параллельных плоскостях, взаимно дополняя, и, довольно часто, взаимно заменяя друг друга, хотя и относятся, как нам представляется, к разноуровневым экономическим формам.

Соотношение между ними, по нашему мнению, можно рассматривать с позиций статики и динамики, т.е. данные категории не могут быть рассмотрены с позиций однопорядковых, хотя бы потому, что одна из них – устойчивое развитие - есть динамический процесс, реализуемый лишь исключительно в процессе движения, совершенствования в рамках господствующей экономической системы, в пределах которой только и может функционировать.

Что же касается категории зеленая экономика, то она должна быть рассмотрена как статичная экономическая форма. Именно зеленая экономика, как, возможно, новый тип экономической системы, развивающейся внутри и на базе рыночной экономической системы, создает и может в дальнейшем создавать соответствующие, адекватные условия для функционирования и обеспечения устойчивого развития.

В литературе, главным образом, международных документах, в частности, материалах Конференций ООН, документов различных международных организаций и объединений и других аналогичных документах, допускается некоторое смещение данных категорий, которое происходит по причине очень большой схожести, очень близкого по характеру и формам их проявления в объективной экономической реальности.

Зеленая экономика, схематически и реально проявляющееся как субординированное сочетание экономической, социальной и экологической составляющих, затрагивающие все стороны общественной жизни, не может быть полнокровно рассмотрена в отрыве от экономической базы, господствующей экономической системы, в пределах и границах которой и получает действительное развитие. Такое развитие предполагает учет реалий экономической системы, системы рыночной экономики, в рамках и на основе которой функционирует система зеленой экономики, имеющей только ей присущие целевые ориентиры, и именно через них проявляющая свою сущность.

Данная постановка проблемы имеет уже достаточно долгую историю. В частности, в принятой более 30 лет назад, Конференцией ООН по окружающей среде и развитию, Рио-де-Жанейро, Рио-де-Жанейрская Декларация по окружающей

среде и развитию, 3–14 июня 1992 года, в 8 Принципе указано - Для достижения устойчивого развития и более высокого качества жизни для всех людей государства должны ограничить и ликвидировать нежизнеспособные модели производства и потребления и поощрять соответствующую демографическую политику [3].

В данной декларации уже очерчены новые направления переосмысления движущих сил устойчивого развития – поиск новых основ для поступательного, движения новой парадигмы общественного социально- экономического развития.

Эта идея получила свое дальнейшее развитие в Резолюции, принятой Генеральной Ассамблеей ООН 27 июля 2012 года, указано: «Мы признаем, что искоренение нищеты, отказ от нерациональных и поощрение рациональных моделей потребления и производства и охрана и рациональное использование природных ресурсов как базы экономического и социального развития являются главными задачами и важнейшими предпосылками устойчивого развития» [4].

В развитие данной мысли, в параграфе 12 указано: …Мы заявляем о своей решимости вплотную заняться тематикой Конференции Организации Объединенных Наций по устойчивому развитию, в том числе вопросами «зеленой» экономики в контексте устойчивого развития и искоренения нищеты, а также создания институциональных рамок устойчивого развития [4].

Существуют две очень схожие трактовки категории устойчивость. Первое – устойчивое развитие и второе - устойчивое состояние. Если устойчивое развитие (на азербайджанском языке “Davamlı inkişaf), предполагает сбалансированное развитие, достижение непрерывного роста и развития, стабильного увеличения, роста по всем направлениям. Категория же устойчивое состояние (на азербайджанском языке “Dayanıqlı hal”), представляет собой такой тип экономического измерения, при котором объем потребления различных ресурсов должен осуществляться по принципу – брать столько, сколько нужно, ни больше, не меньше, предполагая такие объемы производства и потребления, чтобы окружающая среда была бы в состоянии «переварить» все нежелательные последствия деятельности человека. Как процесс, он может рассматриваться в качестве модели движения, при котором отходы производства первого предприятия могут и должны служить в качестве сырья для другого, а его отходы в качестве сырья для другого, и так далее В, частности, ранее существовал принцип замещения и восстановления использованных компонентов природы по принципу- использовал одно дерево, посади вместо него 20 деревьев, что бы природа не страдала. При том, что дерево относится к возобновляемым природным ресурсам, в отличии, от других, невоспроизводимых ресурсов.

Следовательно, к общепринятым 2-м типам экономического роста - экстенсивный и интенсивный, на наш взгляд, присоединяется новая, промежуточная, вернее, срединная, форма - устойчивое развитие и рост. Может быть, что термин присоединяется не совсем корректен. Но из-за того, что в научной литературе относительно мало систематизированного анализа этих категорий, некоторые категории и термины ждут еще своего дальнейшего осмысления и уточнения. Причем, если категория «устойчивое развитие, устойчивый рост» так или иначе рассматривается в экономической литературе в течение ряда лет, то категория зеленая экономика, как базис, основа для устойчивого роста и развития только декларируется. И ее место в системе категориального аппарата экономической теории еще нуждается в детальном осмыслении, раскрытии ее сущностных сторон, места и роли в системе категорий, рассматриваемых во взаимосвязи и взаимообусловленности.

Здесь есть еще один момент, который, на наш взгляд, не создавал адекватных условий и возможностей для поступательного устойчивого развития, впервые

озвученного госпожой Гру Брутланд, что было связано с тем, что категория зеленая экономика только декларировалась, а со временем просто превратилась в обычное, очень красивое выражение. Мы об этом достаточно часто писали в своих предыдущих научных работах, указывая, что без опоры на зеленую экономику, как базовую и очень значимую категорию, а с точки зрения базисной категории, обязательного экономического компонента, создающего саму возможность развития, особенно, устойчивого развития, практически невозможно.

После состоявшегося в начале 2018 года Всемирного Экономического Форума (ВЭФ) в Давосе, в современный научный аппарат была включена новая категория-Инклюзивное развитие, которая, помимо экономического, социального, экологического компонента, включает в себя большую совокупность, различающихся по формам проявления, возникновения и динамике, а также, показатели преемственности поколений и вопросы устойчивого развития, объединенные в три большие группы, ждущих своего решения, а, именно: количественный и качественный рост и развитие; инклюзивность, рассматриваемая на уровне различных процессов, взаимовлияющих друг на друга; преемственность и условия существования и сосуществования различных поколений, вопросы меж поколенного равенства и создание условий для устойчивого, непрерывного развития [5].

В этот список входят различные экономические категории, объединенных по сущностному признаку, что дает возможность их самостоятельного изучения, а, наряду с этим, также их рассмотрения во взаимосвязи по группам и в целом, а, именно:

- объем произведенного в течении года ВВП в долларовом эквиваленте на душу населения, что является критерием оценки развитости страны как развитой или развивающейся;
- производительность труда, т.е. объем производства материальных благ, рассчитанного на одного работника;
- ожидаемая продолжительность здоровой жизни, рассматриваемая по полу и возрастном принципу;
- занятость населения и его анализ по принципам эффективного и не эффективного функционирования в трудовом процессе, т.е. соответствие данного человека к тому или иному виду деятельности, его квалификация, что очень сильно влияет на производительность и эффективность труда, которая является одним из важнейших критериев инклюзивного и устойчивого развития;
- коэффициент расслоения общества по доходам, применение показателей квинтильного анализа, характеризующего уровень дохода, приходящегося на ту или иную группу населения;
- уровень бедности, характеризуемый по принципу равного или не совсем равного доступа к благам, создаваемым в той или иной стране;
- коэффициент расслоения общества по распределению богатства, или, медианный, т.е., усреднённый доход, наиболее общий или достигнутый в стране уровень получаемого дохода, приходящегося на основное большинство работающего населения;
- скорректированные чистые сбережения;
- парниковая интенсивность ВВП, т.е. килограммы выбросов карбон диоксида ($CO_2$), как одного из вредных выбросов, вызывающих парниковый эффект, приходящихся на один доллар произведенного в стране общественного продукта;
- государственный долг страны, характеризующий собой уровень и целесообразность принимаемых и реализуемых верных и эффективных управленческих решений по согласованному ведению общественного производства в целях обеспечения

растущих разнообразных потребностей производства и населения страны;
- коэффициент демографической нагрузки, который является очень важным показателем, характеризующим показатели условий и качества жизни, показателем межпоколенного равенства и развития.

При расчёте Индекса Инклюзивного Развития (ИИР) для той или иной страны вышеуказанные показатели сначала анализируют и определяют в группе, а затем вычисляют их среднее арифметическое значение, по которому затем определяют величину Индекса инклюзивного развития той или иной страны, дающего возможность определения качества, состояния сбалансированности системы управления и согласованного ведения хозяйства, выявления той или иной модели развития страны. И, самое интересное состоит в том, что ИИР рассчитываются не отдельными странами для себя, а составляются по сравнительным показателям Международных финансовых структур, что еще раз подтверждает объективность составленных Индексов.

По Индексу инклюзивного развития (ИИР), Азербайджанская Республика, находясь пока среди развивающихся стран, с ИИР, равным 4,69, опережает многие страны G-7, G-20 и др. [5].

Характерное для современного периода замедление экономического роста, имеющих место не только в ряде развивающихся, но и в развитых странах, стимулируя корректировку инструментов текущей финансово-экономической и социальной политики, одновременно активизирует усилия и по стратегическим направлениям. К их числу относится поиск новой модели социально-экономического развития, которая создаст условия для дальнейшего совершенствования системы рационального управления, развития и совершенствования всех сторон триединой концепции инклюзивного зеленого развития.

Сегодня уже на планетарном уровне всеми государствами, не зависимо от уровня развития той или иной страны, анализируются различные виды вызовов человечеству, глобальные риски, имеющих различные виды и формы проявления, от которых не защищена ни одна страна, независимо от конституционного устройства, форм и методов управления и ведения национального производства, географического местоположения, различия уровня развития.

Сегодня, чем дальше, тем больше озвучиваются различные риски, особо значимые в условиях тесного сотрудничества и взаимозависимости стран, когда ни одно государство не может развиваться вне зависимости от другого. При этом, одно и тоже явление, проявляющееся в различных странах, имеет как бы специфические формы проявления, о чем более подробно в следующих научных статьях и работах.

Замедление экономического роста, характерное не только для ряда развивающихся, но и для развитых стран, стимулируя корректировку инструментов текущей финансово-экономической и социальной политики, одновременно активизирует усилия и по стратегическим направлениям. К их числу относится поиск новой модели социально-экономического развития, способной ответить на актуальные вызовы, стоящие перед экономикой и обществом.

В своем отчете в 2012 г. Организация экономического сотрудничества и развития (ОЭСР) признала три проблемы, которые не удалось решить во времена рекордных темпов роста 1990-х и 2000-х гг.: бедность, безработица, неравенство. Экономический рост, выраженный в таких показателях, как ВВП, ВНП, не всегда эффективен в сокращении бедности. Несмотря на то, что начиная с 1990 г. удалось сократить бедность наполовину, все еще большое количество людей живет меньше чем на 1,25 долл. США в день. Успех будет зависеть от того, насколько эти группы людей смогут получать выгоду от экономического роста в своей стране. Без изменения модели эконо-

мического роста (имеется в виду переход к инклюзивному росту) может понадобиться 800 лет для того, чтобы наименее обеспеченный миллиард населения земного шара достиг 10% мирового дохода [5].

Азербайджан опережает многие страны, которые являются членами Европейского Союза и Организации экономического сотрудничества и развития: «Индексы инклюзивного развития Азербайджана превосходят показатели таких стран, как США, Япония, Италия, Израиль, Испания, Португалия, Турция, Россия и т.д. Это достижение говорит о том, что в Азербайджанской Республике экономическая, социальная и гуманитарная политика является важным направлением стратегии общего развития» [6].

Окружающая среда включает следующие подсистемы или разновидности природных ресурсов: водные, лесные, земельные, минерально-сырьевые ресурсы, атмосферный воздух, животный и растительный мир. Внутри этих подсистем также возможно деление на более мелкие подгруппы по региональному, национальному, метеорологическому и другим признакам.

Многие экологические проблемы современности обусловлены бесплатностью пользования окружающей средой. При нулевой цене природопользования экономические системы лишены регулирующего механизма, сдерживающего чрезмерную эксплуатацию окружающей среды и предохраняющего ее от деградации и уничтожения. Бесплатное пользование окружающей средой привело к истощению природных ресурсов, безнаказанному загрязнению промышленными и бытовыми отходами, разрушению и гибели живой природы и др.

В неоклассической экономической теории для научного обоснования соответствующей платы или цены используется теория альтернативной стоимости. Под альтернативной стоимостью понимается ценность следующей наилучшей альтернативы, от которой приходится отказаться в случае выбора данной альтернативы. Следовательно, говорить об альтернативной стоимости можно лишь в ситуации выбора. В нашем случае это предполагает существование нескольких альтернативных вариантов пользования окружающей средой.

В современной экономической литературе, к сожалению, забытого нами источника, дается очень интересная трактовка категории «Окружающая среда», с которой мы полностью согласны и поддерживаем её.

Согласно современным представлениям, окружающая среда выполняет четыре экономические функции:

- является общественным потребительским благом;
- служит источником производственных ресурсов;
- используется для размещения и поглощения отходов;
- является местом для расположения экономических объектов.

С точки зрения выполнения первой функции окружающая среда трактуется строго определенным образом. В роли общественного потребительского блага окружающая среда удовлетворяет те потребности человека, которые обеспечивают его физическое существование. Это потребности в воздухе для дыхания, воде для питья, в рекреации. Некоторые экономисты-экологи к числу жизненно важных потребностей человека относят получение эстетического удовольствия от общения с природой.

Способность окружающей среды удовлетворять указанные потребности человека обобщена в понятии «качество окружающей среды».

Вторая и четвертая экономические функции окружающей среды иногда объединяются в одну в силу своего сходства. Функция обеспечения производства необходимыми ресурсами приписывалась окружающей среде традиционно и долгое время она считалась единственной. Впоследствии из нее была выделена функция обеспечения пространства для расположения промышленных, сельскохозяйственных, строительных объектов, инфраструктуры и т. д. Если в прошлом такую функцию

выполняла преимущественно земля, то сейчас в этих целях используются также водные ресурсы, атмосферный воздух и космическое пространство.

Выполняя третью экономическую функцию, окружающая среда принимает в себя отходы производства и потребления, в результате чего происходит ее загрязнение и деградация. Выбрасываемые в окружающую среду загрязняющие вещества поглощаются отдельными ее подсистемами.

При этом они могут полностью или частично разрушаться, накапливаться, трансформироваться, перемещаться из одних подсистем в другие. Изменения в присутствии загрязняющих веществ в окружающей среде также происходят в результате диффузии.

Поскольку современное состояние окружающей среды не позволяет ей одновременно полноценно выполнять все четыре ее экономические функции, то каждую из этих функций можно рассматривать как альтернативный вариант пользования окружающей средой. Следовательно, возникает конкурентность в пользовании окружающей средой, которая является важнейшим постулатом современной экономики природопользования.

Конкурентность наблюдается:

1) при «перегруженности» (congestion) окружающей среды как общественного блага;
2) в случаях взаимоисключения всех экономических функций окружающей среды;
3) в межвременном аспекте как проблема удовлетворения потребностей нынешнего и будущих поколений людей.

В первом случае речь идет о том, что пространственно ограниченные общественные блага характеризуются снижением качества по мере увеличения количества потребителей. С учетом свободы доступа к общественному благу (по определению) возникает явление «перегруженности». В контексте эколого-экономической проблематики примерами могут быть ухудшение условий рекреации на берегу моря или реки, загрязнение атмосферного воздуха выхлопными газами и др.

Выполнение окружающей средой одной из ее экономических функций препятствует выполнению остальных функций. Так, на месте городской свалки нельзя одновременно удовлетворять потребности в рекреации или получении эстетического удовольствия от общения с природой, добывать полезные ископаемые или размещать сельскохозяйственные угодья. И наоборот, используя окружающую среду как общественное благо, приходится жертвовать всеми прочими функциями.

Наконец, пользование окружающей средой ведет к конфликту интересов поколений. Например, потребность в сохранении ресурсов для будущих поколений конкурирует с потребностью в снабжении сырьем текущего производства при невозобновимости этого сырья.

Мы полностью поддерживаем эти мысли, так как потребность в сохранении ресурсов для будущих поколений конкурирует с современными вопросами по снабжении сырьем текущего производства при невозобновимости этого сырья, и, в связи с этими теоретическими моментами, необходим серьёзные экономические и, если можно так говорить, практические моменты реализации вопросов, возникших в результате 44-х дневной победоносной войне по освобождению захваченных территорий суверенного Азербайджана.

Анализ этих взаимосвязанных категорий устойчивое развитие и зеленая экономика, как составных частей, элементов единого процесса, состоят в осмыслении и дальнейшем углублении изучения новых форм, методов и приемов труда, не наносящих ущерб окружающей природе, взаимоотношениям Человека - Природа, развития основных принципов и требований зеленой экономики, ресурсо-сберегающих, эколого-ориентированных технологий и новых приёмов труда и производства, проявляющихся и развивающихся на основе и в процессе использования зеленой энер-

гетики в Азербайджане, которому после Победы в 44дневной освободительной войны в Карабахском регионе, уделяется первостепенное внимание.

Очень актуальная и своевременная информация по проблематике нашей данной статьи была обнаружена на сайте Sputnik Azerbaycan.(Данные составлены на основе материалов Минэнерго АР, 18 февраля 2022 года) [7].

В силу того, что данная публикация вызвала у нас большой интерес, позволим себе более подробно остановиться на деталях данной публикации.

«В рамках развития "зеленой энергии" на освобожденных территориях в Зангиланском и Джебраильском районах была установлена станция солнечного мониторинга для измерения существующего солнечного потенциала.

В соответствии с указом президента Азербайджана Ильхама Алиева о создании "Зоны зеленой энергетики" в стране, Концепция "Зона зеленой энергетики на освобожденных от оккупации территориях" была разработана с привлечением японской компании TEPSCO и представлена правительству.

В рамках концепции рассмотрены варианты энергоснабжения в зависимости от расселения жителей и сценариев экономического развития. В рамках концепции проведен анализ по "зеленым технологиям", которые будут применены с учетом энергетического потенциала территорий.

Кроме того, в рамках подготовки Концепции "Зона зеленой энергетики на освобожденных территориях" в течение 2021 года было организовано восемь экспедиций по изучению потенциала возобновляемой энергетики на освобожденных территориях, выявлению территорий, оценке состояния действующих станций.

В ходе экспедиций в Зангиланском и Джебраильском районах была установлена станция солнечного мониторинга для измерения существующего солнечного потенциала, определены координаты местности.

Также были осмотрены разрушенные или недостроенные гидроэлектростанции в Лачинском коридоре, Губадлинском районе, Кельбаджарском районе, были сняты координаты каждой ГЭС, сделаны фотографии, отражающие техническое состояние станций и водозаборов, подготовлены и представлены соответствующие отчеты.

В ходе экспедиции в Карабах также были обследованы геотермальные источники в Кельбаджаре и Лачине.

"Известно, что территория Карабаха богата возобновляемыми энергоресурсами. Карабах является одним из основных регионов Азербайджана, где формируются местные водные ресурсы.

На этой территории формируется 25% местных водных ресурсов Азербайджана, то есть около 2,56 млрд. кубометров воды в год", - говорится в отчете Минэнерго АР.

Главные реки области, такие как Тертер, Базарчай (Баргушадчай), Хакари и другие малые реки, обладают большим гидроэнергетическим потенциалом.

Наряду с этим, запасы термальной воды в Кельбаджарском районе составляют 3093 $м^3$/сутки, а в Шуше – 412 $м^3$/сутки. В настоящее время изучается возможность использования этого потенциала.

**Компании, заинтересованные в "зеленой энергии" в Карабахе.** В целях эффективного использования возобновляемого энергетического потенциала освобожденных территорий подготовлен документ "Информационный запрос" по реализации проекта ветроэнергетики мощностью 100 МВт, за счет частных инвестиций в Кельбаджарском и Лачинском районах.

В настоящее время интерес к проекту проявили несколько иностранных и местных компаний. Ведутся переговоры с международными организациями об оказании консультационной поддержки следующему этапу проекта.

Среди компаний, которые заинтересованы в инвестировании в возобновляемую энергию на освобожденных территориях, компании из Турции (Best Brands Energy Group, Exim Holding, Renevo Energy, Solar

APEX, Zorlu Enerji, Black Pen, Voltan), Исландии (Artic Green Gorp, Mannvit, Efla, Noblica), Германии (Verkis), Израиля (Telemenia), Италии (Technimont), Кореи (Securo), Катара (Nebras Power), Китая (Gezhouba Group International) и других стран.» [см.8]

Все эти факты показывают очень большую заинтересованность Азербайджана в формировании энергетики будущего. А большой ряд зарубежных стран также заинтересованы принять участие в этом грандиозном проекте, тем более, что значимость Азербайджана на мировом уровне растет, что в первую очередь, связано с очень интересным и политически выдержанным слоганом, высказыванием Президента Азербайджанской Республики, главой государства «Моё слово моя подпись»!

И многие государства, их главы, сотрудники тех или иных структур, опираясь на это высказывание, уверенно направляются в Азербайджан со своими предложениями, финансами, с предложениями сотрудничества и совместного участия по поводу реализации на территории нашей страны различных по формам решения, но объединенных на основе одного, но очень важного компонента, имеющего очень большое глобальное значения – формирования ресурсо-сберегающего производства и эколого-ориентированного управления производством, дальнейшего развития новых, эколого-ориентированных технологий, приемов, методов и путей реализации главной проблемы современности – сберечь ресурсы Планеты и развивать ресурсо-сберегающую, по возможности, более нейтральную к природе, к окружающей человека, экономическую политику к ресурсам планеты технологиям, щадяще относящихся к весьма ограниченным ресурсам, использование которых на протяжении периода становления промышленного производства лавинообразного растущих потребностей людей, редко когда задумывающихся об ограниченности ресурсов природы.

Это еще раз подчеркивает, что наша страна продвигается в русле эколого-ориентированного управления во все сферах, возможных направлениях, как в теории, так и на практике, в деле формирования эколого-ориентированного управления, за которым будущее.

В этой связи хотелось бы отметить, что после 44-х дневной освободительной войны в Карабахском экономическом районе, в нашей стране, наблюдаются широкомасштабные процессы по развитию новых, ресурсосберегающих технологий, основанных на зеленых, природосберегающих технологиях и принципах использования ресурсов планеты Земля.

Согласно международным данным, в том числе статистическому обзору BP за 2021 год, запасы природного газа в Азербайджане оцениваются в 2,5 трлн кубометров. Выбросы парниковых газов при сжигании природного ниже, чем угля и других видов ископаемого топлива нефти. А Азербайджан – страна, которая производит и экспортирует газ, признаны в мире в качестве переходного топлива от традиционной к возобновляемой энергетике, сказал президент кенийского НПО, выражая поддержку Азербайджану в качестве страны-организатора COP29 [9].

А выбор Азербайджана в качестве страны-хозяйки COP-29, на которую соберутся десятки тысяч участников и гостей из большого числа стран, свидетельствуют о том, что наша страна подает очень обнадеживающие сигналы, направленные на интенсификации природоохранных мероприятий повсеместно на всей территории страны.

Пару месяцев тому назад тому назад Энергетическая компания Объединенных Арабских Эмиратов «Masdar» предложила соучаствовать в создании сети солнечных панелей и в Карадагском административном районе г. Баку и совместно подписали межгосударственный Меморандум о сотрудничестве [8], что является примером того, что позиции Азербайджана по проблемам охраны окружающей среды, с

каждым днем становятся все более и более поддерживаемые [8].

**Выводы и предложения.** Проведенное исследование дало возможность сделать некоторые выводы, среди которых можно выделить следующие.

С экономической точки зрения решение экологических проблем заключается в оптимальном распределении (allocation) окружающей среды между альтернативными вариантами ее использования. В результате возникает проблема экономического выбора и формируется альтернативная стоимость, позволяющая дать экономическую оценку благам и услугам окружающей среды.

**Литература:**


1. Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadfi inkişafa dair Milli proqram. 2003-cü il 18 fevral.
2. «Декларация Конференции Организации Объединенных Наций по проблемам окружающей человека среды», принятая Конференцией ООН состоявшейся в Стокгольме в 1972 году.
3. Конференция ООН по окружающей среде и развитию, Рио-де-Жанейро, Рио-де-Жанейрская Декларация по окружающей среде и развитию, 3-14 июня 1992 года.
4. Генеральная Ассамблея ООН 27 июля 2012 года, Приложение «Будущее, которого мы хотим». Глава I. Наше общее видение, параграф 4.
5. Алакбаров, У.К. Основы управления устойчивым развитием и экологической цивилизацией. Учебник для высших учебных заведений. – Баку, Aspoliqraf. – 2017. – 192 с.
6. Алакбаров, У.К. В 2018 году наша республика заняла высокие позиции в мире в области инклюзивного развития // https://azertag.az/ru/xeber/akademik_urhan_alekperov_v_2018_godu_nasha_respublika_zanyala_vysokie_pozicii_v_mire_v_oblasti_inklyuzivnogo_razvitiya-1207748 [24.10.2018]
7. Как развивается концепция “зеленой энергии” в Карабахе. Данные Минэнерго АР (Sputnik) // https://az.sputniknews.ru/20220218/kak-razvivaetsya-kontseptsiya-zelenoy-energii-v-karabakhe-439198972.html [18.02.2022]
8. Government of Azerbaijan and Masdar company of United Arab Emirates signed documents // https://azertag.az/ru/bolme/official_chronicle [26.10.2023]
9. Ortiz and Cummins (2011) «Beyond the bottom billion» Unicef, New York.
10. Как ветроэнергетика влияет на окружающую среду в Азербайджане- https://az.sputniknews.ru/20220108/araby-v-proektakh-vie-v-azerbaydzhane-kak-neftedollary-otkryli-put-k-zelenoy-energii-436536623.html [08.01.2022]


***Ключевые слова:*** *устойчивое развитие и устойчивое состояние, альтернативная стоимость, четыре экономические функции окружающей среды, COP29*

**Adil Sultanov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru*

# BİR SIRA MÜASİR KATEQORİYALARIN NƏZƏRİ VƏ İQTİSADİ TƏHLİLİ MƏSƏLƏSİNƏ DAİR

## XÜLASƏ

Bu məqalədə bugünkü Azərbaycan üçün yeni, yeni kəşf edilmiş imkanlar, reallıqlar və çağırışlarla, yəni yaşayış məntəqələrinin, yolların, körpülərin, mədəniyyət və ictimai obyektlərin bərpası, praktiki olaraq yeni tikintisinin bütövlükdə bərpa edilməsi zərurəti ilə bağlı məsələlər nəzəri və iqtisadi təhlil kontekstində araşdırılır. onların tərkib hissələrinin əsasını təşkil edir və yüz minlərlə insanın yaşaması üçün imkan və şərait yaradır.

Bu tədqiqat yaşıl, ətraf mühitə qənaət edən, yumşaq iqtisadiyyatın inkişafı prosesində üçlü konsepsiyanın (iqtisadi, sosial və ekoloji komponentlər) həyata keçirilməsi mexanizminin öyrənilməsinə həsr edilmişdir. Məqalədə müəllif cəmiyyətin hazırkı inkişaf səviyyəsi kontekstində nəzərdən keçirilən yeni reallıqları dərk etməyə, insan mühitinin mühafizəsinə töhfə verən əsas komponentləri müəyyən etməyə çalışır ki, bu da rasional və rasional proses kimi həyata keçirilir. bəşəriyyətin malik olduğu bütün sərvətlərdən ehtiyatla istifadə etməklə, bərqərar olur.

Məqalədə, həmçinin cəmiyyətin sosial-iqtisadi inkişafının hazırkı vəziyyəti kontekstində bir-biri ilə sıx əlaqəli kateqoriyalar - yaşıl iqtisadiyyat və davamlı inkişaf təhlili verilir.

***Açar sözlər:*** *davamlı inkişaf və sabit vəziyyət, imkan dəyəri, ətraf mühitin dörd iqtisadi funksiyası, COP29*

**Adil Sultanov**
*The Academy of Public Administration*
*under the President of the Azerbaijan Republic,*
*Department of State Regulation of Economics,*
*Ph.D. in Economics, Associate Professor*

# THE ISSUE OF THEORETICAL AND ECONOMIC ANALYSIS OF A NUMBER OF MODERN CATEGORIES

## ABSTRACT

This article examines issues related to newly discovered opportunities, realities, and challenges for today's Azerbaijan in the context of theoretical and economic analysis. The author looks into such issues as the need for new construction of housing, roads, bridges, and cultural and public facilities in the integrity of their components, as well as the basis and creation of opportunities and conditions for the lives of hundreds of thousands of people.

This study is devoted to studying the mechanism for implementing the triune concept (economic, social, and environmental components) in developing a green, environmentally saving, gentle economy. In the article, the author attempts to comprehend new realities, considered in the context of society's current level of development, to identify the main components that contribute to the protection of the human environment, which, as the process of rational and careful use of all the wealth that humanity possesses, becomes established.

The article also analyzes the closely interrelated categories - green economy and sustainable development - in the context of society's current socio-economic development.

***Keywords:*** *sustainable development and steady state, opportunity cost, the four economic functions of the environment, COP29*

DOI: 10.30546/2309-1347.2024.1316

İ Q T İ S A D İ Y Y A T
E C O N O M Y

UOT 338.1; 330.34/.35; 338.26/.28; 338.12

**SƏİDƏ QURBANOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəetməsi və menecment kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru**
*e-mail: qurbanovaseide49@gmail.com*

# AZƏRBAYCANDA BƏLƏDİYYƏLƏRİN RƏQƏMSAL VASİTƏLƏRDƏN İSTİFADƏSİ PROSESİN PERSPEKTİVLƏRİ

XXI əsrin rəqəmsal texnologiyanın sürətli inkişafı ilə internetin genişmiqyaslı istifadəsi, böyük məlumatlar, kiber sistemlər, bulud hesablama texnologiyaları, süni intellekt kimi inkişaf faktorları rəqəmsal inkişaf prosesini sürətləndirdi. Bu müddətdə ictimai həyatda əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər isə vətəndaşların yaşadıqları yerlərdə ictimai xidmətlərə olan tələblərini tədricən dəyişmişdir. Bu inkişaf prosesi yerli özünüidarəetmə orqanlarını daha şəffaf, hesabatlı, iştirakçı və demokratik etməklə vətəndaşların istək və tələblərini qarşılamaq baxımından dəyişməyə sövq etmişdir. Davamlı inkişaf edən informasiya və kommunikasiya texnologiyaları bələdiyyələrin elektronlaşmasını sürətləndirir, yerli xidmət anlayışında yeni üfüqlər açır, xidmət keyfiyyətini artırır və vətəndaşlar üçün bu xidmətlərin daha asan ərsəyə gəlməsini təmin edir. Yerli özünüidarəetmə vahidlərinin rəqəmsal dönüşümü xidmətlərin göstərilməsində keyfiyyətin artmasına, vətəndaşların gözləntilərinə və tələblərinə həssas yanaşmanın yaranmasına və xidmət xərclərinin azalmasına kömək edir. Yerli özünüidarəetmə orqanları, vətəndaşlara keyfiyyətli xidmət göstərmək və resurslarından səmərəli və təsirli istifadə edərək, vətəndaşların bu proseslərdə iştirakını həyata keçirmək kimi əsas məqsədlərinə çatmaq üçün rəqəmsal dövrün tələb etdiyi informasiya və kommunikasiya texnologiyalarına investisiya qoymağa başlayıblar. Rəqəmsal çağdan əvvəl xidmətlərini ənənəvi idarəetmə yanaşması ilə həyata keçirən bələdiyyə strukturları hal-hazırda dünyada baş verən dəyişikliklər, texnoloji inkişafı daha yaxından izləyərək və daha demokratik, təsirli, səmərəli, şəffaf, hesabatlı və iştirakçı idarəetmə yanaşmasını tətbiq etmək imkanı əldə etmişdir.

Bələdiyyələr yerli idarəetmə sistemi daxilində vətəndaşlara ictimai xidmətlər göstərən vahidlərdir. İnkişaf etməkdə olan texnologiya ilə yerli özünüidarəetmənin ən əhəmiyyətli xidmət təminat vahidi olan bələdiyyələrin özlərinin bəzi xidmətlərini internet mühitinə köçürdükləri görülməkdədir. Bundan əlavə, artıq bələdiyyələr sosial mediadan və internetdən geniş istifadə edir. Elektron bələdiyyə konsepsiyası elektron hökumətdən ayrı hesab edilə bilməz. Elektron hökumət-vətəndaşlara dövlət tərəfindən verilən xidmətlərin elektron mühitdə təqdim edilməsi deməkdir. Burada dövlət xidmətlərinin vətəndaşa ən asan və ən təsirli yolu ilə keyfiyyətli, sürətli, fasiləsiz və etibarlı bir şəkildə çatdırılması nəzərdə tutulur. Bürokratik və klassik dövlət anlayışlarının yerini almağa başlayan E-hökümət anlayışı ilə

hər təşkilatın və hər fərdin məlumat və kommunikasiya texnologiyaları ilə dövlət təşkilatlarına və təşkilatlar tərəfindən təqdim edilən xidmətlərə asanlıqla çatması nəzərdə tutulur. E-Bələdiyyə, bələdiyyələrin bütünlüklə rəqəmsal dönüşümünü təmsil edən bir mərhələdir. Bu çevrilmədə bələdiyyə daxilindəki bütün vahidlər informasiya və kommunikasiya texnologiyalarına inteqrasiya olunmalıdır. Kaypaka görə e-bələdiyyə, elektron hökumətin yerli hissəsi olaraq ortaya çıxan informasiya və kommunikasiya texnologiyalarından faydalanaraq təklif olunan yeni xidmət konsepsiyasının əksidir. Digər tərəfdən Merter, e-bələdiyyəni, vətəndaşların texnoloji infrastrukturdan istifadə edərək bələdiyyələrin qərar qəbul etmə proseslərində iştirak etmələrini təmin edən texnoloji əsaslı bir tətbiq olaraq qiymətləndirir. Elektron bələdiyyə məlumatların informasiya texnologiyalarının dəstəyi ilə idarə edilməsinə, bu məlumatların vətəndaşların xeyrinə çevrilməsinə və vətəndaşların xidmətinə təqdim edilməsinə yardım edir.

Elektron Bələdiyyə konsepsiyası bələdiyyə xidmətlərinin elektron mühitə ötürülməsi kimi görünsə də, əhatə dairəsi həqiqətən daha genişdir. Elektron bələdiyyə texnologiyanın köməyi ilə daha şəffaf, təsirli, səmərəli, vətəndaşa yaxın və onun iştirakını əsas tutan bir quruluşa istinad edir. Bu baxımdan e-bələdiyyə konsepsiyası yerli xidmətlərin veb saytlar vasitəsilə elektron mühitə köçürülməsilə yanaşı arxa planda baş verməli olan dəyişiklikləri də izah edir. Bu dəyişikliklər vətəndaş-müştəri yönümlü xidmət yanaşmasının qurulmasını, yeni bir inzibati quruluşun yaradılmasını və rəqəmsal texnologiyalardan istifadə edə bilən insan resurslarının yetişdirilməsi kimi geniş dəyişim tələb edir. Elektron hökumət və e-bələdiyyə kimi rəqəmsal tətbiqlər peşəkar, rasional, şəffaf, yoxlanıla bilən, iştirakçı və təsirli bir dövlət idarəçiliyinin əsas tələblərindəndir. Bu səbəbdən bələdiyyələrin rəqəmsal çevrilməsi, vətəndaşlara dövlət xidməti göstərmə müddətində vaxta və maliyyəyə qənaət edərək daha sürətli, şəffaf, səmərəli və keyfiyyətli bir şəkildə xidmət göstərilməsinə əhəmiyyətli qatqı təmin edir. Beləliklə, yerli idarəetmələrdə rəqəmsallaşdırmanın məqsədi: xidmətlərin göstərilməsi proseslərində səmərəliliyi və effektivliyi təmin edərək xidmətdən istifadə edən vətəndaşın həyat keyfiyyətini artırmaqdır. Ancaq texnologiyanın imkanlarının artması ilə əldə ediləcək faydalar gündən-günə şaxələnir. Bu müxtəliflik, rəqəmsallaşmanın əsas məqsədləri olan effektivlik, təsirlilik və yaxşı idarəetmə prinsiplərinin tam mənası ilə həyata keçirilməsi ilə əlaqədar şəkildəki kimi üç başlıq altında qruplaşdırıla bilər:




**Şəkil.** Rəqəmsallaşmanın məqsədi Mənbə: Aksu, 2018:145-146.

Rəqəmsal transformasiya yerli idarəetmələrdə, xüsusən də bələdiyyələrdə bir çox yeniliklər gətirməklə yanaşı, həm bələdiyyələr, həm də vətəndaşlar üçün mühüm imkanlar yaratdı. Bu çərçivədə bələdiyyələrdə xidmətlərin göstərilməsində rəqəmsallaşdırmanın faydaları belə ümumiləşdirilə bilər:

- ✓ Vətəndaşlar həm bələdiyyələrin qərar qəbuletmə proseslərində iştirak baxımından, həm də xidmətin göstərilməsində yer və zaman məhdudiyyətinin dəyişimi ilə daha sürətli xidmətlər alma fürsəti əldə etdilər. Buna görə xidmətlərin istehsalı və əldə edilməsi üçün vaxt qısalmışdır.
- ✓ Bələdiyyələr yalnız yerli xalqla məhdudlaşmadan ictimai xidmətlər göstərməkdə daha geniş kütlələrə çatmaq fürsəti əldə ediblər.
- ✓ E-hökumət və e-bələdiyyə kimi vətəndaşların həyatını asanlaşdıran tətbiqlər hazırlandı.
- ✓ Vətəndaşların istək və tələblərinin yerli səviyyədə sürətli və etibarlı şəkildə qarşılanması təmin edilmişdir.
- ✓ Yüksək keyfiyyətli, vətəndaş yönümlü, 24/7 kimi xidmət təcrübələri ortaya çıxdı.
- ✓ Daha şəffaf və hesabatlı bir idarəetmə yanaşması formalaşdı. Bu çərçivədə bələdiyyə xidmətləri və bələdiyyə idarələri tərəfindən qəbul edilən qərarlar daha çox nəzarət edilə bilən hala gəldi. Təqdim olunan xidmətin hesabatlılığı və nəzarəti asanlaşmışdır.
- ✓ Vətəndaşların xidmətdən yararlanmaq üçün çəkdikləri xərclər azalıb.
- ✓ Vətəndaşlarla bələdiyyələr arasındakı maneələri aradan qaldıraraq qarşılıqlı təsiri artırmışdır.
- ✓ Bələdiyyələrin vətəndaşların tələb və şikayətlərinə qısa müddətdə cavab verməsi təmin edildi. Vətəndaşların xidmət göstərilməsi barədə və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti haqqında rəyini almaq asanlaşdı. Xidmətin göstərilməsi proseslərinin izlənməsi sadələşmişdir.
- ✓ Mərkəzi idarəetmə və yerli özünüidarəetmələr arasında məlumat axının təmin edilməsində rahatlıq əldə edilmişdir.
- ✓ Yerli idarəetmə orqanlarının qərar qəbuletmə proseslərindəki bürokratik əngəllər və kargüzarlıq işləri azalaraq, daha sürətli qərar qəbul etmələri və bunları həyata keçirmələri üçün imkanlar təmin edilmişdir.

Bələdiyyələr rəqəmsal çevrilmə ilə vətəndaşların gözləntilərinə və tələblərinə cavab vermək baxımından özlərini yeniləyərək daha aktiv bir quruluş əldə etmişdir. Bu nöqtədə qeyd edə bilərik ki, bir çox dünya ölkələrində bələdiyyələr özlərinə məxsus veb-saytlara və sosial mediada hesablara malikdir. Məsələn, Türkiyə, Fransa, Amerika Birləşmiş Ştatları, Almaniya, İsveçrə, İsveç və s. Lakin elektron-bələdiyyə konsepsiyası bələdiyyələrin hər hansı bir veb-sayt üzərindən özünü tanıtması və ya vətəndaşların bələdiyyə binalarına getmədən internet üzərindən xidmətlərdən istifadə etməsindən daha geniş mənanı kəsb edir.

Elektron bələdiyyə idarəçiliyinin tətbiq edilməsində ən yaxşı nümunə kimi Hollandiyanın Molenlanden bələdiyyəsini qeyd bilərik. Molenlanden bələdiyyəsi 2013-cü ildə Hollandiyada üç kiçik bələdiyyənin (Graafstroom, Liesveld və Nieuv-Lekkerland) birləşməsilə yaranmışdır. Halmosa görə, bu birləşmənin məqsədi Hollandiyadakı bələdiyyələrin sərf etdikləri xərclərin səmərələşdirmək idi. Molenlanden Bələdiyyəsi OGD İnformasiya Kommunikasiya Texnologiyaları ilə ağıllı onlayn xidmətlər təklif edərək daha yaxşı nəticə əldə etmək üçün “Office 360” və “Azure” xidmətləri ilə Microsoft bulud texnologiyasından istifadə edir. “Skype” tətbiqi vətəndaşlarla ünsiyyət qurmaq üçün istifadə olunur. Bələdiyyədə Microsoft bulud hesablama xidmətlərindən istifadənin əsas səbəbi daha ucuz və vətəndaş məlumatlarının qorunmasında daha inamlı olmasıdır. Molenlanden virtual bələdiyyəsi, Microsoft tərəfindən 2015-ci ildə "yenilikçi fikirlər" kateqoriyasında "İlin Ağıllı Şəhəri" adına namizəd göstərilmişdir.

Molenlanden rəqəmsal bələdiyyəsinin formalaşdırılmasında məqsəd təkcə pula qənaət etmək deyil, idarəetmə prinsiplərini həyata keçirmək və xidmətlərin keyfiyyətini artıraraq vətəndaşların həyatını asanlaşdıracaq fəaliyyətlərlə məşğul olmaq idi. Həmin müddət ərzində şəhər bələdiyyəsini formalaşdırmaq üçün 15 milyon avroya ehtiyac var idi. Halbuki rəqəmsal bələdiyyəni həyata keçirmək üçün 3 milyon avro xərcləndi. Rəqəmsal bələdiyyənin üstünlüklərini nəzərə alsaq, bu məbləğ daxili bir bələdiyyə binasının qiymətindən xeyli aşağıdır. Rəqəmsal bələdiyyə tətbiq olunduqda, vətəndaşlar bələdiyyə inzibati proseslərinin işini əvvəlkindən daha asan izləmə fürsəti də əldə etdilər. Elektron-bələdiyyənin xidmətlərinin obyektə münasibətindən asılı olaraq üç istiqamətdə qruplaşdırmaq olar: vətəndaşlarla əlaqə (G2C), bizneslə əlaqə (G2B) və hökumətlə əlaqə (G2G).

Hazırda Azərbaycanda İKT-nin inkişafı əhəmiyyətli sahəyə çevrilmişdir. İnformasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etmək ölkənin inkişafının təmin edilməsi, gələcək inkişaf üçün effektiv mexanizmlərin formalaşması və qlobal informasiya inteqrasiyanı genişləndirməyə yönəlir. Bu strategiya bir sıra vəzifələri və məqsədləri əhatə edir: vətəndaşlardan və sosial institutlardan məlumatlar almaq, onlardan istifadə etmək və müvafiq hüquqlardan istifadə edilərək məlumatları yaymaq; səmərəli, şəffaf sistemin qurulması üçün dövlət və yerli özünüidarəetmələrdə elektron hökümətin vacibliyi; informasiya və kommunikasiya xidmətlərinin formalaşdırılması və genişləndirilməsi; ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi.

Ötən illərə nəzər yetirsək, 2011-2014-cü illərdə İKT-nin inkişafı ilə əlaqədar "Elektron hökumətin" yaradılması, onun inkişafı ilə bağlı baza xidmətinin yaradılması xüsusi yerə sahibdir. Azərbaycan Respublikasının informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyaya əsasən keçirilən tədbirlər rabitə və telekommunikasiya sahələrində nailiyyətlərini əldə edilərək inkişafına səbəb oldu. Bu sektor üzrə statistikanı araşdırsaq, ilkin hesablamalar nəticəsində bu sektora 400 milyon manat həcmində investisiya yatırılmışdır. Artıq bu gün əhalinin 100 nəfərinə 110 mobil düşür ki, buda orta göstəricidən 40% çoxdur. 2021-ci ilin yanvar ayının göstəricilərinə görə, Azərbaycanda 8,26 milyon internet istifadəçisi var. Ölkəmiz üzrə internet istifadəçilərinin sayı ötən ilə nisbətən 202 min nəfər, yəni 2.5% artıb. İnternetin ölkəmizdə yayılma faizi isə 81,1% təşkil edib.

Dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin inkişaf etdirilməsi üçün "Elektron bələdiyyə" layihəsinin işlənməsi və tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Elektron bələdiyyə anlayışı, bələdiyyələrdə müasir informasiya və texnologiyaların tətbiqinə, bununla yanaşı, vətəndaşa internet vasitəsilə xidmət göstərilməsi, işçilərin öz aralarında kompüter şəbəkəsi vasitəsilə əlaqəsi və həmçinin işdən kənarda lazımı informasiya mübadilələrinin həyata keçirilməsi ilə izah oluna bilər. Elektron bələdiyyələrə keçidin üstünlüyü əhaliyə lazım olan informasiyaların bələdiyyələrə məxsus olan internet saytında yerləşdirilmiş olmasıdır. Burada həm bələdiyyələr, həm də vətəndaşlar üçün zaman itkisi olmur, vətəndaşlar növbədə dayanmır, operativ və şəffaf sistemlə işlər həyata keçirilir. Respublikamızda yerləşən bələdiyyələrdə informasiya texnologiyalarından istifadənin keyfiyyəti müasir dövrdə yüksəldilməyə çalışılır. Bələdiyyə orqanlarında bu sistemlərin işlənib hazırlanmasına və tətbiq edilməsinə diqqət ayrılır. Tədqiqatlar onu göstərir ki, elektron bələdiyyələr bir sıra funksiyalar əhatə edir:

- ✓ Elektron təşkilat - daxili idarəetmədə olan səmərəlilik və effektivlik göstəricilərinin olması;
- ✓ Elektron servis - xidmətlərin həyata keçirilməsi üçün xarici effektivlik göstəriciləri;
- ✓ Elektron partnyorluq – biznes və ictimaiyyət sektoru işləyərkən effektivlik;
- ✓ Elektron demokratiya – qərar qəbul etmə prosesində əhalinin iştirakı.

Yerli özünü idarəetmə orqanlarının elektronlaşması 3 mərhələdə gerçəkləşdirilə bilər: Birinci mərhələdə, bələdiyyələrin kompüterləşməsi, internet saytlarının yaradılması, proqramların tətbiqi və həyata keçirilməsi; İkinci mərhələdə, bələdiyyələrdə sənəd dövriyyəsinin elektronlaşması; Sonuncu mərhələdə, bələdiyyələrin klassik funksiyalarının elektronlaşması. Bələdiyyələrdə informasiya təminatının başlıca vəzifələri aşağıdakılardan ibarətdir: bələdiyyə idarəetməsində informasiya texnologiyalarının yaradılması; bələdiyyələrin informasiya texnologiyalarına olan tələbatın müəyyənləşdirilməsi; bələdiyyələrin informasiyalaşdırılması üçün layihə standartlarının işlənib hazırlanması; bələdiyyələrə dair statistik hesabatların inkişaf etdirilməsi və s. Belə sistemin yaradılması müasir texnika, proqram, maliyyə və kommunikasiya xəttlərinin olmasını tələb edir.

Effektivliyi artırmaq, xərcləri azaldaraq ixtisara salmaq, şəffaflıq səviyyəsini yüksəltmək, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini yüksəltmək və xidmətlərin keyfiyyətlə yanaşı sürətli həyata keçirilməsi bələdiyyələrin qarşısında bir vəzifə kimi dayanır. Məsələn, belə bir nümunə göstərmək olar: bələdiyyə işinin təkmilləşdirməsinə görə Cənubi-Şərqi Avropa dövlətlərində informasiya cəmiyyətinin inkişafı əsas hədəflərdən sayılırdı. Buna əsasən E-Munis layihəsi həyata keçirilir. E-Munis proqramının məqsədi informasiya sahəsində əldə edilən məlumatları bələdiyyə fəaliyyətinə uğurla tətbiq etməkdir. Proqram çərçivəsində məqsəd Avropa Birliyi bələdiyyələrinin elektron-bələdiyyə sahəsində təcrübəsini Cənub-Şərqi Avropa dövlətlərinə yaymaqdan ibarətdir. Hətta bu məqsədlə Avropa Birliyi və Cənub-Şərqi Avropa dövlətlərində bələdiyyə və informasiya texnologiyaları şirkətlərinin birgə konsorsiumu yaradılıb.

Belə təcrübənin Azərbaycanda öyrənilməsi və yerli xüsusiyyətlər nəzərə alınaraq tətbiqi bələdiyyələrin elektronlaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Bunun üçün ilk növbədə Avropa Birliyində yaranmış təcrübə və informasiya texnologiyaları sahəsində infrastruktur vəziyyəti öyrənilməli, eyni zamanda Azərbaycanda bələdiyyələrin elektronlaşmasına olan tələb qiymətləndirilməlidir. Bundan başqa E-Munis proqramında olduğu kimi bələdiyyələrə tətbiq edilən elektron sistem həm arxa ofisdə, həm də ön ofisdə pilot qaydada tətbiq edilə bilər. E-bələdiyyə sistemində arxa ofis elektron sənəd idarəsi sistemini, xarici informasiya mənbələri üzrə fəaliyyəti, bələdiyyənin informasiya şəbəkəsini əhatə edir. Ön ofis vətəndaşlara elektronlaşmış şəkildə fəaliyyət göstərilməsindən ibarətdir. Belə xidmətləri vətəndaşlar bələdiyyələrə internet üzərindən sifariş edə və qəbul edə bilir. Elektron-bələdiyyənin xidmətlərini üç istiqamətdə qruplaşdırmaq olar: vətəndaşlarla əlaqə; bizneslə əlaqə; hökumətlə əlaqə. İqtisadi Tədqiqatlar Mərkəzi hər üç istiqaməti nəzərə alaraq, bələdiyyə fəaliyyətinin elektronlaşması üçün Böyük Britaniyanın “Oxfam” və Niderlandın “İCCO” təşkilatlarının maliyyə dəstəyi ilə həyata keçirdiyi Azərbaycanda bələdiyyələrin gücləndirilməsi layihəsi çərçivəsində elektron bələdiyyə inkişaf konsepsiyasını hazırlayıb.

Hazırda elektronlaşma cəmiyyət həyatının bütün istiqamətlərini əhatə edir. Azərbaycanda yerli özünü idarəetmə orqanlarının elektronlaşması bir sıra zərurətlərdən doğur: bələdiyyələr və digər dövlət orqanları arasında əlaqələrin qurulması zamanı bərabər informasiya texnologiyalarına malik olmaq; bələdiyyələrin e-bankçılıq xidmətlərinə adekvat münasibətini formalaşdırmaq; bələdiyyələrin beynəlxalq mühasibat uçotuna keçid və mühasibatlığın elektronlaşması sürətinə uyğunlaşdırmaq; bələdiyyə ilə müəssisə-təşkilat və ev təsərrüfatlarının elektronlaşma (xüsusilə də kompüterləşmə) səviyyəsini saxlamaq; bələdiyyələrin Avropa yerli özünüidarəetmə orqanları ilə üfüqi əməkdaşlığı və inteqrasiyasını təmin etmək və s. Yuxarıda sadalanan zərurətlərdən bələdiyyələrin elektronlaşması dövlət proqramlarının əsas obyektinə çevrilməsini şərtləndirir.

**Cədvəl.** Bələdiyyələrin orta illik gəlirinə düşən kompüter dəstinin sayı.

| İqtisadi rayon | Bir bələdiyyə üzrə icra olunmuş illik büdcə gəliri (AZN) | Kompüter dəstinin orta bazar qiyməti, (AZN) | Bələdiyyənin orta illik gəlirinə düşən kompüter dəstinin sayı |
|---|---|---|---|
| 1. Abşeron | 230774 | 1000 | 231 |
| 2. Gəncə-Qazax | 9888 | 1000 | 10 |
| 3. Şəki-Zaqatala | 18496 | 1000 | 18 |
| 4. Lənkəran | 4692 | 1000 | 5 |
| 5. Quba-Xaçmaz | 16059 | 1000 | 16 |
| 6. Aran | 11012 | 1000 | 11 |
| 7. Yuxarı Qarabağ | 5034 | 1000 | 5 |
| 8. Dağlıq-Şirvan | 10497 | 1000 | 10 |
| 9. Bakı | 308569 | 1000 | 309 |
| 10. Naxçıvan | 2275 | 1000 | 2 |
| Respublika üzrə cəmi | 18149 | 1000 | 18 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.

Bələdiyyənin maliyyə təsərrüfat fəaliyyəti, bununla yanaşı büdcə gəlirləri və xərclərinin təhlili göstərir ki, yerli özünü idarəetmə orqanlarının əksəriyyəti özlərini informasiya avadanlıqları ilə təmin etmək gücündə deyil (cədvəl). Hal-hazırda, Bakı və Abşeron bələdiyyələri istisna olmaqla digər rayon bələdiyyələri öz büdcəsi hesabına kompüter dəsti almaq iqtidarında deyil. Demək olar ki, Bakı və Abşeron ərazisində yerləşən bələdiyyələr kompüterləşiblər. Gəncə-Qazax, Lənkəran, Aran, Yuxarı Qarabağ, Dağlıq Şirvan və Naxçıvan bələdiyyələrində bir aylıq orta büdcə gəliri bir dəst kompüterin qiymətindən azdır. Azərbaycanda yerli özünü idarəetmə orqanları tamamilə elektronlaşdıqdan sonra "Elektron bələdiyyə" sistemi təşkil edilə bilər. Bələdiyyələrin informasiya portalının yaradılması əhaliyə xidmət göstərilməsi ilə yanaşı, bələdiyyə ərazisində olan tarixi məkanlar, coğrafiyası, yaşayış məntəqələri, təbii resursları və turizm imkanları yerləşdirilə bilər. Elektron xidmətlərin genişlənməsi Azərbaycanda biznesin inkişafı üçün zəmin olacaqdır. Bu proseslərin hər biri 2025-ci ilə kimi iqtisadi səmərəliliyin artmasına gətirib çıxaracaqdır. Bunun nəticəsində Azərbaycan elektron xidmətlərinə görə region ölkələri arasında ön plana keçəcəkdir. Hal hazırki sıralamada Azərbaycan 65-ci yerdədir. İKT bilikləri insan kapitalının formalaşmasında həlledici rol oynayır. Hazırda ölkədə demək olar ki, bütün regionların, təhsil müəssisələrinin, idarələrin internetə çıxışı vardır. İKT biliklərinin şagirdlərə aşılanması və müəssisələrdə elektron xidmətlərin tətbiq edilməsi bu inkişafın əldə olunmasında mühüm rol oynayır. 2020-ci ilin avqust ayında "Bələdiyyələrlə iş portalı"nın ilkin versiyası istifadəyə verilmişdir. Ədliyyə Nazirliyi tərəfindən yeni yaradılmış bu elektron resursda fərdi kabinet vasitəsilə bələdiyyə aktlarının yayımlanması, onların axtarışı, avtomatlaşdırılmış rejimdə statistik hesabatların tərtib edilməsi kimi funksional imkanlar yaradılmış, nazirliyin aidiyyəti qurumları və bələdiyyələr arasında elektron sənəd dövriyyəsi mübadiləsi təşkil olunmuşdur. Həmçinin, qeyd edə bilərik ki, ölkə

bələdiyyələri haqqında məlumatın əldə edilməsinə dair elektron xidmətin təşkili üzrə işlər yekunlaşdırılmışdır. Bu elektron xidmətin tətbiqi ilə vətəndaşlar bütün bələdiyyələr və 15 mindən artıq bələdiyyə üzvü barədə informasiya əldə etmək imkanı təmin olunacaqdır. Ötən illər ərzində yerli özünüidarəetmə orqanlarının işinin yeni tələblərə uyğunlaşdırılması, müasir texnologiyalar və internetdən istifadənin genişləndirilməsi üzrə müvafiq tədbirlər həyata keçirilmişdir. Nəticədə hazırda kompyüter avadanlığı ilə təmin olunmuş və internetə çıxışı olan bələdiyyələrin sayı onların 2/3 hissəsini təşkil edir. Qeyd olunan prosesin bütün bələdiyyələri əhatə etməsi istiqamətində tədbirlər görülür. Nəticədə demək olar ki, rəqəmsal dövrün bu yeni özünüifadə və sərbəst ünsiyyət mərhələsi eyni zamanda vətəndaşların bələdiyyələrdən gözləntilərini, tələblərini və hesabatlılıq istəklərini artırmışdır. Bələdiyyələrin rəqəmsal vasitələrdən geniş şəkildə istifadəsi xidmətlərin təqdim edilməsində bürokratiya və kargüzarlıq işlərinin azaldılması, yaxşı idarəçilik prinsiplərinin həyata keçirilməsi, şəffaf, yoxlanıla bilən, effektiv, səmərəli, iştirakçı bir şəkildə xidmətlərin göstərilməsi, xidmətin göstərilmə vaxtının və xərclərinin azalması, vətəndaşın həyatını asanlaşdırma kimi məsələlərdə mühüm töhfələr verəcəkdir.

**Ədəbiyyat:**


1. Həsənoğlu, M. Azərbaycan Respublikasının yenidən qurulması və bələdiyyələrin gücləndirilməsi. – Bakı. – 2008. – 412s.
2. Hüseynova, X. // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – Bakı. – 2018.
3. İbrahimov, İ. Bələdiyyə idarəçiliyi. Dərslik. – Bakı: İqtisad Universiteti nəşriyyatı. – 2018. – 440s.
4. Mecek, Mehmet, “E-Devlet ve E-Belediye: Kavramsal Çerçeve ve Türkiye'de 5. Belediye Web Sitelerine Yönelik Yapılan Çalışmaların İncelenmesi”, Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, S.22(KAYFOR'15 Özel Sayısı), 2017. səh 1851
5. Erdoğan, Oğuzhan, “Yerel Yönetimlerde Dijital Dönüşüm: Molenwaard Belediyesi Örneği”, Siirt Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2019. səh 59
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.


***Açar sözlər:*** *bələdiyyələr, rəqəmsal texnologiyalar, elektron bələdiyyələr, elektron-hökumət, yerli idarəetmə, rəqəmsal inkişaf, elektron bələdiyyə konsepsiyası*

**Saida Gurbanova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of Public Administration and Management Associate Professor, Ph.D. in Economics*

# PERSPECTIVES OF THE PROCESS OF USING DIGITAL TOOLS BY THE MUNICIPALITIES OF AZERBAIJAN

## ABSTRACT

The widespread use of digital tools by municipalities in the provision of services will lead to a reduction in bureaucracy and clerical work, the introduction of good governance principles, transparent, verifiable, efficient, effective, and participatory service delivery, a reduction in time and costs for the provision of services, an important contribution to solving issues such as making life easier for citizens.

***Keywords:*** *municipalities, digital technologies, e-municipalities, e-government, local government, digital development, e-municipality concept*

**Саида Курбанова**

*Доцент кафедры «Государственное управление и менеджмент» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономике*

# ПЕРСПЕКТИВЫ ПРОЦЕССА ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ИНСТРУМЕНТОВ МУНИЦИПАЛИТЕТАМИ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Широкое использование цифровых инструментов муниципалитетами при предоставлении услуг, приведет к сокращению бюрократии и канцелярской работы, внедрению принципов хорошего управления, к прозрачному, проверяемому, эффективному, действенному и коллективному предоставлению услуг, сокращению времени и затрат на предоставление услуг, важному вкладу в решение таких вопросов, как облегчение жизни гражданина.

***Ключевые слова:*** *муниципалитеты, цифровые технологии, электронные муниципалитеты, электронное правительство, местное самоуправление, цифровое развитие, концепция электронного муниципалитета*

DOI: 10.30546/2309-1347.2024.1320

İ Q T İ S A D İ Y Y A T
E C O N O M Y

UOT 336.77

**ARZU ALLAHVERDİYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İqtisadiyyatın dövlət tənzimlənməsi" kafedrasının müəllimi**

*e-mail: arzu.allahverdiyeva783@mail.ru*

# PROBLEMLİ KREDİTLƏRİN İDARƏ OLUNMASINDA KREDİT RİSKİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Son zamanlar dünyada baş verən iqtisadi böhranlar bank sisteminə də öz mənfi təsirini göstərmişdir. Belə ki, bankların kredit portfelində problemli kreditlərin həcmi kifayət qədər artmışdır. Bu da problemli kreditlərin tənzimlənməsi məsələsini ortaya qoymuşdur. Banklarda problemli kreditlərin azaldılmasının istiqamətlərdən biri kredit riskinin qarşısının alınmasıdır. Bu istiqamətdə dünya şöhrətli alim Altman xüsusi metodologiya hazırlamışdır [4, s.31], [5, s. 593]. Bu metodologiyaya görə kredit üçün müraciət etmiş müəssisələrin gələcək dövrdə müflis olmasının mümkünlüyü qiymətləndirilir və bununla da bank mümkün potensial kredit riskindən yayınmış olur. Altmanın bu metodologiyası Z kəmiyyəti metodologiyası adlanır. Bu kəmiyyətin qiymətləndirilməsində müəssisələrin bir sıra maliyyə göstəriciləri istifadə olunur ki [12, s.981], biz burada bu maliyyə göstəriciləri barədə ümumi məlumatlar verəcəyik.

**Qısa müddətli borclar (Short Term Debt):** Qısa müddətli borclar dedikdə, əsasən bir il ərzində ödənilməli olan borclar nəzərdə tutulur [1, s. 118].

**Kapitalın balans dəyəri (Book Value of Equity):** Kapitalın balans dəyəri investor səhmlərinin balansda əks olunmuş ümumi dəyəridir [20].

**Cəmi öhdəliklər (Total Liabilities):** Cəmi öhdəliklər müəssisənin qısa və uzun müddətli öhdəliklərinin cəminə bərabərdir [21]. Digər tərəfdən cəmi öhdəliklər cəmi aktivlərlə təsisçi kapitalının fərqinə bərabərdir [23];

Öhdəliklər(Liabilities) = Aktivlər(Assets) –
– Təsisçi kapitalı (Owner's Equity, Sheaholder Equity, net worth)

**Cəmi aktivlər (Total Assets):** Cəmi aktivlər cəmi öhdəliklərlə təsisçi kapitalının cəminə bərabərdir [16]:

Aktivlər (Assets) = Öhdəliklər(Liabilities) +
+ Təsisçi kapitalı (Owner's Equity, Sheaholder Equity, net worth )

**Nağd vəsaitlər (Cash):** İngilis dilindən nağd vəsait kimi tərcümə olunan "Cash" hər hansı bir milli valyutanın banknot və ya qəpik kimi fiziki formaları başa düşülür. Maliyyədə isə nağd vəsait dedikdə, əsasən cari aktivlərlə əlaqəli olan və tez bir zamanda valyutaya çevrilə bilən vəsaitlər başa düşülür [17].

**Dövriyyə kapitalı:** Dövriyyə kapitalı cari aktivlərlə cari öhdəliklərin fərqi kimi müəyyən edilir [18]. Cari aktivlər dedikdə isə şirkətlərin gündəlik istifadə etdikləri vəsaitlər başa

düşülür. Məsələn: nağd pul vəsaitləri, bir il ərzində alınacaq debitor borclar, hazır məhsul və s. [24]. Cari öhdəliklər isə bir ildən az olan müddətdə yerinə yetirilməli olan öhdəliklərdir [10, s.46-66].

**Xalis satışlar (Net sales):** Xalis satışlar aşağıdakı kimi müəyyən edilir [19]:

Xalis satışlar (Net sales) =
Cəmi satışlar (Gross sales) –
– (satışdan qayıtmalar (sales returns),
qiymətlərin azaldılması (sales allowances),
satışda güzəştlər (sales discounts)).

Burada, satışdan qayıtmalar (sales returns) dedikdə, malların defekt və ya korlanması halında geri qaytarılmış malların dəyəri nəzərdə tutulur. Qiymətlərin azaldılması (sales allowances) dedikdə isə defekt malları saxlamağa razı olan müştəriyə satıcı tərəfindən belə mallar üçün aşağı qiymətlərin təklif olunması nəticəsində yaranan azalma başa düşülməlidir [15]. Satışdan güzəştlər (sales discounts) dedikdə, ümumiyyətlə satıcı tərəfindən satışın artırılması və ya digər səbəblərdən verilən güzəştlər başa düşülməlidir.

**Qeyri-maddi aktivlər (Intangible):** Müasir dövrdə qeyri maddi aktivlər dedikdə əsasən biliklər iqtisadiyyatı ilə əlaqədar olan aktivlər başa düşülür [8, s. 8-15]. İntellektual, o cümlədən ticarət nişanları, digər sənaye mülkiyyəti obyektləri, habelə müvafiq qanunvericiliklə müəyyən edilmiş digər analoji hüquqlar qeyri-maddi aktivlər kimi tanınır [2, s. 38].

Vergi və faiz xərclərindən əvvəlki gəlir: Mühasibatlıqda və maliyyədə vergi və faiz xərclərindən əvvəlki gəlir əməliyyat gəlirləri və əməliyyat xərcləri arasındakı fərqə bərabərdir. O halda ki, qeyri-əməliyyat gəlirləri sıfıra bərabər olsun. Əgər müəssisənin hər hansı qeyri-əməliyyat gəlirləri olarsa, onda vergi və faiz xərclərindən əvvəlki gəlir aşağıdakı kimi hesablanar [9, s.72]:

$$EBIT = R - OE + NOİ \quad (1)$$

Burada, EBIT - Vergi və faiz xərclərindən əvvəlki gəlir, R - Daxilolmalar(Revenue), OE - Əməliyyat xərcləri (Operating expenses), NOİ - Qeyri-əməliyyat gəlirləri (Non-operating income)

Digər tərəfdən vergi və faiz xərclərindən əvvəlki gəlirlərin müəyyən edilməsi başqa bir üsulla da həyata keçirilə bilər. Bunu aşağıdakı bərabərlikdən görmək olar:

$$EBIT = NI + IT + FE - FI \quad (2)$$

Burada, EBIT - Vergi və faiz xərclərindən əvvəlki gəlir , NI - Xalis gəlirlər (Net Income), IT - Gəlir (mənfəət) vergisi (Income taxes), FE - Maliyyə (faiz) xərcləri (Financial expense), FI - Maliyyə gəlirləri (Financial income). Burada, FE – FI fərqi müəssisənin xalis faiz xərclərini ifadə edir.

**Satışlar (Sales):** Müəssisələrdə mal və xidmətlərin təqdim olunması kimi başa düşmək olar. Kapital dövriyyə əmsalı standart bir maliyyə əmsalı olub firmanın aktivlərinin daha yüksək satışı təmin etmək qabiliyyətini xarakterizə edir. Bu rəqabət şəraitində firmanın idarəetməsinin gücünü müəyyən edir [4, s.32], [6, s.12].

**Vergi, faiz, maddi və qeyri maddi aktivlər üçün amortizasiya çıxılmalarından əvvəlki gəlir (Earnings before interest, taxes, depreciation and amortization):** Vergi, faiz, maddi və qeyri maddi aktivlər üçün amortizasiya çıxılmalarından əvvəlki gəlir anlayışı müəssisənin cari əməliyyat mənfəətliliyinin analiz olunmasına imkan yaradır. Bu maliyyə göstəricisi müəssisənin hazırda əlində olan aktivləri və hazırda satış və istehsalatında həyata keçirtdiyi əməliyyatlarla nə qədər gəlir əldə etdiyini analiz edir [6, s.11]. Bu göstərici ümumi mühasibatlıq prinsipləri baxımından maliyyə ölçmələrini dəstəkləyən bir göstərici deyil, o firmaların iş icra qabiliyyətini qiymətləndirmək üçün çox geniş istifadə olunur. Bu əmsalın mənfi qiymət alması biznesin mənfəətli olması üçün əsaslı problemlərin olmasını xarakterizə edir. Əmsalın müsbət olması şəraitində heç də mütləq şəkildə demək olmaz ki,

firmanın biznesi nağd vəsaitlər yarada bilər. Bunun səbəbi isə bu əmsalın dövriyyə kapitalını, kapital xərclərini, vergiləri və maliyyə xərclərini nəzərə almamasındandır [20].

**Maliyyə xərcləri (Interest Expenses):** Maliyyə xərcləri hər hansı bir dövr ərzində firmanın borclarının qiyməti kimi xarakterizə olunur [13].

**Dividend ödənişindən sonrakı gəlir:** Hər hansı bir müəssisənin cəmi aktivləri onun cəmi öhdəliklərindən çox olarsa, bu müəssisə kapitalın müsbət balans dəyərinə malik olar. Əksinə əgər səhmdarların cəmi aktivləri onların cəmi öhdəliklərindən az olarsa, onda həmin səhmdarlar səhmdar kapitalının mənfi balans dəyərinə malik olar. Qeyd edək ki, müəssisənin mənfəətli olması onun səhmdar kapitalının balans dəyərinin müsbət saldoya malik olmasını şərtləndirən amillərdən biridir. Müəssisənin mənfəətli olması həm də ona dəlalət edir ki, səhmdarlar dividendlərinə sahib ola biləcəklər. Belə olan halda,

Xalis gəlir-dividend ödənişi = dividend ödənişindən sonrakı gəlir (wikipedia).

**Aktivlərin bazar dəyəri (Market Value of Equity):** Müəssisənin kapitalının bazar dəyəri səhmdar cəmiyyətləri üçün səhmlərin sayının onların bazar qiymətinə vurulması yolu ilə müəyyən olunur. Ümumiyyətlə isə müəssisənin kapitalının bazar dəyəri onun bazar dəyəri ilə öhdəliklərinin fərqinə bərabərdir [14].

**Kreditor borclar (Account Payable):** Verilmiş müddətdə ödənilməli olan borclardır [22].

Banklar üçün müştərilərin, daha doğrusu, kredit üçün müraciət etmiş şirkətlərin defolt olma ehtimalının müəyyənləşdirilməsi çox böyük əhəmiyyət kəsb edir. Məhz bu da kredit riskini yaradır. Kredit risklərinin müəyyənləşdirilməsi statistik yanaşma ilə mümkündür. Qısa şəkildə qeyd etsək, bankda toplanmış statistik göstəricilərin normal paylanmaya malik olması imkan verir ki, əsas statistik parametrlərdən istifadə etməklə kredit riskləri müəyyənləşdirilsin.

Lakin bu məqalədə biz kredit risklərinin müəyyənləşdirilməsində XX əsrin ortalarından geniş istifadə olunan Altman yanaşmasından istifadə etməyə cəhd etmişik. Burada yanaşmanın nəzəri əsasları və Altmanın əldə etdiyi nəticələr haqqında məlumatlar qeyd olunacaqdır.

Altman təsadüfi seçmə üsulu ilə seçilmiş bir sıra müəssisələrin müəyyən maliyyə göstəricilərindən istifadə etməklə maliyyə əmsalları tərtib etmiş və bu əmsalları özünün Z-kəmiyyəti modelində izahedici dəyişənlər kimi təhlilə daxil etmişdir. Bu metod kredit risklərinin proqnozlaşdırılmasında, ən ümumi şəkildə isə şirkətlərin gələcək maliyyə vəziyyətlərinin təhlil olunmasında geniş miqyaslı istifadə edilir. Qeyd edək ki, müəssisələrin maliyyə göstəriciləri beş əsas xüsusiyyət üzrə qruplaşdırılır: Leverec, likvidlik, mənfəətlilik, coverage və aktivlik. Altman da özünün Z-kəmiyyəti modelini yaradarkən bu təsnifat üzrə hər bir qrupdan bir və ya bir neçə maliyyə əmsalını izahedici dəyişən kimi istifadə etmişdir ki, bu da müəssisənin qeyd olunan beş əsas iqtisadi mahiyyətini əks etdirmək baxımından çox əhəmiyyətlidir. Bu xüsusiyyətlər və hər bir xüsusiyyət üzrə maliyyə əmsalları aşağıdakı kimi qruplaşdırılmışdır [7, s.15];

**1. Leverec (Leverage):** Qısa müddətli borclar (Short Term Debt) / Kapitalın balans dəyəri (Book Value of Equity), Kapitalın balans dəyəri (Book Value of Equity) / Cəmi Öhdəliklər (Total Liabilities), Öhdəliklər (Liabilities) / Cəmi aktivlər (Total Assets).

**2. Likvidlik (Liquidity):** Nağd vəsaitlər (Cash) / Cəmi aktivlər (Total Assets), Dövriyyə kapitalı (Working Capital) / Cəmi aktivlər (Total Assets), Nağd vəsaitlər (Cash) / Xalis satışlar (Net sales), Qeyri-maddi aktivlər (Intangible)/ Cəmi aktivlər (Total Assets).

**3. Mənfəətlilik (Profitability):** Vergi və faiz xərclərindən əvvəlki gəlir (Earnings Before Interest and Taxes)/Satışlar (Sales), Vergi, faiz, maddi və qeyri maddi aktivlər üçün amortizasiya çıxılmalarından əvvəlki gəlir (Earnings before interest, taxes, depreciation

and amortization) / Cəmi aktivlər (Total Assets), Xalis gəlirlər (Net Income) / Cəmi aktivlər (Total Assets), Dividend ödənişindən sonrakı gəlir (Retained Earnings) / Cəmi aktivlər (Total Assets), Xalis gəlirlər (Net Income)/ Satışlar (Sales)

**4. Coverage (Örtülmə):** Vergi, faiz, maddi və qeyri-maddi aktivlər üçün amortizasiya çıxılmalarından əvvəlki gəlir (Earnings before interest, taxes, depreciation and amortization) / Maliyyə xərcləri (Interest Expenses), Vergi və faiz xərclərindən əvvəlki gəlir (Earnings Before Interest and Taxes ) / Maliyyə xərcləri (Interest Expenses).

**5. Aktivlik (Activity):** Satışlar (Sales) / Cəmi aktivlər (Total Assets), Kreditor borclar (Account Payable) / Satışlar (Sales), Debitor borclar (Account Receivable) / Öhdəliklər (Liabilities).

Beləliklə, kredit risklərinin proqnozlaşdırılmasında geniş istifadə olunan və Altman tərəfindən 1968-ci ildə təklif olunmuş Z-kəmiyyəti modeli (3) bərabərliyində verilmişdir.

$$Z=1.2X_1+1.4X_2+3.3X_3+0.6X_4+0.999X_5 \quad (3)$$

Burada,

$X_1$ = Dövriyyə kapitalı (Working Capital) /Cəmi aktivlər (Total Assets)

$X_2$ = Dividend ödənişindən sonrakı gəlir (Retained Earnings) / Cəmi aktivlər (Total Assets)

$X_3$ = Vergi və faiz xərclərindən əvvəl gəlir (Earnings Before Interest and Taxes) / Cəmi aktivlər (Total Assets)

$X_4$ = Aktivlərin bazar dəyəri (Market Value of Equity) / Cəmi öhdəliklər (Total Liabilities)

$X_5$ = Satışlar (Sales)/ Cəmi aktivlər (Total Assets)

Qərarvermə zonaları:

$Z > 2.99$ -“etibarlı” zona;

$1.81 < Z < 2.99$ -“yaşıl” zona;

$Z < 1.81$ -“defolt” zona.

Altmanın (3) bərabərliyində verilmiş Z modeli müəssisələrin maliyyə əmsallarının müvafiq qiymətlərinə uyğun olaraq müəyyən Z kəmiyyəti təyin edir ki, bu kəmiyyətin fərqlənmə zonalarından hansına düşməsi məhz müəssisənin gələcək vəziyyətini proqnozlaşdırmağa imkan yaradır. Belə ki, əgər hesablanmış Z kəmiyyəti “etibarlı” zonaya düşərsə, onda deməli müəssisənin gələcək fəaliyyəti də etibarlı hesab edilə bilər və belə müəssisəyə kredit verilməsi problemli kreditlərin artmasının qarşısını almış olar. Əgər hesablanmış Z kəmiyyəti “yaşıl” zonaya düşərsə, belə müəssisələrin gələcək fəaliyyəti ilə əlaqədar fikir söyləmək çətin olur və bəzən əlavə araşdırma aparmaqla müəssisənin gələcək fəaliyyəti barədə fikir söyləmək olur. Yox əgər hər hansı müəssisə üçün hesablanmış Z kəmiyyəti “defolt” zonasına düşərsə, onda deməli, bu müəssisənin gələcək fəaliyyəti sual altındadır və belə müəssisələrə kredit verilməsi potensial kredit riskinin mənbəyidir ki, bu dolayısı ilə problemli kreditlərin həcminin artmasına səbəb olacaqdır. Doğrudur, (3)-də verilmiş Z modeli Altman tərəfindən İngiltərədə kredit risklərinin qiymətləndirilməsində istifadə olunmuşdur, buna baxmayaraq hal-hazırda bir çox beynəlxalq banklar bu modeldən istifadə edirlər. Lakin yaxşı olar ki, bu model hər bir ölkə üçün, hətta ayrıca banklar üzrə hesablansın. Çünki belə olan halda daha adekvat nəticələr əldə etmək mümkündür. Əslində məlumdur ki, hər bir bankda fəaliyyət göstərdiyi müddət ərzində kredit götürmüş və bu krediti vaxtlı-vaxtında ödəyən, həm də götürdüyü kreditləri ödəyə bilməyən və nəticədə problemli kreditlər portfelinin şişməsinə səbəb olan müəssisələr barədə geniş statistik məlumat bazası formalaşır. Bu məlumat bazasında bütün müəssisələrin maliyyə əmsalları müəyyənləşdirilə bilər ki, bu əmsallar da qeyd etdiyimiz Z modelinin qiymətləndirilməsi üçün istifadə oluna bilər. Banklar üzrə ayrıca mövcud olan bu məlumat bazasından istifadə etməklə qiymətləndirilmiş Z modeli bu banka kredit üçün müraciət etmiş müəssisənin gələcəkdə fəaliyyətinin vəziyyətini qiymətləndirməyə real imkan yaradacaqdır. Bunun üçün müvafiq bankda cədvəl 1-də verilmiş struktura

**Cədvəl.** Z modelinin qiymətləndirilməsi üçün məlumat bazası

| Müəssisənin vəziyyəti | Z kəmiyyəti | $X_i$ | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| müflis | 0 | | | | | | | |
| aktiv | 1 | | | | | | | |
| aktiv | 1 | | | | | | | |
| müflis | 0 | | | | | | | |
| aktiv | 1 | | | | | | | |
| və s. | | | | | | | | |

Mənbə: Cədvəl müvafiq məlumat bazası üçün bir nümunədir və burada verilmiş məlumatlar hər hansı müəssisənin məlumatları deyil.

uyğun olaraq məlumat bazası formalaşdırılmalıdır.

Cədvəl 1-də müəyyən dövr ərzində hər hansı bankda kredit verilmiş müəssisələr barədə formalaşdırılacaq məlumat bazasına bir nümunə verilmişdir. Bu nümunədə bank kredit verdiyi və sonra müflis olmuş müəssisələr üçün Z kəmiyyətini 0 kimi (hansı ki, müflis olduqları üçün krediti geri ödəyə bilməmişlər və bankda problemli kreditlərin payının artmasına səbəb olmuşlar), aktiv müəssisələr üçün isə (hansı ki, krediti vaxtında ödəmişdirlər) 1 kimi kodlaşdırmalıdır.

Cədvəlin qalan sütunlarında isə müəssisələrin müvafiq maliyyə əmsalları daxil edilməlidir. Cədvəl 1-də verilmiş struktura uyğun formalaşdırılmış məlumat bazasından istifadə etməklə (3) Z modelini istənilən bank üçün qiymətləndirmək olar. Qiymətləndirmə nəticəsində müəyyən Z kəmiyyəti əldə olunacaqdır. Bundan sonra kredit üçün müraciət edən müəssisənin maliyyə əmsalları qiymətləndirilmiş Z modelində yerinə yazılacaq və bu müəssisə üçün Z kəmiyyəti hesablanacaqdır. Əgər bu müəssisənin Z kəmiyyəti hesablanmış kritik Z kəmiyyətindən böyük olacaqsa, onda bank bu müəssisəni gələcək dövrdə fəaliyyətdə olan müəssisə kimi qiymətləndirə bilər və bu müəssisənin kreditləşdirilməsini həyata keçirə bilər. Yox əgər əksinə olarsa, onda bank bu müəssisəni gələcək dövrdə müflis ola biləcək müəssisə kimi qiymətləndirməli və onun kreditləşdirilməsindən imtina etməlidir [11, s.43], [3]. Beləliklə, həyata keçirilən bu risk analizi bankda problemli kreditlərin həcminin artmasının qarşısını ala biləcəkdir.

**Ədəbiyyat:**


1. Apostolik R. Bank riski və bank tənzimlənməsinin əsasları. ABŞ: Beynəlxalq Risk Peşəkarları Assosiasiyası, 2009
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Azərbaycan Respublikası Milli Məclisi, 2013.
3. Alawode, A. Financial deregulation and the effectiveness of bank supervision in Nigeria / le liberalisme financier et le defi de la supervision Bancaire au Nigeria // Savings and Development, Vol. 16, No. 1, 1992, pp. 101-113
4. Altman, E. Zeta Analysis. A new model to identify bankruptcy risk of corporation // Journal of banking and finance, 1, 1977, pp. 29-54
5. Altman, E. Financial Ratios, Discriminant Analysis and the Prediction of Corporate Bankruptcy // The Journal of Finance, Vol. 23, No. 4, 1968, pp. 589-609.
6. Altman, E. Predictng financial distress of companies: Revisiting the z-score and zeta® models // 2000
7. Altman, E., Gabriele, S. Modeling Credit Risk for SMEs: Evidence from the US Market
8. Baruch, L., Juergen, H. The dominance of intangible assets: consequences for enterprise management and corporate reporting // Measuring Business Excellence, 2004, volume 8, issue 1, pp. 6–17.
9. Bodie, Z., Kane, A., Marcus, A. Essentials of Investments, Teaching Notes. McGraw Hill Irwin, 2004, 452 s.
10. Chudson, W. The Pattern of Corporate Financial Structure: A Cross-Section View of Manufacturing, Mining, Trade, and Construction. NBER, 1937.
11. Huertas, T. Redesigning Financial Regulation // Challenge, Vol. 31, No. 1, 1988, pp. 37-43
12. Quey-Jen Yeh. The Application of Data Envelopment Analysis in Conjunction with Financial Ratios for Bank Performance Evaluation // The Journal of the Operational Research Society, Vol. 47, No. 8, 1996, pp. 980-988
13. www.accountingcoach.com (Accounting Coach, What is interest expense?
14. www.aiic.az
15. www.cliffsnotes.com (Cliffs notes web site, Sales Returns and Allowances)
16. www.en.wikipedia.org/wiki/Asset
17. www.en.wikipedia.org/wiki/Cash
18. www.en.wikipedia.org/wiki/Working_capital
19. www.en.wikipedia.org/wiki/Sales_%28accounting%29
20. www.en.wikipedia.org (Earnings before interest, taxes, depreciation, and amortization (EBITDA))
21. www.investopedia.com (Total Liabilities)
22. www.investopedia.com (Accounts Payable – AP)
23. www.invest-safely.com (Personal balance sheet)
24. www.ru.scribd.com(Ola Svensson, Assets – fixed andcurrent)


***Açar sözlər:*** *kredit riski, Z kəmiyyəti metodologiyası, leverec, likvidlik, mənfəətlilik, coverage və aktivlik*

**Arzu Allahverdiyeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of State Regulation of the Economy Teacher*

# ASSESSMENT OF CREDIT RISK IN THE MANAGEMENT OF PROBLEM LOANS

## ABSTRACT

One of the main areas of problem loan management is credit risk prevention. The world-famous scientist Altman has developed a special technique in this direction. Altman assesses the possibility of future bankruptcy of enterprises applying for a loan, and thus, the bank avoids possible potential credit risk. The Z model, presented by Altman, determines the value of Z, which is estimated according to the corresponding values of the financial indicators of enterprises, and this makes it possible to predict the future state of the enterprise, depending on which of the difference zones this value falls. Suppose the value of Z falls into the "reliable" zone. In that case, the further activities of the enterprise can be considered reliable, and lending to such an enterprise will prevent the growth of problem loans. Suppose the calculated Z value falls into the "green" zone. In that case, it is not easy to form an opinion about the future activities of such enterprises, and sometimes, by conducting additional research, it is possible to form an opinion about the future activities of the enterprise. However, suppose the Z value calculated for an enterprise falls into the "default" zone. In that case, the future activity of this enterprise is in doubt, and lending to such enterprises is a source of potential credit risk, and this, in turn, will lead to an increase in the volume of problem loans.

***Keywords:*** *credit risk, Z quantity methodology, leverage, liquidity, profitability, coverage, and activity*

**Арзу Аллахвердиева**
*Преподаватель кафедры «Государственное регулирование экономики»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ОЦЕНКА КРЕДИТНОГО РИСКА ПРИ УПРАВЛЕНИИ ПРОБЛЕМНЫМИ КРЕДИТАМИ

### РЕЗЮМЕ

Одним из основных направлений управления проблемными кредитами является предотвращение кредитного риска. В этом направлении всемирно известный ученый Альтман разработал специальную методику. Альтман оценивает возможность будущего банкротства предприятий, обратившихся за кредитом, и таким образом, банк избегает возможного потенциального кредитного риска. Модель Z, представленная Альтманом, определяет величину Z, которая оценивается по соответствующим значениям финансовых показателей предприятий, это позволяет спрогнозировать будущее состояние предприятия, в зависимости от того, в какую из зон различия попадает эта величина. Если величина Z попадает в «надежную» зону, то дальнейшую деятельность предприятия можно считать надежной, а кредитование такого предприятия предотвратит рост проблемных кредитов. Если расчетная величина Z попадает в «зеленую» зону, составить мнение о будущей деятельности таких предприятий сложно, а иногда путем проведения дополнительных исследований можно составить мнение о будущей деятельности предприятия. Но если, рассчитанная для какого-либо предприятия величина Z попадает в зону «default», то будущая деятельность этого предприятия находится под вопросом, а кредитование таких предприятий является источником потенциального кредитного риска, и это, в свою очередь, приведет к увеличению объемов проблемных кредитов.

***Ключевые слова:*** *кредитный риск, методология количества Z, кредитное плечо, ликвидность, доходность, покрытие и активность*

DOI: 10.30546/2309-1347.2024.1322

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327(091)

**BALAMİRZƏ MƏMMƏDLİ**

**Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının doktorantı**

*e-mail: balamirzamammadli@gmail.com*

# İLHAM ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

## Giriş

Azərbaycanın dünyanın nəhəng güc mərkəzlərindən biri olan ABŞ ilə münasibətlərinin tarixi XIX yüzilliyə gedib çıxır. Belə ki, hələ XIX əsrin ikinci yarısında ölkəmizdə təşəkkül tapan neft sənayesi digər aparıcı Qərb dövlətləri kimi ABŞ-ın da nəhəng neft şirkətlərinin diqqətini cəlb etmişdir. 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika kimi öz müstəqilliyini elan etdikdən sonra iki ölkə arasında diplomatik əlaqələrin yaradılması sahəsində ilk addım Paris sülh konfransı zamanı atılmış, Azərbaycan ilə ABŞ arasında diplomatik münasibətlərin qurulması, ölkəmizin Millətlər Cəmiyyətinə qəbul edilməsi kimi məsələləri özündə ehtiva edən rəsmi memorandum ABŞ Prezidenti Vudro Vilsona təqdim olunmuşdur [15, s.160]. 1920-ci ilin yanvarın 10-da Versal sülh konfransının Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi de-fakto səviyyədə tanınsa da, müxtəlif səbəblərə, xüsusilə Böyük Britaniya və digər Avropa dövlətləri ilə ziddiyyətlərə görə ABŞ Azərbaycanın müstəqilliyini tanımaqdan imtina etmişdir. Bununla belə, həmin vaxtlar ABŞ Azərbaycanla iqtisadi və siyasi əlaqələr qurmaq sahəsində heç də Avropa ölkələrindən geri qalmamış, Bakıda Birləşmiş Ştatların konsulluğu açılmış, bir sıra iqtisadi müqavilələr bağlanmışdır. Azərbaycanın Sovet İttifaqının tərkibinə daxil olduğu 70 illik dönəmdə isə, iki ölkə arasında hər hansı rəsmi münasibətlər mövcud olmamışdır [21, s.273-274]. Yalnız 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət yürütməyə başlamışdır. Lakin, müstəqilliyimizin bərpasının ilk illərində ABŞ ilə münasibətlər daha çox anlaşılmaz və mürəkkəb xarakter kəsb etmiş, Konqresdə ölkəmizə qarşı "907-ci düzəliş" kimi iqtisadi sanksiya xarakterli qanunvericilik aktı qəbul edilmişdi. 1993-cü ilin ikinci yarısında görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan-ABŞ münasibətlərində böyük dönüş baş vermişdir [22, s.69]. Belə ki, əsasən Heydər Əliyevin prezidentliyi illərində Azərbaycan-ABŞ əlaqələri müsbət tendensiyada inkişaf etdirilməyə başlanılmış və ikitərəfli münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir. Ümummilli

Lider Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı kimi Prezident İlham Əliyev 2003-cü ildən Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq və hərtərəfli qarşılıqlı əməkdaşlıq istiqamətində inkişaf etdirilməsini təmin edən xarici siyasət xətti həyata keçirir. Azərbaycanın son dərəcə mürəkkəb və həssas coğrafiyada yerləşməsini nəzərə alaraq çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursu yürüdən Prezident İlham Əliyev dünyanın ən böyük siyasi və iqtisadi gücü kimi müasir beynəlxalq münasibətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən əsas dövlətlərdən biri olan ABŞ-la münasibətlərə xüsusi əhəmiyyət verir.

İlham Əliyevin prezidentliyi illərində Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində müxtəlif prizmalarda öz əksini tapmışdır. Sözügedən problemin tarixşünaslığından bəhs edərkən Azərbaycan tədqiqatçılarından Elman Nəsirov, Əli Həsənov, Musa Qasımlı, Hafiz Paşayev, Bircə Bayramova, Səbinə Qaraşova, Fuad Çıraqov, Ramilə Dadaşova, Xatirə Heydərova, İsaxan Vəliyev, İsmayıl Musa və d. müəlliflərin adlarını qeyd etmək olar. Bu baxımdan s.e.d., professor E.Nəsirovun "Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri" və "ABŞ və beynəlxalq terrorizm problemi. 2001-2010-cu illər" kimi fundamental monoqrafiyaları [28; 29], t.e.d., professor Ə.Həsənovun "Azərbaycanın geosiyasəti" adlı irihəcmli monoqrafiyası [16], t.e.d., professor M.Qasımlının 2 cildlik "Azərbaycan Respublikasının tarixi (1991-2021)" kitabının ikinci cildi [20], Azərbaycanın ABŞ-dakı ilk səfiri olmuş görkəmli diplomat H.Paşayevin "Yüksəkliyə doğru" və "Bir səfirin manifesti" əsərləri [30; 31; 32], t.ü.f.d. Bircə Bayramovanın "ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər)" adlı monoqrafiyası və çoxsaylı elmi məqalələri [4; 5; 6; 7; 8], F.Çıraqovun "Azərbaycan – Amerika Birləşmiş Ştatları münasibətləri: 1991-2016" adlı irihəcmli elmi məqaləsi [2, s.387-397] xüsusilə diqqəti cəlb edir.

## İlham Əliyevin ilk prezidentliyi dövründə (2003-2008-ci illər) Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında

Vətən tarixşünaslığındakı tədqiqat əsərlərinin təhlili zamanı bəlli olur ki, böyük dövlət xadimi, siyasətçi və diplomat İlham Əliyev hələ Azərbaycan Respublikası Prezidenti seçilənə qədər də Azərbaycan-ABŞ münasibətlərinin inkişafına öz töhfəsini vermişdir. Belə ki, o, məsələn 1997-ci ilin fevralın 18-də, yəni ARDNŞ-nin vitse-prezidenti olduğu illərdə (1994-2003) Vaşinqton şəhərində keçirilən "Azərbaycan: kommunizmdən demokratiyaya doğru, neftin istehsalı nəticəsində inkişaf" adlı konfransda fəal iştirak edərək ABŞ nümayəndələri ilə ikitərəfli münasibətlərdə qazanılan uğurlardan və çətinliklərdən bəhs etmiş, "907-ci düzəliş"in ləğvi məsələsi ətrafında fikir mübadiləsi aparmışdır [19, s.184]. 2003-cü ilin avqustun 4-də Azərbaycan Respublikasının Baş Naziri təyin olunduqdan qısa müddət sonra – avqustun 25-də Vaşinqtona səfər edən İ.Əliyev ABŞ dövlət katibinin birinci müavini R.Armitacla görüşmüş, iki ölkə arasındakı əlaqələrin, xüsusilə enerji sektoru və digər sahələrdə iqtisadi məsələlərin perspektiv imkanlarını müzakirə etmişdir [5, s.88].

15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində səslərin 76,8%-ni qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İ.Əliyev andiçmə mərasimində ölkəmizin xarici siyasət sahəsində beynəlxalq arenada böyük uğurlar qazandığını və bunun daha möhkəmləndiriləcəyini bəyan etdi: "Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir" [10, s.6, 11]. Bundan qısa müddət sonra, 2003-cü ilin noyabrın 7-də görkəmli amerikalı politoloq Z.Bjezinskinin, noyabrın 17-də ABŞ-ın dövlət katibi müavininin məsul nümayəndəsi L.Paskonun,

dekabrın 3-də ABŞ-ın müdafiə naziri D.Ramsfeldin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizdə qəbul edilməsi göstərdi ki, İlham Əliyev prezidentliyinin elə ilk günlərindən ABŞ ilə münasibətlərin inkişaf etdirilməsinə xüsusi diqqət ayırır [38]. Bununla yanaşı, 2003-cü ilin 5 dekabrında Prezident İlham Əliyev 27 yanvar 1977-ci ildə imzalanmış "Terrorizmin qarşısının alınması haqqında" Avropa Konvensiyasının (European Convention on the Suppression of Terrorism) Azərbaycan Respublikası tərəfindən qeyd-şərtsiz təsdiq edilməsi barədə sərəncam vermişdi. 2004-cü il yanvarın 2-də Prezident İlham Əliyev ABŞ-ın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rino Harnişi qəbul etdi [39]. Vətən tarixşünaslığında qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti kimi öz səlahiyyətlərinin icrasına yenicə başlamış İlham Əliyevin ikitərəfli münasibətlərin inkişafı istiqamətində addımları ABŞ tərəfindən olduqca müsbət qarşılandı. Məsələn, B.Bayramova yazır ki, L.Pasko Azərbaycanda olarkən Birləşmiş Ştatların ikitərəfli əməkdaşlığın daha intensiv şəkildə davam etdirilməsinin tərəfdarı olduğunu bildirdi [5, s.28].

2004-cü il – Azərbaycan-ABŞ münasibətləri üçün əsasən iqtisadi sferada əməkdaşlığın genişləndirilməsi ilə xarakterik oldu. Təsadüfi deyildir ki, həmin ilin mayında Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin nümayəndəsi K.Paskualı qəbul edərkən ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdıran zaman ABŞ ilə iqtisadi və ticarət əlaqələrinin ölkəmiz üçün önəmli olduğunu və Birləşmiş Ştatların dəstəyi ilə nəhəng enerji layihələrinin həyata keçirildiyini xüsusi vurğulamışdı [4, s.113]. Həmin il ərzində ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə xüsusi nümayəndəsi (həmçinin ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri – B.M.) cənab Stiven Mənnin bir neçə dəfə (3 fevral, 22 aprel, 1 iyun, 24 sentyabr, 16 oktyabr 2004), ABŞ-ın "Milli Təhlükəsizlik üzrə Biznes İcraçıları" təşkilatının prezidenti Çarlz Boydun başçılıq etdiyi nümayəndə heyətinin (28 fevral 2004), "Amerada Hess" şirkətinin (ABŞ-ın neft-qaz şirkəti olub, 2006-cı ildən "Hess Corporation" adlandırılmışdır. – B.M.) nümayəndə heyətinin (21 may 2004) Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi iki ölkə arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsinin təzahürü idi. Vətən tarixşünaslığında sözügedən məsələlər daha çox B.Bayramovanın tədqiqatlarında öz əksini geniş şəkildə tapmışdır. Müəllifin sırf bəhs olunan problemə həsr etdiyi "2004-cü ildə Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığı" adlı elmi məqaləsi bu baxımdan xüsusilə diqqəti cəlb edir [4]. 2004-cü ildə ABŞ-ın müxtəlif nümayəndə heyətlərinin (senator T.Stivensin başçılığı ilə ABŞ Senatının nümayəndə heyəti, ABŞ dövlət katibinin müavini L.Blumfildin başçılıq etdiyi nümayəndə heyəti və s.) Prezident İlham Əliyev tərəfindən Bakıda qəbul edilməsini, İstanbulda Azərbaycan və ABŞ prezidentlərinin görüşünü (29 iyun 2004) isə, ikitərəfli münasibətlərin təkcə iqtisadi sferada deyil, digər sahələrdə də genişlənməsinin göstəricisi hesab etmək olar.

2004-cü ilin noyabrın 2-də ABŞ-da keçirilən sayca 55-ci prezident seçkilərində Corc Buş (kiçik Buş) qalib gəldi. Vətən tarixşünaslığında bir sıra tədqiqatçılar bu məsələyə xüsusi diqqət çəkərək qeyd edirlər ki, sözügedən seçkilər Azərbaycanda da diqqətlə izlənilmişdi. B.Bayramova bunun səbəbini C.Buşun birinci prezidentliyi dövründə ABŞ-ın Azərbaycan ilə əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın yeni mərhələyə qədəm qoyması, ikitərəfli münasibətlərdə müsbət dönüşün yaranması ilə izah edir [5, s.64]. Fikrimizcə, burada daha bir mühüm səbəb də var idi. Belə ki, 2004-cü il seçkilərində C.Buşun əsas rəqibi – Demokratlar partiyasını təmsil edən, vaxtilə anti-Azərbaycan xarakterli "907-ci düzəliş"in müəllifi olmuş Con Kerri idi. Bu o deməkdir ki, həm Vətən tarixşünaslığında, həm də xarici tarixşünaslıqda ermənipərəst mövqeli siyasətçi kimi xarakterizə olunan C.Kerrinin ABŞ Prezidenti seçilməsi böyük ehtimal ki, tezliklə Azərbaycan-ABŞ

münasibətlərinə öz mənfi təsirini göstərəcəkdi. Prezident C.Buş isə özünün birinci prezidentliyi illərində olduğu kimi, ikinci prezidentliyi dövründə də Azərbaycan ilə münasibətlərin daha da yaxşılaşdırılması istiqamətində səylər göstərdi.

2005-ci ildə ABŞ-ın Ermənistanla müqayisədə Azərbaycana hərbi yardımın həcminin artırılması planlaşdırıldı. Belə ki, Dövlət Departamentinin Konqresə təklifində Azərbaycana 8 milyon, Ermənistana isə 2 milyon dollar ayrılması nəzərdə tutulurdu. Vətən tarixşünaslığında göstərilir ki, Vaşinqtonun iki ölkəyə yardım siyasətində Azərbaycanın xeyrinə olan bu qərarı dərhal Ermənistan tərəfinin və ABŞ-dakı erməni lobbisinin narahatlığına və fəallaşmasına gətirib çıxardı. B.Bayramova sözügedən hadisəni təhlil edərkən yazır ki, ABŞ hökumətinin Azərbaycan siyasətinə qarşı yeni kampaniyaya başlayan ermənilər Konqresdəki havaradarları arasında həyəcan təbili çaldılar və nəticədə ermənipərəst senator C.Alen hökumət nümayəndələrinə bildirdi ki, əgər Ermənistanla müqayisədə Azərbaycana hərbi yardım artırılarsa bu, Dağlıq Qarabağ münaqişəsində ABŞ-ın tərəfkeşliyi kimi qəbul edilə bilər [5, s.64]. ABŞ dövlət katibinin müavini E.Cons buna cavab olaraq bildirdi ki, ABŞ Minsk qrupunun həmsədri kimi münaqişədə heç kimin tərəfini saxlaya bilməz və hərbi yardım Dağlıq Qarabağ münaqişəsində istifadə üçün deyil, Xəzər dənizinin təhlükəsizliyinin təmin olunması, terrorizmə qarşı mübarizənin dəstəklənməsi üçün yönəldilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin aprelin 25-28-də ABŞ Prezidenti C.Buşun dəvəti ilə Birləşmiş Ştatlara ilk rəsmi səfəri iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açan bir hadisə oldu. Rəsmi səfər zamanı Prezidenti İ.Əliyevin nəinki Ağ Evdə Prezident C.Buş ilə, həmçinin ABŞ-ın vitse-prezidenti R.Çeyni, müdafiə naziri D.Ramsfeld, energetika naziri S.Bodman, ticarət naziri K.Qutyerres, ABŞ MKİ (CIA) direktoru C.Neqroponte, amerikalı konqresmenlər və digər dövlət xadimləri ilə yüksək səviyyəli görüşləri baş tutdu. Bütün bunlar 2006-cı ildə nəşr olunmuş "Azərbaycan-ABŞ strateji tərəfdaşlığın yeni üfüqləri" adlı kitabda ətraflı şəkildə işıqlandırılmışdır ki, bu baxımdan onu tarixşünaslıq üçün qiymətli mənbə bazası kimi dəyərləndirmək olar [3]. Vətən tarixşünaslığında Prezident İ.Əliyevin Vaşinqtona rəsmi səfəri XXI əsrin ilk onilliyində Azərbaycan-ABŞ münasibətlərinin inkişafına mühüm töhfə verən tarixi hadisə kimi xarakterizə edilir. T.Mustafazadə, İ.Musa kimi bir sıra tədqiqatçılar bunu Azərbaycan-Amerika siyasi dialoqunu yenidən canlandıran və inkişaf etdirən hadisə kimi qiymətləndirirlər [27, s.351; 26, s.528]. R.Dadaşova sözügedən rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına yönəldilmiş səfər kimi xarakterizə edir [9, s.145]. Səfər zamanı iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üzrə bir çox tezislər – Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz ehtiyatlarının istifadəsinə dair genişmiqyaslı layihələrin həyata keçirilməsi və bu proseslərdə ABŞ-ın "ExxonMobil", "Şevron" kimi iri şirkətlərinin iştirakı, BTC neft və BTƏ qaz kəmərlərinin inşasının yekunlaşması, Azərbaycan iqtisadiyyatının diversifikasiyası (Diversifikasiya [latınca diversus və facere "müxtəlif etmək"] – bir sahə üzrə ixtisaslaşmış şirkətlərin istehsalın digər sahələrinə nüfuz etməsi, iqtisadi səmərəni artırmaq, müflisləşmənin qarşısını almaq və d. məqsədlərlə əmtəə və xidmət növlərinin dəyişdirilməsi və genişləndirilməsi – B.M.) məsələləri irəli sürüldü. Bununla yanaşı, rəsmi səfərin çox mühüm siyasi əhəmiyyəti oldu. Belə ki, XX əsrin sonlarında olduğu kimi XXI əsrin əvvəllərində də Amerikadakı erməni lobbisi sistemli şəkildə anti-Azərbaycan təbliğatı apararaq hər vəchlə ictimai rəydə və hakim siyasi dairələrdə ölkəmizin mənfi imicini formalaşdırmağa çalışırdılar. Belə bir şəraitdə Prezident İlham Əliyevin ABŞ-a rəsmi səfəri erməni lobbisinin bu təbliğatına vurulan böyük zərbə idi. F.Çıraqov yazır ki, həmin qüvvələr (yəni erməni lobbisi – B.M.) Azərbaycanın ABŞ ilə münasibətlərinin yüksək səviyyəsindən narahat olaraq rəsmi Vaşinqtonu insan hüquqları və demokratiya

məsələləri sahəsində Bakıya təzyiqlər etməyə çağırmışdılar [2, s.385-386]. Lakin, ABŞ Prezidenti C.Buş Azərbaycan Prezidentinin Vaşinqtona rəsmi səfərini “təhlükəsizlik, enerji və demokratiya sahəsində ümumi maraqların inkişafı yolunda böyük tarixi imkan” adlandırdı ki, bununla erməni lobbisinin təbliğatı puça çıxmış oldu. Məhz bu baxımdan, Vətən tarixşünaslığında Prezident İlham Əliyevin ABŞ-a ilk rəsmi səfəri haqlı olaraq uğurlu və məhsuldar olmaqla dövlətlərarası münasibətlərin gələcək inkişafına əlverişli zəmin yaratmış hadisə kimi xarakterizə edilir.

Azərbaycan Respublikası ilə ABŞ arasında siyasi, iqtisadi və mədəni əlaqələr, hərbi, təhlükəsizlik, enerji sahələrində əməkdaşlıq Prezident İlham Əliyevin rəsmi səfərindən sonra uğurla davam etdirildi. 2006-cı ilin mayın 4-də Prezident İlham Əliyevin ABŞ dövlət katibinin iqtisadi məsələlər üzrə baş müşaviri F.Mermud ilə, həmin ilin iyunun 13-də ABŞ-ın və dünyanın ikinci ən böyük neft xidməti şirkəti (oil service company) sayılan “Halliburton” transmilli korporasiyasının prezidenti D.Lezar ilə görüşü, 2007-ci ilin martın 22-də Vaşinqtonda ABŞ və Azərbaycan hökumətləri arasında “Xəzər regionunda Enerji Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu”nun imzalanması, 2008-ci ilin sentyabrın 3-də Prezident İlham Əliyev ilə ABŞ-ın vitse-prezidenti Dik Çeyni arasında görüş zamanı D.Çeyninin: “Amerika Azərbaycanın enerji sahəsində Qərb ölkələri ilə əməkdaşlığını yüksək dəyərləndirir”, – deyə söyləməsi və Azərbaycanın regionda həyata keçirdiyi enerji layihələrinin ABŞ-ın güclü dəstəyi ilə reallaşması kimi hadisələr Vətən tarixşünaslığında bunun bariz nümunəsi kimi dəyərləndirilir. Bununla yanaşı, Azərbaycan-ABŞ münasibətləri NATO ilə əməkdaşlıq kontekstində də davam etdirilməkdə idi. Azərbaycan-NATO əməkdaşlığı alyansın əsas mexanizmlərindən biri olan Fərdi Tərəfdaşlıq Proqramı (FTP) çərçivəsində xüsusilə geniş şəkildə həyata keçirilmişdi. Belə ki, A.Əliyevanın da yazdığı kimi, təkcə 2008-ci il üçün razılaşdırılmış FTP-nin Müdafiə Nazirliyinə aid hissəsində bir çox zəruri sahələr (müdafiə siyasəti və strategiyası, hərbi təlimlər, dil təlimi, hərbi təhsil, maddi-texniki təminat, müdafiənin planlaşdırılması, büdcə və ehtiyatların idarə edilməsi və s.) üzrə 164 tədbir baş tutmuşdu [12, s.212-213].

Nəinki ABŞ və Qərb ilə münasibətlərdə, bütövlükdə XXI əsrin əvvəllərində Azərbaycanın Cənubi Qafqazda ən praqmatik və balanslaşdırılmış xarici siyasət kursuna malik ölkə olması 2008-ci ilin avqustunda Rusiya-Gürcüstan müharibəsindən sonra özünü daha aydın şəkildə göstərdi. Belə ki, həmin müharibədə Gürcüstanın hərbi məğlubiyyətə uğrayaraq Abxaziyanı və Cənubi Osetiyanı itirməsinin əsasında onun regiondakı reallıqları doğru şəkildə qiymətləndirə bilməməsi, tamamilə ABŞ və Qərb meylli xarici siyasət xəttini götürməsi dayanırdı. Vətən tarixşünaslığında bu məsələ ətrafında geniş və maraqlı təhlillər aparmış tədqiqatçılardan biri olan S.Qaraşovanın da təsdiq etdiyi kimi, Gürcüstanın Rusiya kimi iri dövlətlə açıq hərbi münaqişəyə girməsi onun təkbaşına qərarı ola bilməzdi və böyük ehtimal ki, Gürcüstana ABŞ və NATO tərəfindən dəstək vəd olunmuşdu [18, s.285]. Amerikalı politoloq Corc Fridmanın: “ABŞ ilə sıx müttəfiqlik münasibətlərinə girməklə Gürcüstan Rusiya üçün şirnikləndirici hədəfə çevrildi ki, bu da özünü 2008-ci ilin avqustundakı hərbi münaqişədə göstərdi” – deyə, yazması da bu fikri təsdiq edir [36, s.149]. Lakin, müharibə başladıqdan sonra Rusiya ordusunun Gürcüstan ərazilərinə sürətlə irəliləməsi fonunda ABŞ və Qərbin müşahidəçi mövqe tutaraq yalnız diplomatik bəyanatlar verməklə kifayətlənməsi isə, Gürcüstanda təəccüb və çaşqınlıq doğurdu. Bu hadisə göstərdi ki, XXI əsrdə də Rusiyanın Cənubi Qafqaz regionunda çox ciddi strateji maraqları var və özünün bu maraqları naminə Rusiya lazım bildikdə hərbi gücdən istifadə etməkdən belə çəkinmir. Ümumiyyətlə, bir çox analitiklər belə hesab edirlər ki, məhz Rusiya-Gürcüstan müharibəsinə Qərbin zəif reaksiyası sonradan Rusiya hakimiyyətinin 2014-cü ildə Krımı ilhaq

etməsinə, 2022-ci ildə isə Ukraynaya iri-miqyaslı hərbi müdaxilə etməsinə əlverişli zəmin yaratmışdır [43; 44]. Gürcüstana bənzər şəkildə Ermənistanın da birtərəfli xarici siyasət xətti həyata keçirməsi onun həm siyasi, həm iqtisadi, həm də hərbi cəhətdən Rusiyadan asılı vəziyyətə düşməsi ilə nəticələnmiş və E.Arifin təbirincə desək, Ermənistan Rusiyanın Cənubi Qafqazda hər cəhətdən yeganə forpostuna çevrilmişdir [1, s.277]. Bu mənada, Azərbaycanın bütün mövcud reallıqları nəzərə almaqla, həm ABŞ və Qərb, həm də Rusiya ilə münasibətlərində balans yaradaraq uğurlu bir şəkildə manevr etməsi onu Cənubi Qafqazın digər hər iki respublikasından fərqləndirir. Məhz belə bir xarici siyasət kursu sayəsində XXI əsrin ilk onilliklərində ölkəmizin siyasi, iqtisadi, hərbi və digər cəhətlərdən inkişafı təmin edilmişdir ki, bu da Azərbaycanın bir çox mühüm uğurlar əldə etməsinə, ilk növbədə isə 2020-ci ildə 44 günlük müharibədə və 2023-cü ildə antiterror əməliyyatında parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü tam şəkildə bərpa etməsinə yol açmışdır.

## Obama administrasiyası dövründə Azərbaycan-ABŞ münasibətləri Vətən tarixşünaslığında

2008-ci ilin noyabrın 4-də ABŞ-da keçirilən növbəti prezident seçkilərində qalib gələn Barak Obama 2009-cu ilin yanvarından öz səlahiyyətlərinin icrasına başladı. Bir sıra tədqiqatçılar və analitiklər belə hesab edirlər ki, B.Obamanın prezidentliyə başlamasından etibarən ABŞ-ın xarici siyasətində, xüsusilə təhlükəsizlik siyasətində yeni mərhələ başlamışdır ki, bu da ABŞ-ın dünya və regional siyasətində, milli təhlükəsizlik strategiyasında əsaslı dəyişikliklərin baş verdiyi və onun çoxstandartlılığının daha da gücləndirildiyi bir mərhələ kimi xarakterizə edilir [16, s.270].

ABŞ tarixində ilk qaradərili prezident olan B.Obama da C.Buş (kiçik) kimi ABŞ və Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərini davam etdirməyə başladı. 2009-cu ilin sentyabrında ABŞ dövlət katibinin müavini U.Börns tərəfindən: "Birləşmiş Ştatlar Azərbaycana Amerikanın maraqlarını və xarici siyasətini müəyyən edəcək 3 regionun – Yaxın Şərq, Avropa və Asiyanın kəsişdiyi bir məkanda yerləşən strateji tərəfdaş kimi baxır" fikrinin səsləndirilməsi Obama administrasiyasının elə ilk aylarından ABŞ-ın xarici siyasətində Azərbaycan Respublikasının nə qədər önəmli yer tutmasının göstəricisi idi. Bununla belə, Vətən tarixşünaslığındakı tədqiqat əsərlərini təhlil edərkən bəlli olur ki, B.Obamanın hakimiyyətə gəlməsindən sonra ikitərəfli münasibətlərdə bir sıra gərginliklər də meydana çıxmışdır ki, bunun da səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) ABŞ-ın öz daxili siyasi mənzərəsindəki bir sıra əsaslı dəyişikliklər. Belə ki, Demokratlar partiyasını təmsil edən B.Obamanın yeni prezident seçilməsindən sonra, onunla birgə insan hüquqları, demokratiya amilinə daha çox əhəmiyyət verən və bu amildən daxili işlərinə qarışmağa vasitə kimi istifadə edən müxtəlif siyasi qruplar (liberal, solçu, idealist) önə çıxdı ki, onlar bu məsələdə BMT Baş Assambleyasının 2005-ci ildə qəbul etdiyi "Qorumaq öhdəliyi"nə (Responsibility to Protect) əsaslanırdılar. Obama administrasiyasında xarici siyasət üzrə dövlət orqanlarında təmsil olunmağa başlayan Demokratlar partiyasının idealist fəalları, insan hüquqları və demokratiya ilə bağlı beynəlxalq təşkilatların çoxsaylı nümayəndələrinin (məsələn, Tomas Melia) Azərbaycana qarşı tənqid və ittihamları ikitərəfli münasibətlərin gərginləşməsinə güclü təsir göstərmişdi. Əslində isə, ABŞ müxtəlif ölkələrlə münasibətlərində insan hüquqları və demokratiya amilindən sadəcə olaraq özünün siyasi-iqtisadi maraqlarını həyata keçirmək üçün təzyiq vasitəsi kimi istifadə edirdi. Müqayisə apardıqda görürük ki, Demokratlar partiyasının B.Obamadan əvvəlki təmsilçisi B.Klinton da öz xarici siyasət kursunda ABŞ-ın siyasi-iqtisadi imperativlərini insan hüquqları və demokratiya amilindən üstün tutub. Məsələn, B.Klinton Türkmənistan Prezidenti S.Niyazovu hər hansısa bir şərt qoymadan Vaşinqtonda görüşə dəvət edən zaman "The Washington

Post" qəzeti yazırdı: "Sizdə əgər neft və təbii qaz kimi resurslar varsa, o zaman ABŞ üçün siyasi islahatlar və insan hüquqları sahəsindəki vəziyyət heç bir əhəmiyyət kəsb etməyəcək" [17, s.35]. Halbuki, M.İbrahimovun da yazdığı kimi, ABŞ-da Türkmənistana "sovet totalitarizminin canlı muzeyi" kimi baxılırdı [17, s.35]. Yaxud, Yaxın Şərqin enerji resursları ilə zəngin olan monarxiya və avtoritar rejimləri ilə ABŞ arasında münasibətlərdə insan hüquqları və demokratiya məsələləri həmişə arxa planda olmuşdur [2, s.390].

2) B.Obamanın ABŞ Prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən xarici siyasət sahəsində kifayət qədər təcrübəsi olmayan şəxslərin müxtəlif vəzifələrə gəlməsi. Belə ki, məsələn, birinci Obama administrasiyasında (2009-2012-ci illər) Prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri vəzifəsində çalışmış Tomas Donilonun xarici siyasət sferasında nə praktik, nə də akademik təcrübəsi olmuşdu [2, s.389].

3) ABŞ-ın Cənubi Qafqazda yürütdüyü təhlükəsizlik siyasətində, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində nümayiş etdirdiyi passiv fəaliyyət. Xüsusilə 2010-cu ildə Rusiya-Ermənistan hərbi müttəfiqlik müqaviləsinin müddətinin yenidən uzadılması və Ermənistan dövlətinin lazım olduğundan artıq silahlandırılaraq militarist ölkəyə çevrilməsinə ABŞ tamamilə seyrçi mövqedən yanaşaraq bu məsələni "iki ölkənin daxili işi" kimi qiymətləndirmişdir ki, bu da Ə.Həsənovun qeyd etdiyi kimi Azərbaycan tərəfinin haqlı narazılığına səbəb olmuşdu [16, s.296].

4) Obama kabinetində erməni lobbisinin maraqlarını təmin edən dövlət xadimlərinin mövcudluğu. Məsələn, ikinci Obama administrasiyasında (2013-2016-cı illər) ABŞ-ın dövlət katibi vəzifəsini tutan Con Kerri keçən əsrin 90-cı illərində – hələ senator olduğu dövrdə "Azadlığı müdafiə aktı"nın Azərbaycanın əleyhinə olan 907-ci maddəsinin ("907-ci düzəliş") əsas təşəbbüskarı olmuşdur. Yeri gəlmişkən, B.Obamanın prezidentliyi illərində 907-ci maddənin hələ də qüvvədə qalması Azərbaycan-ABŞ münasibətlərinin inkişafı yolunda maneə amili (barrier factor) kimi çıxış etməkdə davam etmişdi.

5) ABŞ-ın Azərbaycana yeni səfirinin təyin olunması ətrafında mübahisələr. Belə ki, 2010-cu ilin dekabrında Prezident B.Obama tərəfindən Azərbaycana səfir təyin edilən Metyu Brayza 2011-ci ildə geri çağırılmış və səfir postu bir ildən çox – 2012-ci ildə Riçard Morninqstarın təyinatına qədər boş qalmışdı. S.Qaraşova yazır ki, M.Brayza Azərbaycana isti münasibəti olan diplomat kimi xarakterizə edilirdi və elə bu baxımdan da o, erməni lobbisinin fəal təsiri nəticəsində ABŞ-ın Azərbaycandakı səfiri postunda çox qısa müddət qala bildi [18, s.300].

5. Авдеева Е.В., Штрекер Н.Ю. Экологизация содержания образования как составляющая проблемы непрерывного экологического образования // Проблемы современного педагогического образования. – 2022. – №74-1. –с.10-13.
6. Авцинова Г.И., Бучнев Е.В. Экологическое образование в условиях цифровых реалий: российский аспект // Перспективы науки и образования. – 2021. – №2(50). – с. 88-102.
7. Мамедов Н.М. Концепция устойчивого развития и исторический процесс // Век глобализации, 2010, №2.
8. Мамедов Н. М. Экологическая грамотность и экологическое образование / В сборнике: Никита Моисеев и современный мир. Доклады и материалы конференции. К 30-летию научной школы. – М., 2023. – с. 110-115.


***Ключевые слова:*** *экология, экологические проблемы, экологическое образование, устойчивое развитие, цели устойчивого развития*

**Natavan Qasımova**

*Moskva Pedaqoji Dövlət Universiteti*
*Pedaqogika və Psixologiya İnstitutunun doktorantı*

# DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ EKOLOJİ TƏHSİLİN ROLU

## XÜLASƏ

Tədqiqatın məqsədi davamlı inkişafın həyata keçirilməsində ekoloji təhsilin rolunu aşkar etməkdir. Tədqiqat işində ümumi elmi metodlardan: analiz, sintez, sistemli, məntiqi və tarixi yanaşmalardan istifadə edilmişdir. Məqalədə müzakirə edilir ki, ekoloji təhsil ümumtəhsil sistemində nisbətən yeni istiqamətdir, o, XX əsrin ikinci yarısında bəşəriyyətin gələcəyi üçün ekoloji problemlərin təhdidedici mahiyyətinin dərk edilməsi ilə əlaqədar formalaşmağa başlamışdır. Ekoloji təhsilin institusionallaşmasının başlanğıcı 1977-ci ildə Tbilisidə YUNESKO-nun himayəsi altında ekoloji təhsil üzrə beynəlxalq konfransın keçirildiyi vaxt hesab olunur. 1992-ci ildə BMT-nin davamlı inkişaf konsepsiyasını qəbul etməsindən sonra ekoloji təhsil yeni məna və əhəmiyyət kəsb etmişdir. Davamlı inkişaf məqsədlərinə nail olmaqda ekoloji təhsilin xüsusi rolu indi göz qabağındadır. Məqalə müəyyən edir ki, ekoloji təhsil ekoloji şüurun və düşüncənin formalaşmasını müəyyən edir, ekoloji fəaliyyətin və yeni mədəniyyətin formalaşmasına kömək edir. Elmi diskurs və praktik tətbiqin kəsişməsində olan ekoloji təhsil ekoloji cəhətdən təmiz qərarlar qəbul etmək üçün ilkin şərtlər yaradır. Ekoloji təhsilin sosial-mədəni, iqtisadi və siyasi konteksti var. Bu, təkcə təbiətşünaslıq və humanitar elmləri birləşdirən deyil, həm də normativ və proqnozlaşdırıcı funksiyaları yerinə yetirən fənlərarası sahədir. Məsuliyyət hissini aşılamaqla ekoloji problemlərə həssaslıqla yanaşmağa və onların səmərəli həlli yollarını axtarmağa imkan verir. Məqalə göstərir ki, əslində ekoloji təhsil hazırda cəmiyyət və təbiət arasında qarşılıqlı əlaqənin uyğunlaşdırılmasında ayrılmaz elmi və təhsil amili kimi görünür.

***Açar sözlər:*** *ekologiya, ekoloji problemlər, ekoloji təhsil, davamlı inkişaf, davamlı inkişaf məqsədləri*

**Natavan Gasimova**

*Moscow State Pedagogical University*
*Institute of Pedagogy and Psychology*
*Ph.D. student*

# THE ROLE OF ECOLOGICAL EDUCATION IN THE IMPLEMENTATION OF SUSTAINABLE DEVELOPMENT GOALS

## ABSTRACT

The purpose of the study is to reveal the role of environmental education in the implementation of sustainable development. The research used general scientific methods: analysis, synthesis, systemic, logical, and historical approaches. Environmental education is a relatively new direction in the general education system; it began to form in the second half of the twentieth century due to awareness of the threatening nature of environmental problems that will affect the future of humanity. The beginning of the institutionalization of environmental education is considered to be in 1977 when an international conference on environmental education was held in Tbilisi under the auspices of UNESCO. Environmental education acquired a new meaning and significance after the UN adopted the concept of sustainable development in 1992. The unique role of environmental education in achieving sustainable development goals is now apparent. Environmental education determines the formation of environmental consciousness, thinking, and promoting environmental activities and a new culture. Environmental education creates prerequisites for making environmentally friendly decisions at the junction of scientific discourse and practical application. Environmental education has a socio-cultural, economic, and political context. It is an interdisciplinary field that integrates natural science and humanities knowledge and performs normative, predictive functions. Instilling a sense of responsibility makes it possible to react sensitively to environmental problems and look for ways to solve them effectively. In essence, environmental education currently appears as an integral scientific and educational factor in the harmonization of interaction between society and nature.

***Keywords:*** *ecology, ecological problem, ecological education, sustainable development, sustainable development goals*

DOI: 10.30546/2309-1347.2024.1561

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327; 930.22

**AYTAJ BAGHIRLI**

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, Ph.D. Student**

*e-mail: b.aytach@gmail.com*

# TRANSITION TO THE NEW WORLD ORDER AND THE REPUBLIC OF AZERBAIJAN

## Introduction

The emergence of a multi-polar world order has introduced a heightened level of unpredictability and volatility into global affairs. Rapid shifts in power dynamics, geopolitical realignments, and the proliferation of non-state actors have contributed to an environment marked by uncertainty and fluidity. Moreover, unforeseen events such as geopolitical crises, natural disasters, and pandemics can have significant and far-reaching ramifications, challenging the stability and predictability of the international system. As a result, policymakers, diplomats, and analysts must contend with an increasingly complex and dynamic geopolitical landscape, where the traditional rules of engagement may no longer apply.

The transition to multipolarity presents both challenges and opportunities for the international community. On the one hand, the proliferation of power centers can lead to increased competition, geopolitical rivalries, and potential conflicts as states vie for influence and resources. Moreover, the absence of a single dominant power capable of enforcing global order may exacerbate security dilemmas and impede collective action on pressing global challenges [5].

On the other hand, multipolarity also offers opportunities for cooperation, collaboration, and the pursuit of shared interests among diverse actors. Issues such as climate change, technological advancements, global health crises, and transnational threats require collective and concerted efforts to address effectively. In this context, the emergence of multiple poles of influence can facilitate greater diversity of perspectives, innovative solutions, and collaborative frameworks for tackling shared challenges. Moreover, the rise of new actors on the global stage presents opportunities for enhanced economic partnerships, cultural exchanges, and diplomatic initiatives that can contribute to a more inclusive and equitable international order.

In recent years, Azerbaijan-Russia relations have undergone significant developments shaped by a complex interplay of regional dynamics, geopolitical interests, and strategic partnerships. The dynamics of the South

Caucasus region, including Armenia's engagement with NATO countries such as the USA and France, have prompted Russia to strengthen its cooperation with Azerbaijan to safeguard its interests. In response to Armenia's alignment with NATO, Russia has deepened its military-political cooperation with Azerbaijan, evident in the deployment of peacekeepers to Karabakh in 2020 to maintain stability and oversee the implementation of the ceasefire agreement. The gradual withdrawal of peacekeepers from Karabakh in 2024 signals a shift in the regional security landscape, with Azerbaijan and Russia collaborating to address evolving security challenges and preserve stability in the region [2].

Azerbaijan's commitment to refrain from bringing foreign military blocs to the region has enhanced military-political and economic cooperation between Azerbaijan and Russia. This pledge underscores Azerbaijan's strategic alignment with Russia and its recognition of Russia's security concerns in the South Caucasus. In return, Russia has reciprocated by strengthening economic ties with Azerbaijan, facilitating trade, investment, and joint infrastructure projects. The absence of foreign military blocs in the region has created a conducive environment for bilateral economic cooperation, fostering mutual prosperity and development. Azerbaijan's tripartite cooperation with Iran and Russia in the realm of energy security further underscores the multifaceted nature of Azerbaijan-Russia relations. Recognizing the importance of energy security for regional stability, Azerbaijan has collaborated with Russia and Iran to enhance the resilience of the region's energy infrastructure and ensure reliable energy supplies. This trilateral partnership reflects a pragmatic approach towards addressing common challenges and leveraging shared opportunities in the energy sector, contributing to the sustainable development and prosperity of the region [7].

In recent years, Azerbaijan-United States relations have evolved into a multifaceted strategic partnership, characterized by cooperation in various spheres, including energy security, trade and investment, counterterrorism efforts, and democratic development. One of the cornerstones of Azerbaijan-United States relations is the collaboration in promoting European energy security. Azerbaijan plays a significant role as an energy supplier to Europe, with crude oil being a substantial import from Azerbaijan to the United States. Furthermore, U.S. companies actively engage in offshore oil development projects in Azerbaijan, contributing to the diversification of energy sources and enhancing global energy security [12].

The United States remains committed to supporting democratic development and human rights in Azerbaijan, recognizing the importance of fostering inclusive governance and respect for fundamental freedoms. U.S. assistance programs aim to enhance Azerbaijan's security capacity, promote economic development, and support the growth of independent institutions and civil society organizations. These efforts underscore the United States' commitment to advancing democratic values and principles worldwide [4].

In recent years, Azerbaijan-EU relations have been characterized by a complex interplay of cooperation, challenges, and evolving dynamics, particularly in the context of border security, regional stability, and respect for territorial integrity. The decision by the EU to deploy monitoring experts along the Armenian side of the international border with Azerbaijan in October 2022 reflects the EU's commitment to peace restoration and confidence-building measures in the region. This initiative aims to monitor, analyze, and report on the situation along the border, facilitate peace restoration efforts, and define international border boundaries. Additionally, the establishment of the EU civilian mission in Armenia (EUMA) underscores the EU's efforts to contribute to stability in the border areas. While these measures are intended to promote peace and stability, they have strained Azerbaijan-EU relations due to concerns over

their impact on border security dynamics and Azerbaijan's sovereignty [3].

Azerbaijan-EU relations faced further challenges following the EU's condemnation of Azerbaijan's military actions in September 2022 and calls for respecting the territorial integrity of both countries [16]. While the EU's stance reflects its commitment to upholding international law and territorial sovereignty, Azerbaijan perceives it as interference in its internal affairs and a violation of its sovereignty. This condemnation has exacerbated tensions and strained Azerbaijan-EU relations, underscoring the divergent perspectives on regional conflicts and border security issues.

In navigating the challenges in Azerbaijan-EU relations, both parties must strive to engage in constructive dialogue, foster mutual understanding, and seek common ground on issues of mutual concern. Despite the challenges, there exist opportunities for cooperation in various areas, including trade, energy, and people-to-people exchanges. The EU's role as a key trading partner and investor in Azerbaijan underscores the potential for mutually beneficial cooperation that transcends political differences.

In October 2020, the TAP pipeline from the Greece-Turkey border to a receiving terminal in southern Italy was finally completed on 15 November 2020, the last part of the Southern Gas Corridor, and commercial activities through the pipeline began [18].

Moreover, the Russian-Ukrainian war, which began a year and a half after TAP was launched, affects an important transit route for energy trade and transportation in the Black Sea region. In particular, energy producing and exporting countries such as Azerbaijan depend on the security of energy transport routes through the Black Sea. The sanctions imposed by the European Union against Russia significantly affect the energy balances and trade relations in the region. The European Union imposes sanctions to reduce Russia's dependence on energy resources and to counterbalance Russia's policies. These sanctions are seen as part of efforts to ensure the security of Europe's energy supply. Sanctions against Russia have increased Europe's need for alternative energy sources. Therefore, as a result of the European Union's sanctions against Russia, Azerbaijan's energy export and trade potential has increased. Europe is turning to alternative energy sources such as Azerbaijan to reduce energy dependence on Russia.

Recently, the EU signed a memorandum of understanding with Azerbaijan to double the import of Azerbaijani natural gas by 2027. The main details of the memorandum are as follows [9]:

– **Import of gas.** The EU aims to increase gas imports from Azerbaijan to at least 20 billion cubic meters (bcm) per year by 2027.
– **Trans-Adriatic Pipeline.** Currently, Azerbaijan transports more than 8 billion cubic meters of gas annually through the Trans Adriatic Pipeline. This will be expanded to 20 billion cubic meters by 2027.
– **Security of supply.** Azerbaijan's increased gas imports will help offset Russian gas supply cuts and significantly contribute to Europe's security of supply.
– **Energy cooperation.** The EU considers Azerbaijan a reliable energy partner and emphasizes the importance of long-term and predictable cooperation in the field of energy. The Southern Gas Corridor, which transports Azerbaijani gas to the EU, has been operating since 2020.
– **Diversification.** Diversification of energy imports is a priority for the EU amid Russia's attempts to use energy supplies as a weapon. While EU leaders have agreed to freeze most Russian oil imports by the end of this year, they have stopped short of an outright ban on Russian gas, which accounts for around 40% of the EU's needs in 2021.

The opening of the Zangezur Corridor holds strategic importance for China's BRI, serving as a vital link in the transportation network connecting China to Europe and the Middle East. Azerbaijan's support for the development of the Zangezur Corridor aligns with China's strategic objectives, as it enhances connectivity, reduces transportation costs, and facilitates trade between East and West. By indirectly defending Azerbaijan's political position in the region, China reinforces its commitment to promoting stability and cooperation along the BRI routes, fostering mutual benefits for both countries [13].

Azerbaijan's alignment with the Russian-Chinese alliance in the South Caucasus not only strengthens strategic cooperation but also yields economic dividends. By supporting the alliance, Azerbaijan gains access to new markets, investment opportunities, and infrastructure development projects facilitated by Chinese investment and technological expertise. Moreover, Azerbaijan's participation in the alliance enhances its regional influence and geopolitical standing, bolstering its position as a key player in the South Caucasus.

Azerbaijan adheres to the One China policy, which recognizes the People's Republic of China (PRC) as the sole legitimate government representing the entirety of China, including Taiwan. As a result, Azerbaijan does not maintain official diplomatic relations with Taiwan, respecting the principle of non-recognition of Taiwan's sovereignty. Instead, Azerbaijan maintains diplomatic relations exclusively with the PRC, recognizing it as the legitimate government of China [8]. This stance reflects Azerbaijan's commitment to upholding international norms and principles, promoting stability in the Asia-Pacific region, and respecting the territorial integrity and sovereignty of all nations. By adhering to the One China policy, Azerbaijan seeks to foster constructive relations with the PRC while refraining from actions that could undermine China's territorial integrity or sovereignty.

In terms of total exports, Iran exported $15.9 billion, while Azerbaijan exported $38.9 billion in 2022. While Iran's total exports surpass those of Azerbaijan, both countries have significant trade volumes that contribute to their respective economies. Overall, the economic relations between Azerbaijan and Iran are characterized by a mix of trade dynamics, with Iran being a major exporter to Azerbaijan while Azerbaijan's exports to Iran have seen a decline. However, there are opportunities for both countries to further strengthen their economic ties, explore new avenues for cooperation, and enhance mutual trade and investment to the benefit of both nations [17].

In recent years, Azerbaijan-Iran relations have been influenced by a complex interplay of geopolitical dynamics, regional challenges, and strategic considerations. Iran views Azerbaijan's relations with Israel with suspicion and concern, considering Israel as a regional adversary. Azerbaijan's cooperation with Israel, particularly in the defense and security sectors, has raised eyebrows in Tehran, leading to tensions and apprehensions about the implications for regional stability. Iran perceives Azerbaijan's alignment with Israel as a threat to its own security interests and seeks to counterbalance any perceived Israeli influence in the region [6].

Armenia's support for Azerbaijan's adversaries, coupled with warnings about Azerbaijan's alleged efforts to bring NATO to the region, further complicates Azerbaijan-Iran relations. Armenia, as a close ally of Iran, has leveraged its influence to caution Azerbaijan against deepening ties with Western powers, including NATO. These warnings underscore Iran's concerns about potential security implications and the erosion of its influence in the South Caucasus, prompting Tehran to adopt a cautious approach towards Azerbaijan's foreign policy initiatives [15].

Thus, Azerbaijan's positioning within the broader context of international polarization reflects a nuanced approach that combines

elements of alignment with both Western and Eastern blocs, while prioritizing strategic interests in the economic, military, and political spheres. While Azerbaijan tends to lean towards the Eastern bloc, consisting of Russia, China, and Iran, it also maintains close relations with certain Western allies such as Great Britain and Israel, as well as with Turkey, adding complexity to its foreign policy stance.

In the economic sphere, Azerbaijan's policies often align with those of the Eastern bloc, particularly in energy cooperation and infrastructure development projects. Azerbaijan's participation in initiatives such as China's Belt and Road Initiative (BRI) and its support for the Zangezur Corridor project, which benefits China's One Belt, One Road project, underscore its alignment with Eastern bloc interests. However, Azerbaijan also engages in economic cooperation with Western partners, particularly in energy exports and investment, maintaining a balanced approach to maximize economic benefits [14].

Azerbaijan's military policies exhibit a similar pattern of alignment with the Eastern bloc, evidenced by its strategic cooperation with Russia and its participation in joint military exercises with China and Iran. Azerbaijan's procurement of military equipment from Russia and its indirect collaboration with the Collective Security Treaty Organization (CSTO) reflect its strategic alignment with Eastern bloc interests in regional security [10]. Nonetheless, Azerbaijan also maintains military partnerships with Western countries, particularly in training and defense cooperation, contributing to its broader defense strategy.

At the political level, Azerbaijan's alignment with the Eastern bloc is evident in its diplomatic engagements and regional alliances. Azerbaijan's participation in organizations such as the Shanghai Cooperation Organization (SCO) and its cooperation with Russia and Iran in regional affairs reflect its strategic convergence with Eastern bloc interests [1]. However, Azerbaijan also cultivates political ties with Western partners, including membership in organizations such as the Council of Europe and the Organization for Security and Cooperation in Europe (OSCE), demonstrating its commitment to multilateral diplomacy and engagement with the Western community.

## Conclusion

In recent years, Azerbaijan and Turkey have witnessed substantial growth and consolidation in their relations, driven by mutual strategic interests, historical ties, and a shared commitment to cooperation. From energy partnerships to military collaboration, both nations have shown a strong determination to deepen their ties and tackle regional challenges together. As they further enhance their cooperation across various sectors, Azerbaijan and Turkey are poised to play a significant role in shaping the future of the South Caucasus region and beyond. Similarly, Azerbaijan's relationship with Russia has developed into a strategic partnership marked by military-political cooperation, economic collaboration, and joint efforts to ensure energy security. Despite facing complex challenges, Azerbaijan and Russia have managed to advance their shared interests and maintain stability in the South Caucasus through continued dialogue, trust-building, and cooperation. Meanwhile, Azerbaijan's ties with the United States have transformed into a comprehensive strategic partnership, encompassing collaboration in energy security, trade, counterterrorism, and democracy promotion. Despite existing challenges, both countries remain committed to strengthening their alliance and pursuing mutual interests amid a rapidly evolving global landscape. Furthermore, Azerbaijan-China relations have evolved into a strategic partnership characterized by economic cooperation, strategic alignment, and mutual benefits. Azerbaijan's role as an advocate of

China's Belt and Road Initiative and its support for projects like the Zangezur Corridor demonstrate the depth of bilateral relations, poised to contribute to regional stability and prosperity. In the case of Azerbaijan-Iran relations, a complex interplay of geopolitical factors, regional challenges, and strategic considerations shapes their dynamic. Iran's concerns regarding Azerbaijan's external relations, particularly with Israel and Armenia, influence the nature of their relationship. Nonetheless, by engaging in constructive dialogue and seeking common ground, Azerbaijan and Iran have the potential to build a stable and mutually beneficial partnership in the future.

Azerbaijan's positioning amidst the global polarization between Western and Eastern factions is marked by a pragmatic and multi-faceted approach, prioritizing its strategic interests across economic, military, and political domains. While Azerbaijan generally aligns with the Eastern bloc, it also maintains strong ties with specific Western allies and partners, indicative of its pursuit of a balanced foreign policy aimed at maximizing economic opportunities, bolstering national security, and fostering regional stability. As Azerbaijan maneuvers through the complexities of international relations, its skill in managing competing interests will be pivotal in shaping its future trajectory on the world stage.

**References:**


1. Ahmadov, N. 20 years of Shanghai Cooperation Organization: A view from Azerbaijan. URL: https://aircenter.az/en/single/20-years-of-shanghai-cooperation-organization-a-view-from-azerbaijan-781
2. Aljazeera. Russian peacekeepers start withdrawal from Azerbaijan’s Nagorno-Karabakh. URL: https://www.aljazeera.com/news/2024/4/17/russian-peacekeepers-start-withdrawal-from-azerbaijans-nagorno-karabakh
3. Armenia: EU launches a civilian mission to contribute to stability in border areas. URL: https://www.consilium.europa.eu/en/press/press-releases/2023/02/20/armenia-eu-launches-a-civilian-mission-to-contribute-to-stability-in-border-areas/
4. Armenia-Azerbaijan: EU sets up monitoring capacity along the international borders. URL: https://www.consilium.europa.eu/en/press/press-releases/2022/10/17/armenia-azerbaijan-eu-sets-up-monitoring-capacity-along-the-international-borders/
5. Ashford, E.; Cooper, E. Yes, the World Is Multipolar. URL: https://foreignpolicy.com/2023/10/05/usa-china-multipolar-bipolar-unipolar/
6. Borshchevskaya, A.; Tabler, A.J. Iran’s Tensions with Azerbaijan Point to Broader Shifts in the South Caucasus. URL: https://www.washingtoninstitute.org/policy-analysis/irans-tensions-azerbaijan-point-broader-shifts-south-caucasus
7. Bugajski, J. Azerbaijan can become a constructive player in the Caucasus. URL: https://www.politico.eu/article/azerbaijan-can-become-a-constructive-player-in-the-caucasus/
8. CGTN. Azerbaijan supports and will continue to support one-China principle. URL: https://news.cgtn.com/news/2023-07-24/Azerbaijan-supports-and-will-continue-to-support-one-China-principle-1lGWsmiDtmg/index.html
9. EU signs deal to double gas imports from Azerbaijan by 2027. euractiv. URL: https://www.euractiv.com/section/energy/news/eu-signs-deal-to-double-gas-imports-from-azerbaijan-by-2027/
10. Gamerman, E. Collective Security Treaty Organization (CSTO). In:

Romaniuk, S.N., Marton, P.N. (eds) The Palgrave Encyclopedia of Global Security Studies. Palgrave Macmillan: Cham, 2023. https://doi.org/10.1007/978-3-319-74319-6_15
11. Garashova, S. United States – Azerbaijan Relations (1991-2020). Eminak: Scientific Quarterly Journal, (4(44), 301-322. https://doi.org/10.33782/eminak2023.4(44).688
12. Huseynov, V. Stronger US-Azerbaijan ties can help counter Russia and Iran. URL: https://www.atlanticcouncil.org/blogs/new-atlanticist/stronger-us-azerbaijan-ties-can-help-counter-russia-and-iran/
13. In Beijing, Azerbaijan Advocates for Middle Corridor. URL: https://caucasuswatch.de/en/news/in-beijing-azerbaijan-advocates-for-middle-corridor.html
14. Lavrina, A. Zangezur corridor: New transport route to connect Europe and Asia. URL: https://aze.media/zangezur-corridor-new-transport-route-to-connect-europe-and-asia/
15. Looming Azerbaijan-Armenia War Signals Geopolitical Shifts. URL: https://www.washingtoninstitute.org/policy-analysis/irans-tensions-azerbaijan-point-broader-shifts-south-caucasus
16. Meister, S. The Military Escalation Between Armenia and Azerbaijan: Is the EU Still a Normative Power? URL: https://dgap.org/en/research/publications/military-escalation-between-armenia-and-azerbaijan
17. Mikoviç, N. Iran and Azerbaijan: Regional Rivals or Economic Partners? URL: https://www.diplomaticourier.com/posts/iran-and-azerbaijan-regional-rivals-or-economic-partners
18. TAP layihəsi işə düşdü. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. URL: https://aircenter.az/az/single/tap-layihesi-ise-dusdu-521

***Keywords:*** *Republic of Azerbaijan, new world order, multipolarity, USA, Russia, China*

**Aytac Bağırlı**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının doktorantı*

## YENİ DÜNYA NİZAMINA KEÇİD VƏ AZƏRBAYCAN RESPUBLİKASI

### XÜLASƏ

Çoxqütblü dünya nizamının yaranması qlobal dünyada gözlənilməzliyi və qeyri-sabitliyi artırıb. Hakimiyyətin sürətli dəyişməsi, geosiyasi dəyişikliklər və qeyri-dövlət aktorların artması qeyri-müəyyənlik mühitinə səbəb olur. Siyasətçilər ənənəvi qaydaların artıq tətbiq oluna bilməyəcəyi bu mürəkkəb vəziyyətdən çıxış yolları araşdırır. Bu keçid həm artan rəqabət və potensial münaqişə kimi çağırışlar, həm də iqlim dəyişikliyi və sağlamlıq böhranları kimi qlobal məsələlər üzrə əməkdaşlıq imkanlarına gətirir.

Azərbaycanın regional dinamika və strateji maraqlar əsasında formalaşan xarici əlaqələri əhəmiyyətli dərəcədə dəyişib. Azərbaycanla Rusiya arasında münasibətlər hərbi əməkdaşlıq və iqtisadi əlaqələr vasitəsilə möhkəmlənib. Azərbaycan və ABŞ arasında münasibətlər enerji, ticarət və demokratik inkişaf sahələrində strateji tərəfdaşlıq xarakteri daşıyır. Azərbaycan və Aİ arasında münasibətlər sərhəd təhlükəsizliyi və regional münaqişələrə dair fərqli baxışlar səbəbindən problemlərlə üzləşir, lakin əməkdaşlıq imkanları hələ də qalmaqdadır.

Azərbaycan-İran münasibətlərinə geosiyasi dinamika təsir edir, İran Azərbaycanın İsraillə münasibətlərinə şübhə ilə yanaşır. Bu gərginliklərə baxmayaraq, konstruktiv dialoq və əməkdaşlıq imkanları var. Azərbaycanın qlobal qütbləşmədə mövqeyi praqmatik yanaşmanı əks etdirir, iqtisadi faydaları maksimuma çatdırmaq, təhlükəsizliyi təmin etmək və sabitliyi gücləndirmək üçün şərq və qərb blokları arasında maraqları balanslaşdırır. Azərbaycan beynəlxalq əlaqələri idarə etdiyinə görə, onun rəqabət aparan maraqları idarə etmək bacarığı onun dünya miqyasında gələcəyi üçün mühüm əhəmiyyət kəsb edəcək.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, yeni dünya nizamı, çoxqütblülük, ABŞ, Rusiya, Çin*

**Айтадж Багирли**
*Докторант кафедры “Международные отношения и внешняя политика”*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ПЕРЕХОД К НОВОМУ МИРОВОМУ ПОРЯДКУ И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА

### РЕЗЮМЕ

Появление многополярного мирового порядка усилило непредсказуемость и нестабильность в глобальном мире. Быстрая смена власти, геополитические перестановки и негосударственные субъекты способствуют созданию атмосферы неопределенности. Политики должны ориентироваться в этой сложной ситуации, в которой традиционные правила больше не могут применяться. Этот переход приносит такие проблемы, как усиление конкуренции и потенциальные конфликты, а также возможности для сотрудничества по глобальным проблемам, таким как изменение климата и кризисы в области здравоохранения.

Внешние отношения Азербайджана значительно изменились, формируясь под влиянием региональной динамики и стратегических интересов. Отношения между Азербайджаном и Россией укрепились благодаря военному сотрудничеству и экономическим связям, а стремление Азербайджана избегать иностранных военных блоков усилило двустороннее сотрудничество. А отношения Азербайджана и с США характеризуются стратегическим партнерством в области энергетики, торговли и демократического развития. Отношения между Азербайджаном и ЕС сталкиваются с проблемами из-за различных взглядов на безопасность границ и региональных конфликтов, но возможности для сотрудничества остаются.

На отношения Азербайджана и Ирана влияет геополитическая динамика, при этом Иран относится с подозрением к отношениям Азербайджана с Израилем. Несмотря на эту напряженность, существуют возможности для конструктивного диалога и сотрудничества. Позиционирование Азербайджана в глобальной поляризации отражает прагматичный подход, балансирующий интересы между восточным и западным блоками для максимизации экономических выгод, обеспечения безопасности и укрепления стабильности. Поскольку Азербайджан участвует в управлении международными отношениями, его способность управлять конкурирующими интересами будет иметь решающее значение для его будущего в мировой арене.

***Ключевые слова:*** *Азербайджанская Республика, новый мировой порядок, многополярность, США, Россия, Китай*

# REZENZİYA
# R E V I E W

**LƏTİF BABAYEV**
**tarix üzrə fəlsəfə doktoru, polkovnik**

## MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNİN TƏDQİQİNDƏ YENİ UĞUR

Siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilovun “Milli təhlükəsizlik nəzəriyyəsi” adlı dərsliyi milli təhlükəsizlik məsələlərinin araşdırılmasına sanballı töhfə sayıla bilər.

Uzun müddət bu istiqamətdə tədqiqatlar aparmış müəllif milli təhlükəsizliyin həm elmi-nəzəri problemlərinin hərtərəfli öyrənilməsi və təhlil edilməsinə nail olmuş, həm də mövcud təcrübəsindən bəhrələnərək milli təhlükəsizliyin təminatı prosesinin praktik-tətbiqi mexanizmləri ilə bağlı məsələləri dolğun əks etdirə bilmişdir. 9 fəsil, ön söz və ədəbiyyat siyahısından ibarət olan dərslikdə milli təhlükəsizliyin mahiyyəti, predmeti, kateqoriyaları, tədqiq və tətbiq metodlarının aydınlaşdırılmasından başlamış, Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti və sisteminin təşəkkülü, formalaşması və inkişaf xüsusiyyətləri, bu siyasətin hüquqi əsasları, həyata keçirilmə mexanizmləri, əsas milli maraqlar və onların reallaşdırılmasının müvafiq istiqamətləri, parametrləri, müasir beynəlxalq münasibətlər nəzəriyyəsində milli təhlükəsizlik probleminə yeni tələblər, çağırışlar və yanaşmalar ümumiləşdirilərək tədqiq olunmuş, düzgün elmi-nəzəri nəticələr çıxarılmışdır. Bununla yanaşı, müasir dövrdə Avropa təhlükəsizlik strategiyasının əsasları və aparıcı dövlətlərin, o cümlədən ABŞ, Fransa, Yaponiya, Almaniya, Böyük Britaniya, Türkiyə, Çin, Rusiya, Ukrayna və sair ölkələrin milli təhlükəsizlik strategiyaları barədə məsələlərin tədqiqi, bu sahədə həm dünya, həm də Azərbaycan alimlərinin,




ekspert və mütəxəssislərinin yanaşmalarının hərtərəfli araşdırılaraq təhlil süzgəcindən keçirilməsi dərsliyin elmi-praktik əhəmiyyətini daha da artırmışdır.

Cəlil Xəlilovun milli təhlükəsizlik siyasəti məsələləri ilə bağlı elmi-nəzəri mülahizələrinin konkretliyini və dərinliyini şərtləndirən başlıca amillərdən biri də müəllifin praktik olaraq bələd olduğu bu mövzunu uzun illər araşdırması və onunla bağlı AR Prezidenti yanında İdarəçilik Akademiyasında tədris

prosesi ilə məşğul olması ilə əlaqədardır. Onu da qeyd edim ki, bu imkandan lazımınca faydalanan müəllif bir neçə il əvvəl ölkədə milli təhlükəsizlik siyasəti məsələlərinin tədqiqinə həsr edilmiş ilk geniş həcmli və elmi ictimaiyyətin diqqətini çəkən "Milli təhlükəsizlik strategiyası" adlı dərslik yazaraq çap etdirmiş, bu əsər respublikanın bir sıra ali və xüsusi təhsil məktəblərinin tədris proqram larına dərslik kimi daxil edilmişdir. Cəlil Xəliovun adıçəkilən elmi əsərlərindən əlavə bu mövzuda yazdığı ilk tədqiqat işi olan və milli təhlükəsizlik məsələlərinin spesifik istiqamətlərindən birinə həsr edilmiş "Milli təhlükəsizliyin təmin olunmasında milli mənlik şüurunun rolu" kitabı da mütəxəssislər və tədqiqatçılar tərəfindən kifayət qədər maraqla qarşılanmışdır. Əlbəttə, "Milli təhlükəsizlik nəzəriyyəsi" adlı dərsliyi müəllifin bu sahə üzrə araşdırma və çalışmalarının yekunu, elmi-nəzəri və praktik cəhətdən təkmilləşdirilmiş nəticəsi sayıla bilər.

Ən qədim dövrlərdən başlayaraq əvvəlcə insan (fərd), sonrakı inkişaf mərhələlərində insan birlikləri (icma, qəbilə) və nəhayət, dövlət və cəmiyyət miqyasında qiymətləndirilən təhlükəsizlik probleminin həlli, yaşayış və birgəyaşayış üçün təhlükəsiz mühitin yaradılması və uzunmüddətli təminatı xüsusi əhəmiyyət kəsb etmişdir. Şəraitin və miqyasın dəyişməsi ilə yeni mahiyyət qazanan və etibarlı təminatı üçün fərqli üsullar və vasitələr tələb edən təhlükəsizlik məsələsində yeni dünya düzəninin formalaşdığı "Vestfal sülhü"nün imzalanmasından (1648-ci il 24 oktyabr) sonra fundamental dəyişikliklər baş verdi. İlk dəfə suverenitet anlayışının qəbul olunduğu və müasir beynəlxalq hüququn əsasının qoyulduğu bu sülh sazişi dövlətlərarası münasibətlərin əsas prinsiplərini müəyyənləşdirərək, bərabər hüquqlu dövlətlərin yaranması və öz üzərlərinə mümkün problemlərin sülh yolu ilə həlli öhdəliklərini götürmələri, birgə asayiş ideyasını dəstəklənməsi ilə tarixə düşdü. Beynəlxalq münasibətlərin özünü doğrultmayan iyerarxik qaydalarını dağıdaraq, əvəzində qanunlara əsaslanan qarşılıqlı əməli mexanizmlər yaradan "Vestfal sülhü" yeni dünya düzəni qurulması ilə yanaşı, ümumi və dövlət təhlükəsizliyi məsələlərinə münasibəti də kökündən dəyişdirdi. Artıq dövlətlərin və xalqların təhlükəsizliyinin etibarlı təminatı məsələləri onlar arasında qarşılıqlı münasibətlərin səviyyəsindən və inkişafından birbaşa asılı vəziyyətə düşürdü.

XX əsrdə Birləşmiş Millətlər Təşkilatının və müxtəlif dövlətlər birliklərinin yaranması, xüsusi ilə kollektiv təhlükəsizlik anlayışının meydana çıxması milli təhlükəsizlik məsələlərinə tamamilə yeni yanaşma metodlarını və tələbləri formalaşdırdı. Milli təhlükəsizlik anlayışının yeni məzmun kəsb etməsi ilə bu sahədə həm elmi-nəzəri, həm də praktik baxımdan əsaslı dəyişikliklər baş verdi. Dünyanın kürəsəlləşdiyi indiki dövrdə bu məsələyə yanaşmalarda daha sürətli dəyişikləri müşahidə edilməkdə, yeni baxışlar formalaşmaqdadır. Ancaq nə qədər parodoksal səslənsə də, deyə bilərik ki, milli təhlükəsizlik anlayışı öz ilkin, bəsit qavramından təsəvvürəgəlməz dərəcədə kənarlaşıb, ən müasir yanaşma metodları tələb etsə də, əsl mahiyyətindən, ibtidai insanın təhlükəsizliyə olan ehtiyacı dərk etməsindən çox da uzaqlaşa bilməmişdir. Baxmayaraq ki, milyon il əvvəl təhlükəsizliyi üçün (qida, təhlükəsiz məskən, vəhşi heyvanlardan və düşmən qəbilələrdən müdafiə olunmaq və sair) yollar axtaran ibtidai insandan fərqli olaraq tələbatına uyğun olaraq təhlükəsizliyinin təminatına daha böyük ehtiyac duyan çağdaş insanın bu tələbatlarının ödənilməsi daha təkmil vasitələr tələb edir. Ancaq hər iki halda təhlükəsizlik təminatının təxirəsalınmazı zərurəti azalmayıb, əksinə yeni təhdid və təhlükələr fonunda daha da artıb və artmaqda davam edəcək.

Siyasi elmlər üzrə fəlsəfə doktoru C.Xəlilovun təhlükəsizlik nəzəriyyəsinin ölkəmizdə yeni bir elm sahəsi kimi dərindən araşdırmaq səyləri, gətirdiyi arqumentlər, irəli sürdüyü mülahizə və qənaətlərin həqiqiliyi və inandırıcılığı onu deməyə əsas verir ki, müəllifin bu istiqamətdə tədqiqatlarının əhatə dairəsini genişləndirməsi bu sahənin inkişafına

töhfə vermək niyyətindən və potensialından qaynaqlanır. Bu baxımdan C.Xəlilovun öz arqumentlərini ardıcıl xətlə və istisnasız olaraq elmi-nəzəri cəhətdən əsaslandırmaqla mövzunu sadədən mürəkkəbə doğru təkamül prosesi kimi təqdim etməsi və bu sahədə mövcud elmi-nəzəri bazadan səmərəli istifadə ilə genişləndirməsi təqdirəlayiqdir. Bütün bunlar mövzunun şərhində beynəlxalq miqyasda qəbul olunmuş yanaşmaların, sadəcə, təkrarlanması deyil, yenidən dəyərləndirilməklə, elmi təhlil əsasında təqdim edilməsinə imkan vermişdir.

Dərslikdə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin təşkili, milli maraqlar, onların təminatı prosesi, vasitələri, üsulları, təhlükəsizliyin müxtəlif aspektlərinin və ölkəmizə qarşı mümkün təhdidlərin təhlili, müvafiq dövlət orqanlarının bu sahədəki vəzifələri, səlahiyyətləri və əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi məsələləri elmi-nəzəri, həm də praktik baxımdan kifayət qədər əsaslandırılmış, düzgün nəticələr çıxarılmışdır. Müəllif hərbi, siyasi, iqtisadi, sosial, mədəni, ekoloji və digər istiqamətlərdə milli təhlükəsizliyin təminatı, dövlət, cəmiyyət və fərdlər səviyyəsində bu işin təşkili ilə bağlı məsələləri günün prizmasından dəyərləndirmiş və qeyd edilən sahələrdə daha səmərəli və əlaqləndirilmiş fəaliyyətin vacib məqamlarına toxunmuşdur. Dərslikdə milli təhlükəsizliyə qarşı təhdidləri doğuran səbəblər, onların vaxtında aşkarlanması, qarşısının alınması üçün görülən qabaqlayıcı tədbirlər və digər məqamlar da də ciddi tədqiqat obyektinə çevrilmiş, hərtərəfli dəyərləndirilmiş, bütün incəliklər nəzərə alınmışdır. Bir daha vurğulayaq ki, bütün bunların məntiqi ardıcıllıqla və yüksək səviyyədə təhlil olunması Cəlil Xəlilovun milli təhlükəsizlik məsələlərini yalnız nəzəri deyil, həm də təcrübi baxımdan yaxşı bilməsindən, peşəkar hərbi kadr kimi uzun müddət sərhəd, hərbi və milli təhlükəsizliyin təminatı sahələrində çalışmasından və son 10 ilə yaxın müddətdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini kimi fəaliyyətindən qaynaqlanır. Görkəmli alman filosofu və nasiri Hötenin təbirincə desək, "həmişə yaşıl həyat ağacı"ndan bacarıqla bəhrələnməsi tədqiqat əsərini daha canlı və faydalı etmişdir. Bu mənada müəllifin Azərbaycan Respublikasında ölkə həyatının müxtəlif sahələrində təhlükəsizliyin təminatı sahəsində həyata keçirilməli olan tədbirlərlə bağlı mülahizələri, elmi və təcrübi cəhətdən mükəmməl şəkildə əlaqələndirilmiş bitkin fikir və qənaətləri xüsusi maraq kəsb edir.

Müəllif həmçinin Azərbaycan Respublikasında milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində, müvafiq sistemin formalaşmasında həm sovet dövründə, həm də müstəqilliyin bərpasında sonrakı illərdə dövlət tərəfindən görülən ardıcıl tədbirlərdən bəhs etmiş, bu istiqamətdəki fəaliyyətin bir sıra nəticələrini təhlilə cəlb edərək, lazımi nəticələr çıxarmışdır. O, haqlı olaraq İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən və 2023-cü ilin 19-20 sentyabrında bir günlük lokal antiterror əməliyyatından sonra öz ərazi bütövlüyünü və bütün ərazisində dövlət suverenliyini tam bərpa etmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin gerçəkləşdirilməsində tamamilə yeni dövrün başlandığını, Azərbaycanın dünyanın müxtəlif təhlükəsizlik sistemləri ilə münasibətlərinin bu reallıqlar zəminində təşəkkül tapması zərurətini xüsusi vurğulamışdır. Hazırda Azərbaycan dövləti tərəfindən milli təhlükəsizliyin təminatı sahəsində müasir çağırışların hərtərəfli nəzərə alındığını, müvafiq dövlət orqanlarının bu istiqamətdə fəaliyyətinin daha da təkmilləşdirildiyini diqqətəlayiq hal kimi qiymətləndirmişdir.

Milli təhlükəsizlik siyasətinin etibarlı təminatı sahəsində aparılan fəaliyyətin hüquqi tənzimlənməsi üçün müvafiq qanunvericilik bazasının yaradılmasının vacibliyi və Azərbaycan Respublikasında bu sahədə mövcud vəziyyətin təhlili də müəllif tərəfindən çox doğru olaraq dərsliyin mühüm tədqiqat obyektlərindən biri kimi seçilmişdir. Belə ki, "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Dövlət sirri haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və digər qanunlarından, Azərbaycan

Respublikasının milli təhlükəsizlik konsepsiyası, Azərbaycan Respublikasının Hərbi doktrinası və digər strateji sənədlərdən irəli gələn vəzifələr, qanunvericiliyin tətbiqi mexanizmləri barədə kifayət qədər əsaslandırılmış mülahizələr irəli sürən müəllif Azərbaycan Respublikası Milli Məclisi tərəfindən bu istiqamətdə daimi və səmərəli fəaliyyətin həyata keçirildiyini xüsusi qeyd etmişdir.

Ümumiyyətlə, dərslikdə tədqiqata cəlb olunmuş mövzu ilə bağlı bütün məqamlar nəzərə alınmış, dolğun və düzgün nəticələr çıxarılmış, təkmil bir elmi-nəzəri əsərin ortaya çıxmasına nail olunmuşdur. Mövzunun elmi-nəzəri təhlilində kifayət qədər geniş və bu sahədə həqiqi dəyərə malik olan elmi və elmi-publisistik ədəbiyyatdan (Azərbaycan, rus və ingilis dilində) istifadə olunması da dərsliyin elmi dəyərini daha da artırmışdır. Bu sanballı dərsliyin Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasında, bu mövzunun tədris edildiyi digər xüsusi və ali məktəblərdə tədris vəsaiti kimi istifadə ediləcəyinə, eləcə də milli təhlükəsizlik məsələlərinin araşdırılması ilə məşğul olan alimlərin, tədqiqatçıların və mütəxəssislər üçün dəyərli mənbə olacağına inanırıq.

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

### *Dövlət İdarəçilik Akademiyasının müəlliminin məqaləsi Scopus elmmetrik bazası tərəfindən indekslənən jurnalda dərc edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Yusif Hüseynovun "The Development of a Disaster Risk Reduction Policy in Azerbaijan" adlı məqaləsi Scopus elmmetrik bazası tərəfindən indekslənən "Public Policy and Administration (SJR: 0.144 / SNIP: 0.297, Q3)" elmi jurnalında nəşr edilmişdir.

Məqalədə Azərbaycan Respublikasının davamlı inkişafı üçün fəlakət risklərinin azaldılması sahəsində ölkənin risk profili, onun planlaşdırma prosedurları tədqiq edilmiş və Azərbaycanın fəlakət risklərinin azaldılması üzrə ilk milli proqramının strateji üsulları işlənib hazırlanmışdır.

Məqalə ilə tanış olmaq üçün aşağıdakı linkə keçid edə bilərsiz:

https://ojs.mruni.eu/ojs/public-policy-and-administration/article/view/7232

### *Dövlət İdarəçilik Akademiyasının üç tələbəsi "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının üç tələbəsi – Siyasi idarəetmə fakültəsi Politologiya ixtisasının II kurs tələbəsi Murad Almməmmədov, İnzibati idarəetmə fakültəsi Davamlı inkişafın idarəedilməsi ixtisasının II kurs tələbəsi Elmira Əliyeva və Kompüter elmləri ixtisasının III kurs tələbəsi Cəmşid Aydəmirov və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 24 iyun tarixli Sərəncamı ilə təsis edilmiş "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb. İlk dəfə təqdim edilən və 3000 manat dəyərindəki "Heydər Əliyev adına təqaüd" ölkə üzrə bakalavriat səviyyəsində təhsil alan və ən yüksək təhsil göstəriciləri olan 100 tələbəyə birdəfəlik qaydada verilib. DİA-nın Böyük Elmi Şurasında rektor akademik Urxan Ələkbərov təqaüdə layiq görülən tələbələri təbrik etmiş və onlara gələcək təhsillərində və həyatlarında uğurlar arzulayıb.



### *Azərbaycan enerji strategiyasına görə dünya liderləri sırasındadır*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Azərbaycan" qəzetində məqaləsi dərc edilmişdir.

Keçid üçün link:

https://www.azerbaijan-news.az/uploads/documents/pdf/1-24pdf-1705440750.pdf


17 yanvar 2024-cü il RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 7

Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

Azərbaycan enerji strategiyasına görə dünya liderləri sırasındadır

Dünya İqtisadi Forumunun 2023-cü il hesabatı bunu təsdiq edir

Dünyanın ən mötəbər beynəlxalq tədbiri

COP29-a layiqli evsahibliyi Azərbaycanın növbəti qlobal nailiyyəti kimi tarixə düşəcək

### *Dövlət İdarəçilik Akademiyasında*
### *20 Yanvara həsr olunmuş elmi-praktik konfrans keçirilib*

Yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 20 Yanvara həsr olunmuş elmi-praktik konfrans keçirilib.



Əvvəlcə tədbir iştirakçıları şəhidlərin əziz xatirəsini yad ediblər.

Konfransda DİA-nın rektoru, akademik Urxan Ələkbərov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə imperiya ordusunun Bakıda və ölkəmizin digər şəhər və rayonlarında törətdiyi qanlı hadisələrdən danışıb. Qeyd olunub ki, 20 Yanvarda Azərbaycan xalqına qarşı törədilmiş bu cinayət həm də bütün bəşəriyyətə, insanlığa qarşı həyata keçirilib.

U.Ələkbərov vurğulayıb ki, faciənin ertəsi günü ulu öndər Heydər Əliyev Azərbaycanın Moskva şəhərindəki daimi nümayəndəliyinə gələrək qanlı faciəni törədənlərə qarşı kəskin etirazını bildirib, günahkarların cəzalandırılmasını qətiyyətlə tələb edib.

Ümummilli Liderin təşəbbüsü ilə 20 Yanvara hüquqi-siyasi qiymət verildiyini xatırladan rektor bu qanlı hadisənin heç zaman yaddan çıxmayacağını bildirib.

Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən bəhs edən akademik Urxan Ələkbərov Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini vurğulayıb.

Tədbirdə Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri professor Hikmət Babaoğlu, Qarabağ İrsini Araşdırmalar Mərkəzinin müdiri professor Elçin Əhmədov, Tarix kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova və başqaları 20 Yanvar hadisələrinin dəhşətlərindən bəhs edib, şəhidlərin xatirəsinin daim əziz tutulacağını bildiriblər, bu tədbirlərin keçirilməsi yetişməkdə olan gənc nəsil üçün əhəmiyyətini qeyd ediblər.

***Dövlət İdarəçilik Akademiyasında elmi konfrans keçirilib***

31 yanvar 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının birgə təşkilatçılığı ilə "Dövlətin davamlı inkişaf maraqlarının təmin olunması üçün informasiya siyasətinin formalaşmasında təhsilin rolu" mövzusunda onlayn elmi konfrans keçirilib. Konfransda Azərbaycan Respublikasının



Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Tarix kafedrasının professoru Fuad Məmmədov və Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, professor Namiq Əliyev məruzələrlə çıxış ediblər.

Konfransda müxtəlif ölkələrdən olan alimlərin məruzələri dinlənilib.

## *Dövlət İdarəçilik Akademiyasında təlim: Yeni çağırışlar kontekstində gənclər siyasəti*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün "Yeni çağırışlar kontekstində gənclər siyasəti" mövzusunda onlayn təlim keçirilib.

Dinləyicilər qarşısında çıxış edən Dövlət İdarəçilik Akademiyasının Politologiya kafedrasının baş müəllimi, Bakı Politoloqlar klubunun sədri Zaur Məmmədov ölkədə gənclər siyasətinin əsas istiqamətləri, Azərbaycanın sosial-iqtisadi inkişafında gənclərin rolu, eləcə də gənclərin hərtərəfli inkişafı üçün dövlət tərəfindən yaradılan imkanlar barədə məlumat verib. Təlim proqramının iştirakçıları interaktiv təlimlərin gənclər təşkilatlarının institusional və metodiki inkişafı, gənclər sektoru üzrə mütəxəssislərin və bacarıqlı insan resurslarının hazırlanması və dövlət tərəfindən yaradılan müvafiq inkişaf alətləri barədə məlumatlılığın artırılması baxımından xüsusi əhəmiyyəti olduğunu vurğuladılar. Təlimdə Azərbaycanda könüllülük hərəkatı, gənclərin ideya və təşəbbüslərinin reallaşmasına dövlət dəstəyi mexanizmləri, gənclərlə iş sahəsində beynəlxalq təcrübə, eləcə də, gənclərdə dövlətçilik və vətənpərvərlik şüurunun formalaşmasının əhəmiyyətindən danışıb. Sonra iştirakçıların sualları cavablandırılıb.

## *Dövlət Idarəçilik Akademiyasının əməkdaşının məqaləsi Q1 kateqoriyalı jurnalda dərc olunub*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının (DİA) Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Elvin Əzizbəyovun həmmüəllifi olduğu "Simultaneous identification of the right-hand side and time-dependent coefficients in a two-dimensional parabolic equation" ("İkiölçülü parabolik tənlikdə sağ tərəfin və zamandan asılı əmsalların təyin edilməsi") adlı məqalə Web of Science elmmetrik bazası tərəfindən indekslənən Q1 kateqoriyalı (Riyaziyyat və Tətbiqi riyaziyyat sahələri üzrə) "Mathematical Modelling and Analysis" ("Riyazi Modelləşdirmə və Analiz") adlı beynəlxalq jurnalda dərc olunub (Journal Citation Reports®, Science Citation Index Expanded, Impact factor: 1.603).

Məqalədə əlavə ölçmələrdən istifadə etməklə ikiölçülü parabolik tənlikdə sağ tərəfin və zamandan asılı əmsalların eyni vaxtda təyin olunması məsələsi öyrənilmişdir. Əvvəlcə baxılan ikiölçülü tərs məsələ müəyyən verilənlər daxilində köməkçi məsələyə gətirilmiş və köməkçi məsələnin baxılan məsələyə ekvivalentliyi isbat olunmuşdur. Sonra Furye üsulunun köməyi ilə köməkçi məsələnin həlli inteqral tənliklər sistemi şəklində göstərilmiş və sıxılmış inikas prinsipinin köməyi ilə kiçik zaman anı üçün bu sistemin həllinin varlığı və yeganəliyi haqqında teoremlər isbat olunmuşdur. Daha sonra isə, ekvivalentlik şərtindən istifadə edərək baxılan məsələnin klassik həllinin varlığı və yeganələyi göstərilmişdir. Sonda baxılan tərs sərhəd məsələlərinə uyğun bəzi nümunə modellər qurulmuş, onların ədədi həlləri tapılmış, MatLab riyazi proqram paketindən istifadə etməklə tapılan təqribi və dəqiq həllər qrafiklər vasitəsi ilə müqayisə olunmuşdur.

Məqaləni oxumaq üçün aşağıdakı linklə keçid edə bilərsiz:

https://journals.vilniustech.lt/index.php/MMA/article/view/17974

## *Dövlət İdarəçilik Akademiyasında Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar tədbir keçirilib*

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə əvvəlcə şəhidlərin və Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycan xalqının 32 ildir Xocalı qətliamını ürəkağrısı ilə qeyd etdiyini bildirib. Xocalı faciəsinə ilk dəfə hüquqi-siyasi qiymətin Ümummilli Lider Heydər Əliyev tərəfindən verildiyini qeyd edən rektor bu soyqırımının dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlərin, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən danışıb.

Çəkdiyimiz ağrı-acıların bizi daha da möhkəmləndirdiyini vurğulayan U.Ələkbərov deyib: "Azərbaycan qətiyyətli və müdrik siyasi xadim, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük uğurlar qazanacaq. Hər birimiz müstəqilliyimizin, suverenliyimizin keşiyində ayıq-sayıq dayanmalıyıq. Xalq olaraq, keçmişdən, faciələrimizdən dərs almalıyıq".

Məclisin deputatı Aydın Mirzəzadə indi də bəzi qüvvələrin ölkəmizin suverenliyini, müstəqilliyini qəbul etmək istəmədiklərini diqqətə çatdırıb, başımıza gətirilmiş digər faciələrin əsas səbəbini həmin dövrdə müstəqil olmamağımızla izah edib.

"Biz çox güclü olmalıyıq", – deyən deputat bildirib ki, ermənilər zaman-zaman Azərbaycanı öz kökündən qoparmağa, xalqımıza məxsus olanları özününküləşdirməyə çalışsalar da, buna nail ola bilməyiblər.

Sonra Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, əslən Xocalıdan olan Həvva Məmmədova Xocalı soyqırımını Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğulayıb.

Qətliamın günahkarlarının cəzalandırılmamasından təəssüfləndiyini bildirən professor diqqətə çatdırıb ki, 44 günlük Vətən mühari-



bəsində heç bir mülki erməninin burnu belə qanamayıb, onlar incidilməyib. Bu, Azərbaycan xalqının və dövlətinin humanistliyindən xəbər verir.

H.Məmmədova vurğulayıb ki, bu gün bayramlarımız kimi, faciələrimiz də ölkəmizin bütün ərazisində qeyd olunur.

"Bu gün Xocalıda, Şuşada, Xankəndidə Azərbaycan Bayrağının dalğalanması qəlbimizi qürur hissi ilə doldurur", – deyə Həvva Məmmədova əlavə edib.

Digər çıxış edənlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində Zəfər qazanmaqla düşmənə dərs verdiyini vurğulayıblar. Xatırladılıb ki, 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olunub. Bütün keçmiş məcburi köçkünlər kimi, xocalılılar da tezliklə evlərinə qayıdacaq və yenidən doğma yurdlarında həyata başlayacaqlar.

### *DİA Tələbə Elmi Cəmiyyəti Xocalı soyqırımı ilə bağlı Dəyirmi masa keçirmişdir*

26 fevral 2024-cü il tarixində DİA Tələbə Elmi Cəmiyyəti tərəfindən "Xocalı soyqırımı XX əsrdə insanlığa qarşı ən dəhşətli qətliamdır" mövzusunda dəyirmi masa keçirilmişdir.

Dəyirmi masa Xocalı soyqırımı qurbanlarının və torpaqlarımız uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Tədbiri Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açaraq, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təcavüzkar Ermənistan tərəfindən Azərbaycanın Xocalı şəhərinin əliyalın dinc sakinlərinin - qadın, uşaq və qocaların amansızlıqla qətlə yetirilməsi ilə Xocalı soyqırımının törədildiyini, erməni faşistlərinin bu dəhşətlə soyqırım cinayətinə yalnız Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra siyasi və hüquqi qiymətin verildiyini diqqətə çatdırmışdır. Rektor Xocalı soyqırımı həqiqətlərinin dünyaya çatdırılması və soyqırım aktı kimi tanınması istiqamətində dövlətimizin gördüyü işlər, Azərbaycan Prezidenti, Qalib Sərkərdə, Müzəffər Ali Baş Komandanın cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuzun işğalçı Ermənistan üzərində Böyük Zəfəri və Azərbaycanın tam suverenliyinin təmin edilməsi barədə geniş söhbət açmış, Tələbə Elmi Cəmiyyətinin olduqca vacib mövzuda keçirdiyi Dəyirmi masanın yüksək fəallıqla keçəcəyinə əminlik ifadə etmişdir.

DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, professor əvəzi Sevil Məmmədovanın aparıcılığı ilə keçən müzakirələrdə "İnzibati idarəetmə" fakültəsinin dekan müavini Anar Şükürov, magistrant və tələbələrdən Aysel Mikayılova, Vüqar Nəsirov, Rüqayə Abbaslı, Cahangir Həsənov, Aysel Abbasova, Mehri Əsgərzadə, Tural Rəhimzadə, Ayşə Əlili, Şəfa Əfəndizadə, Murad Alməmmədov, Cavidan Səfərov, Murad Məmmədov, Ayan Namazova, Talıb Allahquliyev, İlyas Həsənli, Mədinə Süleymanova və b. ətraflı çıxış etmiş, tədbir iştirakçılarına təcavüzkar Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı yürütdüyü etnik təmizləmə, soyqırımı siyasəti, erməni vandalizmi və barbarlığı haqqında əsl həqiqətlərin dünya birliyinə çatdırılmasında, erməni yalanlarının ifşa olunmasında fəal iştirak etməklə, bununla bağlı sosial şəbəkələrin imkanlarından geniş istifadə olunması tövsiyə edilmişdir.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun “Бакинский рабочий” qəzetində məqaləsi dərc edilmişdir.*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun “Бакинский рабочий” qəzetində məqaləsi dərc edilmişdir.

Keçid üçün linklər:

https://br.az/file/journal/1709084893_28.02.2024.pdf

https://br.az/file/journal/1709182332_29.02.2024.pdf



# Путь к COP29

## Новые технологии государственного управления Президента Ильхама Алиева

**В Азербайджанской Республике в обстановке высокой активности избирателей прошли внеочередные выборы Президента страны, на которых 92,12% голосов получил действующий глава государства Ильхам Алиев.**

Этот результат является вполне закономерным: страна под его руководством вошла в число мировых лидеров, обеспечив высокие показатели в экономике и социальной сфере, собственными силами освободила оккупированные территории, восстановив суверенитет на всей территории страны, как того требовали резолюции Совета Безопасности ООН и решения других международных организаций, реализует успешную дипломатическую стратегию, обеспечившую высокий международный авторитет страны. В своей иннаугурационной речи Президент Ильхам Алиев также определил стратегию опережающего раз-

практической деятельности, направленной на полную нейтрализацию или существенное смягчение воздействий, способствующих климатическим изменениям. В этом Отчете приведены количественные показатели энергетического перехода - Индексы энергетической трансформации (ИЭТ), которые рассчитываются для каждой страны на ос-

телю ИЭТ является Грузия, индекс которой отстает от нашей страны на 7,2 единицы ***(рисунок 2)***. Это очень значительная разница, так как в большинстве случаев различия в ИЭТ стран, относящихся к одной группе, ограничиваются несколькими единицами или долями единицы.

Известно, что глобальные изменения климата рассматриваются также как результат широкого использования так называемого ископаемого (фоссильного) топлива, к которому относятся уголь, нефть, газ, торф, сланцы и другие, как правило, невозобновляемые источники энергии. Поэтому энергетическая трансформация стран, добывающих и экспортирующих эти природные ресурсы, привлекает особое внимание специалистов в области управления устойчивым развитием, экспертов, занимающихся оценкой факторов, вызывающих глобальные изменения климата и разрабатывающих меры по управлению этими процессами.

Данные ВЭФ, опубликованные

стран мира. По данным Всемирного банка за 2024 год большинство государств, охваченных этим исследованием, относится к группе стран с высокими доходами. Это очень важный показатель, так как он демонстрирует экономический потенциал, которым обладает страна для реализации мероприятий, способствующих энергетическому переходу (трансформации). На ***рисунке 4*** представлены

страны обладают различным экономическим потенциалом. Среди них есть страны с очень высокими экономическими возможностями, доходы в которых превышают $60 тыс. на человека в год (Объединенные Арабские Эмираты, Бельгия, Италия). Другие, приведенные на рисунке 4, также относятся к категории стран с высокими доходами, в которых ВВП на душу



**Рис.1.** Индексы энергетической трансформации Азербайджанской Респу-

### *Dövlət İdarəçilik Akademiyasında professor Dilarə Seyidzadə ilə görüş keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən “Heydər Əliyev Dövlət İdarəçilik Məktəbi”nin növbəti qonağı tarix elmləri doktoru, professor Dilarə Seyidzadə olub. Tədbirdə DİA-nın professor, müəllim, tələbə heyəti iştirak edib. Görüşdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov qonağı salamlayıb. Rektor Akademiyada həyata keçirilən tədbirlərdən danışıb. Müstəqil dövlətimizin qurucusu Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb. Rektor çıxışında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. Ulu Öndərin misilsiz tarixi xidmətlərindən danışan U.Ələkbərov diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Ümummilli Liderin siyasi xəttini əzmlə davam etdirir. Dahi şəxsiyyət Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsində, ölkəmizin dünyaya tanıdılmasında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işlər olduqca təqdirəlayiqdir. Rektor qeyd edib ki, görüşün gənclər üçün xüsusi əhəmiyyəti var. 1-ci



dərəcəli dövlət müşaviri, "Şərəf" və "Şöhrət" ordenli professor Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin köməkçisi-Prezidentin Katibliyinin rəisi kimi uzun illər fəaliyyət göstərib. Rektor qeyd edib ki, Dilarə xanım yüksək dəyərlərə sahib bir şəxsiyyətdir. Bu gün onunla ünsiyyət son dərəcə maraqlı və faydalıdır. Professor Dilarə Seyidzadə göstərilən diqqətə və tədbirin təşkilinə görə təşəkkürünü bildirib. O, həmçinin Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Ona görə də Ulu Öndərin iris tədris olunmalı və öyrənilməlidir. Onun həyat və fəaliyyəti gənclər üçün nümunədir. Heydər Əliyevin böyük dühası haqqında danışan professor D.Seyidzadə onun çox humanist, müdrik və cəsarətli bir şəxsiyyət olduğunu bildirib, onunla bağlı xatirələrini bölüşüb. Sonra görüş iştirakçıların sualları ilə davam edib.

### *Dövlət İdarəçilik Akademiyasında mərkəzi icra hakimiyyəti orqanlarının təlim mərkəzlərinin əməkdaşları üçün təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) mərkəzi icra hakimiyyəti orqanlarının təlim mərkəzlərinin əməkdaşları üçün təlim keçirilib. Tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planını rəhbər tutaraq və həmçinin 2020-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq keçirilib. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP 29-a aparan yol" mövzusunda mühazirə ilə çıxış edib. Rektor Urxan Ələkbərov çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu

sessiyası olan COP 29-un Azərbaycanda keçiriləcəyi ilə bağlı geniş məlumat verib. Akademik bildirib ki, hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi COP qlobal çağırışlara dair fəaliyyəti sürətləndirmək və məqsədlərə nail olmaq üçün keçirilən əhəmiyyətli görüşdür. Akademik diqqətə çatdırıb ki, "Yaşıl" iqtisadiyyata keçid və "yaşıl" enerji təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi uğurlu siyasətinin əsaslarındandır. Təlimdə rektor dahi şəxsiyyət Heydər Əliyevin tarixi xidmətlərindən danışıb, 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Rektor ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib. Urxan Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən hazırlanaraq tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişafı naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevirdiyini xüsusi vurğulayıb. Urxan Ələkbərov bildirib ki, inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Rektor müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik Urxan Ələkbərov təlim zamanı qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritetin "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanması təsadüfi deyil və bu istiqamətdə ölkəmizdə uğurlu addımlar atılır. Daha sonra rektor Urxan Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsinin əsas istiqamətlərdən biri olduğunu bildirib. Rektor vurğulayıb ki, 44 günlük Vətən müharibəsindən sonra 2020-ci ilin iqtisadi yekunlarına dair müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının yaradılmasına dair strateji baxış irəli sürülüb və bunun üçün həmin ərazilərdə kifayət qədər bərpaolunan enerji potensialının olduğunu qeyd edilib. Təlim diskussiya formatında davam edib.

### *Dövlət İdarəçilik Akademiyasında "Beynəlxalq münaqişələr və təhlükəsizlik problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Beynəlxalq münaqişələr və təhlükəsizlik problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

DİA-nın "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov iştirakçıları salamladı və konfransın işinə uğurlar arzuladı. Rektor çıxışında Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam



etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə üzrə regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, 44 günə qazanılan zəfərin və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Bildirib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. U.Ələkbərov çıxışını işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi təhlilə əsaslanan məlumatlarla yekunlaşdırdı.

Sonra DİA-nın “Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının müdiri professor Namiq Əliyev çıxış edərək Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsinin siyasi-hüquqi əsasları barədə geniş çıxış etdi.

Elmi konfransın birinci hissəsində sosiologiya doktoru, dosent, Bolqarıstanın VUSİ (Plovdiv) Universitetinin Qara dəniz və Xəzər regionu problemlərinin araşdırılması laboratoriyasının müdiri Teodor Deçev, siyasi elmlər doktoru, Rusiya Federasiyasının 1-ci dərəcəli dövlət müşaviri Tatyana Poloskova, siyasi elmlər namizədi, İsrailin Aziznews.com informasiya-analitik portalının redaktoru, politoloq Yuri Boçarov, tarix doktoru (Moldova) Ruslan Şevçenko, tarix elmləri doktoru, Qırğızıstanın Oş Dövlət Universitetinin professoru Baybolot Abıtov, tarix doktoru, Suxumi dövlət universitetinin dosenti (Gürcüstan) Quram Marxulia kimi ekspertlər, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının müəllimləri çıxış ediblər.

Konfransın ikinci hissəsində isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının doktorantları və magistrantları çıxış ediblər. Daha sonra konfrans iştirakçılarına sertifikatlar təqdim olunmuşdur.

Konfrans materialları (Beynəlxalq münaqişələr və təhlükəsizlik problemləri (məqalələr toplusu). Prof. N.H. Əliyevin elmi redaktəsi ilə. – Bakı: Elm və təhsil, 2024. – 320 s. İSBN 978-9952-568-93-6) cari ilin əvvəlində dərc olunub.

## *DİA-da 31 mart – Azərbaycanlıların Soyqırımı Günü qeyd olunub*

Martın 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.

Tədbirdə əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, 1918-ci ildə ermənilər tərəfindən törədilmiş müsəlman qırğınlarının mahiyyəti, miqyası və nəticələrindən bəhs edən sənədli filmi nümayiş olunub.

DİA-nın I-prorektoru (tədris işləri üzrə) professor Əlikram Abdullayev erməni millətçiləri tərəfindən 1918-ci il martın 31-də, eləcə də digər dövrlərdə xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinin mahiyyətindən danışıb. Bildirib ki, erməni millətçilərinin təcavüzkar siyasəti nəticəsində təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və nəhayət, 1988-1993-cü illərdə soyqırımına məruz qalıblar. O, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü elan edildiyini, Prezident İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Sərəncamını Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan mühüm addım kimi tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Elmi konfransda DİA-nın "Tarix" kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova "31 mart soyqırımının tarixi hədəfləri", tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı "1918-ci il Lənkəran, Cavad və Göyçay qəzalarında azərbaycanlıların soyqırımı", Quba Soyqırım Memorial Kompleksin aparıcı mütəxəssisi Nazilə Məmmədova "1918-ci il soyqırımlılarının tanıdılmasında Soyqırımı Memorial Kompleksinin rolu" mövzularında məruzə ilə çıxış edərək ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən söz açıblar, bu faciənin yaddaşlardan heç zaman silinməyəcəyini bildiriblər.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7
DOI: 10.30546/2309-1347.2024.1307

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**..............................15
DOI: 10.30546/2309-1347.2024.1315

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................35
DOI: 10.30546/2309-1347.2024.1335

Lənkəran rayonuna səfər ..........................................................................................35
Neftçala rayonuna səfər ...........................................................................................37
Almaniya Federativ Respublikasına səfər ...................................................................38
Türkiyəyə rəsmi səfər ................................................................................................44
Xocalı şəhərinə səfər ................................................................................................48
Xankəndi şəhərinə səfər ...........................................................................................52

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**.........................................................................................................55
DOI: 10.30546/2309-1347.2024.130055

İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib ..................................................55

Andiçmə mərasimində İlham Əliyevin nitqi ...................................................................72

Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında İlham Əliyevin nitqi .................80
DOI: 10.30546/2309-1347.2024.1300080

İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib ..................................................82

"Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun açılış mərasimində İlham Əliyevin nitqi .........................................................................83

**TARİX**

**İsmayıl Hacıyev.** Qərbi Zəngəzur və Göyçə gölü ərazilərinin Ermənistan SSR tərkibinə verilməsi sovet dövlətinin antiazərbaycan siyasətinin tərkib hissəsidir ......................................87
DOI: 10.30546/2309-1347.2024.1301

**Нигяр Алекперова.** Исторические достижения великого политика ...................................95
DOI: 10.30546/2309-1347.2024.1302

**KULTUROLOGİYA**

**Фуад Мамедов.** О «новой эре» и новых приоритетах устойчивого национального развития Азербайджана ......................................................................103
DOI: 10.30546/2309-1347.2024.1303

## SİYASİ NƏZƏRİYYƏ

**Sevil Məmmədova.** Müqayisəli politologiyada metodoloji transformasiya problemləri ..........131
DOI: 10.30546/2309-1347.2024.1304

**Севда Рзаева.** Политическое манипулирование как социальный феномен .......................145
DOI: 10.30546/2309-1347.2024.1305

## DÖVLƏT İDARƏÇİLİYİ

**Sevda Əliyeva (Əhədova).** Heydər Əliyevin hüquqi dövlət modeli..........................................157
DOI: 10.30546/2309-1347.2024.1306

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Yusif Hüseynov.** Azərbaycanda fəlakət risklərinin azaldılması siyasətinin inkişafı.................167
DOI: 10.30546/2309-1347.2024.1307

## FƏLSƏFƏ

**Светлана Адыгезалова.** Проблемы современной социальной философии.......................179
DOI: 10.30546/2309-1347.2024.1308

**Xalid Niyazov.** İlham Əliyevin dövlətçilik fəlsəfəsində Qərbi Azərbaycana qayıdış
milli ideya kimi ..........................................................................................................................189
DOI: 10.30546/2309-1347.2024.1309

## HÜQUQ

**Emin Quliyev.** Post-münaqişə bərpa və yenidənqurma fəaliyyətinin
normativ-hüquqi əsaslarının formalaşmasına dair dünya təcrübəsinin bəzi aspektləri...............201
DOI: 10.30546/2309-1347.2024.1310

**Hafiz Musayev.** Regional təhlükəsizliyin təmin olunmasinda terrorçuluqla mübarizənin
əsas xüsusiyyətləri.......................................................................................................................213
DOI: 10.30546/2309-1347.2024.1552

## ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

**Elvin Əzizbəyov, Gülşən Şeydayeva.** Dövlət qulluqçularının peşəkarlığının
yüksəldilməsində innovasiyaların tətbiqi.....................................................................................221
DOI: 10.30546/2309-1347.2024.1311

**Сабира Багирова, Ольга Мухтарова.** Об основных подходах и критериях
оценки деятельности государственных служащих .............................................................231
DOI: 10.30546/2309-1347.2024.1312

**Hilala Jafarova, Asad Rasulov.** Comparison of the Effectiveness of RESNET and
INCEPTION Neural Network Architectures in Plant Classification .........................................237
DOI: 10.30546/2309-1347.2024.1313

**İQTİSADİYYAT**

**Yusif Zeynalov.** Ümummilli Lider Heydər Əliyevin respublikada həyata keçirdiyi aqrar siyasət və islahatlar ....................243
DOI: 10.30546/2309-1347.2024.1314

**Адиль Султанов.** К вопросу теоретико-экономического анализа ряда современных категорий ....................253
DOI: 10.30546/2309-1347.2024.1315

**Səidə Qurbanova.** Azərbaycanda bələdiyyələrin rəqəmsal vasitələrdən istifadəsı prosesin perspektivləri ....................267
DOI: 10.30546/2309-1347.2024.1316

**Arzu Allahverdiyeva**. Problemli kreditlərin idarə olunmasında kredit riskinin qiymətləndirilməsi ....................275
DOI: 10.30546/2309-1347.2024.1320

**GƏNC TƏDQİQATÇILAR**

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Balamirzə Məmmədli.** İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan-ABŞ münasibətləri vətən tarixşünaslığında ....................283
DOI: 10.30546/2309-1347.2024.1322

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Натаван Гасымова.** Роль экологического образования в реализации целей устойчивого развития....................297
DOI: 10.30546/2309-1347.2024.1324

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Aytaj Baghirli.** Transition to the New World Order and the Republic of Azerbaijan....................307
DOI: 10.30546/2309-1347.2024.1561

**REZENZİYA**

**Lətif Babayev.** Milli təhlükəsizlik məsələlərinin tədqiqində yeni uğur....................315

**Dövlət İdarəçilik Akademiyasında** ....................319

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına
məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal
«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2024, №1(85)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş ... Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2024, №1(85)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, Associate professor*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order ........ Number of copies printed  modern stage are considered.